# VİLAYƏT BAĞÇASI

**YEDDİNCİ CİLD**

İslam İnqilabının Böyük Rəhbəri Ayətullah Xameneinin
tələbə və müəllimlərə tövsiyələri

Çevirən: İbrahim Mirzə

# Pedaqoji fəaliyyətlərin dəyəri[1]

Bismillahir-Rəhmanir-Rəhim.

Müəllim Günü və Müəllim Həftəsi hər il mənim üçün mənalı və məsuliyyətli gün və həftələrdən sayılır.

Bu il iş belə gətirdi ki, biz müəllimlərlə bu görüşdə Şirazda olduq, Şirazda və Fars vilayətində müəllimlik edən siz əziz qardaş və bacılarla görüşmək səadəti bizə nəsib oldu. Bu, xoş təsadüfdür və demək lazımdır ki, sizin vilayətiniz və şəhəriniz bir çox sahələrdə digərləri üçün müəllim rolunu ifa etmişdir. Fiqhdə, fəlsəfədə, ədəbiyyatda, şeirdə, incəsənətdə və digər fənlərdə Şiraz alimlərindən, Şiraz müəllimlərindən öyrənməyən görkəmli alim azdır.

**Müəllimin dəyəri və ictimai kimliyi**

Müəllim Günü sizin gününüz və bir mənada bütün İran xalqının günüdür. Çünki müəllimin şəxsi kimliyindən əlavə, öyrənilə bilən bütün insanlara məxsus bir müəllimlik kimliyi də var. Müəllimin ictimai kimliyi var; dəyəri də onun ictimai müəllimlik kimliyinə görədir. Biz etiraf etməliyik ki, bu məsələ üzərində az işləmiş və əməldə müəllim üçün maddi cəhətdən - yəni dərsin pula çevrilmə qabiliyyətindən başqa bir dəyər tanımayan mədəniyyətə və şəraitə təslim olmuşuq. Maddi sivilizasiyanın mədəniyyəti budur: dəyərləndirmə meyarı hər bir şeyin pula çevrilmə qabiliyyətindən ibarətdir. Müəllim də o mədəniyyətdə birbaşa, yaxud dolayısı ilə pul düzəldə bildiyi qədər möhtərəmdir. Biz - İran xalqının elm və mədəniyyət xadimləri bu yanlış ənənəyə təslim olduq; halbuki İslam məntiqində məsələ bunun fövqündə durur.

**Təlim və tərbiyə məsələsi**

Təlim və tərbiyə məsələsi qarşı tərəfə və bir insana həyat və dirilik bəxş etmək məsələsidir. İslam bu gözlə baxır. Siz çalışın quru görünən torpağın bir hissəsini qazın, oradan bir bulaq çıxsın; çox dəyərsiz nəzərə çarpan bir toxumu yararlı bir torpaqda əkin, suvarın, ondan yaşıl ağac bitsin. Məsələ belədir; istər pula çevrilməyə qabiliyyətli olsun, istər olmasın. İslam təlim-tərbiyəyə və müəllimə bu gözlə baxır. Mən indi və keçmişdə müəllimlərin maddi tələblərini görməzdən gəlmək istəmirəm. Xeyr, söhbət bundan getmir, gözləntilər, tələblər var, əksəriyyəti də düzgündür. Buna məsuliyyət daşıyan şəxslər də var və deməliyik ki, bu işlərlə məşğul olsunlar.

**Müəllimin həqiqi məqamı və hörməti**

Çıxışını dinlədiyiniz yeni möhtərəm nazir də mənim gördüyüm və bildiyim qədər, fəal və işgüzar kadrdır. Ümidvarıq bu sahələrdə işlər görülsün. Mənim sözüm bundan genişdir. Bu sözün ünvanı yalnız siz müəllimlər yox, bütün İran xalqıdır.

Bizim fikrimizcə, indiki dövrdə müəllimin dəyəri layiqincə tanınmır. Keçmişdə tanınırdı. Keçmişdə - Qərb mədəniyyəti ölkəmizdə bu qədər genişlənməzdən öncə, yəni İslamdan sonrakı 1100-1200 il ərzində, ölkəmizdə müxtəlif zamanlara uyğun elm, təhsil və tədris süfrəsinin açıldığı zaman müəllimin uca mənəvi dəyəri vardı. İslam təlim-tərbiyəsində üsul elə idi ki, bir öyrənci öz müəllimi qarşısında ayağını uzatmazdı. Bizlər də belə idik, tədris etdyimiz zaman tələbələrimiz də bizimlə belə rəftar edirdilər.

Müəllimin tələbə yanında həqiqətən, hörməti vardı. Bu hələ də bizim elm hövzələrimizdə qalır, çünki hövzələr elm və mədəniyyət sahəsində Qərb üsullarından az təsirlənmişlər. O üsullar hələ də elm hövzələrində var, müəllim tələbənin gözündə hörmətli, uca və dəyərlidir; tələbənin qəlbində onun qorxudan yox, ucalıqdan qaynaqlanan heybəti var. Lakin bu tələbə dərsdə irad da bildirir. Bizim hövzə dərslərimizdə tələbənin ustada irad bildirdiyi qədər universitet siniflərində irad bildirilmir. İcazə almaları da lazım deyil; məsələn, demirlər ki, müəllim, icazə verirsiniz? Xeyr! Müəllim danışır, o tərəfdən bir tələbə irad bildirməyə başlayır. Müəllim də onun iradını dinləyir. Bəzən sərtlik də edir; yəni elmi bir məsələ barədə müəllimi ilə cəsarətlə danışır. Lakin həmin tələbə müəllim qarşısında təvazökardır, ona təzim edir, əlini öpür, qarşısında ayağını uzatmır və ona “sən” demir. Biz 1200-1300 il ölkəmizdə müəllim-tələbə əlaqəsini belə davam etdirmişik. Nəhayət, Qərb mədəniyyəti və Qərb dəyərləndirməsi ölkəmizə daxil olur. Siz görün bu müddətdə nə qədər müəllim şagird tərəfindən döyülmüşdür! Nə qədər müəllim sinifdə şagird tərəfindən məsxərə olunmuş, nə qədər ağır söz eşitmişdir! Az qiymət verdiyinə görə nə qədər müəllim şagird tərəfindən öldürülmüşdür! Belə də olub. Ölkəmizin bəlli keçmişinə və tarixinə görə bizdə belə problem az olmuşdur. Bəzi yerlərdə - Qərb mədəniyyətinin mərkəzlərində isə çox güclü, rüsvayçı və kobud şəkildə olmuşdur.

**Müəllimə hörmət cəmiyyətin vəzifəsi kimi**

Mən çalışıram ki, müəllimin dəyərləndirilməsi İslama uyğun olsun. Bizim cəmiyyətimizin müəllimə hörmət etməyə, onu uca tutmağa ehtiyacı var. Əgər şagirdin valideyni müəllimə sözün həqiqi mənasında hörmət göstərsə, o şagird də sinifdə və sinifdən sonra müəllimə qarşı eyni hissə malik olar. Bizə bu lazımdır. Bu sizin üçün bütün maddi imtiyazlardan üstündür. Bizim Böyük İmamımız həkim – hikmət sahibi idi. İmam Quranda işlənən mənada bir həkim idi. Həkim - digərlərinin gözlərindən uzaq və gizli qalan həqiqətləri görən şəxsdir. Onun sözlərinin sadə görünməsi mümkündür, lakin nə qədər yarsanız, görərsiniz ki, daha çox qatları və dərinlikləri var. İmam belə idi. Siz Quranda "hikmət" sözünün işləndiyi yerlərə baxın: “Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətlərdəndir”[2]. Görürsünüz ki, adi tövsiyələr, bizim həmişə bir-birimizə dediyimiz sözlərdir, lakin diqqət etdikdə çox dərin olduğunu görürsünüz. Fərz edin, ata-anaya hörmət hikmətlərdən biridir. Ata-anaya

hörmətin təsir və faydalarının sonu yoxdur. İnsan bu məsələdə nə qədər dərinliyə varsa, hələ də daha dərin olduğunu görər. Hikmət budur. İmam bir həkim idi. Burada dedilər ki, müəllimlik peyğəmbərlərin sənətidir. Bu, çox böyük sözdür.

**Peyğəmbərin müəllim kimi göndərilməsi**

Quranın bir neçə yerində təkrar olunmuş "Onları (mənəvi cəhətdən) təmizləyər, onlara kitabı və hikməti öyrədər" kimi ayələrdən əlavə, əziz Peyğəmbərdən təlim işini ona aid edən bir hədis nəql olunmuşdur. O hədis budur: "Allah məni özünü və digərlərini çətinliyə salan yox, asanlaşdıran müəllim göndərmişdir". Mən öz təlimlərimlə şagirdlərimə həyatı asanlaşdırıram, işlərini asan edirəm. Bu asanlaşdırma səhlənkarlıqdan başqa bir şeydir. Yəni mən nə özümü həyatın ağır dolanbaclarında əziyyətə salıram, nə də xalqı. Mən öz təlimlərimlə xalqı doğru, düzgün və hamar yola hidayət edirəm. Asanlaşdırma budur. İnsan bəzən bir məqsədə çatmaq istəyir, amma yolu tanımır. Daş, torpaq, çör-çöp, nəfəs kəsən hündürlüklər; daim çıx yuxarı, düş aşağı, sonu da ya çata, ya çatmaya. Bu, çətinləşdirmədir. Bəzən də bələd bir adam ona yoldaşlıq edir, deyir ki, cənab, buradan get; yol həm hamardır, həm yaxındır, həm də səni məhz istədiyin yerə çatdıracaq. "Asanlaşdıran müəllim" budur. Müəllimlik belə bir peşədir. Bizim əsas sözümüz budur. Mən həm xalqa, həm də müəllim olan sizə demək istəyirəm ki, müəllimin hörmətini və qədrini bilin, onu uca tutun. Əlbəttə, daha çox xalqa demək istəyirəm, çünki çox vaxt müəllim öz qədrini bilir; həqiqətən, elmi olan və onu kiməsə öyrədən ayıq müəllim nə iş gördüyünü dərk edir. Bağlı bir qıfıl və bir açar var. Müəllim bu açarı şagirdə verir və deyir ki, bu açarı bu qıfla belə sal. Bunun adı təlimdir. Bu, başqa heç bir şəkildə həll edilməsi mümkün olmayan bir tənlikdir. Müəllim həll yolunu göstərir. Hər bir sahədə müəllimin işi budur. Odur ki, müəllimlər müxtəlif fərqlərlə nə iş gördüklərini bilirlər. Lakin mənim sözüm daha çox xalqadır. Mən bizim cəmiyyətimizdə təlim və tərbiyə məqamının İslamın təyin etdiyi şəkildə olmasını istəyirəm. Belə bir hədis nəql olunmuşdur: "Kim mənə bir hərf öyrətsə, məni özünə qul etmişdir". Mən bilmirəm ki, bu hədisin sənədi var, ya yox, varsa necə və nə qədər düzgündür. Lakin söz düz sözdür. Yəni insan bir şəxsdən öyrənməklə əslində, bir mərhələni arxada qoyur və o mərhələyə görə özünü həmin bələdçinin xidmətçisi bilməyə və etməyə dəyər. Əsas söz budur.

**Müəllim və öyrəncinin uca tutulması**

Burada dəyər cəhəti olan başqa bir məqam da var. Mən buna da toxunmaq istəyirəm. Burada müraciət siz müəllimlərədir. İslama görə, müəllimə hörmət olunduğu kimi, öyrənciyə də hörmət olunmalıdır. Şagirdi aşağılamaq olmaz. Bunun çox dərin tərbiyəvi cəhəti var. Burada da belə bir hədis nəql olunur: "Öyrəndiyiniz və öyrətdiyiniz şəxsə qarşı təvazökarlıq edin və zalım alimlərdən olmayın". Zalım iki cürdür: siyasi və elmi zalım. Elmi zalım olmayın, alim zalımlardan olmayın. Mən ölkə universitetlərinin birində illər öncə - bəlkə də 40-45 il öncə belə bir müəllim görmüşdüm. Şagirdləri ilə elə danışır, elə dərs deyir və elə davranırdı ki, atanın

rəftarına yox, fironun rəftarına bənzəyirdi. Müəllimin bəzən sərt olması mümkündür, lakin sərtlik təhqirdən, aşağılamaqdan fərqli bir şeydir. Şagirdə hörmət etmək lazımdır. Yəqin ki, sizin hər birinizin hörmət etdiyiniz şagirdlər barədə çoxlu təcrübələriniz var; bu iş yaxşı nəticə vermiş, onun tərbiyəsini asanlaşdırmışdır. Söymək, təhqir etmək və hətta vurmaq yaxşı deyil. "Ədəbləndirmək üçün vurmaq" sözü qədimdən məşhur olan sözlərdəndir. Sonralar məlum oldu ki, xeyr, vurmaq yaxşı deyilmiş. Mənim fikrim də budur. Şagirdi mum kimi əldə fırladıb formaya salmaq lazımdır, lakin mülayimliklə. Müəllimin hünəri budur. Bu da müəllimə dəyər barədə başqa bir məsələdir.

**Böyük yenilik, yoxsa mədəni dəyişmə?**

Mən ötən il Tehranda müəllimlərlə görüşəndə təlim və tərbiyə sahəsində böyük yenilik məsələsini irəli sürdüm. Böyük yenilik nə deməkdir? Dəfələrlə demişəm ki, biz qərblilərdən, qeyri-qərblilərdən və əcnəbilərdən öyrənməyə xəcalət çəkmirik, bundan imtina etmirik. Biz bir idarə üsulunu, tədris üsulunu, elmi və ixtiranı digər ölkələrdən öyrənməyə utanmırıq, səhlənkarlıq da etmirik, dalınca düşüb şagirdlik də edirik. Lakin bu şagirdliyin yanında iki məqam var; təəssüf ki, ölkəmizin mədəni dəyişiklik dövrü olan Pəhləvi dövründə bu iki məqama riayət etmədilər, gözlərini bağlayıb qucaqlarını açdılar; kim gəldi və nə verdisə, bunlar da aldılar. Bu iki məqamdan biri odur ki, biz aldığımızı dəyərləndirək, görək işimizə yarayır, yoxsa yox. Əgər işimizə tam yarayırsa, tam qəbul edək. Əgər tam yaramırsa və zərərlidirsə, hamısını rədd edək. Əgər bu iki vəziyyətin ortasındadırsa, yarayan qədərini qəbul və qalanını rədd edək. Bu, birinci məqam.

**Düşüncənin seçilməsi, yoxsa zorla sırınması?**

Mən misal çəkib dedim ki, bir meyvəni, xörəyi və yaxud dərmanı görüb tanıyan, öz əli və öz meyli ilə ağzına qoyub udmaq istəyən şəxslə əl-ayağı bağlanıb ampulla bədəninə bir şey vurulan şəxs arasında fərq vardır. Birincisi düzgündür, ikincisi isə yox. Bizə ampul kimi vurmamalıdırlar, özümüz seçməliyik. Bu, yaddan çıxdı. Özündən gedib huşsuz halda bir tərəfə düşən, bədəninə bir şey vurulan, yaxud boğazına bir şey tökülən insanlar kimi olmayaq. Biz mədəni dəyişiklik dövründə gözlədik ki, boğazımıza bir şey töksünlər.

İkinci məqam budur ki, bu müəllim-şagird məsələsi sonsuzluğa qədər sürməməlidir. Bəli, biz bilmədiyimizi bilən şəxsə şagirdlik etməyə hazırıq. Lakin insan həmişə şagird qalmamalıdır. Biz özümüz müəllim olmalıyıq. Bu iki məqama diqqət yetirilmədi.

Öyrəndiyimiz şeylərdən biri təlim-tərbiyə məsələsidir. Onların yaxşı təlim-tərbiyə üsulları vardı və biz də onlardan öyrəndik. İbtidai məktəblərin qədim məktəbxanalardan yaxşı olması, ibtidai və orta məktəb bölgüləri yaxşı idi. Biz bunları rədd etmirik, bunlar faydalıdır, lakin nə qədəri, necə və hansı istiqamətdə olanı? Biz daha buna diqqət yetirmirik və hamısını götürürük. Onlar dedilər ki, 6 sinif belə olsun, 6 sinif elə olsun. Biz də onu gətirdik. Sonra üsullarını dəyişdirdilər: 5 sinif, 3

sinif və sair. Biz də bunu öyrəndik və gətirdik. Axı belə olmaz! Onların müxtəlif fənlərdə dərs vəsaitləri vardı. Dedilər ki, bunları öyrədin. Biz də beləcə bu təlimlər yığnağını öyrəndik. Orta təhsilin idarə tərzi həm forma, həm məzmun baxımından tam təqlidçi bir tərzdir. Bu, düzgün deyil. Biz baxmalıyıq ki, bizə nə lazımdır, mövcud üsulun harasında nöqsan var. Bu üsulun bəzi eyibləri var. Onlardan biri düşünmək yerinə əzbərləmək amilidir. Bizim məktəblərimiz əzbərçilik üzərində qurulub. Uşaqlar daim əzbərləyirlər.

**Düşüncə əsasını qorumaq**

Mötərizə arasında deyim ki, əzbərləmə yaddaşı pis bir şey deyil. Uşaqların əzbərləməsinin, kitab oxumasının və çox oxumasının heç bir eybi yoxdur. Bu, yaxşı haldır, çünki əzbərlədiyi qalır. Düzdür, bəzilərini başa düşməyə bilərlər. Bizim təhsil aldığımız ibtidai məktəbin proqramları geniş yayılmış məktəb proqramlarından fərqli idi. Orada bizə Sədinin Gülüstan kitabından dərs keçirdilər. Gülüstanın bəzi şeirləri o zamandan mənim yadımda qalıb. Biz o vaxt Gülüstanı oxuyanda mənasını anlamırdıq, sonralar zaman ötdükcə yavaş-yavaş anladıq. Bu, yaxşıdır. İnsanın bəzi şeyləri tam anlamaması mümkündür, lakin əzbərlədikləri zehnin fəallığına zəmin yaradır. Əzbərləmələr yaxşıdır, ancaq əzbərçiliyə əsaslanmaq pisdir. Yəni fəaliyyətin əsası əzbərləməkdən deyil, əzbərləməklə yanaşı olsa da, düşünməkdən ibarət olmalıdır. Bu, böyük eyibdir. Bunu düzəltmək lazımdır.

Biz bu gün bunu düzəltməliyik. Mədəni dəyişiklik, mərhum Ali-Əhmədin sözü ilə desək, qərbpərəstlik dövrü, Qərb sivilizasiyasının gözəllikləri qarşısında heyranlıq dövrü ötdü. O parıltılı, şəffaf və sıx zinətlərlə bəzənmiş simanın iç üzü bu gün bizə və insanların çoxuna aşkarlanmış, çirkinlikləri, faydasızlıqları və pislikləri üzə çıxmışdır. Biz bu gün 50 il öncə bilmədiyimiz çoxlu məsələləri bilirik. İran xalqı bu gün bu həqiqətlərin çoxu ilə tanışdır.

**Müəllim yetişdirmək**

Digər məsələ məktəb müəllimi yetişdirməkdir. Bu, çox əhəmiyyətlidir. Burada da düşünürəm ki, - əlbəttə, bu gün xoşbəxtlikdən, Təlim və tərbiyə nazirliyinin müəllim yetişdirmək sahəsində yaxşı imkanları var. Bu imkanlardan və universitetlərin imkanlarından maksimum istifadə etmək lazımdır. Qapını bağlamayın və bütün imkanlardan yararlanın.

Bəzən universitet diplomu olmayan bir şəxs bir fəndə və bir işdə ekspert ola bilər. Bizdə Məşhəddə heç bir universitet təhsili və hətta bəzilərinin universitetdən aşağı təhsili də olmayan bəzi ədəbiyyat və şeir adamları vardı, ustad idilər: nasir xosrovşünas, məsud səd salmanşünas, sədişünas, hafizşünas, saibşünas. Universitetdə ədəbiyyat fənni üzrə təhsil almış çoxlu müəllimlərdən güclü idilər. Bu vəziyyət eynilə digər sahələrdə də ola bilər. Bunlardan imtina etmək olmaz.

**Alimlik, elmlilik və məlumat**

Mən qarşılıqlı olaraq digər tərəfdən demək istəyirəm ki, orta məktəblər bütün səviyyələrdə dərs oxumuş və bacarıqlı insanlar təhvil vermək üçün məsuliyyət daşıyır. Orta məktəblərin zəruri olaraq universitetə hazırlıq olduğunu düşünmək səhvdir. Bəziləri özlərinin dünya və axirətlərini universitetə girməkdə görürlər. Eşitmisiniz ki, qəbul imtahanlarından kəsilmiş bəzi gənclər başlarına bəla gətirir, yaxud depressiyaya düşür və ya ata-anaları tərəfindən başıqapazlı edilirlər. Xeyr, cənab, universitet elm və tədqiqatın inkişaf etdiyi mərkəzdir. Siz bilirsiniz ki, mən elmi inkişafın təbliğatçısıyam, bunun üzərində təkid edirəm. Lakin bunun mənası o deyil ki, biz yaxşı satıcı istəmirik, yaxşı sürücü istəmirik, yaxşı tacir istəmirik, yaxşı usta istəmirik. Ölkənin bütün səviyyələrində kişi və qadınların mütləq universitetə girməsi lazım deyil. Lakin onlar orta təhsilə ehtiyaclıdırlar. Deməli, orta məktəblər yalnız universitetə hazırlıq və onun üçün yarımçıq yem düzəldən olmamalıdır. Xeyr, universitet də çox yaxşıdır, lazımdır, ancaq orta təhsilin əhatəsi universitetdən çox genişdir. Siz orta təhsil mərkəzlərində elə insanlar yetişdirməyə çalışmalısınız ki, bunlar lazım olan həddə elm və məlumata malik olsunlar; harada çalışsalar, elmin bu qədərini bilsinlər. Bəzilərində istedad, həvəs var, universitetə girirlər, bəzilərində isə xeyr, ya həvəs, ya da istedad yoxdur və getmirlər.

**Ədalətə riayət etmək**

Əlbəttə, bu, ədalətə riayət etmək məsələsindən ayrıdır. Orada biz elə etməliyik ki, ədalət qorunsun. Yəni əgər kiminsə həvəsi və istedadı var, lakin maddi imkanı yoxdursa, getməsi üçün ona kömək etməliyik. Bu, ədalətdir; yəni hamıya imkan yaratmaq lazımdır. Mən bir dəfə təhsilini davam etdirməyən bir gəncə adət üzrə dedim ki, nə üçün təhsilini davam etdirmədin, ticarətlə məşğul oldun. Elə-belə cavab verdi. Mən bir qədər israr etdim. Onun sənəti həm də yaxşı sənət idi. O, Məşhəd ləhcəsi ilə dedi: “Bu iş qanımdadır”. Qanındadır, varlığındadır, de ki, çox gözəl. Kiminsə qanında satıcılıq peşəsi varsa, qoyun gedib o işi görsün. Mütləq universitetə girmək nəyə lazımdır?! Mən də mütləq universitetə girməsinə təkid etməməli idim. Doğrusu budur.

**Tərbiyəvi fəaliyyətlər məsələsi**

Digər məsələ qeyd etdiyimiz kimi tərbiyəvi fəaliyyətlər məsələsidir. İnqilabdan sonra bu ölkədə əsası qoyulan ən yaxşı ənənələrdən biri - Allahın rəhmətinə getmiş Şəhid Bahünər bu işin əsasını qoydu - tərbiyəvi işlər üzrə müavinlikdir. Bəzi bəhanələrlə bunu ləğv etdilər. İndi bu məsələyə bədgümanlıqla yanaşmaq istəmirik, amma hər halda, yaxşı fikir deyildi. Belə ki, tərbiyə işi siniflərdə müxtəlif müəllimlər vasitəsilə baş tutmalıdır və ayrılmamalıdır. Tərbiyəvi işlərə məxsus bu mərkəzi ləğv etdilər. Bəli, mənim də fikrim budur ki, fizika, riyaziyyat, həndəsə, ədəbiyyat, ictimaiyyat, yaxud hər hansı bir fənnin müəllimi olan sizlər həm də din və əxlaq müəllimi ola bilərsiniz. Bəzən bir riyaziyyat müəllimi riyazi bir cədvəli həll etdiyi zaman elə bir söz deyir ki, şagirdlərin qəlbində əbədilik həkk olur. Bütün müəllimlər bunu özlərinə vəzifə bilsinlər. Mən burada iştirak edən siz əzizlərə və hər hansı bir

fənni tədris edən bütün müəllimlərə deyirəm ki, bu məsələni yaddan çıxarmayın; tərbiyə də sizin işlərinizdəndir. Çox yaxşı olar ki, müəllimlik nüfuzu, müəllimin şagirdə psixoloji təsiri ilə bu imkandan istifadə edin və şagirdin qəlbində aydın və işıqlı bir yer açın. Bəzən riyaziyyat müəllimi, ədəbiyyat müəllimi, birinci və ya ikinci sinif müəllimi kimi Allah, Peyğəmbər, qiyamət, mənəviyyat, Allaha doğru getmək və Allaha məhəbbət barədə dediyiniz bir söz uşağın, yeniyetmənin şəxsiyyətini gözəl formalaşdıra və digər formalarda yüz saat danışmaqdan çox təsirli ola bilər. Bu öz yerində. Lakin bu o demək deyil ki, məktəblərdə tərbiyə şöbəsi olmamalıdır. Bilirik ki, tərbiyəsiz təlimin faydası olmur. Tərbiyəsiz təlim cəmiyyətlərin başına bu gün yüz il, yüz əlli il, yaxud daha artıq vaxt ötdükdən sonra Qərb cəmiyyətlərinin hiss etdiyi bəlanı gətirəcək. Bunun təsiri on ildən, iyirmi ildən sonra görünmür, bir də gözünüzü açıb görürsünüz ki, bir nəsil əldən çıxmışdır və düzəltmək mümkün deyil. Məndə bu barədə çoxlu məlumat və tükürpədici statistikalar var. İndi deməyə imkan yoxdur, hərdən bəzi yerlərdə demişəm. Açıq və qətiyyətli etiraflar var. Tərbiyəsiz elm belədir. Bir cəmiyyətdə elm inkişaf etdikdə və tərbiyə olmadıqda atom bombası öz yerində, müxtəlif siyasi çirkinliklər öz yerində, müxtəlif yalanlar öz yerində, kartel və trestlərin iqtisadi maraqları öz yerində, ancaq əsas məsələ insan nəslinin tələf olmasıdır. Buna görə tərbiyə işlər çox mühümdür, özü də yaxşı, güclü və işgüzar müavinlik və idarəçilik formasında, yalnız zahiri formada yox.

**İbtidai təhsil şəhadətnaməsinin icbari olması**

Bir məsələ də savadlanma məsələsidir. Biz bu savadsızlıq bəlasını nəhayət, ölkədən uzaqlaşdırmalıyıq. Əvvəla görünür ki, ölkənin bəzi bölgələrində icbari təhsil yaşında olan uşaqlar məktəbə getmirlər. Bu, çox təhlükəli bir şeydir, çox pis haldır. Elə etmək lazımdır ki, ibtidai təhsil hamı üçün icbari olsun, ən azı, ibtidai təhsil şəhadətnaməsi almaq icbari sayılsın; pasport kimi, sürücülük vəsiqəsi kimi hamı buna malik olsun. Bu, çox mühüm məqamdır, lakin ona diqqət yetirilmir. Bu diqqətsizliklər də ölkənin bəzi yerlərində sui-istifadələrə bais olur. Uşaqlar məktəblərə gəlib bu mərhələni keçirməlidirlər, sonra nə iş görsələr, özləri bilərlər. Bu mərhələ isə icbari olmalıdır.

Təlim və tərbiyə mərkəzləri və Savadlandırma hərəkatının idarələri oturub bir hədd müəyyənləşdirməlidirlər. Misal üçün, 50, 55, yaxud 60 yaşdan aşağı insanlar üçün bir müddət müəyyən edib desinlər ki, filan müddətə, məsələn, beş ilə qədər bütün ölkədə bu insanlar mütləq savadlanmalıdırlar. Bu yaşlardan yuxarı olanlar da ümumi şəkildə buraxılmasınlar, sadəcə olaraq, onlarla az işlənsin. Lakin 50, yaxud 55 yaşdan aşağı olan bütün kişi və qadınlar mütləq savadlansınlar ki, daha ölkədə belə savadsız insan olmasın.

**İmam və inqilabla beyəti qorumaq**

Biz nəzərdə tutduqlarımızı dedik. Düşünürük ki, ölkəmizin indiki nəslinin - bəziləri inqilabı, müqəddəs müdafiə dövrünü görmüş, yəni o dövrün vəziyyətini müəyyən həddə hiss etmiş bu nəslin tükənməz bacarıqları var. Bu nəsil çox işlər görə

bilər. Hələ bizim işlərimizin arxasında imamın isti nəfəsi var. Hələ bizim aramızda güclü iradə, möhkəm əzmkarlıq, ölkə və cəmiyyət məsələlərinə ilahi və hikmətli baxış yaşayır; bir mənada imam yaşayır. İmamla və inqilabla etdiyimiz beyəti qorumalıyıq. İmamla, inqilabla və İslam Respublikası ilə beyəti sındıranlar özlərinə zərər vururlar: "Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olar (bunun zərəri yalnız onun özünə dəyər). Kim Allahla etdiyi əhdi yerinə yetirsə, (Allah) ona böyük mükafat verər!" Biz bu beyəti qorumalı, saxlamalıyıq və indiki nəslin bu beyəti sayəsində - xoşbəxtlikdən, bizim ölkəmiz gənclə və gənclik ruhiyyəsi ilə doludur - çox böyük işlər görə bilərik.

**Nüvə enerjisi məsələsi və xalqların tərifi**

Böyük işlərin bir nümunəsi nüvə enerjisi məsələsidir. Görürsünüz ki, İran xalqı dünyanın diqqətini özünə cəlb etmişdir. Düzdür, siyasətçi və təbliğatçılar söyürlər, amma bilin ki, xalqlar tərifləyirlər. Həmin siyasətçilərin özləri də ürəklərində İranı alqışlayırlar. İstər Atom Enerjisi Təşkilatında, istər bəzi siyasi təşkilatlarda aparılan müxtəlif müzakirələrin stenoqramını bizə gətirirlər. Görürük ki, İran xalqını müntəzəmliyə, elmə həvəsinə, elmi və milli qürurunu qorumaqda israrlı olduğuna görə tərifləyir və təəccüblənirlər. Bizdə olan məlumatlar bunu təsdiq edir. Bu, bir nümunədir.

Əgər iyirmi il öncə bu ölkədə kimsə desəydi ki, bir gün iranlı gənclər özləri kimdənsə öyrənmədən, pərakəndə təlimlərlə və özlərinin zehni fəaliyyətləri və yaradıcılıqları ilə sentrifuq düzəldib uranı zənginləşdirə və urandan elektrik enerjisi istehsal edə biləcəklər, min nəfərdən biri də inanmazdı. Bunu inkar edən birinci şəxslər mütəxəssislər və ali təhsillilər olardı. Deyərdilər ki, olmaz, məgər belə bir şey mümkündür, məgər asandır?! İran xalqı sübut etdi ki, bacarır. Bütün sahələrdə belədir. Bu bir nümunə aşkara çıxmış, dünyada gül kimi açmışdır. Bu xalqın bütün sahələrdə belə istedadı, həvəsi, cəsarəti var.

İlahi! Öz yardımını və uğrunu bu xalqa nazil et!

İlahi! Bizim rəftar, niyyət, əməl və hərəkətimizi dövrün imamını razı salanlardan et!

İlahi! İran xalqının fəallığını günbəgün artır!

Allahın salamı və rəhməti olsun sizə!

## Tələbə mühitinin təhdidləri[3]

Bismillahir-Rəhmanir-Rəhim.

Çox şirin, gözəl və ürəkaçan bir məclisdir. Şirazın özü tarix boyu elm ocağı olmuşdur. Şirazda universitet isə elm ocağında elm ocağı, elm mərkəzinin ürəyində bir elm mərkəzi deməkdir. Bundan əlavə, buraya təşrif buyurmuş rəngarəng tələbə qrupları, həmçinin sizin aranızda iştirak edən möhtərəm müəllimlər məclisi əsl mənada elmi, ictimai və siyasi bir məkana çevirmişdir. Mən də gənclərin, xüsusən də tələbə gənclərin məclislərində gənclik hissi keçirirəm. Bütün qocalar belədirlər: gənclərin arasında olanda gənclik və həvəskarlıq hissi keçirirlər. Buna əsasən, mən tələbə əzizlərin - istər elmi nümunələrin, istər birlik nümayəndələrinin çıxışlarını dinləməkdən əsla yorulmuram; sizinlə danışmaqdan da həmçinin. Bu məclisin yeganə nöqsanı odur ki, mühit açıqdır və Şirazın may ayının isti günəşinə dözmək bir qədər çətindir. Mən kölgədə otursam da havanın isti olduğunu hiss edirəm, sizsə günəşin altındasınız. Xüsusən əziz xanımların başlarında cadra da var və onlara isti olduğuna görə narahatam.

**Qərar vermək yox, qərara sövq etmək**

Burada qərara sövq etmək və qərar vermək bacarığından danışıldı. Mən bu barədə fikrimi bildirim. Qərara sövq etmək bacarığı çox yaxşı haldır, qərar vermək isə problemlərdən biridir; əgər tələbə mühitinə daxil olsa, gözəl və düzgün normaların çoxunu pozar. Bunu bizim təcrübəmiz deyir. Qoyaq tələbə öz düşüncəsi, dili, özünün az asılılığı, sözü və əməli ilə qərara sövq etsin. Qərar vermək işini məsuliyyət və cavabdehlik daşıyan adam görsün. Buna əsasən, tələbə mühitinin hərəkətə qərar verən mühit olmasına çalışmayaq. Bu nə tələbənin xeyrinədir, nə də o hərəkətin. Tələbə mühitinin qərara sövq edən olmasına çalışaq. Çalışın gündəm yaradın. Baxın, mən Proqramlaşdırma hərəkatını irəli sürmək istəyəndə hamıdan əvvəl universitetdə tələbələrlə paylaşdım; təxminən on il öncə. Nə nazirliklərlə söhbət etmişdim, nə ozamankı prezidentlə, nə də hətta müəllimlərlə. Bu fikri ilk dəfə Əmir Kəbir Universitetində söylədim. Siz bu gün görürsünüz ki, bu, aktual bir müzakirə mövzusu, ümumi bir tələb, ölkənin bütün universitetlərinin istəyidir. Mən haraya gedirəmsə, tələbənin dilindən bu tələbi, başqa bir mərhələdə müəllimin və rektorun dilindən icrasını eşidirəm və icra olunmaqdadır. Bugünkü çoxsaylı elmi yeniliklər özlərinin maraq və bacarıqlarının bir hissəsini bu devizdən almışlar. Qərara sövq edin, vacib məsələni gündəmə gətirin. Bu, icraçı məmuru uyğun qərara sövq edəcək, qərar verəcəklər və əməl olunacaq.

Doktorantura pilləsindən olan tələbə qızın sözlərindəki bir məqam da maraqlı idi. Çünki tibb tələbəsi fundamental elmlər tələbələrini müdafiə edirdi. Təsadüfən,

həm də düzgündür. Fundamental elmlərə diqqət mənim bu bir neçə ildə dəfələrlə məmurlara təkidli tövsiyələrimdə yer alıb. Həmişə demişik ki, fundamental elmlər xəzinə kimidir, tətbiqi elmlər isə pul kimi; cibimizə qoyur və xərcləyirik. Əgər fundamental elmlər olmasa, bu xərclik bir gün bitər. Bu məqam çox lazımlıdır və mən bu tələbə qızın verdiyi dərsi hamıya tövsiyə edirəm: tələbələr məsələlərə təbəqə, universitet və fənn çərçivəsində yanaşmasınlar, həqiqətən, ölkənin ehtiyacına baxsınlar. Bu tibb tələbəsi özü fundamental elmlər üzrə təhsil alan tələbələri müdafiə edir. Mənim fikrimcə, bu, yaxşı haldır.

**Ədalətsevərliyin müzakirə prdmeti olması**

Şiraz Universitetinin İslam birliklərinin nümayəndəsinin çıxışında çox yaxşı sözlər deyildi. Bunlar bizim ürək sözlərimizdir. Mən burada bu sözə də fikrimi bildirim. Baxın, siz deyirisiniz ki, biz ədalət şüarı veririk, tələbəni tuturlar, amma ədalətə zərbə vuran şəxsi tutmurlar; Ali Məhkəmə belə, yaxud məsuliyyətli orqan elə. Yaxşı, burada siz gərək zirəklik edəsiniz. Ədalətsevərlikdən bir an da geri çəkilməyin; bunu sizin mövqeyiniz tələb edir. Gəncin, tələbənin və möminin mövqeyi tələb edir ki, ədaləti istəsin. Bu fikrin arxasında da bütün vücudumla özüm dururam və bu gün Allaha şükür olsun ki, quruluş var. Əlbəttə, qanun pozuntularının baş verməsi də mümkündür. Sizin zirəkliyiniz bu olsun: Ədalət barədə fəryad çəkin, lakin konkret bir şəxsi tənqid edib real nümunə göstərməyin. Siz bir nümunə üzərində dayandıqda əvvəla, səhv etmək ehtimalı var. Mən görürəm, universitetdə yox, müxtəlif ictimai qruplarda xüsusi bir nümunə üzərində dayanırlar; ya fəsad olaraq, ya siyasi əyrilik olaraq, ya səhv xətt olaraq. Mənim də təsadüfən, məsələdən xəbərim var və görürəm ki, belə deyil və bu sözü danışan şəxsin məsələdən xəbəri yoxdur. Buna əsasən, siz bir şəxsin və real nümunənin üzərində dayandıqda həm səhv ehtimalı var, həm də qanunu bilən və qanunu pozan o zirək adama - mən demişəm ki, qanunu bilən qanunpozanlar təhlükəlidirlər - öz əleyhinizə əsas verirsiniz. Sizin prokurorluqdan nə gileyiniz ola bilər?! Əgər bir nəfər bir şəxsi böhtançı kimi göstərsə və şikayət etsə, məsələnin mahiyyətini araşdırmaq o hakimin işi deyil. Əgər bu iftira vurulsa, qanunun müəyyən maddəsi o hakimi müəyyən bir işə vadar edəcək. Buna görə ondan gileylənə bilmərik. Siz bayrağı ucaldın. Bayrağı ucaltdığınızda icraçı olan, icra mühitində işləmək istəyən şəxslər mesajlarını götürəcəklər. Bu bayrağın məzmunu barədə fəryad ucaldan şəxs də ümidvar olacaq və iş irəliləyəcək. Buna əsasən, mənim fikrimcə, sizin işinizdə problem yoxdur. Siz mömin gənclərsiniz və sizdən gözlənilən də budur. Verilən hər bir yaxşı şüar bütün ürəklərin, dillərin və iradələrin sahibi olan Böyük Allaha arxalanmaqdan sonra siz gənclərə arxalanır, siz gənclərə ümid olunur; bunu bilin. Şeirini oxuduğunuz yerliniz deyir:

Vəfa qılaq, qınanaq və razı olaq,
Çünki bizim təriqətimizdə incimək kafirlikdir.

**Yorulmazlıq**

İnciməyin, işi davam etdirin. Bu sözü eynilə İslam cəmiyyətinin nümayəndəsi kimi çox mətanətli və səlis çıxış edən o əziz qardaşa da ünvanlayıram. Bu sözlər bizim ürək sözlərimizdir. Lakin bizimlə sizin fərqiniz budur ki, biz təcrübəyə görə anlamışıq ki, insan bir qədər dözməli və səbir etməlidir. Sizsə gənc, aktiv və hövsələsizsiniz. Səbirsizlikdən başqa hər şeyiniz yaxşıdır. Əlbəttə, bunun da çarəsi var; demək istəmirəm ki, çarəsi çoxdur. Xeyr, biz özümüz də sizin bu dövrünüzü keçirmişik və necə olduğunu bilirik. Lakin hər halda, sizin dediyiniz və bu ölkədə şüarı verilən bütün bu məsələlər Allahın gücü, qüvvəsi və izni ilə həyata keçəcək.

**Məmurlar və tələbə tələbləri**

Bu əziz tələbə qız Nur sözü universitetindən şikayət elədi. Məsul şəxslərin ona diqqət yetirməsi yerinə düşərdi. Əgər həqiqətən, köməyə ehtiyac varsa, kömək olunsun.

Bir məqamı da Azad universitetin nümunəvi tələbəsi olan o əziz qardaş dedi. O da düz sözdür: hökumətin icra nəzəriyyələrini sınaq və səhv mərhələsindən öncə universitetlərdə və tədqiqat mərkəzlərində ortaya qoymaq. Bu, çox yaxşıdır. Əlbəttə, mən sizə deyim ki, dövlət məmurları və möhtərəm prezident çox zaman bu işi gördüklərini deyirlər. Demək olmaz ki, əsla görmürlər. Mən bu məsələni dəfələrlə məmurlara, o cümlədən, çox işgüzar, zəhmətkeş və səmimi prezidentimizə demişəm. O da deyir ki, biz bunu edirik; universitetdə müzakirə etdik, yaxud filan tədqiqat qrupu işlədi. Amma hər halda, yaxşı ideyadır. O, Azad universitetdə ayrıseçkilik və bu kimi məsələlər haqda danışdı. Mikrofonla söhbət etmək fürsəti olmayan digər tələbə gənc gəlib burada uca səslə mənə dedi. Mən eşitdim ki, o da həmin sözlərin əksini bəyan edir. Yəni iki tələbə o universitetə aid məsələlərdə fərqli fikirlərə malikdirlər.

**İslam inqilabına ümumi baxış**

Mənim burada siz əzizlərə demək istədiyim birinci gün xalqla ümumi görüşdə dediyim sözün bir qədər geniş formasıdır. Bu, inqilaba ümumi və yekun baxış haqdadır. Biz dördüncü onilliyə daxil olmaqdayıq, otuz ilə yaxın vaxt ötüb. Adətən, belə bir dövrdə böyük inqilab kimi bir hadisəyə baxış görülmüş işlər barədə mühakimə ilə yanaşı olur; baxmayaraq ki otuzilliyində inqilab hələ gənclik dövründədir; buna şübhə yoxdur. Allaha şükür olsun ki, inqilabın, xüsusən də bu inqilabın qüvvəsi olduqca çoxdur. Lakin eyni zamanda insan otuzillik dövrə baxdıqda görülmüş işlərə, nailiyyətlərə və işgüzarlığa dair onda bir mühakimə yaranır. Biz bu mühakimədə səhv etməməliyik və bu da yalnız ümumi baxışla mümkündür. Mən bu sahədə bəzi məsələlərə toxunacağam. Əlbəttə, ürəyim istəyirdi ki, daha artıq təfsilatla xırdalıqlarını deyim. Lakin havanın vəziyyəti və günəş məni bir qədər incidir. Demək istədiyimi də siz əziz gənclər bilirsiniz. Siz məni tanıyırsınız. Mən dəfələrlə demişəm ki, dediyim sözlər ayə nazil etmək deyil. Güman etməyin ki, bizim dediklərimiz nazil olmuş vəhydir. Xeyr, mən fikrimi bildirir və bunların tələbələr arasında müzakirə olunmasını istəyirəm. Mənim əsas fikrim indi deyiləndir. Ola bilsin, məclisin axırında yekun nəticə də çıxarmayım. Məqsədim budur ki, yekun

nəticəni siz çıxarasınız; istər birliklərdə, istər tələbə təşkilatlatında, istər öz-özlüyünüzdə. Əgər bir inqilaba və İslam Respublikasının yaranma hadisəsinə ümumi nəzər salsaq, məhdud baxışlar bizi azdıra bilməz. Bəzən məhdud baxış və əvvəldən sona qədər bütün yola baxmamaq insanı azdırır. Hətta bəzən insan yolu, məqsədi itirir. Demək istəmirik ki, ayrı-ayrı işlərə baxmayaq. Ayrı-ayrı işlərə baxmaq proqram hazırlamaq üçün lazımdır. Biz bunu inkar etmirik. Proqram hazırlamaq, müxtəlif dönəm və hissələrə baxmaq lazımdır. Demək istəyirik ki, bu baxış bizim kompleks baxışdan uzaqlaşmağımıza səbəb olmasın.

**İnqilabın məqsədi**

Birinci məsələ budur ki, inqilabın məqsədi nə idi? İnqilabın məqsədi aşağıdakı xüsusiyyətlərə malik bir İran qurmaqdan ibarət idi: müstəqil, azad, sərvətli, təhlükəsiz, dindar, mənəviyyatlı, əxlaqlı, elmdə və digər nailiyyətlərdə öncül və bütün mənalarda azad. Azadlıq yalnız ictimai azadlıqdan ibarət deyil; baxmayaraq ki, ictimai azadlıq onun mühüm şaxələrindən biridir. Həm ictimai azadlıq nəzərdə tutulur, həm sərbəst və asudə olmaq, ölkənin əcnəbilərin əluzunluğundan və istilasından azad olması. Bəzən ölkə zahirən müstəqil, lakin əslində, təsir altında olur. Burada həm də mənəvi azadlıq nəzərdə tutulur; yəni insanın qurtuluşu, əxlaqi və mənəvi yüksəlişi. Daha üstün məqsəd budur. Bütün işlər insanın təkamülü və yüksəlişi üçündür. Bu, İslam cəmiyyətində özünü göstərməlidir.

İnqilabın idealı bu xüsusiyyətlərə malik İran idi. Siz soruşun ki, bu xüsusiyyətlər inqilabın hansı cəhətindən başa düşülür, harada yazılmışdır? Mən deyirəm ki, "İslam" sözündən başa düşülür. İslam ümumiyyətlə, bunlardır. İslam haqda bundan qeyrisini düşünən şəxs İslamı tanımamışdır. İslamın yalnız mənəvi cəhətlərlə, özü də mənəvi cəhətlərin xüsusi izah və təsəvvürü ilə - ibadət, oruc, zahidlik, zikr və bu kimi işlərlə məşğul olduğunu təsəvvür edən, xalqın dünyasına, ləzzətlərinə, bəşəri istəklərinə diqqət yetirmədiyini düşünən şəxs İslamı düzgün tanımamışdır. İslam belə deyil. Dediyimiz bütün bu məsələlər - həm cəmiyyətin dünyəvi məsələlərinə aid olanlar, məsələn, ədalət, təhlükəsizlik, rifah, sərvət, azadlıq və istiqaliyyət, həm də axirət məsələlərinə aid olanlar, məsələn, qurtuluş, təqva, iman, əxlaqi inkişaf, insanın mənəvi təkamülü İslam sözündə mövcuddur.

**İman və təqva**

Quran ayəsi bizə buyurur: “Əgər bu yerlərin əhalisi iman gətirib təqvalı olsaydılar (pis əməllərdən çəkinsəydilər), sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq”. İman və təqva olsa, səmanın və yerin bərəkətləri axar. Səmanın bərəkətləri mənəvi faydalardır, ilahi rəhmətdir, Allaha yaxınlaşmaqdır, səma mələklərinin və ərşin daşıyıcılarının yer üzündəki Allah bəndələri üçün bağışlanmaq istəyidir. Yerin bərəkətləri insanın yer həyatı ilə əlaqədar olanlardır; yəni azadlıq, rifah, müstəqillik, təhlükəsizlik, ruzi bolluğu, fiziki sağlamlıq və bu qəbildən olan məsələlər. Əgər iman və təqva olsa, həm o bərəkətlər olar, həm bu bərəkətlər. Bu, İslamdır. Deməli, “İslam inqilabı” dedikdə mənası bunlardır.

**Həyata keçəsi örnək**

Biz bu xüsusiyyətlərə malik bir İran qurmaq istəyirik. Bunun bir əlavəsi var. O da budur ki, məsələ yalnız İran deyildi. İran birinci növbədə İslam cəmiyyətləri və sonra bütün bəşəriyyət üçün bir örnək olaraq nəzərdə tutulmuşdu. Biz - yəni İran xalqı, İran inqilabı, İranın inqilabçıları istəyirdik ki, bu xüsusiyyətlərə malik olan cəmiyyət quraq, onu insanlara və İslam ümmətinə göstərək. Onlar bunun həm İslamın istədiyi, həm də bu dövrün xalqı üçün mümkün olduğunu görsünlər; düşünməsinlər ki, bəli, yaxşıdır, amma mümkün deyil. İslam hərəkatının mübarizə çağında bunu deyirdilər. Bəzi xoşməramlı insanlar deyirdilər ki, nə üçün əbəs yerə zəhmət çəkirsiniz, faydası yoxdur; bəli, sizin sözləriniz düzdür, lakin olası deyil. İnqilab İslam dünyasının hər bir nöqtəsində olan bütün insanlara göstərmək istəyirdi ki, bu örnək həyata keçəsi və olasıdır; bu da nümunəsi. İnqilabın məqsədi bu idi. Bu məqsəd əvvəldən vardı. Sizə deyim ki, bu gün də həmin məqsəd var, gələcəkdə də olacaq. Bu, dəyişməz məqsəddir.

**İnqilab yolunun maneələri**

Söhbətin ikinci məsələsi budur ki, biz boşluqda yaşamırıq. Biz bir reallıqda yaşamaqdayıq. Bu reallıqlar bu məqsədlərə çatmaq üçün nə qədər kömək etdi, yaxud maneə yaratdı. Şübhəsiz, indi sayacağım əngəllər olmasaydı, bu məqsədə çatmaq çox zaman tələb etməzdi. Bəlkə də beş il, on il ərzində güclü mütəşəkkil bir qrup bu məqsədləri təmin edə bilərdi. Lakin insan yolunda maneələr mövcuddur. Ümumiyyətlə, maneə insanın çalışmasına məna və mənəvi həqiqət bəxş edir, adı olur cihad. Əgər maneə olmasaydı, cihadın mənası olmazdı. Cihad - zəhmət və əngəllərlə dolu çalışmadır.

Bu maneələr hansılar idi? Bizdə iki növ maneə vardı: biri daxili maneələr, biri xarici maneələr.

**Daxili maneələr: Düşüncə və məntiq zəiflikləri**

Daxili maneələr hansılardır? Yəni biz insanların daxilində olanlar; istər bizim qərar verənlərimizin, istər adi camaatımızın, istər mübarizə və inqilab çuxurundan bayırda olan müşahidəçilərin. Bunlar daxili maneələrdir. Daxili maneələr zəifliklərdir - düşüncə zəiflikləri, məntiqi zəifliklər, rahatçılığa, asanlığa təmayül, asan hesab etməkdir. Bunun özü bəzən onun həyata keçməsinin maneələrindən biri olur. İşə və işin problemlərinə dair hesab və dəyərləndirmə reallığa uyğun, ən azı, yaxın olmalıdır. Asan saymaq da səhlənkarlıq kimi bir şeydir; o da yolun maneələrindən biridir. Problemdən qaçmaq da bizim daxili zəifliklərimizdəndir. Yəni rahatlıq istəyində olmaq, problemlərlə üzləşməyi pis və bəyənilməz saymaq, problemlərlə üzləşməyə hazır olmamaq. Bunlar bizim daxilil zəfiliklərimizdir.

**İctimai tərbiyə və tarixi adətlər**

Daxili zəifliklərdən başqa birisi mövcud ictimai tərbiyələrdən və tarixi adətlərdən ibarətdir. Bunlar inqilabın əvvəlində biz İran xalqında vardı. Siz gənclərin inqilabın qələbə çaldığı zaman bizim psixoloji halətlərimiz və tarixi tərbiyələrimiz barədə bəlkə də düzgün təsəvvürünüz yoxdur. Bu gün görürük ki, hamıda “biz bacarırıq” düşüncəsi var. Əgər "dünyanın ən dəqiq və ən zərif sənaye sahiblərini keçə bilərsinizmi?" - desələr, siz deyərsiniz ki, bəli, iradə ilə çalışsaq, bacararıq. İslam Respublikasında alim və müsəlman gənc özünü hər bir işə qadir bilir. İnqilabın əvvəlində isə belə deyildi. Öncəki tərbiyələr buna tam zidd idi. Hansı işi görmək lazım olurdusa, deyirdilər ki, biz bacarmarıq. "Cənab, filan şeyi düzəldin!" Deyirdilər ki, biz bacarmarıq. Cənab, filan şeyi düzəldin! Deyirdilər ki, biz bacarmarıq. Dünyada filan səhv şüarla mübarizə aparın! Deyirdilər bizim gücümüz çatmaz, biz bacarmarıq. Bugünkü “biz bacarırıq” şüarının yerinə o zaman “biz bacarmırıq” şüarı vardı. Bu, keşmişdən qalan əxlaqi və tarixi tərbiyədir. Başıqapazlılıq, zorakılıq eşitmək, cəmiyyətin ədalət, insaf və paklıq gözlədiyi şəxslərdə azğınlıq görmək adət olmuşdu. Yəni inqilabdan öncə xalqa desəydilər ki, ölkənin filan yüksək rütbəli məmuru, şahın özü, yaxud nazirlər və ya məmurlar filan əyyaşlığı etdilər, filan azğınlığı etdilər, filan çirkin və pis əməli törətdilər, xalq təəccüblənməzdi; deyirdilər bəli, təbiidir. Təmiz və iffətli olmalı məmurları hamı natəmiz və çirkab içində görməyə adət etmişdi. Biz təəccüb edirdik ki, necə olur İslamın erkən çağında bir sərxoş xəlifə sübh namazına imamlıq edib. Bunu həm xəlifə haqqında demişlər, həm də xəlifə tərəfindən təyin olunmuş əmirlərdən biri haqqında. Bu, İslam tarixində var, məşhur və qətidir. Sübh namazı iki rəkətdir, amma o, kefli olduğuna görə altı rəkət qıldı. Dedilər ki, sübh namazını çox qıldın. Dedi ki, bəli, halım yaxşıdır, istəyirsən, daha çox qılım. Bu, tarixdə olmuşdur. O zaman xalq görürdü ki, xəlifə belə bir günah edir, amma dözürdülər və laqeydliklə məsələnin yanından keçirdilər. Bizim dövrümüzdə - tağut dövründə də belə idi. Xalq İslam ölkəsinin padşahının fasiqlik və günah etməsinə, şərab içməsinə, mənasız işlər görməsinə təəccüb etmirdi. Bəlkə də öncə demişəm ki, atamın müəllimi olmuş və mənim də gördüyüm böyük Təbriz alimlərindən biri çox elmli, lakin çox sadə bir qoca idi. Mən bir dəfə Təbrizə getmişdim. Şagirdləri və onu sevən dostları danışırdılar ki, Məhəmmədrza gənc olarkən bir dəfə Təbrizə gəlib bu ağanın yanına getmiş, ona hörmət bildirmiş və dərs dediyi mədrəsəyə baş çəkmişdi. Məhəmmədrza gedəndən sonra elmli, təqvalı, lakin sadəlövh olan bu alimdə şaha rəğbət yaranmışdı və onu tərifləyirdi. Dostlar demişdilər ki, ağa, siz bu adamı tərifləyirsiniz, amma o, filan pis işləri görür; o alimə çox böyük gəlməli işlərdən biri bu idi ki, misal üçün, şərab içir. Demişdi ki, bəli, şahdır da, deyirsən şərab içməsin?! Demişdilər ki, məsələn, qumar oynayır. Demişdi şahdır da, bəs nə oynasın?! Adət belə idi ki, şah olduğuna, nazir olduğuna görə fasiqlik, günah və natəmizlik etməlidir. Bu, bizim cəmiyyətimizdə mövcud adətlərdən idi. Bunlar sözügedən daxili maneələrdir. Bunlar uca məqsədə çatmaq qarşısında maneçilik törədən amillərdir. Cilovsuz və tərbiyə olunmamış qəzəb və ehtiraslar, keçmişdən miras qalmış xurafatçı etiqad və adətlər və dinin sözünü pis anlamaq daxili zəifliklərdəndir.

**Mehdilik bayrağı**

Bəzi adamlar çox şeyləri anlamırlar. Mübarizə zamanı bəziləri həzrət Mehdinin (ə) bayrağından öncə ucalan hər bir bayrağın odda olmasına dair hədislərə istinad edərək mübarizəyə qarşı çıxırdılar. Deyirdilər ki, siz həzrət Sahibəzzamandan (ə) öncə mübarizəyə başlamaq istəyirsiniz?! Ucaltdığınız bu mübarizə bayrağı oddadır. Hədisin mənasını anlamırdılar. Erkən İslam çağında və imamların dövründə insanlar Mehdinin (ə) zühur edib dünyanı ədalətlə dolduracağını eşitmişdilər. Buna görə də, bəziləri mehdilik iddiası edirdilər, hətta bəzən özləri də çaş-baş qalırdılar. Bilməniz pis deyil ki, həm Bəni-Üməyyədə mehdilik iddiası vardı, həm Bəni-Abbasda, həm də sonrakılarda. Bəli, kim mehdilik bayrağı ucaltsa, oddadır. Bunun mənası o deyil ki, xalq zülmlə mübarizə aparmasın, ilahi və İslam cəmiyyəti, Əli (ə) cəmiyyəti qurmaq üçün mübarizə aparmasın və qiyam etməsin. Bu, dini pis anlamaqdır. Görürsünüz ki, bunların hamısı daxili maneələrdir. İnqilab qələbə çalandan sonra biz İran xalqı belə bir vəziyyətdə ölkəni o məqsədlərə sarı aparmaq istəyirdik. Bunların hər biri bir maneə idi. Sözsüz ki, bunları aradan qaldırmaq mümkün idi, qeyri-mümkün deyildi, çoxu da maarifləndirmə ilə aradan qalxdı. Odur ki, İslam mübarizələrində maarifləndirmənin böyük rolu var. Mən bunu məsuliyyət hissi keçirən siz əziz gənclərə mötərizə arasında deyirəm ki, maarifləndirmə çox önəmlidir. İslam mübarizələrində istənilən halda maarifləndirmənin - həqiqəti söyləməyin, çatdırmağın və təbliğ etməyin böyük əhəmiyyəti var və bunu əldən vermək olmaz. O zaman geniş yayılmış marksist təfəkkür isə buna inanmırdı. Onlar deyirdilər ki, mübarizə bir ənənədir, həyata keçəcək; istər istəyəsiniz, istər istəməyəsiniz; istər deyəsiniz, istər deməyəsiniz. Yəni onların izah etdiyi dialektikanın nəticəsi olaraq, mübarizənin maarifləndirməyə ehtiyacı yox idi. 1970-ci ildə Məşhəddə bizimlə tanış və o zaman yenicə baş qaldırmış qruplaşmalardan birinə bağlı olan kommunist bir gənc bir dəfə mənimlə görüşdü. Dedi ki, filan işləri görmək istəyirik. Mən dedim ki, belə ictimai şəraitdə olmaz, bir qədər xalqla söhbət edin, məsələni açıqlayın, danışın, xalqa nə iş görmək istədiyinizi başa salın. Çox etinasızlıqla dedi ki, bu, İslamın üsuludur. Bəli, İslamın üsulu budur. İslam açıqlamağın, maarifləndirmənin tərəfdarıdır. Həmin açıqlamalar İslam inqilabının bu tarixi şəraitin və səhv tərbiyələrin bir çoxuna qalib gəlməsinə bais oldu. Əlbəttə, bəzilərində hələ də qalib gəlməmişik. Bunun digər səbəbləri var; burada deyilən istehlakçılıq, israfçılıq və digər bu kimi amillər kimi. Bunlar bizim qədim irslərimizdəndir. Təəssüf ki, bunları saxlamışıq. Biz İran xalqı bu yöndəmsiz, qeyri-uyğun və çirkli libası əynimizdən çıxarmalıyıq. Biz çox israfçıyıq. Bunu həll etməliyik. Hamı əl-ələ verib bu məsələni həll etməlidir. Sözsüz ki, radio və televiziyanın da rolu var. Bunlar daxili amillər idi.

**İnqilabın xarici maneələri**

Xarici maneələr isə nə qədər istəsəniz, var. İnqilabdan, yaxud inqilabın məqsədlərindən hər hansı bir formada zərər çəkən bütün şəxslər inqilabın qarşısında dayandılar; bir qrup təhlükəsizlikdən zərər çəkir, bir qrup ədalətdən, bir qrup tağut hakimiyyətinin devrilməsindən, bir qrup əcnəbi istismarının ləğvindən, bir qrup da

istibdadın yoxluğundan. Siz bilirsiniz ki, ədalətdən, müstəqillikdən, azadlıqdan və digər bu kimi məsələlərdən kimlər zərər çəkirlər; izah lazım deyil. Bunların hamısı inqilabın qarşısında düzülmüşlər. Bu düzülüş indiyə qədər davam edir.

Siz gənclər inqilabın əvvəlini xatırlamırsınız. İnqilabın birinci ilində ölkənin təxminən dörd tərəfində - Bəlucistanda, Kürdüstanda, Türkmənsəhrada və müxtəlif bölgələrdə millətçilik bəhanəsi ilə qarşıdurmalar yarandı. İş aparırdılar, görürdülər ki, bu millətlərin heç birinin İslamla və İslam inqilabı ilə problemi yoxdur. Mənim özüm Bəlucistanda yaşamışdım, sürgündə olmuşdum, bəlucları tanıyırdım, bilirdim ki, bunların inqilabla ən kiçik problemləri belə yoxdur. Lakin bir dəstə adam bəluc adı altında və hiyləgərliklə inqilaba qarşı çıxırdılar. Həmin məsələ eynilə Kürdüstanda və Türkmənsəhrada da baş verdi. Sonra onların haradan təhrik edilmələri bəlli oldu. Bunlar inqilabın önünü kəsən maneələr idi, yol heç də hamar deyildi.

**Təhdidlər ən yaxşı fürsətlər kimi**

Millətçilik məsələsindən sonra bizim bir-birimizlə nəfsi çəkişmələrimiz qarşıya çıxdı. Onun da acı, pis və dərdli macərası var. Sonra məcburi müharibə başladı; səkkiz il. Bizim xalqımız düşmənlə mübarizə üçün çox böyük qüvvə sərf edib düşməni diz çökdürə bildi. Yalnız Səddam yox, Səddamın arxasında dayanan güclər də İslam inqilabı qarşısında diz çökdülər. Siz görün bu enerji İslam Respublikasının abadlığına və quruculuğuna sərf olunsaydı, nə qədər iş görülərdi! Əlbəttə, biz müharibədən fayda götürdük. Biz bu təhdiddən ən yaxşı fürsət kimi istifadə etdik. İran xalqı bu təhdidi sözün həqiqi mənasında böyük bir fürsətə, böyük bir sınağa çevirdi; böyük bir təcrübə meydanı oldu və çoxlu faydalar əldə edildi. Lakin müharibə ölkəyə problemlər yaradır. Buna əsasən, dünya inhisarçıları bir tərəfdən, daxili quldurlar bir tərəfdən, supergüclərin təxribatları bir tərəfdən, İrandan və İslam inqilabından əli kəsilmiş supergücün - yəni ABŞ-ın bu günə qədər davam edən aldadıcı media, siyasi və iqtisadi əli də bir tərəfdən İran xalqının bu böyük hərəkəti ilə qarşı-qarşıya dayandılar. İndi bu maneələrlə yanaşı dəyərləndirin, görün İslam inqilabının və İslam Respublikasının o məqsədlərə sarı hərəkəti necə olmuşdur. Mən dəyərləndirmək istəsəm, görülmüş işləri çox yaxşı bilərəm. İslam Respublikasının və İslam inqilabının gördüyü işlərin qiyməti çox yaxşıdır. Məgər bütün bu problemlər qarşısında taqət gətirərlər?! Bizim dövrümüzdə Afrikada, Asiyada və çoxlu yerlərdə hakimiyyət dəyişikliyi baş verib, ancaq heç biri taqət gətirməyib. Bizdən öncə də dünyanın böyük inqilabları - məsələn, Böyük Fransa İnqilabı, Sovet Oktyabr İnqilabı bu müxtəlif hadisələr qarşısında taqət gətirmədilər, əvvəldən yayındılar.

**Bugünkü gəncin amalçılıq xisləti**

Xalqçılıq, islamçılıq, amalçılıq xisləti, bugünkü inqilabçı gəncin otuz ildən sonra burada qalxıb inqilab amallarını öz arzu və tələbləri kimi ortaya qoyması və uca səslə söyləməsi inqilab üçün böyük səadətdir. Digər inqilablarda heç zaman belə olmayıb. On səkkizinci əsrin sonunda Böyük Fransa İnqilabı baş verib. Siz Fransanın on doqquzuncu əsrdəki ədəbi əsərlərinə baxın. On doqquzuncu əsrin əvvəllərində

Napoleon hakimiyyətə gəldi. Siz əsrin ortalarının, məsələn, 1830-1840-cı illərin çoxsaylı əsərlərinə - həm şeirinə, həm romanına baxın. Onlar inqilablarından otuz il sonra çox bərbad durumda idilər: mütləq istibdad, fəsad, çox dəhşətli diskriminasiya. Halbuki orada da ədalət, bərabərlik, antiavtoritorizm şüarları vardı. İslam inqilabının bu uğuru misilsizdir. Sovet Oktyabr İnqilabı ondan da pis idi. Bizim zamanımızda da bu hadisələr baş verdi. Onların adı inqilab, əksəri isə çevriliş idi, bəzisində də xunta hakimiyyətə gəlmişdi; Kuba və digər yerlər kimi. Onların əksəriyyəti bu maneələr qarşısında tab gətirə bilmədi.

**Maneələrin ilahi qanunlardan olması**

Bu maneələrin hamısı ilahi qanunlardandır, təsadüfi bir şey deyil. Bunlar Allahın qanunudur. Yəni iş və hərəkət maneə ilə rastlaşır. Əks təqdirdə, cihadın mənası olmazdı: "Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar aldatmaq məqsədilə bir-birinə təmtəraqlı sözlər təlqin edərlər". Peyğəmbərlərin bütün dəvətlərində düşmənlər - cin və insanlardan olan maneələr mövcud idi. Digər bir ayədə buyurulur: "Beləliklə, hər bir obanın günahkarlarını oranın başçıları təyin etdik ki, onlar orada bacardıqları qədər məkrlə məşğul olsunlar. Onlar yalnız özlərinə qarşı məkr edərlər". Cəmiyyətlər daxilində fəsad və hiyləyə bais təbəqələr mövcud olmuşdur. Bu, ilahi qanunlardandır. Peyğəmbərlər heç zaman deməyiblər ki, şərait münasib olanda işə başlayacağıq. Xeyr, kəskin qarşıdurma və problem dolu şəraitlərdə çalışıblar; İslam Respublikası və İslam inqilabı kimi. Lakin qarşılıqlı olaraq ilahi qanun da budur ki, Peyğəmbərdən örnək alan bir ilahi hərəkət öz işini müntəzəm şəkildə davam etdirsə, bütün bu maneələrə üstün gələcək. Bu da ilahi qanundur. Mübarək Fəth surəsində belə göstərilir: "Əgər o kafirlər sizinlə döyüşə girişsəydilər, mütləq arxa çevirib qaçacaq, özlərinə nə dost, nə də havadar tapacaqdılar. Allahın əvvəldən qoyduğu qayda-qanun belədir. Sən Allahın qayda-qanununda heç vaxt bir dəyişiklik görə bilməzsən!" Əgər möhkəm dayansanız, müqavimət göstərsəniz, məqsədi itirməsəniz, fəaliyyəti saxlamasanız, şübhəsiz, qələbə sizinlədir. Mənim siz əziz gənclərə sözümün xülasəsi budur.

**Zadəganlıq və dəbdəbə yarışması**

İlk gündən bu inqilab əleyhinə başlayan düşmənliklərin hamısı bu gün də davam edir; bəzilərinin forması dəyişilib, bəziləri daha da güclənib. Bu gün təəssüf ki, bu gənclərin qeyd etdiyi kimi, istehlakçılıq, dəbdəbə, pul yarışması yeni bir təbəqə əmələ gətirmişdir. İslam quruluşu sərvətin istehsalına, sərvət yaratmağa qarşı çıxmır, hətta ona həvəsləndirir də. Əgər sərvət istehsalı olmasa, cəmiyyətin həyatı təhlükəyə düşər, cəmiyyət lazımi qüvvəsini əldən verər. Bu, bir İslam prinsipidir. Lakin xalqın zadəganlıq və dəbdəbə üçün sino getməsi çox xoşagəlməz bir haldır. Təəssüf ki, bu hal - israfçılıq və ifrat istehlakçılıq halı bizdə mövcuddur.

**ABŞ-ın xarici düşmənə ehtiyacı**

Xarici düşmənliklər də vardır. Bu gün ABŞ var gücü ilə İran xalqına qarşı çıxır. Bu, ABŞ-ın bütün gücüdür; informasiya, siyasi və iqtisadi gücü, beynəlxalq nüfuzu. Bəziləri elə bilirlər ki, ABŞ-ın xaricdə bir düşmənə ehtiyacı olduğu üçün İslam quruluşunu daim böyüdür, böyük bir təhlükə kimi təqdim edir. Bu, sözsüz ki, düzgündür. ABŞ rəhbərləri xalqı daxili problemlərdən, ayrıseçkilikdən, dərin təbəqə fərqlərindən yayındırmaq üçün həmişə xaricdə bir düşmən tapırlar. Bunu anlamışıq və xəbərimiz var. Lakin İranı böyütmək ABŞ-ın istismarçı siyasətiçilərinin təfəkküründə köklü bir məsələdir və həqiqəti əks etdirir. Onların varlığı təcavüzkarlığa, istismarçılığa və dünyanın müxtəlif yerlərinə əl uzatmalarına bağlıdır. Hökumətləri qane, xalqları da sakit etmişlər. Onların qarşısında möhkəm dayanan yeganə qüvvə İslam Respublikasının hökuməti və xalqıdır. Bütün xalq və hökumət - prezident və digər dövlət məmurları təqiyyə etmədən zülmü, ayrıseçkiliyi, istismarçılığı inkar edirlər. Bu, özünü milli hasarları daxilində məhdud etməyən supergüc üçün böyük təhlükədir. Çünki bu xalqın fəryadı və qiyamı digər xalqları da oyadır, xəbərdar edir. Necə ki, indiyədək belə olmuş və oyanış yaranmışdır. Onlar təhlükə hiss edir, bütün çabalarını göstərirlər. Lakin İran xalqı, siz gənclər və tələbələr onların qarşısında duruş gətirib hamısına qələbə çala bilərsiniz. Amma bunun şərtləri var. Biz bu gün 20-30 il öncədən çox irəlidəyik, təcrübəmiz çox, idarəçiliyimiz güclüdür. Bizim elmi bacarıqlarımız dəfələrlə inkişaf edib. İqtisadi fəaliyyət gücümüz o zamandan dəfələrlə artıqdır, o zamana nisbətən inkişaf haqda təsəvvürlərimiz çox yaxşıdır.

### Solçu Şərq sosialist təfəkkürü

İlk onillikdə çoxlu inqilabçılar inkişafı səksəninci illərin solçu örnəyində, yəni sosializmə təmayüldə görürdülər. Kim də qarşı çıxsaydı, ona sarı bir ittiham və ləkə yönəldirdilər. İslam Respublikasında məmurların, məsul şəxslərin və ictimai-siyasi fəalların bir qrupu dövlətin hakimiyyəti və ümumi mülkiyyət tərəfdarı idilər. Bəli, bu baxış səhv idi; ölkənin inkişafına solçu Şərq sosialist təfəkkürü prizmasından baxış sayılırdı. Bunun səhv olması çox tez anlaşıldı. Hətta o zaman bu baxışın təbliğatçıları birdən-birə fikirlərini 180 dərəcə dəyişdirdilər, ozamankı ifratçılıq indiki təfritçiliyə çevrildi.

### Qərbin inkişaf planının rəddi

Bir dönəmdə inkişafa baxış Qərb baxışı idi; yəni filan ölkənin, misal üçün, ABŞ-ın təqlidçisi və Qərb blokuna tabe olan Cənubi Koreyanın getdiyi yolla getsinlər. Fikirləri bu idi. Özlərini İngiltərə, Fransa və Almaniya həddində görmürdülər, Cənubi Koreya kimi ölkələrin həddində görürdülər. Bu da rədd olundu. Bu gün məmurların zehnində, fikrində və ümumi bir müzakirə mövzusu formasında elmi şəxsiyyətlərin və ziyalıların beynində ölkənin Qərb inkişaf planı rədd olunmuş, səhv çıxmışdır. Səbəbi də budur ki, Qərb modelli inkişaf planının tənqidi bu gün Şərq xalqlarına - bizə məxsus deyil, bunu Qərb mütəfəkkirlərinin və Qərb alimlərinin özləri tənqid edirlər; həm iqtisadi, həm əxlaqi, həm də siyasi sahələrdə. Onların fəxr etdikləri

liberal-demokratiya bu gün tənqidə məruz qalır. Deməli, bu da inkişaf planı deyil. Bu gün biz bunları bilirik.

### İslam-İran inkişaf planı

İslam-İran inkişaf planı nədir? Bu, yazılmalı, işıqlandırılmalı, müxtəlif cəhət və tərəfləri müəyyənləşdirilməlidir. Bu iş tam şəkildə görülməmişdir və görülməlidir. Lakin bizim İslam-İran planına qayıtmalı olduğumuzu anlamağımızın özü böyük uğurdur. Bu gün biz bu uğura nail olmuşuq.

Bu, inkişaf yoludur. İnkişaf yolu Qərbin yolu deyil, keçmiş Şərq düşərgəsinin sıradan çıxmış və qüvvədən düşmüş yolu da deyil. Qərbdə baş verən böhranlar bizim gözlərimiz önündədir. Bilirik ki, bu böhranlar o yolla gedən hər bir ölkədə yaranacaq. Deməli, biz özümüzün bəlli İslam-İran yolunu öndə tutub münasib sürətlə hərəkət etməliyik.

### Humanitar elmlərdə nəzəriyyə yürütməyin zəruriliyi

Bu hazırlıqlar əsasında mövcud olan həll yolunu siz tapmalısınız. Siz nəticə əldə etməli, yekun rəyə çatmalısınız. Ümumi tövsiyə və strategiya kimi mənim sizə deyə biləcəyim müntəzəm gənc fəaliyyəti və mübarizliyidir. Siz universitetdəsiniz, fəaliyyətiniz universitet fəaliyyətidir. Dərs oxumalı, araşdırmalı və nəzəriyyə yürütməlisiniz. Qərb nəzəriyyələrindən qeyd-şərtsiz örnək götürməyi və tərcüməçilik üslubunu səhv və təhlükəli bilin. Bizim humanitar elmlərdə nəzəriyyə yürütməyə ehtiyacımız var. Dünyanın çoxlu hadisələri hətta iqtisadi, siyasi və digər sahələrdə humanitar elmlərin mütəxəssislərinin nəzəriyyələrinə məhkumdur; sosiologiyada, psixologiyada, fəlsəfədə. Meyarları təyin edən onlardır. Biz bu sahələrdə nəzəriyyə yürütməli, işləməli və çalışmalıyıq. Tələbə çalışmalıdır. Tələbə və universitetin inqilabın məqsədlərinə kompleks baxışı olmalı, onların adınca getməlidir. Ehtiyatlı olun ki, düşmən universitetdən, tələbə və müəllimdən istifadə edə bilməsin. Mən bunun üzərində təkid göstərmək istəyirəm. Görürsünüz kiçik bir hadisə baş verir. Öz universitetinizdə bir qrup bəlkə də bir məsələyə etirazçıdırlar. Görürsünüz ki, dünyada dərhal onu şərh, təhlil edirlər; o tələbənin bu hərəkəti etdiyi, bu addımı atdığı istiqamətdə yox, o istiqamətin tam əksinə. Bu vasitələrlə hakimiyyəti, dövləti və İslamı sual altına salırlar. Ayıq olmaq lazımdır. Bu ayıqlıq universitetə digər yerlərdən daha vacibdir.

### Dindarlıq və inkişaf

Gənclərlə paylaşmaq istədiyim başqa bir məsələ dindarlıq məsələsidir. Əziz gənclər! Dindarlıq, imkan daxilində dini məsələlərə riayət etmək ilahi nəzərə, insani uğur və inkişafa bais olur. Buna əhəmiyyətsiz yanaşmayın. Mən demək istəyirəm ki, hansısa riyazi düsturu, kimyəvi elementi, yaxud ixtiranı edəndə, tapanda, həll edəndə Allahı yada salmaq sizə kömək edər. Allah-Taala insana yardım edir, işlər Onun əlindədir. Bəlkə də demişəm ki, bizim gənclərimiz kök hüceyrələri araşdırıb kəşf edəndə Royan müəssisəsinin sədri mərhum Mühəndis Kazimi həmin qrupla

birgə mənim yanıma gəlib məruzə edirdi. O deyirdi ki, mən işin nə yerdə olduğunu bilmək üçün “sabah işi bitirəcəyik” deyən gənc mühəndisə zəng vurdum. Həyat yoldaşı dəstəyi götürüb dedi ki, mühəndis axırıncı məsələni tapdığına görə səcdəyə gedib ağlayır. Mərhum Mühəndis Kazimi bunu danışanda həm özünü ağlamaq tutdu, həm məclisdə iştirak edən həmin gənci. Mənəviyyat məsələsinə əhəmiyyətsiz yanaşmaq olmaz.

**Dini və inqilabi təməlin gücləndirilməsi**

Allaha diqqətlə, Allaha yaxınlaşmaqla, müqəddəs dərgaha təvəssüllə və ilahi nəzər altında çoxlu çətin işləri görmək olar. Siz gəncsiniz. Sizin bizimlə fərqimiz var; bunu sizə deyim. Siz bu cəhətdən bizdən çox öndəsiniz. Sizin qəlbləriniz pak, işıqlı, ləkəsiz, aydın bir güzgü kimidir; işığı dərhal əks etdirir. Bunun qədrini bilin. Namaz, müstəhəb işlər, Quran, dua, Səhifeyi-Səccadiyyə kimi vasitələrlə Allah-Taala ilə mənəvi əlaqə qurun. Səhifeyi-Səccadiyyə dini bilgilərlə doludur. Bu işlə özünüzün dini və inqilabi bünövrənizi də möhkəmləndirərsiniz. Əgər bizim gəncimizin dini bünövrəsi möhkəm olsa, sizin bu Şiraz şəhərinizdə, Fars vilayətinizdə və bütün ölkədə - mənim buradan da məlumatım var - zehinləri müxtəlif tərəflərə yayındırmağa çalışanların çoxu gəncimizin möhkəm olduğunu görsələr, kənara çəkilərlər. Bu gün sizin bu şəhərinizdə və digər yerlərdə - mən məsələni çox da açmaq istəmirəm, bəlkə də özünüz çox yaxşı bilirsiniz - mənasız və puç maddi irfanlardan tutmuş, sıradan çıxmış dinlərə, adı din, əslində isə siyasi təşkilat olan qruplara qədər fəaliyyət göstərirlər, iğtişaşla məşğuldurlar, İslamın bu izdihamlı qüvvəsini bacardıqları qədər zəiflətməyə çalışırlar. Bizim gəncimizin düşüncə və etiqad təməli möhkəm olduqda onlar da işlərini bilirlər. Etiqadi təməllərin möhkəmlənməsi bu diqqətlərlə, münacatlarla, Allaha təvəssüllə, Səhifeyi-Səccadiyyə duaları ilə əldə olunur. Bu dualar yalnız “Ya Rəbb! Ya Rəbb!” demək deyil, insan etiqadlarını dərinləşdirən İslam bilgiləri ilə doludur. Quran qiraəti də belədir. Namazın özü də belədir.

**Tələbə mühitinin təhdidləri**

Hər halda, bu mənim siz gənclərin hamısına tövsiyəmdir. Birliyinizi qoruyun. Birlik! İran xalqı miqyasında da birliyi qorumaq əsas amildir. Bütün ölkənin tələbə təbəqəsi miqyasında da belədir; bir şəhərin, yaxud bir vilayətin tələbələri miqyasında da həmçinin. Qoymayın üslub fərqləri sizi bir-birinizə qarşı qoysun. Bir zaman bəzilərinin maraqları tələb edirdi ki, universitetləri siyasi oyun, çəkişmə və yaxalaşma mərkəzinə çevirsinlər. Bu gün Allaha şükür olsun ki, bunlar azdır. Qoymayın tələbə birlikləri və tələbə hərəkatının müxtəlif hissələri düşmənlərə çevrilsinlər. Rəqib yaxşıdır; rəqib, müsbət rəqabət.

Qardaşların biri dedi ki, biz hazırıq, bizə tədqiqat mərkəzi verin, yaxud icazə verin filan sahədə tədqiqat mərkəzi açaq, məsələn, günəş enerjisi, yaxud başqa bir sahədə fəaliyyət göstərək. Çox gözəl. Digər tələbə qrupu da desin ki, biz də başqa bir sahədə bunlarla müsbət elmi rəqabət apararıq. Müsbət rəqabət budur; yəni qaçış

yarışı: “(Ey insanlar!) Rəbbiniz tərəfindən bağışlanmağa nail olmaq üçün (yaxşı əməllər etməkdə) bir-birinizi ötüb keçməyə çalışın”; xeyir işdə yarışma, istehsalda yarışma, öyrənməkdə, məlumatları həyata keçirməkdə və xalqın məişətinə kömək etməkdə yarışma. Bu yarışma çox yaxşıdır, rəqabət çox yaxşıdır, lakin yaxalaşmaq, davalaşmaq yox; özü də çox kiçik və dəyərsiz məsələlər üstündə. Xeyr, biz bunu sevmirik; nə universitetdə, nə ruhanilər arasında, nə də başqa bir yerdə.

İlahi! Deyib-eşitdiklərimizi Özün üçün və Öz yolunda hesab et!

İlahi! Bizi Sənin razılığına səbəb olan işlərdə müvəffəq et!

İlahi! Ölkəmizi günbəgün başıuca və mütərəqqi et!

İlahi! Bu əziz və pak gənclərə ölkənin gələcəyini ideal və arzu olunan formada qurmaqda uğur bəxş et!

İlahi! Bu gəncləri bu ölkəyə və bu xalqa bağışla!

İlahi! Dövrün imamının müqəddəs qəlbini bizdən razı et!

Allahın salamı və rəhməti olsun sizə!

## Yenilik və gələcəyə ümid[4]

Bismillahir-Rəhmanir-Rəhim.

Siz əzizlərin bugünkü bu məclisi mənim üçün çox şirin və ürəkaçan məclis idi. Allaha şükür olsun ki, yetərli həddə idi. Əsas əhəmiyyətli sahələrdə əzizlər, öncüllər, seçilmiş şəxslər çıxışlar etdilər və mən bəhrələndim. Dostların diqqətə çatdırdıqları, tövsiyə etdikləri, yaxud istədikləri məsələlər inşallah, məmurlara tapşırılacaq. Birbaş bizim özümüzə aid olanlarla da inşallah, məşğul olacağıq.

**Ölkədə insan kapitalının əhəmiyyəti**

Belə bir məclisdən bizə və xalqa nəsib olan birinci fayda bu böyük insan kapitalına diqqətdir. Müxtəlif səfərlərdə oxşar toplantılar keçirməkdə məqsədim də budur. Bütün səfərlərdə təkid edirik ki, vilayətin elmi nümunələrini toplayıb bu formada səmimi bir toplantı keçirək. Məqsəd budur ki, özümüzə və bəzi gec inanan insanlara ölkədəki böyük insan kapitalının nə qədər zəngin və səmərəli olduğunu başa salaq. Bu məclisin xalq və ölkə səviyyəsində əks olunması bir daha bizim bu milli fəxrlər kitabımıza daha bir vərəq artıracaq və onun üzərində təkid göstəriləcək. Bizim məqsədimiz də budur.

**İslam ümmətinin hərəkəti üçün örnək təqdim etmək iradəsi**

Bu məclis daha çox mənim dinləməyim üçündür. Kaş vaxt çox olaydı və siz əzizlərin daha çoxunu dinləyə biləydik. Eşitdiklərim mənim üçün çox faydalı və şirin idi. Şübhəsiz, daha artıq eşitsəydim, yenə elə olardı.

Demək istədiyim isə budur ki, indiki şəraitdə xalqımızın hərəkət mənzərəsi çox aydındır. Həm bizim keçmiş irsimiz, həm çox dəyərli istedadımız, həm iradə və maraq, həm də bu hərəkətdə dini və ilahi təmayül ümumilikdə bizim üçün böyük milli sərvətdir. Bütün bunlar bizə müjdə verir ki, İslam sivilizasiyasını yenidən dirçəldib İslam ümmətinin hərəkəti üçün bir örnək təqdim edə biləcəyik.

**Zamanın devizi və günün ehtiyacı**

Fars vilayəti və Şiraz şəhəri, əziz dostların qeyd etdiyi kimi, çox zəngin bir torpaqdır; mən təsdiq edirəm ki, həm elm, həm ədəbiyyat, həm incəsənət, həm istehsal fəaliyyətlərinə - əkinçiliyə, yaxud sənayeyə aid məsələlərdə, xüsusən də bu gün dünyanın araşdırdığı yeni sənaye fəslində şübhəsiz, öncül bir vilayət və dəyərli toplumdur. Bizim gələcəyimiz üçün ümidverici olan budur ki, yenilik devizi dövrün həqiqi şüarı və günümüzün ehtiyacıdır. Bütün dəlillər bunu təsdiq edir. Yenilik ölkənin hərəkətinin indiki ehtiyacıdır. Yeniliyin mənası keçmiş üzərindən xətt çəkmək yox, gələcəyi qurmaq üçün keçmişə söykənməkdir. Bunun üçünsə bizim bütün

iradəmizin, fəaliyyətimizin bu ölkənin və bu tarixin quruculuğuna yönəlməsinə ehtiyac var.

**Yeni tarixi dönəm**

Bu gün İran xalqının üzərinə böyük məsuliyyət düşür. Bizim xalqımız heç zaman öz taleyinə bugünkü qədər hakim olmamışdır. Bu ölkənin tarixi ilə tanış olanlar bunu təsdiq edərlər. Xalq həmişə hökmdarların əlində bir vasitə olmuşdur və bu, hökmdarın hikmət, siyasət və güclü iradə sahibi olub-olmamasına, onun iradəsinə bağlı olmuşdur. Ölkənin idarəsində xalqın rolu olmamışdır. Bir gün padşah müharibə, hücum və ölkəni genişləndirmək istəmişdir, ümumi hərəkət də o istiqamətdə olmuşdur; bir gün geri çəkilmək istəmişdir, xalq da geri çəkilmişdir. Qiyamlar olmuş, müqavimət göstərilmişdir, lakin xalqın maraq göstərdiyi və sevdiyi məqsədlər istiqamətində böyük və milli hərəkət olmamışdır. Bu dövr İran xalqının tarixində yeni dönəmdir.

**İndiki quruluşun xüsusiyyəti və yeniliyin zərurəti**

İslam inqilabının qələbəsindən sonra və İslam Respublikası dövründə əsas fərq bundadır. Bu gün şah üsul-idarəsi milli iradə hakimiyyətinə çevrilmişdir. Əsas fərq budur. Allaha şükür olsun ki, bu milli iradə İslamın hidayəti və ilahi ayələrin işarəsi ilə irəliləyir və proqram hazırlayır. Bunun qədrini bilməlisiniz. Bu gün İran xalqının tükənməz istedad xəzinəsində nə ehtiyat varsa, ölkənin sürətli inkişafı yolunda işlənə bilər. Buna görə bizim anbaan yeniliyə ehtiyacımız var; yalnız sənaye, yaxud əkinçilikdə yeniliyə yox, bir xalqın həyatında rolu olan müxtəlif üsullarda yeniliyə, istedadların aşkara çıxmasına, düşüncə və zehinlərin çiçəklənməsinə. Biz dünyadan 200 il geri qalmışıq. Bu acı reallığı qəbul etməliyik. Bu geriliyin amili başqa bir söhbətin mövzusudur, amma reallıq budur ki, biz bəşəri inkişaf karvanlarından ən azı 200 il geri qalmışıq. Sizin eşidib müşahidə etdikləriniz və mövcud olanlar - ölkə səviyyəsində görülən işlər, fəaliyyətlər və yeniliklər bu məclisdə deyiləndən dəfələrlə artıqdır - bu geriliyin bir hissəsini düzəldə bilər. Əgər bu fəaliyyətlər bizim yeniliyimiz və səyimiz sayəsində artsa, o zaman öz yerimizi tapa biləcəyik.

**Tağut quruluşu və İranın vəziyyəti**

Bir xalqın geri qalması böyük dərddir, ağır xəstəlikdir. Bu xəstəliyi güclü səy və davamlı fəaliyyətlə müalicə etmək olar. Əsas bu idi ki, biz özümüzə gələk və bu xəstəliyi təsdiqləyək. Ondan sonra isə bu xəstəliyi müalicə etməyə səy göstərək. Bunlar baş vermişdir. İran xalqı özünə gəlmiş, öz yerini tutmalı olduğunu hiss etmişdir. İran xalqı anlamışdır ki, tağut dövründə sövq edildiyi şirin yuxuya qalmamalıdır. O zaman sərxoş və narkoman insanlar kimi gözlərimizi bağlamış, "böyük sivilizasiyanın darvazası" kimi sözləri təkrar edə-edə bir addım atmadan bizi xəyallar aləmində saxlamışdılar. Biz dayanmışdıq. Dayanmaq da geriləmək deməkdir. Çünki hər halda, dünya bizi gözləmir, sürətlə irəliləyirdi, biz isə dayanmışdıq.

**Elm mərkəzləri üçün inkişafın zəruriliyi**

Allaha şükür olsun ki, bu narkomanlıq və sərxoşluq vəziyyəti bitdi, xalqımız özünə gəldi, möhtəşəm iniqilab bizi ayıltdı. Bu gün bizim gənclərimiz bu yolla sürətlə irəliləməli və qaçmalı olduqlarını hiss edirlər. Həm onlarda qaçmaq gücü var, həm iradə var, həm də yol aydındır. Buna görə də, inkişaf etməliyik. Universitetlərin, elm hövzələrinin, tədqiqat mərkəzlərinin, aidiyyətli məmurların hamısının üzərinə ağır məsuliyyətlər düşür. Bu məsuliyyətlər həm də aydındır və Allaha şükür olsun ki, biz hərəkətin başlandığını və günbəgün irəliləyəcəyimizi görürük.

**Gələcəyə ümid və inkişaf əlamətləri**

Bütün əlamətlər bizə ümid, inkişaf müjdəsi verir. Bütün sahələrdə ümidvarıq ki, bu müjdələr bir nəsildən də tez həyata keçsin və bizim gənclərimiz İslam İranının özünə layiq yerdə durmasını, dünya xalqlarının, dünyanın alim və mütəfəkkirlərinin elmi məsələlərdə yeni addımlar atmaq üçün İrana, onun dilinə və mədəniyyətinə ehtiyaclı olduqlarını hiss edəcəkləri günü görsünlər. Bu, mümkündür. Necə ki, bu gün bəşərin ehtiyacı olan bir çox fənləri öyrənmək üçün hansısa ölkənin və xalqın dilini öyrənməyə ehtiyac var. O zaman da dünya xalqları sizin dilinizi, mədəniyyətinizi öyrənməyə ehtiyac duyacaqlar. O gün gələcək və mümkündür. Əgər çalışsaq və bu gün Allahın lütfü ilə gənclərimizin, mütəfəkkirlərimizin və xalqımızın ürəyinə dolmuş bu maraq davam etsə, o gün çox uzaqda olmayacaq.

Mən yenidən bu məclisdə iştirak edən siz əzizlərə və xüsusən də çıxış edən dostlara təşəkkür edirəm. Ümidvaram ki, bu vilayətdə mövcud olan bu dəyərli potensialların qədrini bilək.

Allahın salamı və rəhməti olsun sizə!

## Alim yetişdirmək və qurucu fikri inkişaf etdirmək[5]

Bismillahir-Rəhmanir-Rəhim.

Alim, seçilmiş və ölkənin gələcəyi üçün ümidverici bir qrup arasında oturub ölkənin ən əsas məsələlərindən biri – elmin və onun əsasında texnologiyanın inkişafı barədə söhbət etmək mənim üçün çox şirin və xoşdur. Bizim əziz qardaşlarımızın, bacılarımızın və gənclərimizin burada bəyan etdikləri məsələlər insanda bu fikri gücləndirir ki, ölkə gəncləri arasında alim yetişdirmək və qurucu fikri inkişaf etdirmək inkişafda olan bir prosesdir və yaxşı gələcəyi müjdələyir. Mən dostların ötən ildəki sozlərini də az-çox xatırlayıram; onlar da belədir. Bizim gənclərimizin və elmi nümunələrimizin beynində olan və burada bölüşməli olduqlarını düşündükləri məqamlar bizim üçün meyardır. İnsan görür ki, həm elmin inkişafına, elm və texnologiyanın əhəmiyyətinə diqqət və maraqlar çoxalıb, həm də İslam Respublikası quruluşunun uca məqsədlərinə daha uyğunlaşmışdır.

**Elm ilahi bir nemət kimi**

Elm cəmiyyət üçün ilahi bir nemətdir: həm dəyər və mənəviyyat elmləri, həm də bu zəngin təbiətində və bu heyrətamiz xilqətində Böyük Allahın insan üçün yaratdığı xəzinələrdən daha artıq və daha yaxşı istifadə etməkdə insana kömək edən elmlər. Yarandığı zamandan insan təbiətin sirlərini açmağa, bu möhtəşəm quruluşun və böyük sistemin sıx küçə və dalanlarını kəşf etməyə çalışmışdır. İslam və bütün dinlər bunu təsdiq edirlər. Siz heç bir dində, xüsusən də İslam dinində dünyəvi elmlərin faydalı olmadığına, yaxud zərərli olduğuna, yaxud onları öyrənməyin lazım olmadığına dair bir söz və cümlə tapa bilməzsiniz. Əksinə, bəşərin bu günə qədər əldə etdiyi bütün bu elmlər, insanın bu mövcud həqiqətdən və Allahın bizim üçün yaratdığı təbiətdən daha yaxşı istifadə etməsi üçün vasitə olan bütün bu elmlər, həmçinin bu günə qədər bəşərin əldə etmədiyi elmlər İslama görə dəyərlidir. Bəlkə də gələcəkdə o qədər elm tapılacaq ki, onların həcmi və sayı indiyədək kəşf olunan bütün bəşəri elmlərdən artıq olacaq.

**Elmin dəyər və ya antidəyər olması**

Elmin özü dəyərdir. Bu dəyərdən bəşəriyyət əleyhinə istifadə edənlər onu antidəyərə çevirə bilərlər. Elmin özü isə bir dəyərdir. Elmin sayəsində Allahı tanımaq da asanlaşır. Elmli adamlar peyğəmbərlərin və İslamın sözünün haqq olmasını daha yaxşı anlayırlar. Elmi ehtiraslarla, qərəzlərlə, maddi aləm və təmayüllərdə mövcud amillərlə qarışdırmaq olmaz. Qərbdə pis olan onların dəyər əleyhinə hərəkət etmələri, elmdən ehtiras və nəfs üçün bəhrələnmələridir, elmin özü yox. Buna əsasən, elm bir dəyərdir, buna şübhəniz olmasın. Həm inanc, dəyər elmləri, məsələn,

fəlsəfə və fiqh çox dəyərlidir, həm də bəşərin ixtiyarında olub dünyanı kəşf etməyə, onun sirlərini açmağa və bu möhtəşəm xəzinədən daha yaxşı istifadəyə səbəb olan elmlər.

**Elm və hərəkət yolu**

Bizim ixtiyarımızda olan bu dünya, bu yer, bu maddələr bəlkə də bu gün bəşərin istifadə etdiyindən milyon qat səmərəlidir. Sudan, torpaqdan, mineral maddələrdən, havadan, yerin altında olan mədənlərdən, ixtiyarımızda olan və qiymətini bilmədiyimiz bu şeylərdən bəşəriyyət gələcəkdə çoxlu faydalar götürə bilər. Biz bu gün nefti yandırırıq, ola bilsin, gələcəkdə neftin insana elə faydaları kəşf olunacaq, o qədər qiymətli sayılacaq ki, heç bir ağıllı adam bir damla nefti yandırmağa razı olmayacaq və onun yerinə digər enerjilərdən istifadə edəcək. Siz görürsünüz ki, bu gün zibillərdən dəyərli maddələr hazırlayırlar. Zibil zibildir; bu, çox kiçik bir misaldır. Çoxlu şeylərdən istifadə edilməsi mümkündür. Onları hansı yolla anlamaq, hansı yolla təbiətin çoxlu sirlərini öyrənmək və onlardan istifadə etmək olar? Elm yolu ilə. Peyğəmbər "Çində olsa belə elmi öyrənin" - deyə buyurduqda demək istəmir ki, gedin Çindən fəlsəfəni, yaxud fiqhi öyrənin. Gedin elmi - hər hansı bir elmi və elmə aid məsələləri, yəni texnologiyanı və bəşərin çarpışdığı çoxlu sənətləri öyrənin; bunlar lazımlı işlərdir. Bu dediklərim bir qədər aydın məsələlər idi. Yəni mən güman etmirdim ki, siz alim gənclərin arasında bu sahədə şübhəsi və tərəddüdü olan və İslamın nə dediyini bilmək istəyən bir şəxs olsun.

**Mənəviyyat, elm və mənzərə sənədi**

Mənzərə sənədi də əsla Qərb baxışlarının bir hissəsi deyil. Biz istiqaməti dəyişmişik. Siz gənclər üçün vacib bir məqam budur ki, forması eyibsiz, lakin istiqaməti qüsurlu olan çoxlu məsələlər var. Bizdə İslamda da belə məsələlər var. Sizin getdiyiniz, bizim bu qədər gənc qız və oğlanımızın təsirləndikləri həcc və ümrə cahiliyyət dövründə mövcud olmuş bir ənənə idi. O zaman da təvaf edirdilər. Haram (hörmətli) aylardan ibarət həcc mövsümündə Kəbənin ətrafında təvaf etmək üçün Ərəbistanın hər tərəfindən Məkkəyə gəlirdilər. Təvafın forması sizin etdiyiniz kimi, məzmunu və istiqaməti isə 180 dərəcə fərqli idi. Siz bu gün təvaf edərkən tövhidi təcəssüm etdirirsiniz. Burada simvolik bir hərəkət meydana çıxdı, Kəbə İslamda tövhidin, həcc İslam dünyasının böyük birliyinin rəmzi oldu. Bu, onun bugünkü istiqamətidir. Cahiliyyət dövrünün istiqaməti isə 180 dərəcə fərqlənirdi və bunun əksinə idi. Kəbənin xaricində və daxilində müxtəlif bütlər asmışdılar. Kəbənin ətrafına fırlanan insanlar əslində, o bütə məftun idilər, Vahid və Bir Allah haqda heç bir şey bilmirdilər. Bu hərəkət onları nəinki bir-birinə yaxınlaşdırmırdı, bir-birindən uzaqlaşdırırdı da. Çünki sevdikləri bir-birindən fərqli idi; biri Kəbənin daxilində olan filan bütə görə onun ətrafına fırlanırdı, digəri başqa bir bütə görə. Peyğəmbər həcci, təvafı və səyi (iti yerişi) tam dəyişdirmədi, forma qaldı, istiqamətini isə 180 dərəcə dəyişdirdi. Şirkin, bütpərəstliyin, xurafatçılığın, təəssübkeşliyin və mütləq cahilliyin əlaməti olan həcc tövhid, paklıq, Müqəddəs Allaha sevgi və ixlas əlamətinə çevrildi.

**“Vasitələr yox, şəxslər müqəssirdirlər!”**

Formaların eybi yoxdur. Atom texnologiyası heç bir günah etməyib, günah onun istiqamətini insanların məhvinə yönəldən şəxsdədir. İnkişaf etmiş nano texnologiyanın, çox mütərəqqi elektrosənayenin, aerodinamikanın günahı yoxdur. Bunlar çox yaxşıdır və Allahın təbiətdə yaratdığı sərvət və nemətlərdən ən yaxşı istifadəsinə vasitələrdir. Günah o adamlardadır ki, Allahın verdiyi nemətdən, ilahi xəzinədən insanlara hegemonluq etmək, hakim olmaq və digərlərinin hüququnu tapdamaq üçün istifadə edirlər. Yaxşı bünövrənizin olduğuna, Allaha, insan ucalığına etiqad bəslədiyinizə, zülm, işğal və təcavüzə qarşı çıxdığınıza, hegemonluğu, şəxsi və ictimai ehtiraslardan qaynaqlanan cəmiyyət və hökumətləri pis saydığınıza görə, bu elmləri siz öyrənin ki, dünyada öz dəyərlərinizi yaya, inamlarınızı hakim edəsiniz. Bu, pisdir?! Bir nəfər təyyarəyə minib əyyaşlıq və avaralıq üçün hansısa ölkəyə gedir. Bir nəfər də həmin təyyarəyə minib Allah evinin ziyarətinə gedir. İstiqamətlərin fərqli olduğuna görə bu təyyarənin günahı yoxdur. Siz elm və texnologiyanı oyrənin, bu sahədə zirvəni fəth etməniz üçün sizdə olan özəl istedaddan - mən buna toxunacağam, bəzi dostlar da dedilər - istifadə edin. Sonra bundan yalançı dəyərlərin, nəfsi istəklərin, veyilliyin, böyük güclərin insan taleyinə hökmranlığının yerinə həqiqi dəyərləri yaymaq üçün istiadə edin. Bu gün dünyada iki milyarddan artıq insan acdır. Bu, zarafatdır?! Bu gün bəzi xalqlar qızıl üzərində yeriyirlər, lakin qarınları acdır. Dünya düzəni istismarçı, hegemon, zalım düzəndir. ABŞ nə yolla buraya çatdı? Necə oldu ki, dünyaya bu şəkildə hegemonluq edə bildi? Çünki elmi vardı və elmdən istifadə etdi. Qərblilər tarix boyu mövcud olmuş bu beynəlxalq yarışdan sui-istifadə etmişlər.

**Elmi üstünlük və müstəmləkəçilik**

Elm tarix boyu dünya xalqları arasında əlbəəl gəzmişdir. Siz elə bir xalq tapmazsınız ki, elm əvvəldən axıra qədər onların ixtiyarında olsun. Xeyr! Bu, Allahın qanunlarından biridir. Cəmiyyətlər arasındakı elmi yarışmada bir zaman şərq öndə idi, bir zaman İslam ölkələri, bir zaman da məhz İran ölkəsi. Görürsünüz ki, bu gün bəzi Qərb ölkələri elmi baxımdan yüksək səviyyədədirlər, digərləri onları görmək üçün yuxarı boylanmalıdırlar. Bir zaman sizin ölkəniz də belə idi; Avropa, şərq və qərb ölkələri iranlı alimləri görmək üçün yuxarı boylanmalı olurdular. Yalnız elmdə yox, hətta o dövrün texnologiyasında bütün dünyadan öndə olan böyük alimlər vardı. Bir zaman belə olub, sonra da qərblilər önə keçmişlər.

**Elmi güc və müstəmləkəçiliyin sui-istifadəsi**

Mühüm bir məqam budur ki, qərblilər önə keçən kimi elmi üstünlükdən siyasi və iqtisadi istismarçılıq üçün istifadə etdilər və müstəmləkəçilik yarandı. Müstəmləkəçilik əvvəllər yox idi. Müstəmləkəçiliyin mənası budur ki, bir ölkə minlərlə kilometr uzaqdan sərvətli bir ölkəyə, məsələn, Hindistan yarımadasına gəlib xəncər və silah gücünə oranı ələ keçirsin. Bilirsiniz ki, İngiltərə suyun ortasındadır.

İngilislər dənizçilik və gəmiçilik işində mahir olduqlarından dənizçiliyi inkişaf etdirdilər, təhlükə və risklərə atıldılar, gəlib Hindistanı tapdılar, onu ələ keçirdilər və özlərinin elmi üstünlüklərindən siyasi məqsədlə istifadə etdilər. O zamana qədər elmi üstünlüyü olan müxtəlif ölkələrin heç biri bu işi görməmişdi. Şərq bölgəsinə və Hindistan yarımadasına gedib ilk dəfə müstəmləkəçiliyi başladan ingilislər, belçikalılar, hollandiyalılar, həmçinin sonradan gedib Afrikanı tutan bir qrup Avropa ölkəsi, məsələn, Portuqaliya elmi inkişaf və bacarıqlarından siyasi yolda istifadə etdilər, müstəmləkəçiliyi yaratdılar. Bu zaman müstəmləkə xalqın taleyi müstəmləkəçinin əlinə keçir. Onlar xalqları cəhalətdə saxlamaq üçün elmdən istifadə etdilər və elmi rəqabəti bacardıqları qədər dayandırdılar.

**Müstəmləkəçilik və elmi monopoliya**

Elmdən belə sui-istifadə olunmuşdur. Dünyada dəyişikliklər baş verir, insanlar bir həddə qalmırlar. İnsanı həbs etmək olmaz. Hər halda, istər elmdə, istər siyasətdə insan istedadı öz işini görür və gördü də. Dünyanın müxtəlif yerlərində çoxlu belə hərəkətlər baş verdi. Dünyanın bugünkü vəziyyəti elədir ki, elmi inkişafa sahib olan güclər bu inkişafı öz inhisarlarında saxlamağa çalışırlar. Siz yaxşı bilirsiniz ki, inkişaf etmiş Qərb ölkələrində öz çevrələrindən xaric insanlara bəzi elmlərə yiyələnmək imkanı verilmir. Köhnələndən sonra yayılan sənədlər kimi, elm də əhəmiyyətini itirəndən, özləri daha üstün mərhələyə çatandan sonra digərlərinin öyrənməsinə icazə verirlər. Onlar elmdə belə inhisarçıdırlar.

**İndiki dövrdə elmin zəruriliyi**

Dünyadakı bu istismarçılığı ortadan götürmək üçün elmi bir hərəkət lazımdır. Bu gün dəyər sistemi baxımından Qərb istismarçılarının istədiklərinin əksi olan İslam Respublikası quruluşu uğur da qazanmışdır; siyasi baxımdan müvəfəqiyyət əldə etmiş, özünü möhkəmlətmiş, təxribatlar qarşısında otuz il duruş gətirmiş və müxtəlif cəhətlərdən inkişaf etmişdir. O, hər bir insanın qəbul etdiyi uca insani məqsədləri təmin etmək üçün elmlə məşğul olmalıdır. Buna görə mən demişəm ki, bu gün ölkəmizdə ən əsas müzakirə mövzularından biri elm və texnologiyanın inkişafı olmalıdır. Bunun oyan-buyanı yoxdur. Biz elmi inkişaf və elmi güc ardınca getmədən, bu elmi potensialı öz məişət səviyyəmizə çıxarmadan və maddi həyatımızı yüksəltmədən o güclərlə qarşılaşmaq imkanına malik olmayacağıq. İslam Respublikasının əlində olan bu bayraq o zaman dalğalanacaq, yüksəkdə duracaq və qalib olacaq. Nə isə, mən bu barədə bəlkə də bir az həddindən çox danışdım.

**Elm və milli iqtidar**

Baxın, elm qüdrət və sərvət amilidir. Əgər sizin ölkəniz və İslam Respublikası quruluşu öz xalqını, ölkəsini, dəyərlərini və quruluşunu himayə və mühafizə etmək üçün bu qüdrətə malik olmalıdırsa – bu qüdrət digərlərinə hegemonluq etmək üçün deyil, digərlərinin hegemonluğunun qarşısını almaq üçündür - və əgər bunun yanında bu ölkədə uzun illər davam edən istibdadın miras qoyduğu müxtəlif

problemləri aradan qaldırmaq üçün sərvətə ehtiyacı varsa, mütləq elm əldə etməlidir. Elm bir xalq üçün milli iqtidar və milli sərvət amilidir.

**İranlı səyi və nailiyyəti**

Biz yalqızıq. İslam quruluşuna və İslam təfəkkürünə heç kim elmi yardım etmir. Siz çinliləri gördünüz; Pekində olimpiyada çinlilərin texniki bacarıqlarının bir hissəsi göstərildi, daha doğrusu, göründü. Onların elmi baxımdan çoxlu yaxşı inkişafları var. Lakin unutmayın ki, 1948-c ildə - yeni və kommunist Çinin qurulduğu zaman onların heç nəyi yox idi. O zaman ideoloji, elmi və texniki baxımdan olduqca təcrübəli dövlət olan SSRİ-nin nəyi var idisə, Çinin ixtiyarına buraxdı. Onda Stalinin dövrü idi. Böyük Sovet ölkəsinin yanında və Asiyanın qəlbində Çin kim böyük, geniş və əhalisi çox olan bir ölkənin olması ozamankı kommunist SSRİ üçün çox dəyərli idi. Onların nəyi vardısa, çinlilərin ixtiyarına buraxdılar, hətta nüvə enerjisini də. Nüvə enerjisini bizim gənclərimiz özləri əldə etdilər, çinlilər isə onu bir hədiyyə kimi ruslardan aldılar. Necə ki, Şimali Koreyaya da verdilər; həm çinlilər verdilər, həm də ruslar. Görürsünüz ki, Çin kimi ölkələrin inkişafı digər ölkələrin çox böyük və müstəsna dəstəkləri sayəsində həyata keçdi. Hindistan da başqa cəhətlərdən belə ölkələrdəndir. Bilirsiniz ki, Stalindən sonra bir neçə onilliyə qədər Rusiya ilə Çin arasında dərin uçurum yarandı; Şərq və Qərb konflikti kimi və bəlkə də daha kəskin. Bu iki böyük kommunist ölkəsi arasında qarşıdurma rusların Çinin qonşusu olan hindlilərə kömək etməsinə, çinlilərin isə Hindistanın rəqibi olan Pakistana kömək etməsinə səbəb oldu. Yəni müttəfiq seçməkdə siyasi amillər öz rolunu oynadı. O zaman çinlilər nüvə enerjisini Pakistana, ruslar da nüvə enerjisini və bir çox mütərəqqi vasitələri Hindistana verdilər. Yəni həm Hindistan, həm də Pakistan məhsullarını digərlərindən aldılar.

Mən nə qədər baxıramsa, görürəm ki, müxtəlif sahələrdə belə inkişaf etmiş bu ölkələrin heç biri bizim ölkəmiz kimi deyil. Biz məzlum, yalqız və bütün bu düşmənllərin əhatəsindəyik. Həm kommunist Şərq, həm də kapitalist Qərb bizimlə kəskin düşmən idilər; Avropa orta bir rol ifa etməyə meyl göstərsə də, o da bizə heç bir kömək etmədi, hətta zərbə də vurdu. Lakin xalqımızın bu istedadlı, zirək və bəzən çox qoçaq gəncləri bu yeni işləri inkişaf etdirib ərsəyə gətirə bildilər. Böyük işlər görülmüşdür. Bu, çox ümidvericidir. Bu işləri gələcəkdə də görə bilərsiniz. Mən gələcəyə çox nikbinəm. İndiki vəziyyəti təqdirəlayiq bilsəm də, bu vəziyyətlə qane olmağı heç kim üçün - nə hökumət adamları, nə siz gənclər, nə də müəllimləriniz üçün düzgün sayıram. Biz hələ çox yol getməli, çox hərəkət etməliyik. Bizim zirvələrlə və hətta bəzi zirvədən aşağılarla məsafəmiz çoxdur. Bu məsafələri qət etməliyik.

**Elm istehsalı - sərvət istehsalı**

Sözsüz ki, bunlar üçün sərvət və pul lazımdır. Pulu həmin yolla əldə etməliyik. Dostların dediyi bu məsələlərin əksəriyyəti düzgündür və bizə verilən qeydlərdə hamısı mövcuddur. Onlar da dedilər ki, sərvəti bu yolla əldə etməliyik. Ölkənin gəlirini elmimiz vasitəsi ilə əldə etdiyimiz və neft quyularının ağzını plombladığımız gün bizim üçün yaxşı gün olacaq. Bu gün biz ehtiyatlarımızı yeyirik. Ölkə büdcəsinin

çoxu neftdəndir. Neft bizim ehtiyatımızdır. Biz çarəsizlikdən xəzinəmizi boşaltmaqdayıq. Elə bir gün çatmalıdır ki, öz elmimizdən çörək yeməliyik, bu xalq öz elmi ilə sərvət istehsal etməlidir. O zaman o sərvətin özü elmin inkişafına kömək edəcək. Elm sərvətə kömək edəcək, sərvət də elmə; daim bir-birini artıracaqlar. Biz belə bir günə çatmalıyıq. Əlbəttə, istiqamətlər düzgün, mənəvi və ilahi olmalıdır.

**Elm və texnologiya arasında uyğunluq**

Zəif cəhətlərdən biri əməkdaşlığın olmaması və uyğunsuzluqdur. Elm və texnologiyaya aid sahələrdə əməkdaşlıq olmalıdır. Biz sənaye və universitetin əlaqəsi məsələsini irəli sürdük. Allaha şükür olsun ki, bu sahədə işlər görülür və daha çox işlər görüləcək. Məsul şəxslər elmi nümunələrin tədiqiqat, sənaye və digər mərkəzlərlə əlaqəsi barədə bizə bəzi xoş xəbərlər vermişlər. İnşallah, zamanında sizə deyiləcək. Lakin elm mərkəzlərinin özləri arasında əməkdaşlıq çox vacibdir. Təhsil və Səhiyyə nazirliklərinin prezidentin Elm və texnologiya müavinliyi, Elmi Nümunələr Fondu, Elm və Sənaye Tədqiqatları Komitəsi və bu sahələrdə çalışan digər qrumlarla daimi əlaqəsi, əməkdaşlığı lazımdır. Onlar qarşı-qarşıya dayanmamalı, bu sahədə boşluq yaranmamalıdır.

**Elmi nümunələrə hörmət**

Burada deyilməsi lazım olan başqa bir məsələ elmi nümunələrə hörmət məsələsidir. Bu söz əslində, bizim media qurumlarımıza, xüsusən də milli mediaya, radio və televiziyaya aiddir. Siz aparılan təbliğata diqqət yetirin: aktyorlar, xarici aktyorlar və müxtəlif adlar təbliğ olunur. Məsələn, televiziyada yarış keçirib sual verirlər ki, filan filmin qəhrəmanının adı nədir; desən, qalib olacaqsan. Bunu bilməsən, nə olar ki?! Məgər hansı qüsur yaranar?! Fərz edin, milyonlarla insan bu filmi görməyib, həmin sənətkarı və aktyoru tanımır. Məgər bu, nöqsandır?! Onu tanımaq üstünlükdür?! İdman da belədir. Əlbəttə, bilirsiniz, dəfələrlə demişəm ki, mən peşəkar idmanın tərəfdarlarındanam, bunu vacib bilirəm. Peşəkar idman əslində, nümunəvi idmançı yetişdirməkdir. Bu, bir zirvə olur. Zirvə olmasa, yamac da olmaz. İdmanda zirvə təmin olunanda yamac - yəni ümumi idman da formalaşar. Bu baxımdan, mən peşəkar idmanı vacib sayıram. Gedib orada-burada ölkəmizin bayrağını ucaldanları, himnini səsləndirənləri sevirəm, onlara təşəkkür edirəm, onları çox istəyirəm, bəzən mənim yanıma da gəlirlər. Lakin sözüm budur ki, biz nə üçün nümunəvi alimi nümunəvi idmançıdan az dəyərləndirməliyik?! Bizim nə qədər yüksək elmi nümunələrimiz var! Bizim o qədər elmi nümunələrimiz var ki, digər ölkələrin əli onlara çatsa, tez götürüb apararlar. Onları uca tutmaq lazımdır.

İndi mən misal üçün, mərhum Kazimi Aştiyaninin adını çəkirəm. Mən dəfələrlə onun adını çəkmişəm. Dünyadan da köçmüşdür, Allah ona rəhmət eləsin! Cənab Doktor Vaizzadə başqa bir əziz gəncin adını çəkdi; ötən il burada bizim aramızda idi, bu il vəfat etmişdir. Onları uca tutmaq, tanıtdırmaq lazımdır. Biz tarixi elmi dahilərimizi də təbliğ etmirik. Ölkəmizin əhalisinin çoxu müxtəlif sahələrin böyük alimlərini tanımırlar. Yalnız fiqhdə, fəlsəfədə, dini elmlərdə yox, hətta bu gün

dünyada geniş yayılmış fənlərdə - fizikada, riyaziyyatda, kimyada, mexanikada bizim özümüzdə görkəmli alimlər olmuş, böyük işlər görmüşlər. Onların bəzi ixtiralarından bu gün də istifadə olunur. Nə bizim gənclərimiz onların adlarını bilirlər, nə onlar təbliğ olunur, nə də xatırlanırlar. Bu, böyük qüsurdur. Bu da mütləq düzəldilməlidir.

Digər müxtəlif məqamlar da var; bəzi dostlar dedilər. Elmi layihələri istehlak bazarına çıxarmaq çox mühüm işlərdəndir. Hökumət mütləq bu sahədə kömək etməlidir və buna qərar da vermişdir; mənim xəbərim var.

**Elm yolu ilə xidmət**

Artıq günorta və deyəsən, azan vaxtıdır. Axırıncı söz budur ki, ölkəyə elmlə xidmət etmək şərəfini uca tutun. Müxtəlif yollarla ölkəyə xidmət etmək olar. Ən yaxşı yolların biri elm yolu ilə xidmət etməkdir. Bəli, siyasətçilər də ölkəyə xidmət edirlər, Allah yolunun mücahidləri və hərbçilər də, tacirlər, sənətkarlar və digərləri də. Lakin ölkəyə xidmətin ən dəyərli yollarından biri elmdir. Öncə deyilən dəlillərə əsasən, elm milli iqtidar, hər bir ölkəyə qüdrət, sərvət və şərəf amilidir. Siz bu niyyətlə dərs oxuyub yüksək elmi dərəcələrə nail olsanız, işiniz ibadət olar. İnsanın bir işi iki müxtəlif niyyətlə iki müxtəlif hala düşər: bəzən ibadət olar, bəzən isə günah. İnsanın qıldığı namaz Allaha yaxınlaşmaq niyyəti ilə qılınsa, diqqəti Allaha yönəlsə, ixlasla namaz qılsa, bu, ən üstün ibadətdir. Əgər həmin namazı riya üçün qılsa, o namazın özü günah olar. Riya böyük günahdır. Bir nümunəsi də riya ilə qılınan namazdır. Niyyət bu qədər təsirlidir. Siz təhsili, elmi fəaliyyəti xalqa, ölkəyə xidmət və İslam quruluşunun başucalığı üçün etsəniz, şübhəsiz, yaxşı işlərinizdən biri olar.

Ümidvarıq ki, Allah-Taala hamınızı müvəffəq etsin! Allah-Taala sizə kömək etsin ki, ölkədə elm və tədqiqatın daha artıq inkişafına şahid olaq, mömin və saleh gənclərimizin bu möhtəşəm yarışmada öndə hərəkət etməsini görək! Allah hamınızı qorusun!

Allahın salamı və rəhməti olsun sizə!

## Şeir, milli sərvət və qardaşlıq ruhu[6]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, bütün qardaş və bacılara təşəkkür edirik; həm şeir oxuyan və mənim şeirlərindən həqiqətən, həzz aldığım şəxslərə, həm də oxumayan və öz şeirlərinə marağımızı daha da artıranlara, həmçinin məclisi belə gözəl şəkildə idarə edən cənab Baqiriyə və bir müddət öncədən bu işləri hazırlayan əziz qardaşlara. Onlar dəvət etdilər, seçdilər, təyin etdilər; hamısı bu əzizlərin zəhmət və fəaliyyəti sayəsində hasil oldu; cənab Qəzvə, cənab Mömini və digər qardaşların.

**Şeir milli sərvət kimi**

Şübhə yoxdur ki, şeir milli sərvətdir. Əgər kimsə buna şübhə etsə, ən aydın məsələlərdən birinə şübhə etmişdir. Şeir hər bir ölkə üçün böyük və səmərəli bir sərvətdir. Əvvəla, bu sərvəti yaratmaq, ikincisi, günbəgün artırmaq lazımdır ki, ziyana, uğursuluğa və azlığa uğramasın. Üçüncüsü, ondan ölkənin ehtiyacları üçün yaxşı istifadə etmək lazımdır. Bizim ölkəmizdə şeirin əhatəsinin inkişaf - bu inkişaf keçmişə nisbətən çox böyükdür - amilinin dəqiqliklə nə olduğunu iddia edə bilmərəm. Şübhə yoxdur ki, ən mühüm amillərindən biri düşüncə, elm mühitinin açıq olmasıdır. Bu, şübhəsiz, inqilabın bizə hədiyyəsidir. Biz inqilabdan öncəki dövrü, o zamanın şeirini görmüşük, tanıyırıq, çoxları ilə oturub-durmuşuq. Ən yaxşıları heç zaman bu fürsəti əldə etmirdilər ki, ümumi bir səhnədə, toplantıda şeirlərini təqdim etsinlər. Öz dövründə həqiqətən, qəzəlin zirvəsində duran mərhum Əmiri Firuzkuhi kimi bir şairdən ən çox görüntü bu idi ki, özünün təcrid olunduğu küncdə keçirilən xüsusi bir məclisdə 4-5 nəfər dost-tanışı yığışsın və o, qəzəlini oxusun. Yeni şeirdə, heç şübhəsiz, öz dövrünün nima üslubunda yazan ən yaxşı şairi və mənim fikrimcə, bütün həmkarlarından güclü, səlis və yaxşı söz və məzmuna malik mərhum İxvan bir tərəfdə yaşayırdı, heç kəsin ondan xəbəri yox idi, bir qrup insandan başqa heç kəs onu tanımırdı, təcrid olunmuş vəziyyətdə idi. Yəni şeirin vəziyyəti belə idi. Təbii ki, şeir böyükləri belə təcrid olunmuş və tanınmaz halda yaşadıqda gənclər çox inkişaf edə bilməzlər. Bu, qəti bir şeydir. Əlbəttə, keyfiyyət başqa məsələdir. Mən indi sayı, kəmiyyəti və inkişafı deyirəm, keyfiyyət mövzusu isə başqa bir mövzudur. Keyfiyyətləri artırmağın mümkünlüyü barədə həqiqi və elmi bir araşdırma aparılmalıdır. O zaman şeirin keyfiyyəti həmin dövrə nisbətən çox yaxşı idi. Məsələn, qəzəldə Əmiri, Rəha, yaxud mərhum Şəhriyar kimi şəxsiyyətlər və bəlkə də başqa növlərdə digər böyük şəxslər vardı, - indi bu barədə geniş söhbətin yeri deyil, bəzi fikirlərim var, amma indi demək istəmirəm - lakin ümumilik, şərait və insanların özlərini göstərə bilmələri baxımından şərait münasib deyildi. İnqilab yalnız şeir və ədəbiyyat aləmində yox, müxtəlif elmlərdə, tədqiqatda, müxtəlif idarəçiliklərdə,

strateji idarəçilikdə, məsələn, zəruri şəkildə yaranan və hamı üçün sınaq olan müqəddəs müdafiənin idarəçiliyində bu şəraiti yaratdı. Allaha şükür olsun ki, bu var və şeir olduqca çox inkişaf etmişdir.

Bundan əlavə, mənim bu axşam eşitdiyim və keçən il həmin məclisdə gənclərdən eşitdiyim şeirlər 14-15 il öncə gənclərdən eşitdiklərimlə çox fərqlənmişdir; çox yaxşılaşmış və inkişaf etmişdir. Bundan başqa insan şeirlərdə yaxşı məzmunlar da müşahidə edir. Şeir bu ölkədə həqiqətən, inkişaf etmişdir. Bu gün bizim bu milli sərvətimiz var, lakin bunu artırmalıyıq. Artırması da aidiyyətli orqanların, həmçinin şairlərin özlərinin və şair təbi olanların üzərinə düşür. Yəni bu təbə malik olan siz qardaş və bacılar həqiqətən, bu məsuliyyəti hiss etməlisiniz. Çünki bu sizə verilən bir nemətdir və bu nemətə görə şükür etməlisiniz. Şükrü də belədir ki, bunu tələf etməyəsiniz, məhv olmağa qoymayasınız, qoruyasınız, artırasınız, bu bulağı bacardıqca çağlar saxlayasınız.

**Şeirin dili və şairin məsuliyyəti**

Mənim fikrimcə, şeir digər sənət növləri kimi məhdud ediləsi deyil. Bunu gözəl bilir və qəbul edirik. Adi məişət işlərində mövcud olan nizam-intizam incəsənət aləmində mümkün deyil; nə bunu gözləmək olar, nə də ümumiyyətlə, lazımdır. Mən güman edirəm ki, müxtəlif məişət məsələlərində lazım olan qayda-qanun icra olunsa, incəsənət məhv olar. Bu baxımdan, məqsədim elə qayda-qanun deyil. Amma hər halda, şairin özü məsuliyyət daşıyır. Şairin ölkənin lazımi sahələrə təmayülünü təmin edə bilən şəxslər də məsuliyyət daşıyırlar. Bu gün xalqımızın elə şeylərə ehtiyacı var ki, bu ehtiyaclar həmçinin şeirdən ibarət sənət dili ilə aradan qaldırıla və təmin edilə bilər. Bu gün ölkəmizdə çoxlu əxlaqi məsələlərin milli əxlaq formasına düşməsinə ehtiyac var. Biz bir neçə əsr istibdad çəkməsi altında yaşadığımızı unutmamışıq. Tarix boyu fəxr edə biləcəyimiz ən yaxşı padşahlarımız öz dövrlərinin ən zalım və qəddar insanlarından, hakimlərindən olmuşlar. Nadir şah bir milli qəhrəman kimi əfsanə, yaşadığı dövrdə isə öz xalqı üçün qorxulu bir divdir; Şah Abbas da həmçinin. Böyük işlər gördüklərinə görə onlarla fəxr edirik, amma siz görün ölkə əhalisi ilə necə rəftar etmişlər; yaxşı və nisbi təqvaya sahib olanlar necə əməl etmişlər, təqvasız olanlar necə əməl etmişlər.

**Cəmiyyətin paklığa, birliyə və qardaşlıq ruhuna ehtiyacı**

Biz əsrlərlə belə yaşadıq və bizdə bəzi xarakterlər yarandı. Bu xarakterlər düzəldilməli və İslama uyğunlaşdırılmalıdır. Bizim mənəvi paklığa, birliyə, qardaşlıq ruhuna ehtiyacımız var; cəmiyyətimizdə hər bir insan evdə, iş yerində, küçədə öz qonşularından təhlükəsizlik duymalı, təhlükə hiss etməməlidir. İndi bunlar yoxdur. Milli bir xarakter kimi bizim yaradıcılıq qüvvəsinə və yenilik cəsarətinə ehtiyacımız var. Milli bir xarakter kimi böyük işlərdən ötrü təhlükəyə atılmağa ehtiyacımız var. Bunlar indi bizim milli xarakterlərimizdən deyil. Ola bilsin, kimlərsə bu xarakterlərdə yüksək dərəcələrdə olsunlar. Biz bunların əllərini öpməyə hazırıq. Lakin bu, kifayət etmir. Bunlar milli xarakter formasına düşməlidir. Bir-birinə qarşı qayğıkeşlik,

gələcəyə ümid, digərlərini ümidvar etmək; bunlar elə xüsusiyyətlərdir ki, bir xalqda olsa, o xalq təkamülə doğru sürətlə gedər. Bizim bunlara ehtiyacımız var. Bunlar hansı yolla təmin olunur? Bunlar fərmanla, nəsihətlə də təmin olunmur, sənət dili ilə təlqin olunmalı və ənənəyə çevrilməlidir. Bu baxımdan, bizim bugünkü ehtiyaclarımızdan biri əxlaqi şeirdir.

**Şeiri və sənət dilini dərk etməyin zəruriliyi**

Əxlaqi şeir gözəlliyin zirvəsində ola bilər. Siz bizim ədəbiyyatımızın tarixinə baxın. Sədi əxlaq və nəsihət şeiri baxımdan zirvədədir. Firdovsi də belədir, Nizami də, Sənai də, Nasir Xosrov da; bizim böyük şairlərimizin çoxu belədirlər. Cami də belədir və son dövrlərdə, Hind üslubu dövründə Vaiz Qəzvini də belədir. Vaiz Qəzvini bir vaiz olmuşdur, minbərdə oturub moizə edirmiş, şeiri isə sənət baxımından zirvədə, Hind üslubunda çox yaxşı, məzmunlu və güclüdür. Saibin özü də həmçinin. Siz Saibin bir neçə onminlik şeirləri arasından yalnız nəsihətamiz və əxlaqi qəzəllərini toplasanız, böyük bir divan olacaq.

İndi siz dini məzmunda bir şeir deyirsiniz; cənabların sözü ilə desək, dini şeir. Bu dini şeir yalnız imamlara və Peyğəmbər ailəsinə aid məsələlərə yönəlmişdir və çox yaxşıdır. Yəni bu nöqtə çox yaxşı mərkəzdir, duyğu mərkəzidir. Şiənin xüsusiyyətlərindən biri budur ki, bizim etiqadlarımızda mövcud olan qəti dəlilin və güclü məntiqin kənarında duyğusal cəhətə malik olmasıdır; güclü duyğular, eşq və indi siz gənclərin bu şeirlərində olanlar. İnsan bunları görəndə həqiqətən, həzz alır. Bu dini şeir yaxşıdır; bu gün müxtəlif vasitələrlə yalnız bizim xalqımıza yox, bütün xalqlara təlqin olunan süni, saxta və yalançı örnəklərin, qadın və kişilərə örnək göstərilən aktyorların, maneken və rəqqasların yerinə imamların həyatını, məsumların simasını örnək göstərmək yaxşıdır. Mənim əsla şübhəm yoxdur ki, sizin imamlar, onlara təvəssül, məhəbbət və mərsiyə sahəsində gördüyünüz bu işlərin hamısı - Allaha şükür olsun ki, hər növü var – yaxşıdır, lakin kifayət etmir.

Bizim dini şeirimizin mühüm bir sahəsi irfani və mənəvi məsələlərə yönələ bilər. Bu da böyük bir dəryadır. Siz Mövləvinin şeirinə baxın. Xüsusi dili və xüsusi halı olduğuna görə çoxumuz Şəmsin divanından xəbərsizik. Kimsə onu bir qədər əlçatmaz bilsə də, Məsnəvi ki var. Mövlananın özü deyir ki, o, dinin əsasının əsasının əsasıdır. Mənim fikrim də budur. Bir dəfə mərhum Mütəhhəri məndən soruşdu ki, Məsnəvi haqqında fikrin nədir? Mən dedim ki, fikrimcə, özünün dediyi kimidir: dinin əsasının əsasının əsası. O dedi ki, tamamilə doğrudur, mənim də fikrim budur. Hafiz barədə bir qədər fikir ayrılığımız vardı; son dövrlərdə meydana çıxan Bidel haqqında da həmçinin. Bidelin möhtəşəm divanında, bu dərin dəryasında nə qədər tövhid və irfan məfhumları var! Cənab Kazimi Bidelin seçilmiş qəzəlləri üzərində yaxşı iş görmüşdür. Mən onu bir qədər vərəqlədim. Əlbəttə, onun seçdikləri Bidelin qəzəllərinin bəlkə ondan biri də deyil. Lakin hər halda, yaxşı iş görülmüşdür. Bidelin şeiri üslub baxımından Hind üslubunda olan mahir, mürəkkəb və qüdrətli sənət əsərlərindəndir. Ola bilsin, bəzi yerlərdə oxucu dərin incəliklər səbəbindən çox da həzz almasın, amma həqiqətən, sənətkarcasınadır və bu qeyri-iranlı kişinin şairlik gücünü göstərir.

Deyəsən, onun ana dili fars dili deyil, bilmirəm, Bidelin ana dili fars dili olub? Dehlidə fars dilində danışırdılar?.. Bəli, siz sonra buna cavab verin. Amma farsca belə yaxşı danışır və irfan dəryasıdır. Bəli, bizim gənclərimizin bugünkü şeirləri arasında onun yeri boşdur. Bunlar da təqlid ediləsi məsələlər deyil. Yəni insan dərinliyinə varmadan Hafizin, Mövləvinin, yaxud Bidelin sözlərini eynilə yamsılasa, şeirin, ləzzəti olmaz və fayda da yetirməz. Bir şeyi anlamaq, zehində bişirmək və sonra Allahın verdiyi sənət və təb dili ilə demək lazımdır. Bu da şeirdə vacib bir məsələdir.

**İran xalqının şeir formasında olan müqavimət mesajı**

Mənim fikrimcə, siyasi və inqilabi sahələrdə də çox işlər görülməlidir. Bizim görülməyən işlərimiz var. Şəhid və şəhadət məsələsi tükənən deyil, heç zaman bitmir; Allaha şükür olsun ki, davam da edir. Biz qardaş və bacılarla hər dəfə oturanda yaxşı şeirlər eşidirik. Digər yerlərdə də oxuyur və görürəm. Lakin inqilab məsələləri yalnız şəhadət mövzusundan ibarət deyil. Bizim uca inqilab məfhumlarımız çoxdur. İnqilab dünyaya yeni söz gətirmişdir, zarafat deyil. Düşmənlər inqilab əleyhinə ajiotaj, şantaj və təbliğat toz-dumanı yaradırlar. Bundan başqa bir şey gözləmirik də. Lakin həqiqət budur ki, inqilab yeni bir söz gətirmişdir. Bu söz ki, indiyə qədər ölməz olduğunu göstərmişdir. Bunu məhv etmək üçün nə iş gördülərsə, bacarmadılar. Bu söz günbəgün genişlənmiş, daha artıq nüfuz qazanmış, supergüclər üçün problem yaratmış və onların təzyiqlərini zərərsizləşdirmişdir. Siz görün bu gün dünyada İran xalqından başqa hansı xalq, ölkə və hökumət hegemonizmin təcavüzkar və ekspansionist şüar və məqsədləri qarşısında açıq şəkildə duruş gətirə bilmişdir?! Başqa heç bir xalq, heç bir hökumət yoxdur. Bu həmin sözün nəticəsidir. Bu quruluşun bu yeni söz sayəsində əldə etdiyi gücə əhəmiyyətsiz yanaşmaq olmaz. Bu, çox mühüm məsələdir. Bu mesaj verilməlidir. Bu mesaj ədalət, mənəviyyat mesajı, başdan-ayağa yalan və dəcəllikdən ibarət Amerika humanizmi yox, həqiqi humanizm mesajıdır. Bunlar çox mühüm mesajlardır. Bunları düzgün ötürmək lazımdır və dediyim kimi, heç birini kopyalamaq, tutuquşu kimi təkrarlamaq olmaz. Yəni bunları anlamaq, beyində həll etmək, xırdalamaq və vermək lazımdır. Milli, böyük və həmişəyaşar sərvət olan möhtəşəm şeir sərvəti bu yollara sərf olunmalıdır. Mən əlbəttə, heç zaman heç bir şairə tövsiyə etmirəm ki, siz aşiqanə şeir deməyin. Bəllidir ki, mümkün deyil, hər halda, hər bir şairin təbii olaraq bir zövqi təmayülü var. Lakin tövsiyə edə bilərəm ki, bu işdə ehtiyatlı olub ifratçılıq etməsinlər, bizim İran-İslam həyası dairəsindən çıxmasınlar və qabaqkı kimi çılpaq şeiri yaymasınlar. Aşiqanə şeir də deyilsin. Biz nə o qədər quru adamıq ki, sevməyək və nə o qədər donmuşuq ki, anlamayaq; anlayırıq, xoşumuz da gəlir. Lakin o, belə milli sərvətin işləndiyi yeganə yer olmasın. Bu sərvət çox əzəmətlidir.

Kaş bizim çıxış etdiyimiz vaxtda dostların iki-üçü şeir oxuyaydı, şeirlərindən daha çox bəhrələnəydik. Hər halda, mən yenə də hamınıza təşəkkür edirəm. Əminpurun vəfatı bizi həqiqətən, matəmə saldı. O mərhumun xatirəsini də uca tuturuq. Həqiqətən, sözün həqiqi mənasında mərhum Hüseynidən sonra bizim

ürəyimiz Əminpurla isinirdi. Təəssüf ki, getdi. İndi gərək sizin qədrinizi bilək ki, Allah eləməmiş, bizi yalqız qoymayasınız.

Allahın salamı və rəhməti olsun sizə!

## Elmi və alimi uca tutmaq və özünəinam[7]

Bismillahir-Rəhmanir-Rəhim.

**Elmin inkişafı üçün ən yaxşı həvəsləndirici**

Əvvəla, bu məclisi hər şeydən çox simvolik cəhətindən ötrü istədik. Mən istəyirəm ki, müəllimə və alimə ürəkdən və candan tanıdığım hörmət cəmiyyət miqyasında əks olunsun. Bizim alim və müəllimlərimizin cəmiyyətdə hörmət duymalarına ehtiyacımız var. Elmi inkişaf etdirmək üçün ən yaxşı həvəsləndirici elm adamına hörmət etməkdir. Siz əziz dostlar, qardaş və bacılar bilin ki, mən alimə və elmə hörmət və üstünlük tanıyıram, öz qəlbimdə təzim edirəm və bütün ölkədə hamımızın – məmurların, adi camaatın və idarəçiliyin müxtəlif səviyyələrinin bu hissə malik olmalarını və onu əməldə də göstərmələrini istəyirəm; sözsüz ki, görsənir də. Lakin bunun kənarında bu məqsəd də var ki, bu məclisdə bizim elmi nümunələrimizin və görkəmli şəxslərimizin müxtəlif sahələrdə elm, təlim və tərbiyə məsələləri haqda fikirləri ümumi bir yerdə ortaya qoyulsun.

Bu gün deyilənlər mənim üçün çox səmərəli idi; xüsusən də bəzi dostlar çox əhəmiyyətli məsələlərə toxundular. Onlara əməl etmək lazımdır. Bu məsələlər açıq bir mühitdə elm adamlarının, həmçinin elm və tədqiqat mərkəzlərinin müdirlərinin və məsul şəxslərinin, eləcə də sonradan efirdə yayımlandıqda bütün xalq səviyyəsində elmi işlərlə maraqlananların qarşısında və mühakiməsində olacaq.

**Elmi inkişaf ölkənin həyati zərurəti kimi**

Mən nəzərdə tutduğum məsələlərin yalnız bəzisini deməliyəm, çünki vaxt yoxdur. Bir məsələ budur ki, biz nə deyiriksə, hamısına bəzi önfərziyyələrlə baxılmalıdır. Bizim bir neçə önfərziyyəmiz var. Biri budur ki, elmi inkişaf müxtəlif fənlərdə ölkənin həyati zərurətidir. Elmlərin dərəcə ilə sıralanmasını sonra deyəcəyik. Bu, mühüm işlərdən biridir.

**Elm öyrənəndən sonra elmin istehsalı**

İkinci önfərziyyə budur ki, bu elmi inkişaf mütərəqqi elm mərkəzlərindən öyrənməklə hasil olsa da, elmi öyrənmək bir məsələdir, onun istehsalı başqa bir məsələ. Biz elm işində vaqonumuzu Qərbin lokomotivinə bağlaya bilmərik. Düzdür, bu asılılıq yaransa, bəzi inkişaflar əldə olunacaq; buna şübhə yoxdur. Lakin belə inkişafın qəti nəticələrindən biri də başqasının ardınca getmək, yaradıcılığın olmaması və mənəvi cəhətdən asılılıqdır. Bu isə yolverilməzdir. Buna görə də elmi biz özümüz istehsal etməliyik. İnsanın elmi rütbələrdə ucaldığı hər bir pillə onu sonrakı addımı atmağa və bir pillə yüksəlməyə hazırlayır. Biz bu hərəkəti özümüzdən, öz

daxilimizdən, düşüncə əsaslarımızdan və mədəni irsimizdən istifadə ilə davam etdirməliyik.

**Elmi inkişaf və cihadabənzər hərəkət**

Üçüncüsü budur ki, bu elmi inkişaf əvvəla, özünəinamla, ikincisi, müvəfəqiyyətə ümidlə, üçüncüsü, cihadabənzər hərəkətlə yanaşı olmalıdır. Çünki elmi inkişaf yerli baxışla və öz mədəniyyətimizə arxalanmaqla, - bizim mədəniyyətimiz dini və milli irslərimizdir - həmçinin ölkənin ehtiyaclarına hesablanmış olmalıdır. Bu bizim elmi fəaliyyətimizin əsasını təşkil etməlidir. Bəzi adamlar etiraz edə bilərlər ki, məgər bu, mümkündür?! Burada bəzi natiqlərin buyurduğu kimi, biz bacardığımıza inanmalı, bilməliyik ki, hərəkətə başladıqda müvəfəqiyyətə ümid də olur.

**Tənbəllik və rahatlıq istəyi**

Dördüncüsü budur ki, bu hərəkətdə tənbəllik, rahatlıq istəyi və işi bir-birinin üstünə atmaq yolverilməzdir. Cihadabənzər hərəkət etmək lazımdır. Cihad yalnız döyüşə aid deyil, həyatın bütün sahələri kimi elmdə də cihad lazımdır. Cihad ağlın qəbul etdiyi həddə təhlükəyə atılmaqla yanaşı olan davamlı fəaliyyət, inkişaf və gələcəyə ümiddir.

Bunlar bizim önfərziyyələrimizdir. Bunlar barədə çox söhbət etdiyimizdən, dəfələrlə danışdığımızdan alim və müəllimlər tərəfindən qəbul olunmuş sayılır. Bu onu göstərir ki, elmin bu inkişafı, elmdə yeni zirvələr fəth etmək, elm sərhədlərində yenilik və inkişaf yaratmaq bir təfəkkür kimi bizim bugünkü elmi toplumumuzun fikirlərindəndir. Buna şübhə yoxdur.

**Elmi inkişafda müəllimin rolu**

İndi buna əsasən, müəllimin rolu nədir? Buna diqqət yetirmək lazımdır. Müəllimin rolu var. Universitetlərdə və tədqiqat mərkəzlərində müəllimin böyük rolu var; necə ki, icraçı və dövlət qurumlarının da rolu böyükdür. Biz nə yalnız dövlət qurumlarına müraciət edib səhnədə hazır olan qüvvə kimi müəllimin rolunu unuda bilərik, nə də müəllimə, təhsil, yaxud kafedra müdirinə müraciət edib böyük elm və elmi inkişaf layihəsinin əslində, podratçısı olan icra orqanlarının rolunu. Ölkədə möhtəşəm bir layihə icra olunmalıdır və bu, elmin inkişafından, elmdə yüksəlişdən ibarətdir. Onun podratçısı dövlət orqanlarıdır: Ali təhsil nazirliyi, Səhiyyə nazirliyi və aidiyyətli elmi orqanlar. Bunlar işi təhvil almalı, onun üçün proqram hazırlamalı, işə şərait yaratmalıdırlar. Buna əsasən, hər birinin bir rolu var. Mən indi müəllimin, yaxud icraçı orqanlarının rolunu izah etmək istəmirəm, çünki söhbət uzanar. Sadəcə, bu barədə bəzi tövsiyələr vermək istəyirəm.

**Milli özünəinam**

Bir tövsiyə budur ki, həm müdiriyyət, həm də müəllimlər universitetlər daxilində özünəinamı təbliğ etsinlər. Sizin tərbiyə və təliminiz altında olan gəncin

özünəinamı olmalıdır; qeyd etdiyimiz milli özünəinamı. Söhbət bundan getmir ki, bir şəxsin özünə etimadı olsun, söhbət bundan gedir ki, bizim öz milli xislətlərimizə, milli imkanlarımıza, mədəni irsimizə ümumi bir güvənimiz olsun. Biz buna milli özünəinam deyirik. Bu inam bizim gənclərimizin hər birində olmalıdır. Yəni bizim gəncimiz burada qalxıb danışdıqda milli özünəinamla danışmalıdır. Çünki gənc ümidin tərənnümüdür. Bir neçə gündən sonra mənim tələbələrlə də görüşüm olacaq. Gənclər burada qalxır və danışırlar. Bu sözlərdə heç bir məyusluq və məqsədlərə çatmaqda tərəddüd əlaməti duyulmamalıdır. Gərək ümidlə dolu olsun. Neçə ki, reallıqlar da bunu təsdiqləyir. Siz bunun üçün məsuliyyət daşıyırsınız. Düzdür, bunun müxtəlif amilləri var: siyasi amillər, ictimai amillər və s. Lakin sinifdə, laboratoriyada, yaxud təhsil yerində müəllimin olduqca böyük təsiri var. Siz gəncə özünəinam və gələcəyə ümid aşılamalısınız.

Mənim tövsiyə kimi demək istədiyim ikinci məsələ budur ki, elmi ehtiyac və prioritetləri özümüz təyin edək və bunu təhsil proqramlarımıza salaq. Humanitar, fundamental və təcrübi elmlərin müxtəlif sahələrində, yaxud tədqiqatın müxtəlif səviyyələrində ciddi mütaliə və araşdırma nəticəsində bəzi prioritetlər təyin etmək mümkündür. Bunlar nəzərə alınmalı və proqramlara salınmalıdır. Biz məhdud imkan və çoxlu ehtiyaclarla özümüzə icazə verməməliyik ki, prioritet olmayan bir işə düşüncə, pul, zaman və insan sərmayəsi ayıraq. Bu da bir məsələdir.

**Təhsil sistemində dəyişikliyin zəruriliyi**

Bir məsələ tələbədə tədqiqat və araşdırma hissini gücləndirməkdir... Təhsil sistemində yeniliyə dair vacib işlərdən biri budur: təhsil sistemi elə tənzim olunmalıdır ki, bizim gəncimiz tədqiqata, dərin elm və biliyə həvəs göstərsin, əzbərləməyə can atmasın. Təəssüf ki, hələ də universiterlərimizdə müəllimin birsaatlıq dərsə bir neçə yüz səhifəlik kitab təyin etdiyini görürük. Nə üçün? Nə qədərinin faydalı olduğu bəlli olmayan sözləri əzbərlətdirmək və gəncin beynini lazımsız məlumatlarla doldurmaq nəyə lazımdır? Bu, nə qədərinin faydalı olduğu bəlli olmayan söz və yazıları əzbərləmək və gəncin beynini lazım olmayan işlə məşğul etməkdir. Düşünmək lazımdır. Gərək aidiyyətli şəxslər gənclərimizi tədqiqata, dərin elm və araşdırmaya sövq edən mexanizm hazırlasınlar. Bizim gənclərimizin istedadı doğrudan da yüksəkdir. Ölkənin orta istedad əmsalı çox yaxşıdır.

**Qədim müəllimlə gənc müəllimdən bəhrələnmək**

Fikrimcə, daha vaxt bitdi. Bizdə geniş yayılmış mövzulardan biri qədim və yeni müəllim məsələsidir. Bunun mübahisəli bir məsələyə çevrilməsinə qoymamalıyıq. Əgər məndən soruşulsa, deyərəm ki, bizim qədim və təcrübəli müəllimə də ehtiyacımız var, gənc, yeni və həvəskar müəllimə də. Onların hamısına ehtiyacımız var. Əlbəttə, mən tədris məsələsində bunun tərəfdarı deyiləm ki, köhnə müəllimlərin övladları olan və işə başlamaq istəyən gənclərə yol verilməsin. Xeyr, Elmi şura səviyyəsində belə hallara mane olmaq, gənclərin gəlməsinə imkan yaratmaq lazımdır. Lakin qədim və təcrübəli müəllimlər, müxtəlif sahələrdə stajı olanlar

quruluşun ehtiyatlarıdır. Onlardan maksimum istifadə etmək lazımdır. İllərlə bu fəndə işləyib bişmiş, çoxlu təcrübə toplamış və ölkənin sərvəti sayılan təcrübəli müəllimdən, həmçinin dəyərli bir universitetdə doktorantura pilləsini yenicə bitirib uyğun fənn üzrə həvəslə və aktiv şəkildə dərs deməyə hazır olan təzə nəfəsli gəncin heç birindən keçmək olmaz. O təcrübəli, stajlı və qədim qocaya da ehtiyacımız var, elmi fəallığa və həvəskarlığa malik olan və işləyib çalışmaq istəyən bu yeni gəncə də. Çalışıb hər ikisindən bəhrələnməliyik. Bizim insan kapitalına ehtiyacımız var. Mənim fikrimcə, təhsil və tədqiqat mərkəzlərini inkişaf etdirmək üçün hər iki qrupdan istifadə etməliyik. Bundan əlavə, işə hazır olan tələbələr üçün də elmi iş yerləri açmaq və elmi nümunələri cəlb etmək olar. Bu da işlərdən biridir.

Yəqin ki, indiyə azan verilmiş olmalıdır. Mən eşitmədim, amma mütləq olub, daha bundan artıq davam etdirmək olmaz.

Bu gün buraya təşrif buyurub bu yaxşı məclisi keçirən əziz dostlara, qardaş və bacılara təşəkkür edirik. Ofisimizin əməkdaşları çıxış edənlərin fikirlərini qeyd etdilər. Bizə aid olanları biz təhvil almalıyıq, icraçı orqanlara aid olanlar da onlara verilməlidir ki, inşallah, məşğul olsunlar.

Allahın salamı və rəhməti olsun sizə!

## Universitetlər, inkişaf və ədalət[8]

Bismillahir-Rəhmanir-Rəhim.

Bu gün bizim hüseyniyyəmizdə ağıl və təfəkkürlü gənclik enerjisini təlatümə gətirən siz gənc dostlara çox təşəkkür edirik. Ümidvarıq ki, dindarlıq və təqva ruhu ilə yanaşı olduqda ölkələrin bütün mərhələlərdəki problemlərinin açarı olan bu ruhiyyə siz tələbə dostlar və əziz gənclər arasında günbəgün inkişaf etsin.

Dostların burada söylədiyi məsələlər çox yaxşı idi. Mən bəzən buraya gələn, yaxud rastlaşdığım və danışdığım hər hansı məclisdə tələbələrin, gənclərin və digər qrupların sözlərini diqqətlə dinləmək və bəhrələnmək istəyirəm. Sizin bugünkü söhbətləriniz çox məzmunlu və faydalı göründü. Bu həm də bizə tələbə zehniyyətindən, məntiqindən orta bir səviyyəni göstərir. Demək istəmirik ki, siz ölkənin bütün tələbələrinin nümayəndələrisiniz, lakin hər halda, görünür ki, problemləri həll etmək üçün təfəkkür, düşüncə, dərk və səyin bu səviyyəsi bu gün bizim universitetimizdə mövcuddur. Bu mənim üçün çox maraqlıdır. Dostlar bəzi məqamlara toxundular. Təbii ki, mənim də qeydlərim var; imkan olsa, dostlara deyəcəyəm. Demək istədiklərimin bəzisi sizin sözlərinizə əsasən deyiləcək. İndi isə sizin dediklərinizə bir nəzər salsaq, pis olmaz.

**Yeni nəslin vəzifəsi**

Sual olunur ki, yeni nəslin vəzifəsi nədir? Vacib işləri nədir? Kim onları idarə etmək istəyir? Yaxşı suallardır, amma məchul deyil, cavabları məlumdur. İnqilab bir hökumətin yerinə başqasını gətirmək üçün deyil, bəlli bir təfəkkürə əsaslanan bir dövlət və cəmiyyət qurmaq üçün baş verdi. Sözügedən təfəkkür İslam təfəkkürüdür. Bizim iddiamız budur. Bu iddianı sübut da edirik, qətidir. Biz düşünürük ki, insanların səadət yolu peyğəmbərlərin təlimlərindədir. Onların ən idealı İslam təlimləridir. Bəşər peyğəmbərlərin təlimləri olmadan hətta indi mövcud olan həddə maddi inkişafa da nail ola bilməzdi, o ki qala mənəvi inkişafa, mənəvi səadətə və insanın uca ruhani aləmə yüksəlişini təmin edən ruhi aramlığa və dincliyə. İnsanın səadət yolu budur.

Peyğəmbərlərin təfəkkürünün cəmiyyətdə icra olunması üçün uzunmüddətli bir hərəkət lazım idi. Bu inqilab bu məqsədlə yarandı. Məqsəd yalnız İslam hökuməti, İslam quruluşu yox, peyğəmbərlərin təlimlərinin əsas məğzi olan İslam təlimləri əsasında yaşayan və onun təsirlərini hiss edən bir xalq, toplum yaratmaqdır. Bizim məqsədimiz budur. Biz hələ bu məqsədə çatmamışıq. Otuz il ərzində buna çatmaq gözlənilmirdi də. Bu məqsəd çox uzunmüddətli məqsəddir. Bu məqsədə çatmaq üçün çalışmaq və işləmək lazımdır. Sizin vəzifəniz, bu nəslin təyinatı budur. Siz ölkənizi və xalqınızı sözün həqiqi mənasında bir İslam cəmiyyəti sayılan vəziyyətə

çatdırmalısınız. Bunu örnək seçin. Bu, uyğun fikrin və uyğun təcrübənin dünyada inkişafı üçün ən böyük vasitədir. Bu, indiki nəslin vəzifəsidir. Bu, təsəvvürdə və nəzəri cəhətdən çətin bir şey deyil. Düzdür, iş olduqca çətin işdir, bunun üçün sözügedən gənc hərəkəti və gənc marağı lazımdır; qeyd etdiyimiz və yenə edəcəyimiz çoxlu cihad fəaliyyəti ilə. Məqsəd budur: biz İslam ölkəsi istəyirik. İslam ölkəsi qurulduqda mənası odur ki, insanların dünyası abadlaşacaq, amma maddi quruluşlarda mövcud olan abadlıq mənasında yox.

**İslam quruluşu ilə maddi quruluşun fərqi**

Maddi quruluşlarda abadlıq var, maddi inkişaf yaxşıdır, lakin həmin inkişafda ədalətli baxış yoxdur. Siz görürsünüz ki, ABŞ kimi sərvətli bir ölkədə dünyanın ən sərvətli adamı da var, ən yoxsulu da; soyuqdan ölür, istidən ölür, aclıqdan ölür. Orada yaşayan orta təbəqə gün ərzində iki növbədə var gücləri ilə işləməsələr, qarınlarını doyura bilməzlər. Bu, bəşəriyyətə, cəmiyyətə xoşbəxtlik deyil. Bəli, ümumi daxili məhsula baxsanız, başqa bir ölkədən on dəfə artıqdir, amma bu, dəlil deyil. Yəni hətta maddi imkanlarda da ədalət yoxdur, hamı bəhrələnmir, o ki qala mənəvi imkanlarda; psixoloji aramlıq yoxdur, Allaha diqqət yoxdur, təqva və iman yoxdur, iffət və paklıq yoxdur, bağış və əfv yoxdur, Allah bəndələrinə rəhm və yardım yoxdur, yoxdur və yoxdur. Bu, İslam ölkəsinin və İslam cəmiyyətinin istədiyi inkişaf deyil. Bizim İslam cəmiyyəti üçün istədiyimiz xoşbəxtlik və imkanlar yalnız sizin burada gördüyünüz deyil, maddi və mənəvi bəhrələrdir; yəni yoxsulluq olmasın, ədalət, təqva, əxlaq, mənəviyyat və iman olsun. Bu, bizim çatmalı olduğumuz məqsəddir. Dostların biri deyirdi ki, bu dəlillərə görə tələbə hərəkatının gələcəyi qaranlıqdır. Mən deyirəm ki, əsla heç bir qaranlıq yoxdur. Təsadüfən, bu sözü deyən həmin qardaş tələbə hərəkatının vəzifələrini və görməli olduğu işləri sayırdı. Yaxşı, daha nə qaranlıq?! Həmin məqsədlərlə bu işləri görməlisiniz.

**Prinsiplərə riayət etməklə düşüncə yürütmək**

İşlərdən biri prinsipləri müəyyən etməkdir. Bizim yayınmamalı olduğumuz prinsiplər var. Yəni fikir və düşüncə yürütmək adı ilə prinsiplərdən yayınmaq olmaz. Prinsiplər düzgün yolun meyarlarıdır. Prinsipləri divarlara bənzədib insanın bu divarlar arasında hərəkət etməli olduğunu düşünmək səhvdir. Xeyr, prinsiplər meyardır. İnsanı məqsədə çatdıran düzgün bir yol var. Bu düzgün yolu tanımaq, öyrənmək lazımdır. Heç kəs düzgün yol çərçivəsində həbs olunmayıb. Heç kəs düzgün yolu getməyə məcbur deyil. Bu prinsiplər heç kəsi məcbur və məhdud etmir. Bu prinsiplər insanı yönəldir, ona deyir ki, əgər bu prinsiplərə uyğun hərəkət etsən, o ideal nəticəyə çatacaqsan; əgər bu prinsiplərdən yayınsan, məqsədə çatmayacaqsan. Yolu səhv getməyin eybi budur. Səhv getməyin iki eybi var: bir eybi budur ki, insan mənzil başına çatmır, digər eyib budur ki, insanın vaxtı tələf olur, fürsətlər əldən çıxır.

**Cəmiyyəti azdıranların günahı**

Son 100-150 ildə ölkəmizdə islahat, inkişaf və tərəqqi iddiası edib bizi doğrudan da səhv yola çəkənlər bu böyük günahı etdilər. Biz bu 150 ildə həm məqsədə çatmadıq və geri qaldıq, həm də vaxtımız tələf oldu. Ardıcıl bir neçə nəsil gəlib tələf oldu, bu biyabanda sərgərdan qaldı, nəticə hasil olmadı. Nəhayət, bir nəsil səhv etdiyini gördü və qayıdıb yenidən hərəkətə başladı. Cəmiyyətləri səhv yola çəkənlərin günahı budur ki, onların vaxtlarını, ömürlərini və fürsətlərini tələf edirlər.

Bir zaman bizim cəmiyyətimizə inkişafın qərblilələri yamsılamaqda olduğunu başa salmışdılar; özü də elm öyrənməkdə yamsılamaq yox, zahiri işlərdə yamsılamaq: qadınlarımız hicabsız olsunlar, kişilərimiz filan cür papaq qoyub, filan cür paltar geyinsinlər. Bilirsiniz ki, bir zaman ölkəmizdə Pəhləvi papağı adlı xüsusi bir papağı qoymaq icbari oldu. Bu papaqdan qoymayan cihayətkar sayılırdı. Sonra bir addım irəliyə gedib dedilər ki, ya Pəhləvi papağı, ya da şlyapa. Çünki qərblilər - avropalılar şlyapa qoyurdular. Qərbdən gəlmiş vahid geyim formasının yayılmasından ötrü ölkədə geyilən müxtəlif növ və yerli paltarların hamısı qadağan olundu. Nə üçün? "İnkişaf" üçün. Ölkənin inkişafını bunda gördülər ki, insanlarımız kostyum geyinsinlər, qalstuk bağlasınlar, qadınlarımız hicabsız olsunlar, qərblilərin adət-ənənələrini öyrənsinlər. Görün bu, bir ölkə üçün nə qədər ziyanlı, nə qədər utandırıcıdır! O zaman isə nəinki xəcalət çəkmir, üstəlik fəxr edir və uca səslə fəryad qoparırdılar. Bu, səhv yoldur, yanlış inkişaf nüsxəsidir. Prinsiplər bu səhvlərin qarşıya çıxmaması üçündür.

**Etiraz və açıqlıq**

Dostların biri açıq etirazlar bildirdi. Tələbənin xüsusiyyəti də budur. Bəzi şəxslərə və qurumlara etiraz etdi. O etirazlar haqlı da ola bilər, haqsız da. Mən bu barədə mühakimə yürütmək istəmirəm. Tələbənin öz sözünü açıq-aşkar deməsi və siyasətbazlıq etməməsi yaxşı haldır. Tələbənin ən pis eybi budur ki, mühafizəkar olsun, sözünü xəyali məsləhət və mövqeyi nəzərə alaraq desin. Xeyr, tələbə sözünü açıq deməlidir. Əlbəttə, sözdə bu açıqlığın yanında niyyət sədaqəti və səhv olduğu sübuta yetdikdə səhvi qəbul etmək sürəti də olmalıdır. Sizin kimi gənc, tələbə, səmimi və təmiz birisinin bir siyasətbaz adamla fərqi bunda olmalıdır. Sözünüzü açıq deyin. Dediyinizi ürəkdən söyləyin və səhv olduğu bəlli olsa, sürətlə və asanlıqla geri götürün. Bu mənim fikrimcə, tələbəliyin ən yaxşı meyarlarından biridir.

**Rəhbərin təyin etdiklərini tənqid etmək**

Bu etirazların biri radio və televiziyaya qarşı idi. Bəziləri deyirlər ki, radio və televiziyanı tənqid etsək, rəhbərin ziddinə danışmış olarıq. Nə üçün? Çünki Teleradionun sədrini rəhbər təyin edir. Əgər həqiqətən, meyar bu olsa, onda gərək heç kəsə etiraz olunmasın. Çünki Ali Məhkəminin sədrini də rəhbər seçir, prezident də seçkilərdən sonra rəhbər tərəfindən təsdiq olunur; deyir ki, təyin etdim. Deməli, heç kəsə etiraz etmək olmaz. Xeyr, əvvəla, radio və televiziyanı rəhbər idarə etmir. Bu, məlum olsun. Radio və televiziyanı onun sədri idarə edir. Rəhbərin də çox yerlərdə etirazları var. Sizin bu etirazlarınızın bəzisi, yaxud çoxu həm də bizim

etirazlarımızdır. Güman ki, başqa etirazlar da var. Ola bilsin, özüm sizin qədər televiziya tamaşaçısı, yaxud radio dinləyicisi olmayım, amma mənə çoxlu yerlərdən xəbər çatır, məlumatım çoxdur. Radio və televiziyanın vəziyyətinə etirazlar da edirik, iradlar da bildiririk, bəzən onlarla dalaşırıq da. Hər halda, onların da bəzi zərurətləri var və cavab verirlər. Bəzən cavabları düzgün olur, bəzən səhv. Hər halda, etiraz var və sizin radio və televiziyaya tənqidiniz əsla rəhbərə yönəlmir. Sizin tənqid hüququnuz var. Bunun heç bir eybi yoxdur.

**Gənc, inkişaf və ədalət**

İndi yadımda olan və qeyd etdiyim məsələlərdən bir cümlə deyim, çünki vaxt yoxdur və azana çox qalmamışdır. Dostların bir neçəsinin qeyd etdiyi kimi, biz İslam Respublikası quruluşunun ömrünün dördüncü onilliyinə daxil olmaqdayıq. Sözsüz ki, ictimai bir quruluş 30-35 yaşında tamamilə gəncdir. Əgər bu quruluşda, xüsusən də vaxtında və yerində daxili hərəkət və yeniliklər olmuşsa, asanlıqla qocalıb əldən düşməyəcək; yüz illər ötdükdən sonra da qocalmaz. Lakin qəti olan budur ki, bu yaşlarında – 30, 35, 40 yaşlarında ictimai bir quruluş hələ gəncdir. Gənc nə deməkdir? Yəni püxtələşmək və möhkəmlənmək üçün təməl sahələrdə hələ çox işə və fəaliyyətə ehtiyacı var.

Biz dedik ki, bu onillikdə məqsəd və şüarımız inkişaf və ədalətdir. Bunu şüar seçək: inkişaf və ədalət. İnkişafı dedim. Məqsəd hərtərəfli inkişafdır; yəni maddi və mənəvi inkişaf. Maddi inkişafı da inkar etmirik. Yəni xalqın məişət məsələsini, iş məsələsini, elmi və texnoloji inkişafları əsla əhəmiyyətsiz saymırıq. Bunlar tamamilə əhəmiyyətlidir və onlarla məşğul olmaq lazımdır ki, yoxsulluq, işsizlik, bahalıq və inflyasiya olmasın. Buna şübhə yoxdur. Amma bununla kifayətlənmirik də. Yəni bunların yanında aydın düşüncə, dərin etiqad, artan və çağlayan maraq, insani və uca islami əxlaq da inkişaf etməlidir.

**İnkişafın təhdidləri və yanlış yollar**

Qeyd etdiyim kimi, yanlış yollardan qorxmaq lazımdır. Bəzən inkişaf üçün yanlış məsələ və yollar təklif edirlər. Bir nümunəsini dedim; Pəhləvi dövrünün inkişafları kimi. Onların bəzisi həqiqətən, durğunluq, bəzisi gerilik və süqut idi. Onların geniş izahının yeri bu məclis deyil, çünki vaxt yoxdur. O, bir örnəkdir və həqiqətən, yanlış yol idi. Zahiri məsələlərə razı olmağın, qərbliləri meyar seçməyin və onların ardınca hərəkət etməyin nəticəsi Pəhləvi dövrünün 50-60 illik mənfur və qara müddətində görünən olar.

Bu səhv yolların başqa bir nümunəsi bəzən dövrümüzdə də görünən hallardır. Buna diqqət yetirmək lazımdır. Bu nümunədə zahiri məsələlərin adı çəkilmir, iranlı və islamçı kimliyi də birincidə olduğu kimi inkar olunmur. Lakin siyasətçilərdə, cəmiyyətin aparıcı adamlarında bu yarışmanın hərəkət və inkişafına dair ümidsizlik müşahidə olunur. Yəni Qərbə uca və əlçatmaz bir yer kimi baxırlar. Adını da qoyurlar realistlik. Deyirlər ki, reallıq budur, onlar bu gün elmi baxımdan bu qədər öndədirlər, müxtəlif sahələrdə bu qədər inkişaf etmişlər, humanitar elmlərdə, ictimai, siyasi

məsələlərdə bu qədər yeni və kreativ nəzəriyyə irəli sürüblər, biz nə vaxt onların tozuna çata bilərik?! Yəni onlarda belə bir hiss mövcuddur. Bu otuz ildə mən dəfələrlə belə insanlarla rastlaşmışam. Onlar ya açıq, ya üstüörtülü şəkildə, ya da dolayısı ilə çatdırırdılar ki, düzdür, biz çalışmalıyıq, amma gərək onların ardınca gedək; biz nəinki onlardan önə keçə, heç tozlarına da çata bilmərik, nə üçün əbəs yerə özünüzü əziyyətə salırsınız?! Bu da səhv yoldur.

Bunun mənası odur ki, bizim xalqımız, müxtəlif Şərq və müsəlman xalqları həmişə Qərbin ardınca hərəkət etməyə, onların daimi şagirdləri olmağa məhkumdurlar, nəinki onlardan önə keçməyə, heç onlara çatmağa da ümid bəsləyə bilməzlər. Bu, çox təhlükəli və səhv fikirdir. Lakin təəssüf ki, bəzi universitet müəllimləri, siyasi mütəfəkkirlər və din natiqləri tərəfindən təbliğ olunur. Bu, uzunmüddətli bəşəri təcrübənin tam ziddinədir.

Məgər Allah-Taala insanların bir qismini belə yaradıbmı həmişə öndə olsunlar?! Hansı tarixi fakt bunu təsdiqləyir?! Məgər bu gün dünyada öndə olanlar bir neçə əsr bundan qabaq bütün sahələrdə dünyanın geriqalmış xalqları deyildilər?! Məgər Avropanın Orta əsrləri tarixin yadından çıxıb?! Mən dəfələrlə demişəm ki, Orta əsrlər cəhalət və zülmət dövrüdür, lakin müsəlman xalqlar üçün yox, Avropa üçün. Adını cəhalət, savadsızlıq, zülmət və yuxu dövrü qoyduqları həmin dövr bizim ölkəmizdə və müsəlman aləmində elm və fəlsəfənin əzəmət və inkişaf dövrü, siyasi inkişaf və iqtidar çağı idi. Bu baxış çox təhlükəlidir. Siz görürsünüz ki, bu gün ölkənizdə elmi inkişaflar var. Xüsusən həmin sahələrdə də bəziləri deyirdilər ki, faydası yoxdur. Lakin müsəlman və iranlı gənc iradə və həvəslə işə başladı, digərlərinə çatdı, bəzi yerlərdə digərlərindən önə də keçdi. Yəni sərf etdiyi zamana nisbətən önə də keçmişdir. Buna əsasən, bu təfəkkür sözügedən yanlış təfəkkürlərdəndir. Əsla ümidsiz baxmaq olmaz. Dinin, İslamın və Quranın insana baxışı belədir: nizam-intizamla, proqramla intensiv çalışmalıdır ki, nəticələrə nail olsun.

Azanın səsi gəlir.

Ümidvarıq Allah-Taala sizə uğur bəxş etsin və siz bu sahədə - tələbə olduğunuz və ölkənizin ən həssas dövrlərdən birində olduğu bu zamanda çox yaxşı imtahan verib ölkənin inkişafına vasitə olasınız!

İlahi! Bu əziz gəncləri Öz lütf, hidayət və himayən sayəsində bu ölkənin dünya və axirət ehtiyatı et! Onları bütün sahələrdə qalib et!

İlahi! Öz mənəvi lütf və bərəkətlərini ramazan ayı münasibətilə bu pak və gənc qəlblərə yağdır və dövrün imamının müqəddəs qəlbini bizim hamımızdan razı sal!

Allahın salamı və rəhməti olsun sizə!

## Milli iqtidar və mənəviyyat[9]

Bismillahir-Rəhmanir-Rəhim.

**Milli və mənəvi iqtidar**

İran İslam Respublikasının silahlı qüvvələrində iştirakınıza görə siz əziz gəncləri təbrik edirəm. Bu geyim dəyərli geyimdir. Çünki siz öz varlığınızla, xidmətinizlə, bir İslam əsgərinin dəyərli insani xarakterləri ilə öz xalqınızın, ölkənizin, müqəddəs və ilahi məmləkətinizin ümidinə səbəb olursunuz.

Dünyanın hər yerində silahlı qüvvələr milli iqtidarın çox mühüm şərtlərindən sayılır. Lakin bu iqtidar o zaman daha dəyərli olur ki, yalnız silah gücünə arxalanmasın. Silah mühümdür, silahlı insanın müdafiə bacarığı olur, lakin silahdan daha əhəmiyyətli olan silahlı insanın mənəvi və psixoloji gücüdür. Bu, bir ölkənin milli iqtidarını mənəvi, həqiqi və ölməz bir iqtidara çevirən amildir. Bir xalq qəlbləri iman nuru ilə işıqlanan, iradələri iman gücü və qüvvəsi ilə möhkəmlənən silahlı kişilərə, gənclərə, cəsarət və rəşadətli əsgərlərə malik olduqda misilsiz bir qüdrətə sahib olur. Siz bu gün belə bir geyimdəsiniz.

**Silahlı qüvvələr və əxlaqi dəyərlər**

İran İslam Respublikasında silahlı qüvvələr öz əzəmətlərini yalnız silah gücü ilə göstərmirlər. Bunun yanında onların iman gücünə bağlı olan mənəvi qüdrətləri var. İslam İranının əsgəri, hərbçisi və silahlı gənci Allah üçün, insaniyyət üçün, tövhidin yayılması və prinsipial dəyərləri müdafiə üçün bu formanı geyinir və özünü hazırlayır. Əgər bugünkü maddi dünyada və tarix boyu ordular hakimlərin acgöclük və tamahkarlıq alovunu söndürmək üçün yaradılmış və işlədilmişlərsə və əgər bu gün dünyanın silahlı qüvvələri supergüclərin hegemonluq alətinə çevrilmişdirsə, İran İslam Respublikasının silahlı qüvvələri canlarını dəyərlərə fəda edənlərdir; insani və ilahi dəyərləri möhkəmlətmək üçün məşq edir, müqavimət göstərir və meydanlarda dayanırlar. Sonda qaçılmaz və qətiyyətli qələbəni əldə edən budur. Bunu qorumalısınız.

**Silahlı qüvvələrdə iman və mənəviyyat**

Bu gün baş verən təcrübələr qəribə həqiqətləri ortaya çıxarır. Bu gün dünya müşahidə edir ki, özünün ərəb ölkələrindəki oxşar ordularını məğlub etmiş və təpədən dırnağa qədər silahlanmış bir ordu cəsarətli və igid Hizbullah gənclərinin imanı qarşısında məğlubiyyət xarlığını qəbul və bu mömin gənclər qarşısında zəif və aciz olduğunu etiraf etməyə məcbur oldu. Bu, mənəvi qüdrətin maddi güclərə üstünlüyü deməkdir. Orduda, Korpusda, Bəsicdə, polis qüvvələrində və İslam Respublikasının şərəfli silahlı qüvvələrinin hər hansı bir bölməsində xidmət edən əziz

gənclərimiz döyüş hazırlıqlarının kənarında iman və mənəviyyata malik olmaqla müstəsna bir imtiyaza malikdirlər. Bunun qədrini bilin.

**Silahlı qüvvələrin qüdrət amili**

Mənim əzizlərim! Siz özünüzü bu xalqı müdafiə etmək üçün hazırlayırsınız. Belə bir yola daxil olmuş və özünüz üçün belə bir gələcək təsvir etmişsiniz. Bizim xalqımız silahlı qüvvələrin dayağıdır, onları özündən və ayrılmaz hissələrindən bilir. Din böyüklərinin buyurduğu kimi, siz bu xalqın möhkəm hasarlarısınız. Bütün təlim və xidmət mərhələlərində bunu xatırlayın, yaddan çıxarmayın. Siz Allahın adı və ədalət naminə qiyam edən, öz imanı, gücü, cəsarəti və fədakarlığı ilə ən modern silahlara malik düşmənləri geri oturdan bir xalqın möhkəm qollarısınız. İslam inqilabının və İslam Respublikası quruluşunun ilk çağlarında onun müxalifət tufanları qarşısında dayana bilməyəcəyini güman edən bütün düşmənlər bu gün bilir və etiraf edirlər ki, İslam Respublikası ən güclüdür. Siz ən güclüsünüz. Bu qüvvə və qüdrət sizdə olan imanın güclülüyünə görədir. İmanın qədrini bilin və onu gücləndirin.

**Silahlı qüvvələrin vəzifələri**

İslam Respublikasının silahlı qüvvələrində xidmət edən bir insanın vəfizəsi yaxşı öyrənmək, nizam-intizamlı, həmişə hazır olmaq, ixlas, paklıq və mənəviyyatdır. Bunların hamısını özünüzdə yaradın. Bu böyük dəyərlərlə bəzənmək üçün gənclik fürsətindən yararlanın. Siz bu gün ömrünüzün ən yaxşı illərini yaşayırsınız. Allah və xalq qarşısında başıuca, mömin və fədakar bir insan üçün lazım olan mənəvi dəyərlər qazanmaqla Allahın layiqli bəndələri və dövrünüzün böyük adamları ola bilərsiniz. İran İslam Respublikası ordusu onun mühüm və böyük vəzifələrini öhdəsinə götürən böyük insanlara həmişə ehtiyaclı olmuşdur. Allaha şükür olsun ki, inqilabdan sonra bu günə qədər bizim belə insanlarımız olmuşdur. Bundan sonra da siz varsınız və bu ağır məsuliyyəti uzərinizə götürməlisiniz.

Allah-Taaladan istəyirəm ki, bu xalqın əziz gəncləri və bu ölkənin vəfalı əsgərləri olan sizə İslamın ən yaxşı əsgərləri və dövrünüzün ən yaxşı kişiləri kimi inkişaf uğuru nəsib etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## 13 Aban - xalqın idtidar günü[10]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, siz əziz gənclərə, tələbələrə, şagirdlərə, xalqın əziz övladlarına xoşgəldin deyirəm. Bu həm də mənim bütün əziz gənclərimizə həmişəki ürək sözüm və salamımdır.

Bu toplantı 13 aban (4 noyabr) münasibətilə keçirilir. 13 Aban çox əhəmiyyətli gündür; bir cəhətdən şagird günüdür, bir cəhətdən tələbə günü, bir cəhətdən də İran xalqının hegemonizmin hiyləsi qarşısında qüdrət günü. Mən bu münasibətlə siz əzizlərə iki-üç məsələ haqda danışacağam.

**Məsuliyyət hissi və onun möcüzəvi nəticələri**

Bir məsələ budur ki, müsəlman İranın başucalığını sevən, özünü İslamın əsgəri bilən və həqiqətən, belə də olan sizlər gələcəyi qurmaq işində böyük məsuliyyət daşıyırsınız. Bu, doğruçu, həqiqi və realist bir məktəbin xüsusiyyətidir: hamı məsuliyyət daşıyır. İstedadların çiçəklənməsi dövründə olan gənc də məsuliyyət daşıyanlardandır. Məsuliyyət yalnız qocalara və orta yaşlılara aid deyil. Bir baxımdan demək olar ki, gəncin məsuliyyəti daha ağırdır. Çünki gəncin bacarığı, istedadı və qüvvəsi digərlərindən artıqdır. Gənc öz daxilində, qəlbində və vicdanında bu ölkənin, xalqın və tarixin gələcəyinə dair məsuliyyət daşıdığını hissi edir. Müqəddəs müdafiə dövründə öhdəlikli gənclərin əksəriyyətini müdafiə meydanına çəkən bu məsuliyyət hissi idi. Gənclər öz evlərində ata-anaların sayəsi, nəvazisi altında qala bilərdilər; nə qışda Qərbin başı göylərə ucalan qarlı dağlarına, nə də yayda Xuzistanın yandırıcı çöllərinə gedə, rahat yaşaya bilərdilər. Lakin məsuliyyət hissi rahatlıq ardınca qaçmalarına qoymadı. Onlar səhnəyə çıxdılar və nəticə möcüzəvi oldu.

**Məcubi müharibədə iradə və imanı tanımağın zəruriliyi**

Mən istəyirəm ki, bizim gənclərimiz səkkizillik məcburi müharibə hekayəsini öyrənsinlər. Bunu dəfələrlə demişik, digərləri də demiş və izah etmişlər. Amma bu səkkiz ilə xırdalıqları ilə yanaşı olan kompleks baxış bizim dövrümüzdə gəncin gələcək proqramı üçün çox əhəmiyyətlidir. Xöşbəxtlikdən yaxşı kitablar da yazılmışdır. Mənim çox vaxtım olmasa da, müqəddəs müdafiə barədə yazılan kitabların çoxuna baxıram, özüm üçün faydalıdır. Bu kitabları oxuyun, bu dəyərli gənclərin həyatını öyrənin. Döyüş meydanının bu dəyərli gənclərinin bəziləri 13 abanda böyük qəhrəmanlığı yaradanlar idilər, ondan sonra cəbhəyə getmişdilər. Onların bir çoxu bu gün bizim tariximizin həqiqətən, ölməz simalarındandırlar. Məsuliyyət hissi budur.

Ozamankı dünyanın həqiqətən, bütün supergücləri - ozamankı Sovetlər, ABŞ, Fransa, Şərqi Avropa bloku və regionun mürtəce dövlətləri əl-ələ verib Bəs rejiminə

pul, qüvvə, məlumat və silah ötürdükləri səkkizillik müharibədə iradə və imandan başqa bir şeyi olmayan ölkə və xalq qarşısında qaldılar; silah yox idi, sursat yox idi, yetərli məlumatlar yox idi, lakin iman onları polad kimi, qaya kimi möhkəm etmişdi. Bu iki fərqli cinah üz-üzə gəldilər və bu cinah o birinə qalib gəldi. Yəni İran xalqının iman gücü pulu, məlumatı, silahı, sursatı və hər şeyi olan o əzəmətli və nəhəng birliyi üstələdi. Bu, məsuliyyət hissinin nəticəsi idi.

**Gənc və məsuliyyət hissi**

Məcburi müharibədən öncə inqilabın özündə gənclərin iradəsi, məsuliyyət hissi bu böyük və tarixi möcüzəni yaratdı. Onlar hegemonizmin regiondakı səngərini, möhkəm qalasını - yəni İranın şah rejimini həmin güclü və mömin əllərlə uçurdular, demokratik İslam dövləti qurdular. Məsuliyyət hissi budur.

Bu ölkənin, bu xalqın sabahı sizin bugünkü məsuliyyət hissinizə ehtiyaclıdır. Məsuliyyət hiss etmək üçün nə olmalıdır? Özünüzü elm, iman və təqva baxımından islah etməli, ayıqlığınızı, bu günə, dünənə və sabaha dair məlumatlarınızı artırmalısınız. On-on iki ildən sonra burada iştirak edən sizlər və bütün ölkədə olan həmyaşıdlarınız İranı idarə edən təhsilli gənclər olacaqsınız. Sizin bir çoxlarınız bəzi vəzifələrdə çalışacaqlar. Gələcəyin prezidentləri, nazirləri, məmurları, müxtəlif sahələrin görkəmli şəxsləri – texnoloqlar, proqram hazırlayanlar, mütəfəkkirlər, ölkə idarəsinin nəzəriyyəçiləri sizin aranızdan çıxacaqlar. Onlar da həm alim olmalıdırlar, həm sözün həqiqi mənasında dindar, mənəviyyatlı və ayıq. Bunun üçün mütləq indidən özünüzü hazırlamalısınız. Bu, birinci məsələ.

Siz mənim övladlarımsınız. İnsan öz övladı üçün ən yaxşısını sevir. Bu da ən yaxşısıdır. Gərək özünüzü hazırlayasınız. Bu xalqın öndə tutduğu yol bu tezlikdə bitən deyil, bir xalqın ucalıq yolu, son bir-iki əsrin geriliklərini aradan qaldırmaq yoludur. Növbəti məsələdə deyəcəyəm ki, sizin bu gündən özünüzü sabaha hazırlamağınız çox əhəmiyyətlidir.

**İranla hegemon dünyanın ixtilafları**

İkinci məsələ budur ki, İslam Respublikası ilə hegemon dünya, ABŞ və digər hegemon güclər arasında qarşıdurma, ixtilaf var. İxtilaf nəyin üstündədir? Bu, mühüm məsələdir. Dava nəyin üstündədir ki, bu gün analitiklər təhlil edəndə deyirlər: “Amerika dünyanın müxtəlif məsələlərinə qoşulanda gözucu İslam Respublikasına və İran xalqına baxır”. Nə üçün? Səbəb nədir? Biz də öz daxili məsələlərimzə baxdıqda görürük ki, xalqımızın və ölkəmizin bir çox problemləri müxtəlif yollarla amerikalılar tərəfindəndir. Nə üçün? Səbəb nədir? Dəqiq baxışla bunu axtarıb tapmaq lazımdır.

Dava bir neçə siyasi məsələ üstündə deyil. İki ölkənin bəzi məsələlər üstündə bir-biri ilə ixtilafı ola bilər; oturub müzakirə ilə bunu həll edərlər və məsələ bitər. İslam Respublikası ilə hegemon ABŞ-ın problemi bu qəbildən deyil, daha köklüdür. Məsələ budur ki, Amerika Birləşmiş Ştatları rejimi İkinci Dünya Müharibəsindən sonra dünyanın mütləq gücü olduğunu iddia edirdi. Düzdür, o zaman SSRİ onun

qarşısında idi, lakin ABŞ və ozamankı SSRİ arasındakı rəqabət məsələsi sırf iki supergüc rəqabəti deyildi. ABŞ dünyanın bütün həyat mənbələrinə əl qoymaq istəyirdi. Orta Şərq adlanan böyük və həssas region, neft zonası olan Şimali Afrika və Fars körfəzi də əməldə ABŞ iqtidarının pəncəsində idi. Neft bugünkü dünyanın hərəkətinin həyatverici qanıdır. Sabah nə olacağını bilmirik, amma bu gün və bu dünyada neft istehsal, istilik, işıq və çoxlu ölkələr üçün əslində, həyat amilidir. Əgər neft olmasa, zavodlar işləməz, istehsal və ticarət olmaz. Neft qandır, həyatdır. Neftin böyük hissəsi adı Orta Şərq olan bu regiondadır. Buraya hakim olmaq mühümdür və ABŞ hakim olmuşdur.

Orta Şərqin ortasında hegemonizmin əsas bazası olan İran yerləşirdi. İranın ətrafında hər biri bir şəkildə ABŞ-ın əlində olan müxtəlif dövlətlər vardı. Bu arada Sovetlər də bəzi əluzunluqlar etmişdi, amma amerikalılar qələbə çalmışdılar və bu proses davam etməli idi. Əlbəttə, tamahkarlıq bu regiona və neftə məxsus deyildi. Amerikalılar Latın Amerikasında, Afrikada, Şərqi Asiyada və müxtəlif yerlərdə - bu haqda bir dəfə siz gənclərlə geniş söhbət edəcəyəm - öz hakimiyyətlərini möhkəmlətməklə məşğul idilər; irəliləyir, günbəgün hökmranlıqlarını gücləndirir və rəqiblərini sıxışdırırdılar.

Hegemonizmin qüdrətinin günbəgün artdığı bu qızğın çağda və ən həssas nöqtədə İranda İslam İnqilabı baş verdi. Bu inqilabın ən mühüm şüarı zülm və hegemonizmlə mübarizə, xalqların hüququnu müdafiə idi. İslam inqilabı bu əsas nöqtəni - yəni İranı ABŞ istismarından azad etdi. Bir zaman amerikalıların sizin bu ölkənizdə, Tehranınızda, ölkənin müxtəlif bölgələrində, bütün həssas sahələrdə adamları vardı. Silahlı qüvvələrdə, maliyyə orqanlarında, həssas siyasi və təhlükəsizlik qurumlarında onların ünsürləri tam səlahiyyət sahibi idilər. Ölkənin bütün qurumlarının başçısı olan və bütün işlərə müdaxilə edən şahın özünün də qulağı ABŞ və İngiltərə səfirlərinin ağızında idi. Əgər onlar bir şey istəsə və israr etsəydilər, çarəsiz qalıb istər-istəməz itaət göstərirdi. Bəzən istəmirdi də, amma itaətə məcbur olurdu. Amerikalılar belə bir yerdən qovuldular. Bu, çox mühüm hadisə idi, kiçik yara deyildi.

**Casus yuvası hadisəsi və ABŞ heybətinin sonu**

Hegemon dövlətlər adətən, səfirlikləri vasitəsilə zəhər səpir, əlaqə qurur və casusluq imkanları yaradırlar. İndi də belədir. İndi də dünyada səfirliklər vasitəsilə müxtəlif fəsadlar törədirlər. Onlar da bu yolla işləməyə başladılar. "İmamın xəttinin ardıcılı olan müsəlman tələbələr" adlı tələbə təşkilatının gəncləri bu hiyləni puç etdilər. Onlar gedib səfirliyi tutdular, sənədləri çıxardılar. İndi həmin sənədlərdən ibarət təxminən yüz cild kitab çap olunmuşdur. Mən bilmirəm siz gənclər casus yuvasının sənədləri olan bu kitabları oxumusunuz, oxuyursunuz, yoxsa yox. Bunlar oxumalı kitablardır. Görün o zaman ABŞ səfirliyi İranda nə iş görürmüş, kimlərlə əlaqə qururmuş və inqilabdan öncəki illərdə bu səfirliyin rolu nədən ibarət olmuşdur?

Bizim tələbələrimiz bu böyük işi gördülər. Amerikalılar buna qarşı qəzəblərini hələ də gizlətmirlər. Təəssüf ki, ölkə daxilində və ozamankı həmin gənclərdən olan bir qrup peşman, yorğun və həvəsbaz adam – həvəslə bir iş görən, sonra rahat yaşyaşlarının ardınca gedənlər və həvəsləri dəyişilənlər o işi pislədilər və pisləyirlər. Amma bilin ki, bu, çox böyük işi idi, imamın buyurduğu kimi, birinci inqilabdan da böyük idi. Çünki İranda və dünyada ABŞ istismarçılığının, ABŞ hegemonluğunun heybətinə son qoydu.

Belə böyük bir hadisə baş vermişdir. Bu, kiçik yara deyil. Məsələ bununla da bitmədi. İnqilabi İslam quruluşunun yaşaması, inkişafı, müxtəlif zəfərləri - müqəddəs müdafiədə, elmdə, müxtəlif ictimai və siyasi sahələrdə zəfərləri digər xalqlara günbəgün daha artıq təsir etdi, regionun xalqları, ürəkləri dolu olan rəhbərsiz müsəlman xalqlar da İranda belə bir hadisənin baş verdiyini görüb sevindilər, İslam quruluşuna, imamın rəhbərliyinə məftun oldular. Bu gün də belədir. Bu gün də İslam dünyasının qərbindən şərqinə qədər hər yerdə xalqlar İran xalqına və bu inqilaba alqış və qibtə ilə baxırlar. Bütün bunlar amerikalıların yarasını dərinləşdirir. ABŞ-ın İslam Respublikasına qarşı düşmənliyinin səbəbi budur.

**İranla qarşıdurmada ABŞ-ın məqsədləri**

ABŞ istəyir ki, İslam Respublikası quruluşu əllərini qaldırıb yorulduğunu bildirsin, gördüyü işdən peşman olub tağut dövrünün muzdurları, yetirmələri və ardıcılları sırasına qoşulsun. Hegemonizm bunu istəyir. ABŞ-ın İran xalqından istədiyi budur ki, asılılığı qəbul etsin, əldə etdiyi müstəqilliyini kənara qoysun və öz əli ilə yenidən ABŞ-a təslim olsun. Onlar İran xalqından bunu gözləyirlər və göstərdikləri təzyiqlər bundan ötrü, İslam Respublikasının hökumətlərini və xalqı yormaq üçündür; yolun ortasında xalq desin ki, daha bəsdir, biz yorulmuşuq, hökumətlər də geri çəkilsinlər və ABŞ bu ölkə ilə yenə də keçmişdəki kimi rəftar etsin. Onlar bunu istəyirlər.

**ABŞ-la qarşıdurmada İranın məqsədləri**

İslam Respublikası quruluşu və İran xalqı tərəfindən də məsələ bu qədər dərindir. İran xalqının Amerika ilə problemi bugünkü əməllərin problemi deyil, 1953-cü ildən bu günə qədər onun tərəfindən İran xalqına qarşı törədilən, 50 ildən artıq sürən əziyyət və xəbisliyin problemidir. İnqilabdan illər öncə, xüsusən də imamın ruhani hərəkatı başlayandan inqilabın qələbəsinə qədər İran xalqına qarşı istədikləri qədər təxribat apardılar, zərbə vurdular, xəyanət etdilər, təzyiq göstərdilər, müxtəlif pislikləri etdilər. İnqilabın qələbəsindən sonra - indi otuz ildir - elə bir gün olmayıb ki, ABŞ-ın İran xalqına yaxşı niyyəti olsun, keçmiş işlərinə görə üzr istəsin, səmimi şəkildə hegemonluq və tamahkarlıqdan əl çəksin. Bizim ABŞ-la problemimiz iki-üç qlobal, yaxud regional məsələ üstündə fikir ayrılığı deyil ki, oturub müzakirə ilə həll edək. Məsələ ölüm-dirim məsələsi kimidir. Bu ikinci məqamdır. Siz gənclər bilin ki, biz dava-dalaş adamı deyilik, lakin öz kimliyini, müstəqilliyini, heysiyyətini qoruyan

adamlarıq. İran xalqı onun heysiyyətini tapdamaq, onu təhqir etmək, talamaq istəyənlərin əlini öz qeyrəti, imanı ilə kəsəcək.

**Gələcək İran xalqına məxsusdur!**

Üçüncü və sonuncu məsələ budur ki, bu qarşıdurmanın sonu nə olacaq. Bu, mühüm məsələdir. Qərbin, xüsusən də ABŞ-ın bütün təbliğat maşınları – incəsənət, informasiya, müxtəlif təbliğat qurumları, zahirən siyasi, yaxud elmi tədqiqat mərkəzləri inandırmağa çalışırlar ki, İran xalqı sonda dalana dirənəcək və ABŞ uğurla irəliləyəcək. Bu, ağ yalandır, həqiqət bunun əksinədir. Bu yolun sonu ABŞ-ın tağut və hegemon rejimi üçün dalandır. Aydın dəlili budur ki, onlar İran xalqını məğlub edə bilsəydilər, bu xalqın nə bu qədər gənci, nə bu qədər inkişafı, nə bu təcrübələri olan, nə müqəddəs müdafiə kimi böyük bir döyüşdə qələbə çaldığı, nə müxtəlif siyasi sahələrdə öz gücünü göstərdiyi zaman məğlub edərdilər. Əgər İran xalqını məğlub edə bilsəydilər, o zaman edərdilər, təcrübəsinin artdığı, əl-qolunun gücləndiyi, elmi imkanlarının keçmişdəkindən dəfələrlə inkişaf etdiyi, hərbi qüdrətinin qat-qat artıq olduğu, xalqlar arasında sözünün keçmişdəkindən daha artıq keçdiyi və o gündən daha çox gəncləri olan bugünkü gündə yox. O zaman İran xalqının 40-45 milyon əhalisi arasında gənclər azlıqda idilər, bu gün isə 70 milyondan artıq əhalinin çoxu gənclərdir. O zaman ABŞ-ın dünyada bugünkündən olduqca çox hörməti vardı, bu gün isə dünyada rüsvay olmuşdur. Bu gün yalnız müsəlman xalqlar yox, hətta bir çox Qərb xalqları da Amerikadan üz çeviriblər. ABŞ-ın özündə bir çox nəzər sahibləri və xalqın çoxu hakim rejimə etirazlıdırlar.

Bu gün ABŞ-ın xalqların başını kəsdiyi, boynunu vurduğu və milli hökumətləri devirdiyi əsas şüarları, məsələn, insan hüquqları və demokratiya şüarları rüsvay olmuşdur. Onlar insan hüquqlarını Əbu Qüreyb, Quantanamo və digər həbsxanalarda göstərdilər; Əfqanıstanda törətdikləri və bu gün Pakistanda törətməkdə olduqları müxtəlif qırğınlarda göstərdilər və göstərirlər; demokratiya istəklərini də işğal olunmuş Fələstində göstərirlər. Fələstində bir xalq hakimiyyəti qurulmuş, HƏMAS təşkilatı xalqın səsi ilə iş başına gəlmişdir. Müxtəlif xəbisliklərlə bu hökumətə təzyiq göstərirlər. Onlar demokratiya istəklərini İraqda göstərməkdədirlər. Təhlükəsizlik müqaviləsini zorla qəbul etdirmək istəyirlər; o qədər təzyiq göstərdilər ki, hamını boğdular. İndi İraq xalqı və məmurları başlarını qaldırıb “biz qəbul etmirik” - dediklərinə görə təzyiq göstərirlər, təhdid edirlər. Halbuki İraqın indiki hökuməti xalqın səsi hakimiyyətə gəlmişdir. Demokratiya nədir?! Bundan başqa bir şeydir?! Uzun illər boyu onların fikir sahibləri dəfələrlə etiraf etmiş və hesabatlarında yaymışlar ki, Orta Şərqdə ən demokratik ölkə İslam Respublikasıdır; seçkiləri var, prezident, parlament, rəhbərin özü, Dini Ekspertlər Məclisi xalqın səsi ilə seçilirlər. Lakin eyni zamanda İslam Respublikasına qarşı belə rəftar edirlər. Respublikaçılıq, demokratiya və insan hüquqları şüarları köhnəlmişdir, hətta adi camaat da daha bu sözlərə inanmır, o ki qala fikir sahibləri və görkəmli adamlar.

Bu gün ABŞ prezidenti dünyanın hansı ölkəsinə gedirsə, o ölkənin camaatı toplaşıb deyirlər ki, evinə qayıt, yanki, qayıt evinə. Bundan böyük rüsvayçılıq?! ABŞ-

ın bugünkü imici belədir. Əgər ABŞ İran xalqının önünü kəsib onu dalana dirəyə bilsəydi, bu rüsvayçılıqların olmadığı zaman edərdi. Bu gün bacarmaz.

Mən sizə deyirəm, əziz gənclər, gələcək sizə məxsusdur. Gələcək İran xalqına məxsusdur. İran xalqının gələcəyi elmin, iqtidarın, rifahın uca zirvələrinə çatmaqdır. Bu sizin qəti gələcəyinizdir. Bu, ilahi vəddir. Quran və İslam bizə vəd vermişdir ki, xalqlar hərəkət etsələr, iman, qeyrət və müqavimət göstərsələr, yorulmasalar, dözümlü olsalar, mütləq öz məqsədlərinə çatacaqlar. Biz indiyədək sınamışıq, möhkəm dayanmışıq və ortamüddətli məqsədlərə çatmışıq. Bəzi yerlərdə uğursuzluğumuz da olub; çünki möhkəm dayanmamışıq, təqsir bizim özümüzdədir. Harada problem və çatışmazlığımız varsa - əgər ədalətsizlik, yoxsulluq varsa, ona görədir ki, biz məmurlar və xalq bu məqsədlər yolunda düzgün dayanmamışıq; əgər dayansaydıq, buralarda da düzələrdi. Bu bizim öz təqsirimizdir. Gərək möhkəm dayanaq.

**Vəhdət - qələbənin sirri**

Siz əziz gənclər - tələbə və şagird birlikləri və birlik üzvü olmayan gənclər, bilin ki, bu gün İran xalqının vəhdəti, xalqın və hökumətin birliyi, dövlət məmurları arasındakı birlik bizim qələbə sirrimizdir. Bunu pozmaq istəyirlər. Mən gənclərin şüarlarını dəstəkləyirəm, lakin ehtiyatlı olun ki, bu şüarlar ixtilaf yaratmasın, düşmənin istəyini təmin etməsin. Düşmənin idarə etdiyi oyunda oynamayın, bundan ehtiyatlı olun; hamı ehtiyatı olsun - siyasi adamlar da, mətubat da, gənclər də, məmurların özləri də.

**Düşmənin təxribatı**

Düşmən plan qurur, onun planladığı oyunda oynamayın. Çünki udsanız da, uduzsanız da, onun xeyrinə olacaq. Düşmənin planı ixtilaf və ümidsizlik yaratmaq, siyasi fəalları bir-birinin canına salmaq, əsl xətti və İslam dəyərlərini təcrid etməkdir. Bu işlər düşmənin planlarıdır. Gəncləri nəfsi istəklərlə və əbəs işlərlə məşğul edib İran xalqının ümumi hərəkətindən yayındırmaq, məktəbləri, universitetləri bağlamaq düşmənin planlarıdır. Ehtiyatlı olmaq lazımdır. Bu planlarla nəticələnən hər bir işə qarşı çıxmaq lazımdır. Birliyi qorumaq, ümidi qorumaq, fəaliyyəti günbəgün artırmaq, bir-birinə qarşı sədaqətli olmaq, ürəkləri bir-birinə yaxınlaşdırmaq və müxtəlif ictimai vəzifələrdə həvəslə çalışmaq lazımdır.

Bəzi adamlar indidən seçki işlərinə başlayıblar, halbuki hələ çox qalıb. Seçki məsələləri çox mühümdür. Seçkilərə yaxın ərəfədə onun əhəmiyyəti seçkilərdə iştirak etməyə görədir, bugünkü əhəmiyyəti isə insanların başını bir-birinə qatmaq, bir-biri ilə əlbəyaxa olmaq, bir-birini pisləmək və xalqı əsl məsələlərdən yayındırmaq üçündür. Ehtiyatlı olun. Mən bilirəm ki, İran xalqı ilahi yardım və lütflə bu ardıcıl keçidləri tam qüdrətlə keçəcək və inşallah, zirvələrə çatacaq.

İlahi! Dövrün imamının müqəddəs qəlbini bizə qarşı mehriban et! Onun duasını bizə şamil et! Əziz imamımızı və böyük şəhidlərimizi övliyalarınla birgə et! Düzgün yolla getmək səadətini bizim hamımıza nəsib et!

Allahın salamı və rəhməti olsun sizə!

## Gənc, namaz və məscid[11]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, namazın təbliği işində çalışan əziz qardaş və bacılara səmimi təşəkkürümü bildirirəm. Bu hər yerdə yaxşı və dəyərlidir; xüsusən də universitetlərdə. Allah-Taaladan istəyirəm sizə, cənab Qiraətiyə - o bu iradəni göstərdi, bu gözəl ağacı əkdi və Allaha şükür olsun ki, bu gün yaxşı qol-budaq atmışdır - və bu böyük işin digər əməkdaşlarına uğurlu və uzun ömür versin ki, bu işi davam etdirə bilsinlər!

**Namaz və onu bərpa etməyin əhəmiyyəti**

Namazı bərpa və təbliğ etməyin əhəmiyyəti namazın öz əhəmiyyətindən irəli gəlir. Biz müqəddəs İslam şəriətində - istər Quranda, istər əziz Peyğəmbərin sözlərində, istər məsumların buyruqlarında namaza dair bu qədər həvəsləndirmə və diqqət görür və anlayırıq ki, namaz insanın fiziki, psixoloji, fərdi və ictimai xəstəliklərinin şəfalı dərmanları arasında birinci, yaxud birincilərdəndir. Bütün şəriət göstərişləri – vacib və haram işlər fərdin və cəmiyyətin dünya və axirət işlərinin islahı və mənəvi cəhətdən güclənməsi üçün Rəbb tərəfindən yazılmış dərmanlar məcmusunu təşkil edir. Lakin bu məcmuda bəziləri açar amillərdəndir. Bəlkə də demək olar ki, namaz bu baxımdan birincidir: "O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək (onlara imkan və qüdrət versək), namaz qılarlar"[12]. Möminlər, Allah yolunun mücahidləri, ilahi bilgilərin möhkəmləndirilməsi yolunun fədakarları belədirlər: biz onları imkanlı etdikdə, onlara qüdrət verdikdə çox işlər görməlidirlər; ədalətin bərqərar edilməsi və filan-filan işlərin görülməsi. Lakin birinci məsələ budur ki, namazı bərpa edərlər. Bəs namazda hansı sirr var ki, onu bərpa etmək bu qədər mühümdür?

**Namazın rolu və təsirləri**

Namaz barədə çox söhbət olunmuşdur. Hər bir insanın daxilində üsyançı bir nəfs, məst bir fil vardır; əgər ondan ehtiyatlı olsanız, çəkiclə dayanmadan başına vursanız, sizə zərər yetirməyəcək, rəftarı düzələcək və hətta inkişafınıza səbəb olacaq. Nəfs insani qərizələr toplusudur. Əgər bu qərizələr düzgün nəzarətdə saxlanılsa, düzgün yolda işlədilsə, insanı kamilliyin zirvəsinə çatdırar. Eyib budur ki, məstlik edirlər. Onlara nəzarət edən olmalıdır. Əgər dünyada zülm varsa, bir, yaxud bir neçə nəfərin və ya bir toplumun qərizələrinin, nəfslərinin məstliyindən irəli gəlir. Əgər dünyada pozğunluq varsa, belədir; insana qarşı təhqir və insan ləyaqətini alçaltmaq varsa, belədir, yoxsulluq varsa, bəşəriyyətin böyük bir hissəsi yer üzündəki ilahi nemətlərdən məhrumdursa, buna görədir. Zülmkar toplumun nəfsi zülm

törədir, hər şeyi ələ keçirmək istəyən və doymayan rəhmsiz qrup yoxsulluq əmələ gətirir, aclığa səbəb olur. Bütün bu fəsadlar tarixin əvvəlindən bu günə qədər dünyada mövcud olmuşdur. İnsan Allahın bəxş etdiyi müxtəlif istedadları işlətməkdə inkişaf edib, lakin bu azalmamışdır, çoxalmışdır. Şair[13] deyir ki, əgər oğru çıraqla gəlsə, daha yaxşılarını aparar. Atom bombası olan bir zalım yalnız xəncərlə vuruşan bir zalım kimi olmaz.

**Namazın əhəmiyyəti və təsirləri**

İnsanların vücudunda belə bir şey var. Bütün insanlar öz daxillərində bu məst filə düçar olmuşlar; onu cilovlamalıdırlar. Bu, Allah zikri ilə, Allahı xatırlamaqla, Allaha sığınmaqla, Rəbbə ehtiyac, ilahi əzəmət qarşısında özünü kiçik görmək hissi ilə, Haqq-Taalanın mütləq gözəlliyi qarşısında öz çirkinliklərini duymaqla mümkün olur. Bunların hamısı zikrdən irəli gəlir. Təqvalı olan - yəni özündən ehtiyatlı olan və özündə olan insan şərin, zülmün, fəsadın, tüğyanın və ona-buna pisliyin mənşəyi olmur, ilahi zikr onu daim çəkindirir, saxlayır. Namaz insanı pis işlərdən çəkindirir. İnsanın əl-qolunu bağlamır, qərizələri işdən salır. Bəzi adamlar elə bilirlər ki, "namaz çirkin və bəyənilməz işlərdən çəkindirir"[14] ayəsinin mənası budur ki, əgər namaz qılsan, pozğunluq və bəyənilməz işlər məhv olacaq. Xeyr, mənası bu deyil. Mənası odur ki, namaz qıldıqda namazla cana gələn daxili nəsihətçi davamlı olaraq sənə pozğunluğun və bəyənilməz işlərin pisliyindən danışacaq. Deməyin, təkrar etməyin və ürəyə oxumağın da təbii ki, təsiri var, ürəyi təzimə vadar edir. Buna görə görürsünüz ki, namaz təkrar olunmalıdır. Oruc ildə bir dəfə, həcc ömürdə bir dəfədir. Namaz isə hər gün bir neçə dəfə təkrar olunmalıdır. Namazın əhəmiyyəti budur.

Əgər namaz qılsaq, insanın daxilindən, qəlbindən tutmuş cəmiyyət və hakimiyyət miqyasına qədər hamı onun sayəsində qorunar, təhlükəsiz olar; insanın qəlbi, cismi, cəmiyyəti təhlükəsiz olar. Namazın xüsusiyyəti belədir. Cəmiyyətdə namazı bərpa etmək budur. Sizin işiniz - ölkənin hər bir nöqtəsində və hər bir təbəqə arasında, ən əsası, alim və tələbə gənclər arasında fəaliyyət göstərən Namaz Təbliğatı Komitələrinin funksiyası bu qədər təkid göstərilən bu işdən ibarətdir. Bunun mənası cəmiyyəti ümumi zikr halına sövq etməkdir; hamı xatırlasın; kiçik, böyük, qadın, kişi, dövlət məmuru, özəl işçi - bunlar Allahı yada salsalar, işlər düzələr. Bizim günahlarımızın çoxu diqqətsizlikdən baş verir. Və namaz daim yada salır.

**Namazın forma və məzmunu**

Bu barədə çox danışıblar, biz də dəfələrlə danışmışıq. Namazın cismi və ruhu var. Buna diqqət yetirmək lazımdır. Namazın forması və məzmunu, cismi və ruhu var. Ehtiyatlı olmalıyıq ki, onun cismi ruhsuz olmasın. Demirik ki, ruhsuz cisminin heç bir təsiri yoxdur; hər halda, azca təsiri var. Lakin İslamın, Quranın, şəriətin, Peyğəmbərin və imamların bu qədər təkid göstərdikləri namaz forma və məzmunlu namazdır. Onun forması da məzmununa, ruhuna uyğun hazırlanıb: qiraət, rüku, səcdə, torpağa düşmək, əl qaldırmaq, ucadan danışmaq, astadan danışmaq var. Bu rəngarənglik namaz vasitəsilə təmin olunan bütün ehtiyaclar üçündür. Onların hər

birinin sirri var və ümumilikdə namazın formasını tamamlayırlar. Forma çox mühümdür. Lakin namazın əsl ruhu diqqətdir, diqqət; yəni nə iş gördüyünü bilmək. Qeyd etdiyim kimi, diqqətsiz namazın təsiri azdır.

Siz bir neçə karatlıq çox dəyərli bir almaz parçasından iki cür istifadə edə bilərsiniz. Biri budur ki, ondan qiymətli daş kimi istifadə edəsiniz. Biri də budur ki, onu tərəzi daşı kimi işlədəsiniz və bir neçə qramlıq daş kimi tərəziyə qoyub istiot, yaxud sarıkök çəkəsiniz. Bu da almazdan istifadə etmək sayılır, amma necə? Bu, onu tələf etmək kimi bir şeydir. Düzdür, yenə də sındırmaq kimi deyil, lakin uyğun istifadə də deyil. Namazla tərəzi daşı etdiyimiz almaz kimi rəftar etməməliyik. Namaz çox qiymətlidir.

**Namazda qəlbin diqqəti**

İnsan bəzən namaz qılır, amma digər gündəlik adətlər kimi; məsələn, dişlərimizi fırçaladığımız və idman etdiyimiz kimi, vaxtı çatanda namaz da qılırıq. Bəzən də insan namaz qılır, amma Pərvərdigarın hüzurunda dayanmaq istəyi ilə. Bu da başqa cürdür. Biz həmişə Rəbbin hüzurundayıq; yatmış olaq, oyaq olaq, diqqətli olaq, diqqətsiz olaq. Lakin siz bir zaman dəstəmaz alır, özünüzü hazırlayır, pak cisimlə, pak paltarla, dəstəmaz və qüsldən irəli gələn mənəvi paklıqla aləmin Rəbbi qarşısına çıxırsınız. Namazda bizim belə bir hissimiz olmalıdır. Rəbbin hüzuruna gedib danışmaq, namaza belə başlamaq, özünü Allah qarşısında hiss etmək lazımdır. Namazda deyilən sözlər kiməsə ünvanlanmalıdır. Bizdən söz və hərflərdən ibarət səs dalğalarını havaya üfürmək istənmir. Eləcə "Əlhəmdu lillahi Rəbbil-aləmin. Ər-Rəhmanir-Rəhim. Maliki yəumid-din..." deyib dalğaları səpələmək olar. Bunu yaxşı qiraətlə, lakin diqqətsiz desək, səs dalğalarını havaya yaymaq sayılacaq. Bizdən istənilib ki, namaz halında ürəyimizi Rəbbin dərgahına aparaq, ürəyimizdən və ürəyimizlə danışaq; bunlar mühümdür. Namazın təbliğində, özümüz qıldığımız və digərlərinə öyrətdiyimiz namazlarda onun ruhuna diqqət yetirək.

Sözsüz ki, bu ruh cisimsiz əldə olunmur. İnsan düşünə bilər ki, əgər budursa, oturub yüz dəfə zikr deyərik və daha namaz qılmarıq. Xeyr, dediyimiz kimi, o cisim, o bədən bu ruh vasitəsilə təmin olunan ehtiyaclara uyğun tənzim olunmuşdur. Buna görə görürsünüz ki, hədislərdə namazın müxtəlif vəziyyətləri üçün bəzi xüsusiyyətlər təyin etmişlər; bunlar vacib yox, müstəhəbdir. Məsələn, qalxanda haraya baxın, səcdə edəndə haraya baxın, rüku edəndə bəzi hədislərdə var ki, gözlərinizi bağlayın, bəzi hədislərdə var ki, qabağa baxın... Bu xüsusiyyətlərin hamısı insan üçün lazım olan diqqət halının yaranmasına kömək edir.

**Namazı yüngül saymaq**

Namazın əhəmiyyətinin vəsfi bizim üçün bəlkə də imkansız ola bilər. İmam Sadiq (ə) vəfatı ilə nəticələnən xəstəliyi zamanı öz canişininə buyurdu: "Namazı yüngül sayan məndən deyil".[15] Hədisdə işlənən "istixfaf" sözü yüngül saymaq, əhəmiyyətsiz hesab etmək deməkdir. İndi bütün bu xüsusiyyətlərə, bütün bu fəzilətlərə malik olan bu namaz insandan nə qədər vaxt alır? Bizim on yeddi rəkətli

bu vacib namazımızı insan diqqətlə və bir qədər ürəkdən qılmaq istəsə, məsələn, 34 dəqiqə vaxt alar, belə olmasa, daha az vaxt alar. Biz bəzən xoşladığımız bir verilişi gözləyərkən televizorun qabağında otururuq və ondan qabaq 20 dəqiqə, 15 dəqiqə heç bir faydası olmayan reklamlar gedir. Oturub dinləyir və istədiyimiz verilişdən ötrü 20 dəqiqə vaxtımızı itiririk. Bizim həyatımızın 20 dəqiqələri belə ötür. Taksi gözləyirik, avtobus gözləyirik, dostumuzu gözləyirik ki, gəlsin bir yerə gedək, dərsə gecikən müəllimi gözləyirik, məclisə gec çatan vaizi gözləyirik; bütün bunlarda 10 dəqiqə, 15 dəqiqə, 20 dəqiqə hədər gedir. Belə 20, 25, 30 dəqiqəni bu qədər uca və böyük əməl olan namaza sərf etmək məgər böyük işdir?!

**Namaz və gənc**

Gənclər arasında namaza daha çox əhəmiyyət verilməlidir. Namazla gəncin qəlbi işıqlanır, ümidlənir, ruhu təravətlənir və şadlanır. Bu hallar daha çox gənclərə və gənclik dövrünə aiddir. Əgər Allah mənə və sizə diqqətlə namaz qılmaq səadəti nəsib etsə, görəcəksiniz ki, insan namaza diqqət etdiyi zaman ondan doymur. İnsan namaza diqqət yetirsə, maddi ləzzətlərdən heç birində olmayan həzzi alar. Bu, diqqətdən doğur. Namaza diqqətsizlik, namazda süstlük münafiqlərin xüsusiyyətlərindəndir. Belə deyil ki, kim namazda halsız olsa, münafiqdir. Xeyr, Allah Quranda münafiqləri tanıtdırır və deyir ki, onları bu əlamətlərlə tanı. Peyğəmbər dövründə ona-buna görə namaz qılan və qəlbində namaza inamı olmayan münafiqlər vardı: "Onlar namaza durduqları zaman tənbəlliklə (könülsüz) qalxar, özlərini xalqa göstərərlər"[16]. Bəli, insanın müraciət tərəfi olmayanda, Allahla danışmayanda yorular və bu iş ona uzun görünər. Dörd rəkət namaz 4-5 dəqiqə vaxt aparır, amma ona uzun zaman kimi görünür. Amma insan diqqətlə Allahla danışsa, o zaman vaxtın ildırım sürəti ilə ötdüyünü duyar, heyfsilənər və namazın daha da uzanmasını istəyər.

**Gənclik dövründə yaxşı namaz**

Bunu gənclər arasında təbliğ edin. Əgər gənclər indidən yaxşı namaza adət etsələr, bizim yaşımıza çatanda yaxşı namaz qılmaq onlara çətin olmaz. Yaxşı namaza adət etməyən şəxsin bizim yaşlarımızda yaxşı namaz qılması mümkün, lakin çətindir. Gənclikdən yaxşı, yəni diqqətlə namaz qılmağa adət edən şəxs üçün bu, bir xarakter olur, daha zəhmətli olmur və ömrünün sonuna qədər yaxşı namaz qılır. Yaxşı namazın mənası gözəl səslə və dəqiq qiraətlə namaz qılmaq deyil, diqqətlə və ürəkdən namaz qılmaq, qəlbin Rəbb hüzurunda olması, ürəkdən və ürəklə danışmaqdır.

**İnsanların toplaşdığı mərkəzlərdə məscid tikməyin vacibliyi**

İndi cənab Qiraəti bir məsələyə toxundu; əvvəllər də dəfələrlə deyib, biz də demişik. Bu məsələ insanların toplaşdığı mərkəzlərdə məscid və namazxana çatışmazlığıdır. Burada iştirak edən hökumət nümayəndələri və möhtərəm nazirlər bu məsələni kabinetdə ciddi şəkildə ortaya qoysunlar. Bütün böyük tikinti

layihələrinin bir məscid və namazxana əlavəsi olmalıdır. Metro tikiriksə, metro stansiyası üçün məscid nəzərdə tutulmalıdır. Qatar stansiyası tikiriksə, hava limanı tikiriksə, onda mütləq məscid olmalıdır. Qəsəbələrdə və lazımi mərkəzlərdə də həmçinin. Ola bilsin, birdən artığı lazım olsun; mütləq nəzərə alınmalıdır. Biz qəsəbə salarkən küçə çəkməyi unuduruqmu?! Küçəsiz qəsəbə olarmı?! Məscidə də bu gözlə baxılmalıdır. Məscidsiz qəsəbənin mənası yoxdur. Tikinti təşkilatları tikintiyə icazə alanda təqdim etdikləri planda namazxana da olsun.

**Marşrutları namaz vaxtı ilə nizamlamaq**

Burada uçuş məsələlərinə toxundular. Yalnız həcc uçuşlarında yox, namaz vaxtına düşən müxtəlif daxili və xarici uçuşlarda namaz məsələsinə mütləq riayət olunsun. Əgər imkan olsa, uçuşdan öncə və sonra namaza vaxt qalsın. Belə olmasın ki, misal üçün, sübh azanından qabaq yola düşüb günəş çıxandan sonra çatsınlar. Xeyr, proqramı elə tənzim etsinlər ki, insanlar namazlarını qıla bilsinlər; ya uçuşdan öncə, ya da sonra. Ola bilsin, bəzən daxili və xarici uçuşlar və hava xətləri baxımından problemlər yaransın və buna imkan olmasın. O zaman təyyarənin daxilində namaz qılmağa şərait yaratsınlar. Qibləni təyin etmək də tamamilə mümkündür, pilotlar bilirlər. Təyyarə daxilində olanlar namaz qılmaq istəsələr, qıla bilsinlər. Qatarlarda da həmçinin.

Bu gün bizim ölkəmizdə bu məsələlər inqilabdan öncə ilə müqayisəolunası deyil. Sizin çoxlarınız inqilabdan öncəni xatırlamırsınız. Qəribə idi; həm burada, həm də başqa yerlərdə. Biz İraqda imamların ziyarətinə getmişdik. Nə etdiksə, sübh namazı üçün dayanmadı; yəni ümumiyyətlə, olmurdu. Elə tənzim etmişdilər ki, olmurdu. Mən namaz qılmaq üçün məcbur olub stansiyaya yaxın yerdə qatarın axırlarındakı pəncərədən yerə atıldım. Qatarın daxili də çirkli idi və namaz qılmaq olmurdu. Hər halda, belə məsələlərə riayət olunmurdu. İndi vəziyyət çox dəyişilmişdir. Lakin bundan da artığı gözlənilir. Namazın əhəmiyyəti bəlli olmalıdır.

**Bütün işlərdə İslam mühəndisliyi**

Biz cümə imamlarına, məscid imamlarına, rayonlarda və Tehranda olan möhtərəm ruhanilərə dəfələrlə tövsiyə etmişik ki, məscidlər abadlaşdırılsın, məscidlərdən azan səsi ucalsın. Xüsusən böyük şəhərlərdə namaza və namazı bərpa etməyə diqqətin əlamətləri görünməli, hiss olunmalıdır. Bizim tikililərimizdə də İslam əlamətləri görünməlidir. Sionistlər dünyanın hansı nöqtəsində bir bina tikmişlərsə, bir yolla onun üzərinə Davud ulduzunun nəhs əlamətini vurmuşlar. Siyasi işləri belədir. Biz müsəlmanlar bütün işlərimizdə, o cümlədən, tikinti sahəsində İslam mühəndisliyinə riayət etməliyik.

Hər halda, ümidvarıq Allah-Taala uğur nəsib etsin! Namaz işi kiçik iş deyil, çox böyük işdir. Bu işlə məşğul olan bütün şəxslər inşallah, "namazı bərpa edənlərdən"dirlər[17]. Bu ifadə Quranda pak-pakizə və ixlaslı möminlər barədə işlədilmişdir. İnşallah, hamınız namazı bərpa edənlər sırasında olasınız! Allah-Taala kömək etsin, uğur versin və bizim hamımızı namazın faydalarından bəhrələndirsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Elm istehsalı hərəkatı[18]

Bismillahir-Rəhmanir-Rəhim.

Çox sevinir və Allaha şükür edirəm ki, bu gün bu böyük və mühüm universitetdə siz əzizlərin görüşünə nail oldum. Burada həm əziz tələbələr iştirak edirlər, həm möhtərəm müəllimlər, həm də bu universitetin məsul işçiləri. Allaha şükür olsun ki, Elm və sənaye universiteti həm elmi, həm də inqilabi nailiyyətlərə malik olan universitetlərdəndir. Əgər biz universitetlərin mühüm vəzifələrindən birini mömin, dəyərli, ölkənin idarəsi üçün faydalı və ölkə işlərində təsirli kadrlar yetişdirmək olduğunu qəbul etsək - şübhəsiz ki, belədir - sizin universitetiniz bu sahədə ən mütərəqqi və ən öncül universitetlərdən biri sayılmalıdır. Bu universiteti bitirib bu illər ərzində ölkənin müxtəlif sahələrində mühüm rol ifa edən şəxslər barədə uzun siyahı yazmaq olar. Bu məclisdə dostlar şəhidlər haqqında danışdığından mən də nümunə üçün deyim ki, mən dəyərli insan olan uca məqamlı və həmişəyaşar sərkərdə cənab Hacı Əhməd Mütəvəssilianı yaxından tanıyırdım; onun işini, ruhiyyəsini və fəaliyyətini görmüşdüm. O, müqəddəs müdafiənin görkəmli simalarından biri idi. Mənim fikrimcə, xüsusən siz əziz gənclər bizə çoxlu dərslər öyrədən bu dəyərli insanların bioqrafiyasını oxuyun; xüsusən də bu əziz komandirin istər qərbə, istər Fəthülmübin və Beytülmüqəddəs əməliyyatlarına aid həyatını. Adı bu böyük insanın adı ilə yanaşı çəkilən Şəhid Mahmud Şahbazi də belədir. Bunlar bu universitetin böyük fəxrlərindən, məzunlarındandırlar. Bu gün də Allaha şükür olsun ki, inqilabçı, öhdəlikli, izgüzar, fəal və cəsarətli prezident də bu universitetin məzunlarından və müəllimlərindən olmuşdur. Bunlar bu universitet üçün çox yaxşı və dəyərli keçmişdir.

### Universitet, elmin çağlaması və amalçılıq

Universitet ölkə inkişafının ən mühüm infrastrukturudur. Ölkənin infrastrukturlarından heç biri universitet qədər əhəmiyyətə və rola sahib deyil. Çünki universitet insan kapitalı yetişdirir. Ölkənin ən mühüm sərvəti də insan kapitalıdır. Universitetdən həmişə və hər yerdə gözlənilir ki, ölkədə iki həyat mənbəyinin zirvə yeri olsun: biri elm və tədqiqat, ikincisi isə amalçılıq, idealistlik, siyasi və ictimai məqsədlər mənbəyinin. Bu iki mənbəyin - həm elm və tədqiqatın, həm də zahirən elmlə əlaqəsi olmayan amalçılıq məsələsinin universitetdən başqa həmişə fəal olduğu başqa bir yer bəlkə də tapmaq olmaz. Tələbələrin cəm olduğuna görə dünyanın hər bir yerində universitetlərdən gözlənilir ki, amalları təsvir etməkdə və əldə etməyə təmayüldə fəal olsunlar. Bu, xüsusən tələbəyə aiddir. Tələbənin gəncliyi, yaşı və psixoloji hazırlıqları universitetə bu imkanı verir. Bu, universitetdən gözləntidir. Bu gözlənti bəzi yerlərdə təmin olunur, bəzi yerlərdə isə olunmur.

**Elm istehsalı hərəkatı və durğunluğun rəddi**

Elm istehsalı, Proqramlaşdırma hərəkatı, özünə qayıdış və universitetlərdə tədqiqata səy məsələlərinin irəli sürüldüyü bu son illərdə bu hərəkətdə bir sıçrayış yaranmışdır. Bəzi elm məsələlərində, nümunələrini müşahidə etdiyiniz elmi və texnoloji işlərdə, tibb elmlərində, yeni elmlərdə, nüvə sahəsində, Nanoda və digər məsələlərdə universitetlərimizdə mühüm işlər görülmüşdür. Keşmişdə bizim bunları bacarmağımız belə təsəvvür olunmurdu, amma bu gün nail olmuşuq. Mühüm olan budur ki, bu sıçrayış davam etdirilməlidir. Biz elmi sahələrdə ardıcıl geriliyə düçar olmuşuq. Mühüm olan sürətli hərəkətin davam etdirilməsidir. Bizim elmi hərəkətimizdə yaranan bu sürəti illərlə davam etdirməliyik. Bizim bir an da dayanmağımız yolverilməzdir. Çünki elm baxımından inkişaf etmiş dünyaya nisbətən geriliyimiz çox və nəzərəçarpacaq gerilikdir. Bunu bilir, anlayır və bundan əziyyət çəkirik. Səbəb də budur ki, bizim xalqımız orta həddən aşağı istedada malik bir xalq deyil ki, bununla razılaşsın.

Biz Allaha şükür edirik ki, gözümüzü açdı, bu yoxsulluğa düçar olmağımız bizə anladıldı. Allaha şükür edirik ki, geriliyi aradan qaldırmaq üçün bizdə iradə, həvəs və ümid yarandı. Bu baxımdan, indiki sürət və sıçrayış illərlə davam etdirilməlidir.

**Dünyanın elmi mərkəzliliyi**

Dedik ki, ölkə elmi inkişafa nail olmalıdır. Məqsəd də dəfələrlə dediyimiz kimi dünyada elmi mərkəzlilik olmalıdır. Yəni bu gün sizin elm üçün, elmi məhsulları əldə etmək üçün digər ölkələrin alim və kitablarına müraciət etməyə məcbur olduğunuz kimi, elə bir mərhələyə çatmalıyıq ki, elm öyrənən və elm axtaran şəxs elminizdən istifadə etmək üçün sizin yanınıza gəlməyə, kitabınızı tapmağa və dilinizi öyrənməyə məcbur olsun. Məqsəd bu olmalıdır. Bu, xam xəyal deyil, mümkün məsələdir. Bizim bu gün elm və texnologiya baxımından qərarlaşdığımız vəziyyət də bir zamanlar xam xəyallardan sayılırdı.

Əgər inqilabdan qabaq, xalqımızda bu hərəkətin və fəallığın yaranmasından, maneələr qarşısında qorxmazlıq hissinin yaranmasından öncə ölkəmizin müxtəlif elmlərdə bu mərhələyə çatacağı deyilsəydi, şübhəsiz, heç kəs inanmazdı. Bu gün əyalətlərdə yerləşən üçüncü-dördüncü dərəcəli xəstəxanalarımızda asanlıqla müalicə olunan adi bir xəstəlik üçün insanlar xarici ölkələrə getməyə, çoxlu pullar xərcləməyə və minnətlər çəkməyə məcbur olurdular. Bu, çox keçmişə aid deyil, inqilabdan öncəki dövrə aiddir. Bu gün bizim müxtəlif elmlərdə vəziyyətimiz şübhəsiz, bir zaman çoxlarına əlçatmaz görünürdü. Lakin xalqımız buna nail oldu, gənclərimiz bunu əldə etdilər. Nüvə və digər elmi məsələlər də bu qəbildəndir. Bizim ölkəmizin və xalqımızın bir gün elm karvanını irəliyə aparıb dünyada elmin mənbəyi ola bilməsi mümkündür. Düzdür, bunun üçün bəzi işlər görülməlidir; bu işlər başlanmışdır da. Bunların biri özünüdərkdir; yəni iş görməyin lazım olduğunu və işi bacardığımızı hiss edək. İşlərdən başqa birisi ölkənin ümumi elmi xəritəsini hazırlamaqdır ki, ölkə təhsil və müxtəlif elmlər baxımından çaş-baş qalmasın. Bu iş xöşbəxlikdən, görülmüşdür.

Universitetlərdən və sizin universitetinizdən çıxmış dostlar, tədqiqatçılar, görkəmli şəxsiyyətlər ümumi elmi xəritəni hazırlamışlar, bitmək üzrədir və bu, ölkədə elmin inkişafı yolunda çox böyük bir addım olacaq. Əlbəttə, ümumi elmi xəritə hazırlandıqdan sonra digər işlər də görülməlidir; o cümlədən, bu xəritənin mühəndislik sistemini yaratmaq, ümumi elmi xəritəni yüzlərlə elmi layihəyə çevirmək və bu layihələri həmin universitetlərdən, universitetlərin müəllimlərindən və tədqiqat mərkəzlərindən ibarət etimadlı podratçılara tapşırmaq, sonra bu elmi inkişafa nəzarət şəbəkəsi qurmaq, gözəl icra etmək, müəllimi, tələbəni və tədqiqatçını bu işlərə qoşmaq; bunlar ümumi elmi xəritənin mühəndislik layihəsində mütləq nəzərə alınmalıdır. Hər bir tələbə rol ifa edə bilər. Tədqiqat və təhsil mərkəzlərindən hər biri rol ifa edə bilərlər; müəllimlər də həmçinin.

Bu, bir neçə ilin işidir. Bu iş ciddi, tam intensivlik və ümidlə icra olunmalıdır və inşallah, yaxşı nəticələrə çatacaq. Mütləq elə bir gün çatacaq ki, siz İran universitetlərinin və İran alimlərinin elmi mənbə olmasının çox yaxın olduğunu görəcəksiniz. Siz gənclər mütləq bunu görəcəksiniz, mənim şübhəm yoxdur.

**Tələbə hərəkatı və amalçılıq**

Universitetlərdə amal istəyindən ibarət ikinci cərəyanın - adətən, ona tələbə hərəkatı deyilir - ölkəmizdə çox maraqlı tarixi var. Bunu ona görə deyir və üzərində dayanıram ki, bu hərəkət davam etdirilməli və dayanmamalıdır. Çünki ölkə elə bir şəraitdə və İslam Respublikası quruluşunun strukturu və xüsusiyyətləri elədir ki, onun yanında mütləq tələbə hərəkatı olmalıdır. Bizim ölkəmizdə tələbə hərəkatı özünün qeyd olunmuş və tanınmış tarixində həmişə antihegemon, antiistismar, antiistibdad, antidiktatura və güclü şəkildə ədalətsevər olmuşdur. Bizim tələbə hərəkatımızın bu xüsusiyyətləri əvvəldən bu günə qədər olmuşdur. Əgər kimsə tələbə hərəkatının iddiaçısı olsa, lakin bu xüsusiyyətlərə malik olmasa, səmimi deyil. Tələbə hərəkatının əli Fələstində qətliam, İraqda cinayət törədənlərin, Əfqanıstanda xalqı qılıncdan keçirənlərin əlində ola bilməz. Bu, tələbə hərəkatı deyil. Tələbə hərəkatının ən azı bizim ölkəmizdə - bəlkə də çoxlu ölkələrdə - xisləti və xüsusiyyəti belədir ki, hegemonizmin, istismarçılığın və diktaturanın əleyhdarı və ədalətin tərəfdarıdır. Bu hərəkətin başlanğıcı, yaxud tanınmış zamanı 16 azər (7 dekabr) günüdür.

**16 Azər (7 dekabr) və istismarçılığa qarşı çıxan tələbə**

Maraqlıdır ki, üç tələbənin qana boyandığı 1953-cü ilin 16 azəri (7 dekabrı) 28 mordaddan (19 avqustdan) təxminən dörd ay sonra baş verdi. Yəni 28 mordad çevrilişindən, o müdhiş repressiyadan, bütün qüvvələrə qarşı şiddətdən və hamının sükutundan sonra qəflətən Tehran universitetində tələbələr vasitəsilə bir partlayış baş verir. Nə üçün? Çünki o zaman ABŞ-ın vitse-prezidenti Nikson İrana gəlmişdi. Bu tələbələr Amerikaya və 28 mordad çevrilişinin icraçısı olan Niksona etiraz əlaməti olaraq universitetdə aksiya keçirdilər. Bu, təbii ki, təzyiqlə üzləşdi və üç nəfər

öldürüldü. 16 Azər (7 dekabr) hər il bu xüsusiyyətlə tanınmalıdır. 16 Azər Niksona etiraz edən, Amerika və istismar əleyhdarı olan tələbənin günüdür.

**16 Azər və ruhani hərəkatı**

Həmin ildən ruhani, din və İslam hərəkatının başlandığı 63-cü ilə qədər tələbə hərəkatının az-çox fəaliyyəti olmuşdur. Mənim yadımdadır, 59-cu, 60-cı, 61-ci və digər illərdə tələbələr fəaliyyət göstərir, lakin ciddi təpkiyə məruz qalırdılar və genişlənməsinə imkan verilmirdi. Nəhayət, 1962-ci və tam şəkildə 63-cü ildən ruhani hərəkatı başlandı. Siz burada da tələbə hərəkatının əlamətini müşahidə edirsiniz. Yəni ruhani hərəkatının başlandığı 1963-cü ildən inqilabın qələbə çaldığı 1979-cu ilə qədər siz hər yerdə ruhanilərlə çiyin-çiyinə və onların kənarında tələbə hərəkatını müşahidə edirsiniz. Ölkə universitetləri və elm ocaqları fəaliyyətin mərkəzidir və bütün bu müddətdə hərəkatın əsas qollarından biri tələbələrdir. Bunu həm özümüz yaxından müşahidə etdik, həm hərəkat və mübarizə işində olan digər dostlar, həm də digərləri təcrübə edib sınamışlar. Buna əsasən, universitetlər ruhani hərəkatının ayrılmaz hissəsi oldular. Düzdür, universitetlərdə ateist, marksist, antidin və digər cərəyanlar da vardı, lakin əsas cinah müsəlman tələbələrə məxsus idi. Odur ki, yaradılan mübariz qruplarda və görülən işlərdə, məsələn, həbsxanalarda və digər yerlərdə tələbələr vardı; ruhani və tələbələr əsas məhbusları təşkil edirdilər. Məhz buna görə biz Məşhəd ruhaniləri, din alimləri və Məşhəd xalqının böyük bir hissəsi inqilabdan öncə - 1978-ci ildə İmam Rza (ə) adına Tibb universitetində piket keçirdik; yenə universitet mərkəz oldu. Tehranda da imamın gəlişinin gecikdirilməsinə etiraz edən din alimlərinin, ruhanilərin, inqilabçıların və mübarizlərin piketi Tehran universitetində baş tutdu. Bunlar universitetin və tələbənin rolunu göstərir. Və nəhayət, inqilab qələbə çaldı.

**Tələbə və inqilabın səngərləri**

İnqilabın qələbəsindən sonra bu tələbə hərəkatı möhtəşəm bir səhnəyə çevrildi. İlk aylarda Mühafizəçilər korpusunun yaradılması məsələsi qarşıya çıxdı və tələbələr fəal surətdə iştirak etdilər. Bir neçə aydan sonra tələbələrin vasitəsilə Quruculuq cihadı təşkilatı yaradıldı. Quruculuq cihadını tələbələrin özləri yaratdılar, özləri genişləndirdilər, özləri idarə etdilər. İslam quruluşunun fayda və fəxrlərindən biri Quruculuq cihadı idi. Bundan bir neçə ay sonra universiteti özlərinə yuva seçmiş və çoxları da təsadüfən, tələbə olmayan silahlı ünsürlərlə mübarizədə tələbələrin ikinci dalğası başlandı. Tehran universiteti silah, tüfəng, sursat və qumbara mərkəzinə çevrilmişdi. Onlar inqilabla vuruşmaq üçün qüvvə toplamışdılar. Onları universitetdən çıxaran qüvvə tələbələrin özləri oldu. Tələbələrin böyük fəallığı burada da özünü göstərdi. 1980-ci ildə müqəddəs müdafiə başlayanda tələbələr cəbhəyə yollandılar. Onlar qalxıb çox qürbət yer olan Qərb bölgəsinə - Kürdüstana getdilər. Mən müharibənin ilk aylarında Kürdüstanı yaxından gördüm. Oranın qürbət tozu sankı hamının başına ələnmişdi. Bu ixlaslı qüvvələr yalqız və silahsız şəkildə, fəal düşmənin daimi bombardmanı altında böyük işlər gördülər. Şəhid Mütəvəssilianın və

onun dostlarının hazırladığı Fəthülmübin əməliyyatından öncə “Məhəmməd Rəsulullah” əməliyyatı baş tutdu. Bu, tələbələrin iştirakına bir nümunədir. Başqa bir nümunə Hüveyzə macərasında iştirak edən tələbələrdir. Həmin tələbələri - Şəhid Ələmülhüdanı, Şəhid Qüddusini və digərlərini təsadüfən, döyüş zonasına getdikləri 4 yanvarda gördüm. Bu 81-82-ci illərə aiddir, sonralar da müharibənin axırına qədər davam etdirildi. Yəni səkkizillik müqəddəs müdafiə dövründə bizim aktiv qüvvələrimizi təmin edənlərdən biri həqiqətən, universitetlər idi. Sonra səksəninci illərin əvvəllərində universitetlər yenidən açılanda Universitet cihadı yaradıldı. Həssas nöqtələrdən və fəxrə səbəb olan mərkəzlərdən biri Universitet cihadıdır. Bunlardan qabaq da 79-cu ildə tələbə hərəkatı vasitəsilə casus yuvasının ələ keçirilməsi hadisəsi baş vermişdi.

Hər bir tələbə tələbə hərəkatının üzvüdür. Ola bilsin, casus yuvasının ələ keçirilməsində fəallıq göstərən bir şəxs bir müddətdən sonra işinə peşman olsun; necə ki, bizdə peşman olanlar var. Tələbə hərəkatında iştirak edən şəxslərin çoxunu sonrakı dönəmdə məişət problemləri və müxtəlif maraqlar sarsıtdı. Lakin böyük hərəkət tələbələrə məxsusdur. Casus yuvasının ələ keçirilməsi də belə mühüm işlərdən biridir.

Bu, bir tarixçədir; bu günə qədər də davam edir. Bütün dövrlərdə, inqilab boyunca müxtəlif hadisələrdə, həssas və təhlükəli anlarda mömin, öhdəçi, ədalətsevər və fədakar tələbələr vəziyyəti düzgün səmtə yönəldə bilmişlər. Bu mənim tələbə hərəkatına dair qənaətim və baxışımdır: hegemonluq əleyhdarı, fəsad əleyhdarı, zadəganlıq əleyhdarı, aristokrat və hegemon hakimiyyət əleyhdarı, azğın təmayüllər əleyhdarı. Bunlar tələbə hərəkatının xüsusiyyətləridir. İnqilabın bütün illərində tələbələrin bu səhnələrdə iştirakı fəal və təsirli olmuşdur. Tələbələr gündəm yaradan olmuşlar, düşüncə mühiti yaratmışlar, cəmiyyətdə siyasi və inqilabi mövzuları hakim etmişlər. Çox zaman belə olmuşdur.

Əlbəttə, mənim mühakiməm ümumi tələbə korpusuna aiddir. Ola bilsin, bəzi şəxslər, tələbə məcmusunun bəzi hissələri ayrı cür olsunlar; nə təəccüb, nə də inkar edirik. Şübhəsiz ki, belədir. Amma tələbə korpusu, tələbə işinin təbiəti və tələbə həvəsi dediyim kimidir. Tələbə zülmə, hegemonluğa, xarici istismara qarşıdır, böyük amallara vurğun və ümidlidir. Əslində, gənc təbəqə, xüsusən də tələbə təbəqəsi cəmiyyətin mühərrikidir. Tələbələr həmişə buna diqqət yetirməli və ölkənin gələcəyi üçün bunu nəzərə almalıdırlar.

**Tələbə birlikləri və onun təsirləri**

Bir cümlə də tələbə birlikləri barədə deyim. Əlbəttə, məqsəd tələbələrin siyasi və ictimai birlikləridir, elmi birliklər başqa mövzudur. Tələbə birlikləri şübhəsiz ki, təsirlidir. Lakin diqqət yetirmək lazımdır ki, tələbə birliyi bu gün dünyada başa düşülən partiya kimi bir qurum deyil. Tələbə birliyinin partiya ilə fərqi var. Siyasi partiya və təşkilatlar hakimiyyətə gəlmək üçün yaranan qurumlardır. Dünyada partiyalar belədir, siyasi hakimiyyəti ələ keçirmək üçün yaradılır. Partiyanın xüsusiyyəti budur. Tələbə birlikləri isə əsla bu məqsədlə yaranmır və hakimiyyəti ələ

keçirmək məqsədi güdmür. Tələbə birlikləri siyasi hakimiyyətə yiyələnməkdən və hökuməti ələ keçirməkdən üstün bir məsələ olan amallara nail olmaq üçün yaradılır. Onlar üçün siyasi hakimiyyət söhbəti yoxdur. Əlbəttə, partiyalar hakimiyyətə gəlmək üçün tələbə qruplarından istifadə etməkdən çəkinmirlər. Mənim fikrimcə, bu, düzgün deyil və tələbələrin özləri buna diqqət yetirməlidirlər. Partiyalar istəyirlər ki, bir şey əldə etsinlər, hakimiyyət qazansınlar, tələbələr isə əksərən tələbə fəaliyyətləri ilə öz canlarından, güclərindən, enerjilərindən maya qoyub bir şey təqdim edirlər, lazım olanda canlarını da verirlər; necə ki, gördünüz.

**Tələbə birliklərinin missiyası**

Bununla yanaşı, tələbə birliyi tələbə üçün kollektiv işdən ötrü bir fürsət də sayılır. Mən kollektiv işin tərəfdarıyam və bunu tələbənin ehtiyacı bilirəm; müxtəlif siyasi və ictimai məharətlər öyrənmək. Siz əziz gənclər, qardaş və bacılar bilirsiniz ki, tələbə müxtəlif hiylə və burulğanlarla, müxtəlif təhlükələrlə əhatə olunmuşdur. Ən azı bizim ölkəmizdə belədir. Bizim ölkəmizdə hegemonizmin təxribat hədəflərindən biri şübhəsiz, tələbələrdir. Səbəbi də bəllidir. Bizim ölkəmizdə gəncin nisbəti çox yüksəkdir; tələbənin nisbəti də yüksəkdir və tələbə həm elmi, həm siyasi sahələrdə böyük təsirə malikdir. Bu ölkə və xalq üçün yuxular görənlər iranlı tələbə üzərində sərmayə qoymağa məcburdurlar; instintkiv cazibələrdən tutmuş siyasi hiylələrə, zahirən mənəvi hoqqabazlıqlara və saxta irfanlara qədər. Bunların müxəlif növləri mövcuddur. Birliklər qoruyucu ola, tələbəni müxtəlif bataqlıqlara düşməkdən qoruyub xilas edə bilərlər.

Digəri budur ki, tələbə birlikləri məqsədlərini itirməkdən ehtiyatlı olsunlar. Tələbə birliklərinin əsas məqsədləri tələbə hərəkatının hündür darvazası üzərinə yazılanlardır: antihegemonizm, ölkənin inkişafına, milli birliyə, elmin inkişafına kömək, təxribatlara və düşmənlərə qələbə çalmaq üçün xalqın ümumi mübarizəsində və döyüşündə iştirak etmək. Bunlar əsl məqsədlərdir. Bunları unutmamalıdırlar. Əlbəttə, birliklər özlərini tələbə korpusundan ayırmasınlar; yəni birlik tələbələrin bölünməsinə səbəb olmamalıdır. Gərək tələbələrə yaxın olsunlar. Mən tələbəlik barədə bu uzun mövzunu burada tamamlayıram.

İnqilabın yenidən öyrənilməsi məsələsi, mənim fikrimcə, mühüm məsələdir. İndi də vaxt çox deyil ki, mən təfərrüatı ilə söhbət edim, həm də soyuqlamışam və sinəm buna imkan vermir. Mən bir neçə gündür soyuqlamışam, amma sizinlə bugünkü görüşümü təxirə salmaq istəmədim; odur ki, bu halda gəldim və bu, hər halda, mənim söhbətimə məhdudiyyət yaradır.

**İnqilabın yenidən öyrənilməsi**

Bizim inqilabımızın macəra dolu tarixini öyrənməkdə bir məqam var. Biz bilməliyik ki, ölkəmiz Məşrutə dövrünə qədər uzun illər şah istibdadına düçar olmuşdu. Məşrutə nəfəs çəkmək üçün bir fürsət idi. Yəni Məşrutə hərəkatının xalqa tənəffüs imkanı yaratması və azadlıq verməsi gözlənilirdi, lakin belə olmadı. Məşrutə

əvvəldən əcnəbilər, dünyanın ozamankı istismarçı gücü, yaxud güclərindən biri olan İngiltərə dövləti tərəfindən müsadirə olundu.

Məşrutənin əvvəllərində yaranan hərc-mərclikdən bir neçə il sonra həmin istismarçı dövlət - yəni İngiltərə Məşrutədən öncəki şahlardan - Müzəffərəddin şah və Nasirəddin şah kimilərdən çox təhlükəli olan qəddar və rəhmsiz bir diktatoru hakimiyyətə gətirdi. O, Rza xan idi. Rza xanın diktatorluğu bizim ölkəmiz və xalqımız üçün Nasirəddin və Müzəffərəddin şahların diktatorluğundan dəfələrlə sərt və ağır idi. Onu ingilislər hakimiyyətə gətirdilər. Biz əslində, avtoritorizmdən azadlığa çıxmadıq, asılılıqla yanaşı olan digər bir avtoritorizm dövrünə daxil olduq və xalq azadlığı dadmadı. Odur ki, İranda İslam hərəkatı başlayanda və imam bu hərəkatın məqsədinin avtoritar və istismarçı rejimin kökünün kəsilməsindən və əcnəbilərin nüfuzuna son qoyulmasından ibarət olduğunu elan edəndə qədim mübarizlərin, mübarizədə iştirak edənlərin çoxu inanmırdı. Onlar bunun mümkünlüyünü təsəvvür edə bilmirdilər: yəni bu ölkədə şahlığı devirmək olarmı?! Mənim yadımdadır, mübarizənin son illərində - o zaman imam hakimiyyətə dair əsaslı məsələləri bəyan etmiş və bu məsələlər xalq arasında yayılmışdı; o demişdi ki, şah xaindir və getməlidir - sonralar inqilabda böyük fəaliyyətlər göstərən bəzi fəal və mübariz qüvvələr də deyirdilər ki, məgər belə bir şey mümkündür?! Məgər şah üsul-idarəsini devirmək olar?! İnanmırdılar. Səbəb bu idi ki, bu ölkədə uzun repressiya və istibdad dövründə ölkəni istismar edən əcnəbilər daim şah rejimini himayə etmişlər.

Möhtəşəm İslam hərəkatı, xalqın səyi və imam kimi misilsiz bir şəxsiyyətin rəhbərliyi öz bəhrəsini verdi.

**Dozüm və ayıqlıq!**

Mən dəfələrlə Əmirəlmömininin bu kəlamını söyləmişəm: “Bu bayrağı yalnız ayıq və dözümlü insanlar ucaldar”. Hədisdə işlənmiş "bəsirət" sözü ayıqlıq, "səbr" isə dözüm, israr və yorulmazlıqdır. İran xalqında bu iki xüsusiyyət yarandı, öz bəhrəsini verdi və inqilab qələbə çaldı. İslam Respublikası quruluşunun yaranması əslində, İran xalqının uzunmüddətli tarixi ehtiyacının aradan qalxması idi. İran xalqı özünün tarixi arzuları arasından İslam Respublikası bayrağını ucaltdı. Bəllidir ki, xalqın qədim arzularında dərin köklərə malik olan bir quruluş qalasıdır, yaşamağa və inkişafa qabiliyyətlidir, kök salacaq və onunla düşmənlik asan olmayacaq. Və belə də oldu.

**İslam inqilabının, solçu və sağçı inqilabların xüsusiyyətləri**

Şübhəsiz, bizim ölkəmizdə şah üsul-idarəsini başqa heç bir mübariz hərəkat məhv edə bilməzdi. Əziz gənclər! Bunu bilin və əmin olun ki, İslam hərəkatından və dini hərəkatdan başqa heç bir hərəkat, heç bir partiya, heç bir mübariz qrup bu ölkədə Amerika dövlətinə bağlı olan despotizmi devirə bilməzdi. O zaman qədim mübarizə hərəkatlarının hamısı işdən düşmüşdü; həm solçu, həm sağçı hərəkatlar, həm də silahlı qruplar. 75-76-cı illərdə bu qrupların hamısı rejim tərəfindən məhv edilmişdi. Bu batil rejimi sıradan çıxara bilən yeganə qüvvə əzəmətli milli dalğa və xalqın birliyi idi. Bu da din amalı, Böyük İmam kimi bir təqlid müctəhidinin və

mübariz ruhanilərin rəhbərliyi olmadan imkansız idi. Fəsad dolu rejim devriləndən sonra da hakimiyyətə İslam Respublikası quruluşundan başqa hər hansı bir quruluş - solçu və ya sağçı quruluş gəlsəydi, düşmənin nüfuzu və müxtəlif müdaxilələri qarşısında tab gətirə bilməzdi.

Biz gördük ki, solçu və digər inqilablar qələbə çaldı, bir neçə il hakimiyyətdə qaldılar da, lakin Amerikanın nüfuzu, siyasi və hərbi müdaxiləsi və iqtisadi blokadası onları məhv etdi. Siz bu gün Şərqi Avropaya baxın. Bura sosialist və solçu hökumətlərin əsas mərkəzi idi. Baxın, vəziyyət elə bir həddə çatıb ki, indi orada Amerikanın hərbi və raket bazaları yaradılır, amerikalılar geniş fəaliyyət göstərirlər. Buna əsasən, İslam Respublikasından başqa heç bir quruluş Amerikanın təsiri və təzyiqi qarşısında müqavimət göstərə bilməzdi.

**İslam inqilabının məqsədləri**

Bir məsələni də deyim: Hegemonluğun, ilk növbədə Amerikanın və ümumdünya sionizm şəbəkəsinin İslam Respublikasına qarşı güclü və barışmaz düşmənliyinin səbəbi bəzən müxtəlif yerlərdə deyilən bu sözlər deyil. Səbəb İslam Respublikasının bir inkarı və bir təsdiqidir.

İslam Respublikası istismarı, müstəmləkəni, dünyanın siyasi gücləri vasitəsilə xalqın təhqirini, siyasi asılılığı, dünyanın hakim güclərinin müdaxiləsini, əxlaqi sekulyarizmi və mütləq halalçılığı qətiyyətlə inkar edir.

Bu quruluş bəzi məsələləri də təsdiq edir: milli kimliyi, İslam dəyərlərini, dünya məzlumlarını müdafiəni, elm zirvələrinə nail olmaq üçün çalışmağı, elmdə yalnız digərlərinin ardınca getməyi yox, zirvələri fəth etməyi. Bunlar İslam Respublikasının təkid etdiyi məsələlərdir.

Bu inkar, bu da təsdiq. ABŞ-ın və ümumdünya sionist şəbəkəsinin düşmənlik amili budur. Əgər ABŞ-ın təsirini qəbul etsək, düşmənliklər azalacaq; əgər xalqın əcnəbilər vasitəsilə müxtəlif yollarla təhqir olunmasına razı olsaq, milli kimliyi, yaxud İslam dəyərlərini müdafiə etməyi kənara qoysaq, şübhəsiz, düşmənliklər eyni nisbətlə azalacaq. İslam Respublikasının öz rəftarını dəyişməsini deyirlərsə, məqsəd budur. Eşitmisiniz, bəzi hegemon dövlətlərin, o cümlədən, ABŞ-ın rəsmiləri bəzən İran barədə deyirlər: “Biz demirik ki, İslam Respublikası məhv olsun, deyirik ki, rəftarını dəyişdirsin”. Rəftarını dəyişdirmək budur; yəni bu inkardan və bu təsdiqdən əl çəksin. Bunu istəyirlər.

İslam Respublikası bu inkar və təsdiqə görə böyük imkanlara malik geniş cəbhə ilə üz-üzə gələ və onun qarşısında müqavimət göstərə bilmişdir. Səkkizillik müqəddəs müdafiədə bu, baş verdi. Şərq, Qərb, Avropa, NATO və bəzi ərəb dövlətləri - hamı İslam Respublikası əleyhinə əl-ələ verdilər, İslam Respublikası onların hamısını məğlub etdi və özü əsla geri çəkilmədi. Bu günə qədər siyasi sahədə də eyni vəziyyət mövcud olmuş, İslam Respublikası bu böyük cəbhə müqabilində duruş gətirmiş, nəinki geri çəkilməmiş, hətta irəliləmiş və düşmənə zərbə də vurmuşdur.

**ABŞ-ın və İranın regiondakı bugünkü vəziyyəti**

Siz ABŞ-ın Orta Şərqdəki bugünkü vəziyyətinə baxın. On beş il öncəki vəziyyətini də öyrənin və görün hansı durumdadır; günbəgün daha mənfur, daha zəlil, daha uğursuz olur; Fələstin məsələsində bir cür, Livan məsələsində bir cür, İraq və Əfqanıstan məsələsində bir cür. ABŞ özünün Orta Şərq layihələrində - bu layihələrin hədəfi də həmin ölkələrdən daha çox İslam Respublikası olmuşdur – iflasa uğramış, İslam Respublikası isə müqavimət göstərə bilmişdir. Bəli, təbii ki, təxribatlar artmışdır; inqilabın ilk onilliyində bir cür, ikinci və üçüncü onilliyində başqa cür. Mən bunların təfərrüatını demirəm, vaxt ötür. Lakin həm tələbələrin, həm əziz universitet mənsublarının, həm bütün xalqın, xüsusən də alim və ziyalıların diqqət yetirməli olduğu əsas məsələ budur ki, İslam Respublikası quruluşu bu bacarığa və iqtidara malikdir. Onların bütün səyləri İslam Respublikasını məhv etməyə yönəlmişdi, lakin nəinki məhv olmadı, hətta günbəgün müxtəlif sahələrdə gücləndi də.

**İnqilabın müqavimət qabiliyyəti və həssas vəzifələr**

Bu qalmaq bacarığı, bu iqtidar və bu davam etmək imkanı qorunmalıdır. Belə deyil ki, biz necə əməl etsək - laqeyd olsaq da, həssas və mühüm vəzifələrə diqqət yetirməsək də, yenə də həmin müqavimət qabiliyyəti qalacaq. Xeyr, İslam Respublikası quruluşunu sözün həqiqi mənasında qorumaq lazımdır ki, bu xalqı onun və bu ölkənin xeyirlərindən bəhrələndirmək mümkün olsun, xalqı tərəqqinin zirvəsinə, öz arzu və amallarına çatdırmaq mümkün olsun.

**İnqilabın məzmun və ruhu**

İnqilabın məzmun və ruhunu qorumaq lazımdır. Bu hüquqi struktur cisim, forma kimidir, həqiqi kimlik isə ruh, məna və məzmun kimi. Əgər əsl məna və məzmun dəyişilsə, zahiri və hüquqi struktur qalsa da nə faydası olar, nə davamı; içi çürümüş, zahiri isə sağlam görünən bir diş kimi olar, bərk bir şeyə dəyən kimi sınar. İnqilabın ruhu və məzmunu İslam Respublikasının amallarından ibarətdir: ədalət, humanizm, dəyərlərin qorunması, qardaşlıq və bərabərliyə səy, əxlaq, düşmən qarşısında möhkəm dayanmaq. Əgər biz İslam əxlaqından uzaqlaşsaq, ədalətsevərliyi, ədalət şüarını unutsaq, dövlət məmurlarının xalqdan olmasına əhəmiyyətsiz yanaşsaq, məmurlar digər ölkələrin çoxlu məmurları kimi vəzifəyə sərvət və hakimiyyət aləti kimi baxsalar, xalqa xidmət və xalq üçün fədakarlıq yadlarından çıxsa, xalq kimi olmaq, sadə yaşamaq, özünü xalqın səviyyəsində saxlamaq kənara qoyulsa, düşmənin təcavüzkarlıqları qarşısında müqavimət unudulsa, utanıb-çəkinmələr, şəxsi zəifliklər və şəxsiyyət qüsurları məmurların siyasi və beynəlxalq qərarlarına təsir etsə, İslam Respublikasının kimliyinin əsas hissələri zəifləsə, İslam Respublikasının zahiri stukturu çox kömək etməyəcək, təsir bağışlamayacaq, "İslami Şura Məclisi" və "İslam Respublikası" ifadələrindəki "İslam" sözü təklikdə bir iş görə bilməyəcək. Əsas məsələ odur ki, sözügedən ruhun, məzmunun əldən çıxmasından, unudulmasından ehtiyatlı olaq, formanı qorumaqla sevinib ruha, məzmuna, əsl mahiyyətə diqqətsiz yanaşmayaq. Əsas məsələ budur.

**İnqilabın kimliyinin dəyişmə prosesi**

Mən sizə deyim ki, məzmunun, həqiqi kimliyin dəyişilməsi tədricən və çox sakit şəkildə baş verir, bəzilərinin, yaxud çoxlarının diqqətini çəkmir, yalnız iş-işdən keçəndən sonra hamı xəbər tutur. Çox diqqətli olmaq lazımdır. Cəmiyyətin aydın və ziyalı təbəqəsinin, müəllim və tələbələrin iti gözləri bu baxımdan həmişə məsuliyyət hiss etməlidirlər.

Ehtiyatlı olmaq lazımdır ki, məqsəd, amal və istiqamətlərdə yayınma baş verməsin. Biz uzun illər boyu - xüsusən də müharibədən və imamın vəfatından sonra bununla ciddi məşğul olmuşuq. Ötən iki onillikdə əsas məşğuliyyətlərdən biri də bu olmuşdur. İslam Respublikasını öz ruh və məzmunundan uzaqlaşdırmağa çox səy göstərilmişdir, müxtəlif formalarda çoxlu işlər görmüşlər; istər siyasi, istər əxlaqi, istər ictimai sahələrdə fikirlər bildirilmiş və sözlər danışılmışdır. Biz elə bir dövrü də müşahidə etdik ki, mətbuatımızda rəsmən və açıq şəkildə dinin siyasətdən ayrılığını elan etdilər. İslam Respublikasının və xalqın ümumi hərəkətinin əsası olan din və siyasət birliyiin məsələsini ümumiyyətlə, sual altına saldılar. Bundan da artığı?! Bir dövrdə bizim mətbuatımızda zalım və qəddar Pəhləvi rejimi açıq-aşkar müdafiə olundu. Belə bir vəziyyətin baş verməməsi və bu yayınmaya qarşı tədbir məqsədilə etiqad, düşüncə və siyasət sərhədlərini qabartmaq olar. İslam kimliyinin meyarları bəlli olmalıdır: ədalətsevərlik, məmurların sadə yaşayış, ixlaslı iş və fəaliyyət, dayanmaq bilməyən elmi inkişaf, əcnəbilərin tamahkarlığı və istismarı qarşısında qətiyyətli müqavimət və milli hüququ müdafiə meyarları. Xalqın hüququnu cəsarətlə müdafiə etmək bir meyardır; bu nüvə məsələsi kimi. Bu, ölkənin onlarla ehtiyacından biridir, bizim yeganə məsələmiz deyil. Lakin düşmən bu nöqtə üzərində mərkəzləşdikdə xalq da müqavimət göstərdi. Əgər xalq düşmənin mərkəzləşdiyi bu nöqtədən geri çəkilsə, məmurlar geri çəkilsələr, qəti və aydın hüquqlarından imtina etsələr, şübhəsiz, düşmən üçün milli hüquqlara əl uzatmaq yolu açılacaq.

**Zadəganlıq və inqilab**

Zadəganlıq bizim inqilabımızda antidəyər idi. Bunu bəziləri tədricən zəiflətməyə çalışdılar. Bunun bizim iqtisadi və psixoloji məsələlərimizə təsiri var. Zadəganlıq və zadəganlığa meyl inqilabda bir antidəyər idi, müxtəlif səviyyələrdə zadəganlığa aid edilməkdən, zadəganlıq xüsusiyyətlərindən olan bir iş görməkdən ciddi çəkinən şəxslər vardı. İlk növbədə dövlət məmurları bu öhdəliyə malik olmalıdırlar. Bu, tədricən zəiflədi. Bu gün xoşbəxtlikdən, zadəganlığı antidəyər hesab etmək dalğası mövcuddur. Dövlət məmurları sadə yaşayırlar, xalq kimidirlər və bu, çox yaxşı fürsət, böyük nemətdir. Meyarlardan biri budur.

**Cihad və şəhadət meyarı**

Cihad və şəhadət məsələsi meyarlardan başqa birisidir. Mücahidliyin dəyəri və şəhadətin uca məqamı bəzi qüvvələr vasitəsilə şübhə altına salındı. Cihadı sual altına saldılar, şəhadəti sual altına saldılar. Bu, meyarladan biridir və qabardılmalıdır.

Şəhidlərə, cihada və mücahidliyə hörmət İslam Respublikasının səciyyələrindən olmalıdır. İslam Respublikası cihad və şəhadətlə tanınır.

**Xalqa etimad meyarı**

Xalqa etimad, xalqın iştirakına həqiqi inam; bəziləri xalqın adını çəkirlər, amma əslində, xalqın iştirakına inanmırlar. İslam Respublikası xalqa etimad və xalqın iştirakına inam üzərində qurulmuşdur.

**Cəsarət meyarı**

Düşmənin heybəti qarşısında qorxmazlıq meyarlardandır. Əgər ölkə məmurları düşmən qarşısında qorxu hissi keçirsələr, xalqın başına böyük bəlalar gələr. Düşmən tərəfindən bəzi xalqların xar edilməsinin əsas səbəbi bu idi ki, başçılar lazımi cəsarətə və özünəinama malik deyildilər. Bəzən xalqın arasında mömin, fəal, fədakar qüvvələr olur, lakin məmurların, başçıların özləri bu hazırlıqlara malik olmadıqda onların qüvvələri də məhv olur və bu potensial sıradan çıxır. Şah Sultan Hüseynin zamanında İsfahan şəhəri talandıqda, xalq qətliam olunduqda və böyük Səfəvi dövləti devrildikdə mübarizə və müqavimət göstərməyə hazır olan qeyrətli insanlar çox idi, lakin Şah Sultan Hüseyn zəif idi. Əgər İslam Respublikası sultan hüseynlərin, cürəti və cəsarəti olmayan, özündə və xalqda güc və bacarıq duymayan məmur və müdirlərin əlində qalsa, işi bitəcək.

**Müsəlman xalqlarla yaxınlıq meyarı**

Müsəlman xalqlar İslam Respublikası quruluşunun strateji müttəfiqləridir. ABŞ və İngiltərənin güclü təbliğatı nə üçün müsəlman xalqlarla İran xalqı arasında ayrılıq salmağa çalışır? Nə üçün? Milliyyət məsələsi ilə, sünni-şiə məsələsi ilə. Çünki bilir ki, onlar İslam Respublikasının strateji müttəfiqləri sayılırlar. Bir xalq özünün strateji müttəfiqinə arxalanır. Onlar istəmirlər ki, İran xalqı və İslam Respublikası quruluşu müxtəlif ölkələrdə bu misilsiz dəstək və tərəfdarlığa malik olsun. Siz heç bir yerdə görməzsiniz ki, bir ölkədə xalq - siyasətçilər yox - başqa bir ölkənin başçılarına qarşı hörmət bildirsinlər, şəkillərini qaldırsınlar, adlarını həyəcanla çəksinlər. Yalnız İslam Respublikası üçün bunu edirlər. Müsəlman ölkələrində haraya getsəniz, İslam Respublikasının ayaq izi olan yerlərdə camaat ona və İslam Respublikasına qarşı hisslərini belə bildirirlər. Düşmən bunu istəmir. Düşmən bu əlaqənin bərqərar olunmasını istəmir. İslam Respublikası bunu öz vəzifələrindən bilməlidir. Bu, əsas meyarlardandır.

İndi siz İslam Respublikasının Livan, İraq, Əfqanıstan və Fələstin xalqları ilə əlaqəsini açıq şəkildə və dəfələrlə tənqid etmiş, indi də tənqid edən bu dar düşüncəli, yaxud qərəzli və xain insanların yazılarına baxın. Siz görmüsünüz. Təəssüf ki, bunlar bizim mətbu orqanlarımızda və bəzi siyasi tribunalarda deyilir. Bu, İslam Respublikasının əsas meyarlarından birinə qarşı çıxmaqdır. Xeyr, İslam Respublikası müsəlman xalqların mənafeyini öz mənafeyi bilir, onlarla əlaqədə qurur, onları müdafiə edir, məzlumu müdafiə edir, Fələstin xalqını müdafiə edir. Bunlar

meyarlardır və qabardılmalıdır. Tələbə və universitet mənsubu, xüsusən də tələbə bu sahədə çox təsirli ola bilər.

Mənim bu gün söhbət etmək istədiyim əsas mövzulardan biri inkişaf və ədalət məsələsi idi. Dedik ki, dördüncü onillik inkişaf və ədalət onilliyidir. Lakin həm vaxt ötüb, həm də boğazımının vəziyyətinə görə sizə bundan artıq zəhmət vermirəm. Yalnız bir neçə cümlə deyib mövzunu tələbələrlə başqa bir görüşə saxlayıram.

**Düşmənlər və daxili dəyişmə təhlükəsi**

Bu qədər deyim ki, dünyanın müxtəlif hadisələri bundan sonra da İslam Respublikasından ibarət bu böyük ağacı tərpədə bilməyəcək. Kiçik bir ağac olan zaman yerindən çıxara bilmədilər, bu gün isə böyük və köklü bir ağaca çevrilmişdir. İslam Respulikasını tərpədə bilməyəcəklər. Biz özümüz ehtiyatlı olmalıyıq ki, daxildən çürüməyək. Biz öz mənəvi sağlamlığımızı qoruyana, İslamın və İslam Respublikasının göstərdiyi yolla irəliləyənə və ondan yayınmayana qədər xarici düşməndən əsla qorxumuz yoxdur. Bizə zərər yetirməyəcək və yetirə də bilməz.

**Elmi və iqtisadi iqtidar və düşmənin hiyləsi**

Hegemonizmin, ABŞ-ın, aydın dəlillərə əsasən, ilk düşmənlik hədəfi İslam Respublikasından ibarət olan ümumdünya sionist şəbəkəsinin siyasətləri İslam Respublikasını nəinki ayaqdan sala, heç zəiflədə də bilməz. Biz sürətlə öz hərəkətimizi davam etdirə bilərik. Sözsüz ki, düşmənin hiyləsini gözləyirik. Bu hiylələr bir dövrə qədər davam edəcək. O dövr ölkənin hərtərəfli iqtidarından ibarətdir və bu, siz tələbələrin, siz gənc nəslin işidir. Siz ölkəni elmi və iqtisadi iqtidara çatdırdıqda və elmi üstünlüyü təmin etdikdə, sözsüz ki, hiylələr azalacaq, məyus olacaqlar. O nöqtəyə çatmayınca hiylələri gözləmək və onlara qarşı mübarizəyə hazır olmaq lazımdır. İnşallah, zaman ötdükcə siz daha güclü olacaqsınız, düşməniniz daha zəif olacaq və son qələbənin xalqa nəsib olacağı gün yaxınlaşacaq.

İlahi! Deyib-eşitdiklərimizi Özün üçün, Öz yolunda və Öz dərgahında qəbul et!

İlahi! Öz bərəkətlərini İslam Respublikası quruluşuna, bu quruluşun fədailərinə, amallarının şəhidlərinə və Böyük İmamına nazil et! Öz rəhmətini və lütfünü bu əziz gənclərə, ölkənin bütün gənclərinə və bizim əziz tələbələrimizə nazil et! Bizi həmişə bu yolun əsgərlərindən və yolçularından et!

İlahi! Bizim əziz şəhidlərimizin dərəcələrini günbəgün ucalt!

Allahın salamı və rəhməti olsun sizə!

## İslam İranı, xalqlar və elm[19]

Bismillahir-Rəhmanir-Rəhim.

Siz əziz gəncləri, bu xalqın əziz övladlarını və gözünün işığını İslam inqilabının dəyərlərini mühafizə işinə qoşulmanız münasibətilə təbrik edirəm. Hərbi universitet həm elm mərkəzidir, həm cihad mərkəzi, həm də dəmir iradəli insanların yetişdiyi məkan. Elm, cihad, iman və möhkəm iradə bir yerə cəm olduqda elə insanlar yetişdirir ki, dünya o insanlara görə öz gələcəyinə ümidvar olur.

Elm dövrünün və modern dünyanın əsas problemi bu idi ki, ilahi bir nemət olan elm bu dünyada fəsadın, şiddətin və təcavüzün xidmətinə keçdi.

Bu böyük nemət qarşısında ən böyük qədirbilməzlik odur ki, bir nəsil, bir xalq elmi zülm, şiddət, təcavüz və insani dəyərləri əzmək üçün işlətsin və bu, son iki-üç əsrdə, xüsusən də ötən onilliklərdə dünyada baş verdi.

**Elmlə xalqların əlaqəsi**

Bəzi xalqlar elmə yiyələnmişlər. Bu, təbiidir. Elm bayrağı tarix boyu müxtəlif xalqlarda olub. Bir zaman elmin mərkəzi dünyanın şərq bölgəsi idi; bir zaman da qərb bölgəsi oldu. Qərblilər elmə yiyələndikdə onu müstəmləkə məqsədilə işlətdilər, onunla xalqları talamağa başladılar. Dünyanın şərqində və qərbində - Afrika və Asiyada çox sıx əhalisi olan çoxlu ölkələr Qərb dövlətlərinin elmi vasitəsilə talandı, müstəmləkəyə çevrildi, nəsillər əsir edildilər. ABŞ-ın bugünkü qaraları Qərb müstəmləkəçiləri vasitəsilə Afrika ölkələrindən əsir götürülmüş həmin yoxsulların övladlarıdır. Onları öz evlərindən, tarlalarından, yaşadıqları yerlərdən heyvan kimi ovlayıb çətin işlərə məcbur etdilər, didərgin saldılar. Bu iş bütün dünyada - Hindistan yarımadasında, Asiyanın sonunda baş verdi. Öz elmləri ilə, ilahi nemət olan biliklə Allahın bəndələrini xar etdilər, zülmə məruz qoydular, həyatlarını uzun müddət qaraltdılar.

Hər bir elm nərdivanın bir pilləsi kimidir; insan bir pillə qalxdıqda, sonrakı pillələrə qalxmaq üçün də imkan yaranır. Onlar da yiyələndikləri elmlərdən istifadə edib elm nərdivanında yüksəyə qalxdılar; atom bombası, kimyəvi silahlar istehsal etdilər, nəsillər məhv edildi, insanlar öz əzizlərinə yas saxladılar, dünya sizin siyasi coğrafiyada müşahidə etdiyiniz vəziyyətə düşdü, hegemon və hegemonizmi qəbul edən, zalım və məzlum cinahlarına bölündü; özü də olduqca böyük fərqlərlə. Dünyanın indiki siyasi, mədəni coğrafiyası bu qara əsrlərin son dövrlərində bu formaya düşdü.

**İran inqilabı və İslamın fəryadı**

Mənim əzizlərim! İran xalqının möhtəşəm İslam inqilabı bu vəziyyətin əleyhinə böyük bir bəşəri qiyam idi. Bizim inqilabımız İslamın, tövhidin, ədalətin, ilahi nemətlərin insanları əzməyə vasitə olduğu zülmlə dolu dünyada İslam humanizminin fəryadı idi. İnqilab belə bir vəziyyətə qarşı baş verdi. Bu gün İran xalqına və İran İslam Respublikasına dünyəvi quruluşu tövsiyə edənlər belə bir həssas mövqedə yerləşən bir xalqın belə böyük hərəkətindən narahat olan şəxslərdir. Dünyəvi modelə qayıtmaq sözügedən ədalətsiz sistemə təslim olmaq deməkdir; yəni siz də ədalətsiz sistemin bir hissəsi olun. İran xalqından bunu istəyirlər.

**İran xalqı, güc və özünəinam**

İran xalqı otuz ildir bu cahil, dəli və məntiqsiz istəyə qüdrətlə, özünəinamla, öz iman mənbəyinə sədaqətli və dərin etiqadla "yox" cavabı verir. Bu otuz ildə İran xalqına və İslam Respublikası quruluşuna qarşı təzyiqlər inqilabı insan yetişdirən bu uca, mənəvi, ruhani mövqedən endirmək üçün idi. Bəllidir ki, bacarmadılar və bacarmayacaqlar: “Onlar öz ağızları ilə Allahın nurunu söndürmək istəyirlər, Allah isə - kafirlərin xoşuna gəlməsə də, Öz nurunu tamamlayacaqdır”[20]. Allah nuru, tövhid, ədalət, Allah bəndəliyi ilə şərəflənmək nuru insanların və xalqın qəlbində parladıqda heç bir əl onu söndürə bilməyəcək.

**Korpus və pak gənclər**

Mənim əziz övladlarım! Siz belə müqəddəs həqiqətin və uca heysiyyətin keşikçisisiniz. Bununla fəxr edin. İslam İnqilabının Mühafizəçiləri Korpusu inqilabın ilk günlərində bu ölkənin ən pak gənclərinin qəlbindən baş qaldırdı. Siz əzizlərim o günləri görməmisiniz. O gənclər sizin bu yaşlarınızda olan gənclər idilər; 20 yaşlı, 18 yaşlı, 22 yaşlı gənclər. İslam İnqilabının Mühafizəçiləri Korpusunu möhkəm əzmkarlıqla, polad iradə ilə, uca və əlçatmaz bir imanla yaratdılar və elə ilk günlərdən mübarizəyə qoşuldular.

**Məcburi müharibənin fəlsəfəsi**

Düşmən məcburi müharibəni inqilabı məhv etmək üçün başlatdı, amma o, inqilab qüvvələrinin və inqilab ruhiyyəsinin daha da güclənməsinə bais oldu. Bu əziz gənclər cəbhələrdə öz güclərini yenidən dərk etdilər. Onların pak və nurlu qəlblərində daxili istedad çeşmələri çağladı, gənc yaşlarında onları böyük sərkərdələrə, yorulmaz mücahidlərə, ağıllı və mütəfəkkir kişilərə çevirdi. İslam Respublikası quruluşu bu gənclərə və onların rəftarına həmişə borcludur.

**Müxtəlif dövrlərdə insanların rolu**

Siz o əzizlərin ardıcıllarısınız, o qabaqcıl yolçuların yerindəsiniz. “Hər gün Aşura və hər yer Kərbəladır” sözünün mənası budur ki, zaman ötür, lakin bəşər həyatında cari hadisələr və yaranış həqiqətləri dəyişmir. Hər bir dövrdə insanların üzərinə vəzifə düşür. Əgər o vəzifəni düzgün şəkildə, münasib anda və öz zamanında yerinə yetirsələr, hər şey düzələr, xalqlar inkişaf edər, insaniyyət çiçəklənər.

O gənclər belə etdilər, öz missiyalarını yerinə yetirdilər. Nəticədə, o zamandan bir neçə onillik ötdükdən sonra siz bu gün İran xalqının onların əlinin zərbi, fəaliyyətlərinin davamı olan səylərlə və Böyük İmamın həqiqətən, peyğəmbərcəsinə tövsiyələri ilə zirvələri bir-birinin ardınca fəth etdiyini və irəlilədiyini görürsünüz. Müharibə günlərini, xüsusən də müharibənin ilk illərini yada salın, silah çatışmazlığını, iqtisadi yoxsulluğu, təcrübə zəifliyini, Korpusun və Bəsicin durumunu bugünkü elm, tədqiqat və təcrübə inkişafları ilə müqayisə edin.

Siz bu universitetdə öyrənir, düşüncə, ruhiyyə və iradə baxımından özünüzü yetişdirir, çox böyük və fəxrli yola qədəm qoyursunuz. Bu universitet belə bir yerdir. Bu universitetdə təhsil aldığınıza və onu bitirdiyinizə görə fəxr edin, bunu Allahın böyük neməti sayın, bu neməti qoruyun və irəliləyin.

**Ölkə və mömin gənclər**

Sizin ölkənizin mömin gənclərə ehtiyacı var. Bu gün düşmənlərin daha çox gənclər üzərində mərkəzləşən davamlı fəaliyyətlərinə rəğmən, Allahın lütfü və mərhəməti ilə bizim gənclərimiz Allaha və ilahi hidayətə sarı gedirlər. Düşmənin acığına, bizim gəncimiz mömindir; bugünkü mömin gənc inqilabın ilk dövründəki - otuz il, iyirmi beş il öncəki mömin gəncdən öndə olmasa da, geridə deyil. Məcburi müharibənin yandırıcı sobası və möhtəşəm təcrübəsi istedadların aşkara çıxması üçün bir fürsət idi. O, hansı dəyərli və istedadlı nəslin qarşısına çıxsa, möcüzə yaradacaq.

**Mənəvi heybət**

Bu gün siz başqa sahədəsiniz; elm sahəsində, öz quruculuğunuz, ölkə quruculuğu və müdafiə üçün hazırlıq inkişafı sahəsində. Düşmənlər - yalnız İran xalqının yox, bütün xalqların, insaniyyətin və fəzilətin düşməni olan hegemon supergüclər çox zaman qeyzlə yaşayırlar, qorxutmaqla işlərini irəliyə aparırlar, öz heybətlərini xalqlara sırıyır, bununla onları səhnədən qovurlar. Supergüclərin heybətindən qorxmayın. Sizin onların qəlbində olan mənəvi heybətiniz daha çoxdur. Siz öz imanınıza, hazırlığınıza, elminizə, ağlınıza, ağıllı və idarəçi düşüncənizə arxalandıqda, inqilabın ürəyindən qalxmış böyük dəyərləri qiymətləndirib onlara etina etdikdə və onlarla öz imanınızı qoruduqda bütün xalqların gözündə elə ucalırsınız ki, onların avam xalqların qəlbindəki əzəmətindən çox olur. Bu gün düşmənlər bilirlər ki, İran xalqı mömin gənclərlə, iradəli kişilərlə, dəyərlərə sədaqəti ilə fəxr edən məmurlarla və rəsmi şəxslərlə - belə dəyərli sərvətlərlə heç bir qeyzdən, heç bir zəhmdən qorxmur. Bunu bilirlər.

Siz böyük və şərəfli mühafizəçilik geyimində düşmənin qəlbində olan bu inamı daha da artırın, özünüzü mənəvi baxımdan islah edin. Allah bəndəliyi və Allah qarşısında kiçilmək insanın heç bir hegemon qarşısında kiçilməməsinə bais olur. İlahi qorxunu, ilahi izzəti dərk edən ürək özündə elə ucalıq hiss edir ki, ən böyük güclər də onun qarşısında duruş gətirə bilmirlər. Öz bəndəliyinizi günbəgün artırın.

İlahi! Bu əziz gəncləri, İslam döyüşçülərini, silahlı qüvvələri, ordunu, Korpusu, polisləri, Bəsici və bu mömin təşkilatları Sənin özünə tapşırıram.

İlahi! Öz lütf və bərəkətlərini onlara nazil et!

Allahın salamı və rəhməti olsun sizə!

## İranlı milliyyətlər, inkişaf və ədalət[21]

Bismillahir-Rəhmanir-Rəhim.

**Ümidli və məqsədli gənclər**

Bu universitetdə siz gənclərlə, tələbələrlə və alimlərlə keçirilən bu məclis çox səmərəli və ümidverici məclisdir. Gənclərin toplantısı xüsusən universitetdə, tələbə, müəllim və alimlərlə keçirildikdə danışan, dinləyən və bütün ölkə üçün müjdəçi olur. Mən tələbə təbəqəsi ilə tanışam. Allaha şükür olsun ki, uzun illər onlarla əlaqəmiz olmuşdur və inşallah, yenə də olacaq. Tələbələrin inkişaf istəyən, yenilikçi, həvəskar və təravətli ruhiyyəsi ilə tanışam. Lakin bu izdiham, xüsusən də bizim əzizlərimizin - tələbələrin, gənclərin və müəllimlərin burada danışdığı sözləri dinləmək insana daha çox müjdə verir. Bu ruhiyyəyə və bu həvəskarlığa əsasən, əminik və hamı əmin olsun ki, İslam Respublikası quruluşunun sabahı bu günündən dəfələrlə mütərəqqi və yaxşı olacaq. Necə ki, biz inqilabın ilk günündən indiyə qədər Allahın lütfü ilə heç bir an dayanmamışıq, həmişə irəliləmişik. Mənim proqnozum budur ki, gələcək illərdə sizin bu gənclik oyanışınız və insanın gənc nəsildə müşahidə etdiyi elmə, amallara diqqət və məsuliyyət hissi sayəsində bu sürət daha da artacaq. Mən bəzi adamların təəssübkeşlik və bəzilərinin xəbərsizlik üzündən müəyyən yerlərdə gənc nəsli amallardan üz çevirmiş nəsil kimi göstərən mənfi sözlərinə heç zaman inanmamışam və inanmayacağam. Bizim gəncimiz irəliyə doğru gedir, məqsədlidir, ümidlidir, əsaslıdır və inşallah, gənclik qüvvəsi ilə bu ağır işlərin öhdəsindən gələcək.

Qabaqcadan nəzərdə tutduğum sözləri deməzdən öncə dostların burada buyurduğu məsələlərə fikir bildirmək istəyirəm. Ümumi olaraq ürəkaçan sözlər deyildi, göstərilən çıxış yolları düzgün və faydalı yollardır. Çoxu da elm, texnologiya, universitet, laboratoriya məsələləri, keyfiyyəti artırmaq, elmə əsaslanan sənayeyə dəstək barədə müxtəlif təkliflər və bu qəbildən olan sözlərdir. Biz bunların hamısını təsdiq edirik. Bu çıxışlarda yeni məqamlar da vardı. Mən ümidvaram burada iştirak edən cənablar - hörmətli Təhsil naziri, hörmətli Səhiyyə naziri və prezidentin elm məsələləri üzrə hörmətli müavini bu məqamlara diqqət yetirsinlər: həm elmi nümunələri cəlb etmək, həm lazımi əlaqələr, həm də deyilən digər təkliflər barədə. Mənim fikrimcə, çox yaxşı təkliflər idi və hamısına diqqət yetirilməlidir. Mən inşallah, səfərdən qayıtdıqdan sonra aidiyyətli qardaşlardan istəyəcəyəm ki, bu təkliflərin mümkün həddə icrası barədə məlumat versinlər.

**Formal və dayaz işlərin tələbəyə zərəri**

Bu əziz qızımız Tələbə parlamenti barədə təklif irəli sürdü. Qəşəng addır; lakin formal işlər nə tələbənin problemini həll edir, nə ölkənin. Gərək bacardıqca zahiri, dayaz, formal və şüar xarakterli işləri azaldıb əsaslı, həqiqi və həlledici işlərə

diqqətimizi artıraq. İndi fərz edin, Tələbə parlamenti yarandı. Siz görün bu parlamentin seçkiləri ölkə tələbələrinin nə qədər vaxtını alacaq; hansı universitetdən, hansı şəhərdən, hansı təmayüllə, hansı düşüncə, yaxud siyasi istiqamətlə; çəkişmələr və sair. İndi bizim səyimiz budur ki, elm ocaqlarında elm və tədqiqat həvəsini bacardıqca artıraq. Sonra əziz qızımız dedi ki, bu parlamentin icra səlahiyyətləri də olsun. Əgər parlamentdirsə, icra səlahiyyətləri nə üçündür?! Həm qərar çıxarsın, həm də özü icra etsin?! Bu məsələni universitetlərin daxilinə çəkməklə görün universitetlərin başına nə gələcək! Mən tələbəyə diqqətlə, tələbənin sözünü dinləməklə, tələbəyə nəvaziş göstərməklə və kömək etməklə yüz faiz müvafiqəm, lakin yolu bunlar deyil. Bu əziz qızımız çox qəşəng, gözəl və həyəcanlı çıxış etdi. Biz qocalar bir gəncin həyəcanla danışdığını eşitdikdə sanki gənclik hissi keçiririk. Bundan əlavə, dedi ki, bu parlament səsi məmurların qulağına çatdırsın. Mənim fikrimcə, Tələbə parlamentindən yaxşısı indi sizin iştirak etdiyiniz bu məclisdir. Belə məclisləri artırın. Mənim universitetlərə getməyimin səbəblərindən biri - mən hər səfərdə tələbələrlə mütləq bir görüşün keçirilməsini istəyirəm, Tehranda da bəzən universitetlərə baş çəkirəm - budur ki, məmurların ayağı universitetlərə açılsın və tələbələrlə üz-üzə söhbət etsinlər. Bu gün sizin burada danışdığınız sözlər radio və televiziyadan yayımlanacaq və bütün ölkədə işıqlandırılacaq. Məsul bir şəxs kimi mənim qulağıma çatdı, universitet məmurlarının qulağına çatdı, digər məmurların qulağına da çatacaq. Bundan yaxşı nə ola bilər?! Belə səmimi və açıq tələbə məclislərini bacardığınız qədər çox keçirin; sözsüz ki, komplimentləri azaltmaqla. Mən bəzi dostların burada bu kiçik bəndə barədə mübaliğəli sözlər deməsinə razı deyiləm. Qoyun əlaqələr bir qədər daha səmimi və daha təbii olsun: tələbələr sözlərini danışsınlar, məmurlar dinləsinlər, bəzən məmurların da tələbələrə bir sözü olur, onu desinlər. Hər halda, məclis çox yaxşı məclis idi. Mən çıxış edənlərin hər birinə təşəkkür edirəm.

**İnkişaf və ədalət mövzusu**

Mənim demək istədiyim mövzu gəncin və tələbənin təbiəti ilə tam uyğun olan və gələcəyə aid bir mövzudur. Çünki gələcək sizə məxsusdur. Biz bu gün gələcək barədə nə qədər danışsaq, həqiqətən, sizə aid olan, sizin real varlığınızın təyinedici və həlledici olacağı bir zamana baxmaq, danışmaq və nəzər salmaqdır. Gələcək barədə olan bu mövzu artıq başlanmış olan dördüncü onilliyin şüarı məsələsidir - yəni inkişaf və ədalət. Elan etmişik ki, bu onillik inkişaf və ədalət onilliyi olsun. Sözsüz ki, deməklə və elan etməklə nə inkişaf hasil olur, nə də ədalət. Lakin izah etməklə, təkrarlamaqla, iradə və əzmkarlıqları möhkəmlətməklə həm inkişaf hasil olur, həm də ədalət. Biz inkişaf və ədalət məsələsini dördüncü onillikdə milli bir müzakirə mövzusuna çevirmək istəyirik. Hamılıqla onu istəməyincə layihə, proqram və reallaşma işləri görülməyəcək, məqsədə də çatmayacağıq. Gərək izah olunsun. Mən bir qədər bu inkişaf məsələsi barədə söhbət edəcəyəm. Ədalət məsələsi də başqa bir geniş mövzudur.

Öncə mövzunun ümumi formasını deyirəm və çalışacağam ki, bacardıqca qısa və konkret danışım. Bugünkü mövzunun ümumi forması budur: Bəzi inkişaf xüsusiyyətlərini deyəcəyik ki, təsəvvürümüzdə inkişaf barədə olan ümumi görüntü aydınlaşsın. Mövzunun əsas hissəsi də budur. Sonra inkişafın bəzi ehtiyaclarını, yaxud zəruri ehtiyaclarını sayacağıq. Sonra da vaxt qalsa, bu yolda bəzi maneələrə və bizə əngəl törətməsi mümkün olan bəzi təhdidlərə toxunacağıq.

**İnkişafın özəllikləri**

Birinci məsələ - yəni inkişafın ümumi görüntüsünü təsvir etmək məsələsi barədə bir neçə məqama toxunacağam.

Birinci məsələ budur ki, biz "inkişaf" dedikdə bu, Qərbdə işlənən mənada anlaşılmamalıdır. Bizim leksikonumuzda işlənən "inkişaf" sözünün xüsusi mənası var. Bu, Qərbdə işlənənlə səhv salınmasın. Qərblilər uzun illər fərasətli bir təbliğat taktikası işlətmişlər. O da budur ki, dünyanı inkişaf etmiş, inkişaf etməkdə olan və inkişaf etməmiş ölkələrə bölmüşlər. Bəli, ilk mərhələdə insan elə bilir ki, inkişaf etmiş ölkə texnologiyaya və mütərəqqi elmə malik ölkədir; inkişaf etməyən və inkişaf etməkdə olan da həmin nisbətlə. Halbuki belə deyil. "İnkişaf etmiş" və onun ardınca gələn "inkişaf etməkdə olan" və "inkişaf etməmiş" sözlərində bir dəyərləndirmə vardır. Əslində, "inkişaf etmiş ölkə" deyəndə məqsədləri bütün xüsusiyyətlərinə - mədəniyyətinə, adət-ənənələrinə, rəftarına və siyasi istiqamətinə malik olan Qərb ölkəsidir; bu, inkişaf etmişdir. İnkişaf etməkdə olan ölkə qərbləşmə halında olandır. İnkişaf etməyən ölkə isə qərbləşməyən, yaxud qərbləşmə halında olmayan ölkədir. Belə izah etmək istəyirlər. Əslində, bugünkü Qərb mədəniyyətində ölkələrin inkişafa həvəsləndirilməsi onların qərbləşməyə həvəsləndirilməsidir. Buna diqqət yetirməlisiniz. Bəli, inkişaf etmiş Qərb ölkələrinin rəftarında, işində, üslubunda müsbət cəhətlər var; ola bilsin, bəzilərinə işarə vurum. Əgər lazım olsa, biz bunları öyrənərik. Əgər lazım olsa, şagirdlik də edərik. Lakin bizim fikrimizcə, onda antidəyərlər toplusu da var. Odur ki, biz qərbləşməyi, yaxud Qərb mənasında olan inkişafı əsla qəbul etmirik. Bizim istədiyimiz inkişaf başqa bir şeydir.

**İnkişaf örnəyi**

İkinci məsələ budur ki, inkişafın bütün ölkə və cəmiyyətlər üçün vahid örnəyi yoxdur. İnkişafın bir mütləq mənası da yoxdur. Müxtəlif tarixi, coğrafi, geosiyasi, təbii, humanitar şəraitlər, zaman və məkan şəraitləri inkişaf modellərinin yaranmasına təsir göstərir. Bir inkişaf modelinin bir ölkə üçün ideal, lakin başqa bir ölkə üçün uğursuz olması mümkündür. Buna əsasən, vahid model yoxdur ki, onu tapaq və bütün hissələrini ölkəmizdə icra edək. Belə bir şey yoxdur. Bizim ölkəmizdə inkişafın bizim tarixi, coğrafi şəraitimizə, torpaq və məmləkətimizin vəziyyətinə, xalqımızın durumuna, adət-ənənələrimizə, mədəniyyətimizə və irsimizə uyğun olan özəl örnəyi var; onu axtarıb-tapmalıyıq. O örnək bizi inkişafa çatdırar, digər nüsxələr isə işə yaramaz. İstər Amerika inkişaf nüsxəsi, istər Qərbi Avropa inkişaf nüsxəsi, istər fərqli bir növ olan Şimali Avropa, Skandinaviya inkişaf nüsxəsi – bunların heç biri

bizim ölkəmizin inkişafı üçün ideal model ola bilməz. Biz öz yerli modelimizi axtarmalıyıq. Bizim hünərimiz bu olacaq ki, öz şəraitimizə münasib olan yerli inkişaf modelini tapaq. Mən bu söhbəti universitetdə edirəm. Mənası budur ki, bu araşdırmanı siz tələbə və müəllimlər ciddi şəkildə aparmalısınız və inşallah, bacaracaqsınız.

**İdeologiya və inkişaf növü**

Növbəti mühüm məsələ budur ki, ideoloji əsasların ideal, yaxud uğursuz inkişaf növünə təsiri var. Hər bir cəmiyyətin, hər bir xalqın ideoloji, fəlsəfi və əxlaqi əsasları var. O əsaslar həlledicidir və bizə hansı inkişaf növünün ideal, hansının uğursuz olduğunu deyir.

Bir gün naşılıqdan, yaxud ağılsızlıqdan şüar verib fəryad qoparan və "gedib başdan-ayağa avropalı olmalıyıq" - deyən şəxs anlamadı ki, Avropanın öz keçmişi, mədəniyyəti və düşüncə əsasları vardır. Avropanın inkişafı da həmin düşüncə əsaslarına görədir. O əsaslar bəzən bizim tərəfimizdən qəbul olunmur, biz onları rədd edir və yanlış sayırıq. Bizim öz düşüncə və əxlaq əsaslarımız var. Orta əsrlərdə Avropada kilsə elmə qarşı mübarizə aparmışdır. Avropanın elmi renessansının həmin keçmişə qarşı reaksiyasını diqqətdən qaçırmamalıyıq. Onun mental, fəlsəfi və əxlaqi əsaslarının seçmək istədiyi inkişaf növünə çox böyük təsiri var. Bizim mental əsaslarımız bizə deyir ki, bu inkişaf qanunidir, yoxsa qanunsuzdur; yaxşıdır, yoxsa pisdir; ədalətlidir, yoxsa ədalətsizdir.

Fərz edin, bir cəmiyyətdə qazancın birinciliyi təfəkkürü hakimdir. Yəni dünyanın bütün məsələləri pulla, hər hansı bir şeyin maddi dəyəri və qazancı ilə ölçülür. Bu gün dünyanın böyük bir hissəsində vəziyyət belədir; hər şey pulla ölçülür. Belə cəmiyyətdə bəzi işlərin pula vasitə olduğu üçün dəyər sayılması mümkündür, lakin pulun və qazancın mühakimə meyarı olmadığı bir cəmiyyətdə həmin iş antidəyər sayıla bilər. Yaxud bir cəmiyyətdə ləzzətin birinciliyi hakimdir. Cənab, siz nə üçün bu işi icazəli bilirsiniz? Nə üçün həmcinsbazlığı icazəli bilirsiniz? Deyirlər ki, insan ondan həzz alır. Bu oldu ləzzətin birinciliyi. Bir cəmiyyətə və ümumi zehniyyətə ləzzətin birinciliyi hakim olduqda bəzi məsələlər halal olur. Lakin siz ləzzətin birinciliyinin mövcud olmadığı bir fəlsəfədə, ideologiyada və əxlaqi quruluşda yaşayırsınız; bəzi işlərin ləzzəti var, lakin qanunsuzdur, qadağandır. Ləzzət hansısa bir işi icazəli etmir, qanunilik meyarı deyil. Siz burada ləzzətin birinciliyinin hakim olduğu bir cəmiyyət kimi qərar seçə bilməzsiniz, ideoloji əsaslar fərqlidir. Yaxud bir cəmiyyətdə və ya əxlaqi sistemdə pulun mütləq dəyəri var, haradan gəlməsi mühüm deyil; istismar yolu ilə əldə edilməsi də mümkündür, müstəmləkəçiliklə də, soyğunçuluqla da. Əlbəttə, bu gün bunlar açıq şəkildə deyilsə, belə cəmiyyətlərdə inkar oluna bilər, lakin tarixlərinə baxsanız, məsələ aydınlaşar. ABŞ-da fəxr etdikləri, fəxr etməkdə olduqları və Amerika dəyərlərindən biri sayılan fərdi azadlıq və liberalizm məsələsinin kökü şəxsi sərvəti qorumaqdan ibarətdir. ABŞ-ın yarandığı mühitin və o zaman ABŞ-a toplaşmış xalqın maddi fəaliyyətini qorumaq üçün insanların şəxsi sərvətinə mütləq bir dəyər verilməsinə ehtiyac vardı. Bu, sosioloji və

realist baxışdır. Amerika regionu əlverişli təbii şəraitinə görə pul qazanmaq üçün münasib yerə çevriləndə oraya toplaşan şəxslər daha çox Avropadan gəlmiş, təlatümlü Sakit okeanın enini keçib özlərini Amazoniya torpaqlarına çatdırmış avantüristlər idilər. Hər adam gəlmirdi. Avropada həyatı, peşəsi, ailəsi, əsil-nəsəbi olan gəlmirdi. Ya maddi sıxıntısı olanlar, ya cinayət axtarışında olanlar, ya da macəraçılar gəlirdilər. Bilirsiniz ki, Sakit okeanın suları dünyanın ən təlatümlü sularıdır. Bu okeanın enindən keçib özünü Avropadan Amerika torpaqlarına çatdırmağın özü bir macəraçılıq istəyirdi. Ümumi demirəm, amma ABŞ-ın ilk əhalisini əsasən, bu macəraçılar təşkil etdilər. Onların bir yerdə və bir-birinin kənarında yaşayıb sərvət istehsal edə bilmələri üçün şəxsi sərvətə mütləq bir dəyər verilməli idi və verildi. Kovboy filmlərində - düzdür, bunlar tam həqiqət deyil, hər halda, filmdir, lakin onda həqiqətin əlamətləri tamamilə mövcuddur - görürsünüz ki, bir nəfər başqasının ilxısından bir inək oğurladığına görə hakim ona edam hökmü verir, sonra da dar ağacından asırlar. Bu ona görədir ki, şəxsi sərvət və xüsusi mülkiyyət mütləq bir dəyər sayılır. Təbii ki, belə bir cəmiyyətdə pulun haradan gəlməsi mühüm deyil.

Təxminən bütün Qərb cəmiyyətlərində sərvət müstəmləkə yolu ilə əldə olunmuşdur. İngiltərə 18-19-cu əsrlərdə böyük sərvət əldə etdi, o sərvətin, nağd pulun və qızılın vasitəsilə öz siyasətini bütün Avropaya və digər bölgələrə hakim etdi. Bu, ingilislərin Şərq ölkələrinin və əsasən, Hindistan yarımadasının müstəmləkəsindən əldə etdiyi pula görə idi. Onlar Hindistan yarımadasını, keçmiş Siyamı və o bölgənin digər ölkələrini qarət etdilər. Tarixə müraciət edin. Onların Hindistanda etdiklərini bir-iki kəlmə ilə söyləmək mümkün deyil. İngilislər Hindistanın və çox sərvətli olan o regionun sərvətini sulu bir nar kimi sıxdılar, hamısı İngiltərənin və onun hökumətinin xəzinəsinə töküldü və İngiltərə varlı bir ölkəyə çevrildi. Bu sərvət möhtərəmdi, haradan gəldiyi soruşulmur. Belə ölkədə inkişafın bir mənası var, lakin müstəmləkəni haram bilən, istismarçılığı günah sayan, qarəti, işğalı, quldurluğu və digərlərinin hüququna təcavüzü qadağan edən bir ölkədə isə başqa mənası. Buna əsasən, bir ölkədə ideoloji, əxlaqi əsaslar və fəlsəfi təfəkkürlər inkişafın tərifində təsirlidir. Bu da bir məsələ.

### Qərblilərin müsbət cəhətləri

Növbəti məsələ budur ki, biz İslam məntiqindəki inkişafın Qərb inkişafı ilə fərqli nöqtələrini sayarkən ortaq cəhətləri unutmamalıyıq. İnkişaf etmiş Qərb ölkələrinin inkişafında ideal inkişafla ortaq cəhətlər də var; təhlükəyə atılmaq ruhiyyəsi, - insafla desək, bu, avropalıların yaxşı xarakterlərindəndir - yaradıcılıq, fəallıq və nizam-intizam çox vacib məsələlərdir. Hansı cəmiyyətdə bunlar olmasa, inkişaf hasil olmayacaq. Bunlar da lazımdır. Bizim bunları öyrənməyimiz lazımdırsa, öyrənərik. Əgər öz qaynaqlarımızda olsa, onları öyrənər və onlara əməl edərik.

### Ədalətlə yanaşı olan inkişaf

Növbəti məsələ ədalət sözüdür. Biz dedik ki, inkişaf və ədalət. Bunun çox böyük mənası var. Fərz edin, mühüm göstəricilərdən biri ölkələrdə ümumi daxili

məhsulun artmasıdır. Filan ölkənin ümumi daxili məhsulu məsələn, bir neçə milyarddır, filan ölkədə isə onun onda biri qədərdir; deməli, birinci ölkə inkişaf etmişdir. Bu məntiq düzgün deyil. Ümumi daxili məhsulun artması - yəni bir ölkənin ümumi gəliri təklikdə inkişaf əlaməti ola bilməz. Baxmaq lazımdır ki, bu gəlir necə bölünür. Əgər gəlir çox yüksəkdirsə, lakin həmin ölkədə insanlar gecə küçələrdə yatırlarsa, 42 dərəcə isti olanda çoxlu insan ölürsə, bu, inkişaf deyil. Siz xəbərlərə baxın: ABŞ-ın, yaxud başqa bir yerin böyük və məşhur bir şəhərində havanın temperaturu 42 dərəcəyə çatdı və filan qədər adam öldü. Nə üçün 42 dərəcədə ölürlər? Çünki evsiz-eşiksizdirlər. Əgər bir cəmiyyətdə evsiz-eşiksiz yaşayan, yaxud acından ölməməkdən ötrü gündə 14 saat işləyən insanlar varsa, ümumi gəlir indikindən on dəfə artıq olsa da, bu, inkişaf deyil. İslamın məntiqində bu, inkişaf sayılmır. Odur ki, ədalət məsələsi çox əhəmiyyətlidir.

### Axirətin və dünyanın abadlığı

Ədalət barədə söz çoxdur. İslamın inkişafa əsas baxışı insana bu baxış üzərindədir: İslam insanı ikicəhətli - dünya və axirətə malik bir varlıq bilir. Bu, inkişaf barədə bütün vacib məsələlərin təməlidir. Əsas meyar budur, əsas fərq bundadır. Əgər bir sivilizasiya, bir mədəniyyət və bir din insanı bircəhətli bilsə, onun xoşbəxtliyini yalnız dünyanın maddi həyatında görsə, təbii ki, onun məntiqindəki inkişaf insanı ikicəhətli bilən İslam məntiqindəki inkişafla tam fərqlənəcək. Bizim ölkəmiz və İslam cəmiyyəti o zaman inkişaf etmiş olar ki, xalqın yalnız dünyasını yox, axirətini də abadlaşdırsın. Peyğəmbərlər bunu istəyirlər: dünya və axirət. Nə axirət bəhanəsi ilə insanın dünyası yaddan çıxmalıdır, nə də dünyanın ardınca düşməyə görə axirət yaddan çıxmalıdır. Bu, çox əhəmiyyətli məsələdir, əsas budur. İslam cəmiyyətində nəzərdə tutulan inkişaf belə bir inkişafdır.

### İnkişafda yaranan yayınmalar

Burada bir neçə cür yayınmanın yaranması mümkündür: Biri budur ki, bəzi şəxslər dünyanı əsas bilib axirəti unutsunlar. Yəni cəmiyyətin, proqram hazırlayanların, siyasət təyin edənlərin və hökumətin bütün səyi dünyəvi baxımdan xalqın məişətini abadlaşdırmağa yönəlsin: xalqın pulu, sərvəti, rahatlığı olsun, ev, nikah, işsizlik problemi olmasın, mənəvi vəziyyətinə isə əsla diqqət yetirməsinlər. Bu, bir yayınmadır. Başqa bir yayınma budur ki, dünyanı unutsunlar. Dünyanı unutmaq həyat və məişət nemətlərini unutmaq və onlara etinasız yanaşmaqdır; axirət və din məsələlərinə diqqət, dünya nemətlərinə və Allah-Taalanın bu dünyada yaratdığı istedadlara diqqətsizlik. Bu da yayınmalardan biridir: "O sizi yerdən (torpaqdan) yaradıb oranı abadlaşdırmanızı istədi". Allah sizə Yeri abadlaşdırmağı əmr etmişdir. Abadlıq nədir? Yəni maddi aləmdə mövcud olan tükənməz istedadları bir-bir kəşf etmək, insanın istifadəsinə vermək və insanı bunun vasitəsilə inkişaf etdirmək. Bizim dediyimiz elm istehsalı və bu kimi məsələlər bundan ötrüdür. Başqa bir yayınma da budur ki, insan öz şəxsi həyatında nemətlərə, maddi ehtiyaclara əhəmiyyətsiz yanaşsın; İslamda bu da bəyənilməyib, əksi istənmişdir: "Dünyasına görə axirətini və

axirətinə görə dünyasını tərk edən insan bizdən deyil". Əgər dünyaya görə axirəti tərk etsəniz, imtahandan kəsiləcəksiniz; əgər axirətə görə dünyanı tərk etsəniz, yenə də kəsiləcəksiniz. Bu, çox mühümdür.

**Proqramlarda dünya və axirət tarazlığı**

Əmirəlmöminin həyat yoldaşını, həyatını, evini və hər şeyini kənara atıb ibadətlə məşğul olan bir nəfərə buyurdu: "Ey özünün kiçik düşməni". Özünlə düşmənlik edirsən, Allah səndən bunu istəməmişdir. "De: "Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz (halal) ruziləri kim haram buyurmuşdur?!"[22] Buna əsasən, həm proqramlarda, həm şəxsi əməldə, həm də ölkə idarəsində dünya və axirətin tarazlığı, dünya və axirətə diqqət lazımdır. Bu da inkişafın əsas meyarıdır. Bunlar nəzərdə tutduğumuz inkişaf özəlliklərindən idi və dedik. Qeyd etdiyim kimi, məsələ bu sözlərlə bitmir, diqqət yetirmək, izləmək və araşdırmaq lazımdır. Fikir sahibləri universitetlərdə bu məsələlər üzərində araşdırma aparsınlar, elmi şəkildə izah etsinlər, örnək göstərsinlər ki, proqrama çevirib icraya çıxaraq və on ildən sonra xalq həqiqətən, inkişaf etdiyini hiss etsin.

**İnkişaf örnəyi üçün zəruri şərtlər**

Hər bir inkişaf örnəyi ölkənin müstəqilliyini təmin etməlidir. Bu, bir meyar sayılmalıdır. İnkişaf üçün irəli sürülən örnəklərin hər hansı biri ölkəni asılı, xar etsə, siyasi, hərbi və ya iqtisadi gücə malik ölkələrin ardınca düşən etsə, rədd edilməlidir. Yəni inkişaf onilliyində inkişaf modelinin qəti məsələlərindən biri müstəqillikdir. Siyasətdə, iqtisadiyyatda və ya digər sahələrdə zahiri və asılı inkişaf, inkişaf sayılmır. Bu gün xüsusən Asiyada texnologiya, elm və sənaye baxımından zahiri inkişafı olan ölkələr var. Onlar dünyanın çoxlu yerlərini də tutmuşlar, lakin asılıdırlar, xalqın və onun ardınca hökumətin nə beynəlxalq siyasətlərdə, nə dünyanın iqtisadi siyasətlərində, nə də beynəlxalq miqyasda mühüm layihələrdə rolu var. Onlar digərlərinin və əksərən, ABŞ-ın ardınca düşmüşlər. Bu, inkişaf deyil və dəyəri yoxdur.

**Ölkənin müstəqilliyi və qloballaşma**

Mən burada qloballaşma məsələsinə toxunmaq istəyirəm. Qloballaşma çox qəşəng addır və hər bir ölkə dünya bazarlarının onun üzünə açılacağını düşünür. Lakin Qərbin kapitalizm maşınında bir bolt-qaykaya çevrilməkdən ibarət qloballaşma heç bir müstəqil xalq tərəfindən qəbul olunmamalıdır. Əgər qloballaşmanın sözün həqiqi mənasında gerçəkləşməsi nəzərdə tutulursa, onda ölkələr özlərinin iqtisadi və siyasi müstəqilliklərini və qərar güclərini qorumalıdırlar. Əks təqdirdə, on illər öncədən Amerikanın və hegemonizmin alətləri olan Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı və bu kimi qurumlarla yaradılan qloballaşmanın dəyəri yoxdur. Bu baxımdan, mühüm bir şərt müstəqillik məsələsidir. Əgər bu olmasa, deməli, inkişaf yoxdur, inkişafın ilğımı var.

**Elm istehsalının ümumi istəyə çevrilməsi**

Ciddi şəkildə sizinlə əlaqədar olan başqa bir məsələ də elm istehsalı məsələsidir. Xoşbəxtlikdən, mən görürəm ki, universitetlərdə elm istehsalı və elmin sərhədlərini aşmağın zəruriliyi ümumi bir istəyə çevrilmişdir. Bu mənim üçün çox sevindirici və ümidvericidir.

Bunu icra etməlisiniz. Mənim əzizlərimin elm, tədqiqat, araşdırma, elmi nümunə yetişdirmək, əlaqə mərkəzləri yaratmaq və digər məsələlər haqda təkliflərinin hamısı elm istehsalı istiqamətindədir. Bu, çox dəyərlidir və bu yolu davam etdirmək lazımdır. Biz geridəyik. Bu gün bizim inkişaf sürətimiz yaxşıdır, ancaq ölkəmizin keçmişdəki geriliklərinə görə nə qədər çox olsa, yenə azdır. Biz çox irəliləməli, kəsə yollardan istifadə etməliyik, sürətimiz çox olmalıdır və bütün fənlərdə elm istehsalına çalışmalıyıq.

**Elm və ölkələrin əlaqəsi**

Elm sahəsində ölkələr arasında ixrac-idxal əlaqəsi olmalı, həm də onda balans və tarazlıq qorunmalıdır. İqtisadi və ticari məsələlərdə bir ölkənin idxalı ixracından çox olduqda tarazlığın pozulduğu və ziyanın hiss olunduğu kimi, elm sahəsində də belə olmalıdır. Elmi idxal edin, eybi yoxdur, amma ən azı idxal etdiyiniz qədər, yaxud ondan da çoxunu ixrac edin. Yəni ikitərəfli olmalıdır. Sizin daim digərlərinin elminin artığını yeyən olmanız inkişaf deyil. Elmi alın, istəyin, digərlərindən öyrənin, lakin siz də istehsal edin və digərlərinə verin. Burada da ehtiyatlı olun ki, sizin mübadilə balansınız mənfi olmasın. Təəssüf ki, dünyada elmin çiçəkləndiyi son 1-2 əsrdə bizim tarazlığımız mənfi olmuşdur. İnqilabın əvvəlindən yaxşı işlər görülmüşdür, lakin bu işlər sürətlə və bacardıqca güclü formada davam etdirilməlidir.

**Humanitar elmlərin əhəmiyyəti**

Sözsüz ki, məqsədim yalnız təbii elmlər deyil, humanitar elmlər də çox əhəmiyyətlidir: sosiologiya, psixologiya, fəlsəfə. Qərbin sosioloji nəzəriyyələri bəzi adamlar üçün Quran kimi və Qurandan da mötəbərdir! Hansısa sosioloq belə demişdir, daha oyan-buyanı yoxdur! Nə üçün?! Oturub fikirləşin, nəzəriyyə yürüdün. Bu elmlərin dünyada mövcud olanından istifadə edək, ona bir şey artıraq, yanlış nöqtələrini ortaya çıxaraq. Bunlar inkişafın zəruri şərtlərindəndir.

**Mübarizə**

Mən sözümü bitirmək istəyirəm. Zəruri işlərdən daha birisi mübarizə məsələsidir. Əgər inkişaf etmək istəyirsinizsə, mübarizə aparmalısınız. Rahatlıq ardınca qaçmaq, bir tərəfdə oturmaq, əllərini ovuşdurub dünya hadisələrinə baxmaq və böyük beynəlxalq işlərə qoşulmamaq heç bir ölkə və xalq üçün inkişaf yaratmır. Səhnəyə çıxmaq lazımdır. Səhnə də zəruri olaraq hərbi döyüş cəbhəsi deyil. Bu gün hərbi döyüşdən daha mühüm olan siyasi və əxlaqi döyüşlər gedir. Bu gün dünyada inkişaf etmiş sayılan bir çox ölkə, dövlət və cəmiyyətlər əxlaqi və siyasi sorğuya çəkilsələr, başıaşağı olacaqlar.

**Mənfi inkişafın əlamətləri**

Siz bu gün baxın. Hər tərəfdən mühasirəyə alınmış kiçik Qəzzə torpağında giriş-çıxış icazəsi və heç bir həyat imkanı verilməyən əhalini təyyarə ilə, raketlə, topla vururlar, zirehli texnika yeridirlər, iyirmi iki gün ərzində beş mindən artıq insan öldürürlər, dünya da oturub tamaşa edir. Hadisənin ortalarında dünyanın hər tərəfindən nəticəsiz ah-uflar ucalır. Sonra da Birləşmiş Millətlər Təşkilatı elan edir - cənab Baş katib bir neçə gün öncə elan etdi - ki, Qəzzə məsələsinin qovluğu bağlandı. Qəribədir!

Bu gün dünyada zülm, ayrıseçkilik, ikili standart var. Bunun nümunələrindən biri bizim nüvə məsələmizdir. Nümunələrindən biri bizimlə qonşu müsəlman ölkələrinə hərbi təcavüzlərdir. Mülki adamları öldürmək və bombalamaq adi bir şey olmuşdur. Ötən həftə elan etdilər ki, ABŞ hərbçilərinin hava hücumları nəticəsində Əfqanıstanda 150 nəfər öldürülmüşdür. Sanki heç bir hadisə baş verməmişdir. Sonra da deyirlər ki, bağışlayın, səhv oldu. Bu, sözdür?!

Əgər Səddam Hüseyn Hələbçəni kimyəvi silahlarla bombalayanda onun yaxasını tutsaydılar, dünya onu mühakimə etsəydi, əgər Fars körfəzində İranın sərnişin təyyarəsinin bir amerikalı general tərəfindən vurulduğu və bir neçə yüz iranlı və qeyri-iranlının öldürüldüyü gün o cinayətkar hərbçinin yaxasını tutub məsuliyyətə cəlb etsəydilər, - bunun əvəzinə ozamankı ABŞ prezidenti ona medal verdi; tənəzzülə baxın - mühakimə etsəydilər, əgər Əfqanıstanda ilk dəfə bir rus karvanının ABŞ hərbçiləri tərəfindən bombalandığında o cinayətkar zabiti tutub muhakimə etsəydilər, daha dünyada bu hadisələr baş verməzdi, yaxud az olardı. Bu, çirkin, anormal və antibəşəri vəziyyətdir. Canlı bir xalq bununla mübarizə aparmalıdır.

**İran xalqının və hökumətinin fəxri: zülmün ifşası**

Fəxr edirik ki, bizim xalqımız, hökumətimiz, məmurlarımız, gənclərimiz və alimlərimiz bütün bu illərdə bu hadisələrə laqeyd qalmayıblar, mövqe bildiriblər, nifrət bildiriblər. İran xalqı bu ruhiyyəni əldən verməməlidir. Xüsusən siz gənclər bu ruhiyyəni əldən verməyin. Bir qrup adam məsələni tərsinə göstərmək istəyir, etiraz edib deyirlər ki, nə qədər deyəcəksiniz filankəsə ölüm, filankəsə ölüm. Etiraz edirlər ki, nə üçün ABŞ-ın, sionistlərin, yaxud onların müttəfiqlərinin cinayətlərini beynəlxalq tribunalardan səsləndirirsiniz. Bunları ifşa etmək, demək lazımdır. Xalqlar dərs alırlar. Mən sizə bunu deyim, müstəqillik əldə etmiş və azad olmuş bəzi ölkələr, o cümlədən Afrikanın məşhur ölkələrindən biri İrandan örnək aldı, inqilab dövründə İranda icra edilən üsulu işlətdi. Burada onlara deyildi. İnqilabçı rəhbərləri buraya gəlmişdilər. Onlara deyildi ki, imam bu üsuldan istifadə etdi. Gedib həmin üsulu icra etdilər və müstəqil olub öz ölkələrində aparteid rejimini devirdilər.

Xalqlar ilham alırlar, hökumətlər öyrənirlər və milli rəhbərlər bir xalqın bu şəkildə müqavimət göstərdiyini gördükdə cəsarətlənirlər. Biz nə üçün xəcalət çəkək?! İnqilabdan öncə bir nəfər bir qrup içində - məsələn, küçədə, hava limanında, yaxud universitetdə namaz qılmaq istəyəndə, bu iş o qədər qeyri-təbii idi ki, yoldaşları deyirdilər sən namaz qılıb bizi rüsvay etdin. Namaz qılmaq rüsvayçılıq

sayılırdı. Belə idi. Siz gənclər o günü görməmisiniz, biz görmüşük. Əgər namaz qılan bir gənc göz qabağında, yaxud ümumi bir yerdə dayanıb namaz qılsaydı, dostları xəcalət çəkib deyirdilər ki, bizi biabır etdin. Əgər bir neçə nəfərin çıxış etməsi nəzərdə tutulan ümumi bir toplantıda natiq öz nitqinin əvvəlində "Bismillahir-Rəhmanir-Rəhim" desəydi, dostları xəcalət çəkib başlarını aşağı salırdılar.

Bu gün - İslamın əzəməti, İslam quruluşunun və İran xalqının başucalığı dövründə antihegemon mövqelərinə görə kimsə beynəlxalq tribunalarda ABŞ, İsrail, sionizm və onların müttəfiqlərinin qarşısında dayanıb açıq-aşkar danışdıqda burada bir dəstə adam xəcalət çəkib deyir ki, vay, rüsvay olduq. Bu, tağut dövründə birinin namaz qıldığına görə çəkdiyi xəcalətə bənzəyir. Nə üçün xəcalət çəkməliyik?! İran xalqının, xüsusən də gənclərin beynəlxalq zülmlərə qarşı açıq mövqeyi heç zaman səngiməməlidir.

**Xalqın birliyi və amallara vurğunluq**

Mənim əzizlərim! Bu inkişaf sahələrində hamınız çalışmalısınız. Bura Kürdüstan universitetidir, siz tələbələr əksərən, kürdsünüz. Kürdüstanda və kürd tələbələri arasında İslam şüarları və milli amallara vurğunluq hissi o qədər canlıdır ki, bizim düşmənlərimiz qəzəblənirlər. Mən bununla fəxr edirəm. Bu bizim milli fəxrimizdir. Onlar Kürdüstanda çox işlədilər, tribunalarda, proklamasiyalarda, qəzetlərdə, gizli və aşkar şəkildə iranlı milliyyətlər arasında ayrılığı təlqin etdilər. Siz nəticəsini bu gün burada görürsünüz, Sənəndəcin Azadlıq meydanında gördünüz, Mərivanda gördünüz. Xalq birdir, amala sahibdir, milliyyətlər birdirlər. Bizim kürd əzizlərimizin bu gün burada birliyə dair dedikləri fikirlər mənim üçün gün kimi aydın məsələlərdəndir. Bəzi adamlar yaxşı bilmir, yaxşı anlamırlar. Gərək özlərini islah etsinlər.

**İranlı milliyyətlərin bir fürsət olması**

Mən bunu deyim ki, milliyyətlərin çoxluğu bir fürsətdir. Biz xeyir işlərdə onların arasında rəqabət yaratsaq, çox yaxşı və düzgün iş görülmüş olar. İranlı miliyyətlərdən hər biri - istər kürd, istər fars, istər türk, istər bəluc, istər ərəb, istər türkmən, istər lor öz milliyyət ruhiyyəsi ilə ümumxalq inkişafı istiqamətində uca addımlar atmağa səy göstərsin.

Bu, çox yaxşı bir şeydir. O gün Kürdüstanın elmi nümunələrinin toplantısında kürd dostların biri bir yaxşı söz dedi. O dedi ki, Şəhid Mütəhhərinin İran və İslamın qarşılıqlı xidmətləri kitabını yazdığı kimi bir nəfərin də kürdlərin və İranın qarşılıqlı xidmətlərini yazması çox yaxşı olar; kürdlərin İrana xidmətləri, İranın kürdlərə xidmətləri. Bu, çox yaxşıdır. Müəyyən edin ki, bu milliyyətlər ümummilli və İslam amalları üçün hansı uca addımlar ata bilərlər. Sonra farslar, kürdlər, türklər, ərəblər, lorlar, türkmənlər və bəluclar arasında yarış keçirin. Bu ən yaxşı ümumxalq yarışdır. O zaman istedadların nə qədər parlaq olduğu aşkara çıxacaq. Bu, bir fürsət olur. Düzdür, düşmən bunu təhdidə çevirə bilər, amma xoşbəxtlikdən, hamınız sayıqsınız.

Dar düşüncəli iddialar və məhdud millətçiliklər İslamın baxışı, hamımızın ehtiyaclı olduğumuz uca və açıq baxışla tam ziddiyyətdədir.

Ümidvaram Allah-Taala Öz rəhmətini, bərəkətini və lütfünü siz əzizlərin hamısına nazil etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Universitetlər, yumşaq müharibə və gənclər[23]

Bismillahir-Rəhmanir-Rəhim.

Məclis bir tələbə və gənc məclisindən gözlənildiyi kimidir. Çıxış edən qardaş və bacıların sözlərində əsaslı, dəqiq və yeni sözlər, düzgün təhlillər vardı. İnsan bütün bu sözlərə ümumi baxanda bunların əsas xüsusiyyətinin paklıq, sədaqət, səmimilik və ali təhsilli, nümunəvi bir gəncdən gözlənilən şəkildə olduğunu görür.

Mənim həm buraya təşrif buyurmuş siz gənclərə, həm də ölkənin tələbə toplumuna çoxlu sözlərim var və demişəm də. Yenə də gücüm çatana və danışa bilənə qədər siz əziz gənclərlə danışacağam. Əminəm ki, bu ölkənin gələcəyini və hətta İslamın və İslam ümmətinin gələcəyini təmin edən amil ölkəmizin gənc tələbə nəslində müşahidə olunan aktivlik, araşdırıcılıq, tələbkarlıq və emosional ruhiyyədir.

Mən indi sual formasında deyilən, yaxud açıqlamanın lazım olduğunu düşündüyüm bəzi məsələlər haqda bir neçə dəqiqə danışacaq, sonra da vaxt olsa və azana düşməsə, nəzərdə tutduğum bir-iki başqa məsələyə toxunacağam.

**Quruluşa və xalqa zülm**

Bəzi adamlar seçkilərdən sonra baş verənləri, xalqa, İslam quruluşuna qarşı haqsızlığı, digər xalqlar qarşısında bəziləri tərəfindən dövlətə edilən hörmətsizliyi - bunların hamısını görməzdən gəlir, hansısa hadisəni, Kəhrizək zindanında, yaxud Universitet məhəlləsində baş verən hadisəni seçkilərdən sonrakı əsas hadisə hesab edirlər. Bunun özü başqa bir zülmdür. Əsas məsələ başqa məsələdir. Əsas məsələ budur ki, xalq böyük bir hərəkətdə, aktiv, yaxşı və misilsiz bir seçkilərdə iştirak etmiş, səs vermişdir. Səksən beş faiz zarafatdır?! Bu seçkilər son bir-iki ildə bir-birinin ardınca iqtisadi, elmi, siyasi, təhlükəsizlik və beynəlxalq nailiyyətlər qazanmış quruluşu nüfuz və imicin yüksək mərhələsinə çatdırır. Sonra bir də müşahidə edirik ki, bu dəyərli hadisəni kölgədə qoymaq üçün bir hərəkət edilir. Əsas məsələ budur.

Mənim fikrimcə, şəxsi təhlilimə görə, bu məsələ seçkilərdən sonra, yaxud seçkilər ərəfəsində başlanmayıb, öncədən başlanmışdır. Bu, qabaqcadan hazırlanmış və planlaşdırılmışdır. Mən bu işdə olanları əcnəbilərə, ingilislərə, yaxud amerikalılara çalışmaqda ittiham etmirəm. Mən bunu iddia etmirəm, çünki hələ sübut olunmamışdır və sübut olunmayanı deyə bilmərəm. Deyə biləcəyim budur ki, öncülləri bilsələr də, bilməsələr də, bu cərəyan planlaşdırılmış bir cərəyandır və təsadüfi deyil. Bütün əlamətlər göstərir ki, planlaşdırılmış və düşünülmüş idi. Əlbəttə, planlaşdıranlar onun baş tutacağına əmin deyildilər.

Seçkilərdən sonra bəzi işlər görüldükdə Tehran əhalisinin bir qrupu tərəfindən nisbi dəstək də verildi. Onlar ümidvar oldular, həvəsləndilər, istədiklərinin baş tutduğunu düşündülər. Buna görə də, bəlli təşkilatların, media qurumlarının,

radioların, internet və peyk vasitələrinin necə fəallaşdığını gördünüz; açıq şəkildə işə girişdilər. Öncə baş tutacağına ümidləri yox idi. Sonra gördülər ki, yox, baş tutdu. Odur ki, sürətlə meydana atıldılar. Lakin xoşbəxtlikdən, həmişəki kimi bu dəfə də İran məsələlərini pis anladılar və İran xalqını tanımadılar. Məğlub oldular, lakin hələ ümidsiz deyillər. Mən sizə deyirəm, əziz tələbələr! Onlar ümidsiz deyillər, hadisələri izləyirlər, bu tezliklə də əl çəkməyəcəklər. Onların rejissorları var və yeni rejissorlar da tapacaqlar.

**Tələbə və universitetin sayıqlığı**

Universitet sayıq olmalıdır. Mömin və müsəlman, ölkəsini sevən, ölkəsinin və hazırkı nəslin gələcəyini sevən tələbə sayıq olmalıdır. Bilin ki, onlar plan hazırlayırlar. Əlbəttə, məğlub olurlar. Mən sizə deyirəm ki, sonda məğlub olacaqlar. Lakin mənim və sizin ayıq-sayıqlıq dərəcəmiz onların vurduğu ziyanın miqdarına təsir göstərə bilər. Əgər sayıq olsaq, zərər yetirə bilməzlər, əgər diqqətsiz olsaq, hisslərə qapılsaq, düşünmədən hərəkət etsək, yaxud yuxuya qalsaq, sonda uğur qazana bilməsələr də, vurduqları ziyan çox olacaq.

**Rəhbərin hökuməti mudafiəsi**

Burada irəli sürülən mövzulardan başqa birisi rəhbərin hökuməti, yaxud prezidenti mudafiə etməsidir. Bəli, bu aydın məsələdir; təsadüfən, dostların bir-ikisi də dedi. İndiki hökumətin və möhtərəm prezidentin dünyanın bütün insanları kimi müsbət və mənfi cəhətləri var. Mən müdafiə etdikdə müsbət cəhətləri müdafiə etdim. Bəzi müsbət cəhətlər var, mən onları mudafiə edirəm; kimdə olsa, mudafiə edəcəyəm. Kimsə bu istəyi, bu məqsədi, bu fəaliyyəti və ciddiliyi göstərə və mən öz səlahiyyətim həddində onu mudafiə etməyə bilərəm?! Mən ədalət tələb edən siz tələbələri müdafiə etmirəm?! Əgər rəhbər ədalət tələb edən bir tələbəni mudafiə etsə, mənası odur ki, bəzən o tələbədə olan mənfi cəhətləri də mudafiə edir?! Şübhəsiz ki, yox. Məsələ belədir. Bəzi müsbət cəhətlər var və mən həmin müsbət cəhətləri müdafiə edirəm.

**Mövqelərdə məsləhəti ölçmək**

Suallardan biri bu idi ki, nə üçün açıq mövqe seçmirsiniz? Çünki açıq mövqe seçmək lazım deyil. Buna nə lüzum var?! Bir məmurda olan mənfi bir cəhətə qarşı açıq mövqe bildirilsə, sizcə, o problemin həllinə nə qədər kömək edər?! Heç bir kömək etməz. Bəzən insan bir şeyi aşkarlamadan əlac etmək istəsə, daha yaxşı əlac edər, nəinki onun üstündə qalmaqal yaratsa. Bəli, bəzən aşkarlamaqdan başqa çarə qalmır. Orada insan açıq deyər. Lakin rəhbər ölkənin icraçı məmurlarında bir eyib görən kimi onu mütləq tribunadan deməli deyil. Xeyr, bəzi qəti məsləhət insanın bir şeyi aşkarlamamasını tələb edir.

Burada deməyin ki, həqiqət, yoxsa məsləhət? Həqiqət və məsləhətin qarşıdurması əsaslı sözlərdən deyil. Məsləhətin (daha mühümü nəzərə almanın) özü

də həqiqətlərdən biridir. Belə deyil ki, nəyin üzərində “məsləhət” adı varsa, mənfi bir şey olsun.

**Yumşaq muharibədə elmi nümunələrin rolu**

Bir məsələni də mən deyim, çünki vaxt ötməkdədir. Baxın, əzizlər! Siz bilirsiniz və çıxışlarınızda da toxundunuz ki, bu gün İslam Respublikası və İslam quruluşu böyük bir müharibə ilə - yümşaq muharibə ilə üz-üzə qalmışdır. Siz gənclər öz söhbətlərinizdə yumşaq müharibə ifadəsini işlətdiniz. Allaha şükür olsun ki, bu məqamlara diqqət yetirirsiniz. Bu bizim üçün çox sevindiricidir. Yumşaq müharibədə kimlər döyüşə girməlidirlər? Birinci növbədə elmi elita. Yəni siz yumşaq mübarizə cəbhəsinin gənc zabitlərisiniz.

**Fikir otaqları**

Nə iş görməli olduğunuzu, necə etməli olduğunuzu, necə açıqlamalı olduğunuzu mən yazıb deməli deyiləm. Sizin özünüz iclaslarınızda, fikir mərkəzlərinizdə və fikir otaqlarınızda oturub bunların yollarını tapmalısınız. Lakin məqsəd bəllidir. Məqsəd şiddətə, hiyləyə, pula, böyük və mütərəqqi elm və media imkanlarına arxalanan universal bir hücum qarşısında İslam quruluşunu və İslam Respublikasını mudafiə etməkdir. Bu təhlükəli şeytani cərəyanla vuruşmaq lazımdır.

**İran inqilabı və hegemonizmin mənafeyi**

İslam Respublikasına hücum etmək üçün onların dəlilləri var. Mənim fikrimcə, onların baxışından yanaşsaq, bu dəlillər düzgün dəlillərdir. Coğrafi baxımdan dünyanın çox həssas və böyük bir nöqtəsində - Orta Şərq bölgəsində, Fars körfəzində, Qırmızı dənizdə, Şimali Afrikada və Aralıq dənizinin bir hissəsində İslam ümməti yerləşir. Siz görürsünüz ki, dünyada mövcud olan bu beş-altı həssas və həyati əhəmiyyətli su keçidinin üçü bu regiondadır: Hürmüz boğazı, Süveyş kanalı və Bab əl-Məndəb. Bunlar dünya ticarətinin asılı olduğu mühüm keçidlərdir. Siz dünya xəritəsini önünüzə qoyub baxın. Görəcəksiniz ki, dünyanın ticarət və iqtisadiyyat əlaqələri üçün bu bir neçə mərkəz nə qədər mühümdür. Buna əsasən, bu region həssas regiondur. İndi çox həssas olan bu regionda bir güc meydana çıxır və özünü günbəgün daha artıq göstərir. Bu güc bütün hegemon istəklərə və yer üzündə fəsad törədən nəhəng kompaniya və şəbəkələrə müxalifdir; istismarçı sistemə müxalifdir, istismarçılığa müxalifdir, zülmə müxalifdir. Bu, hegemon qüvvələr üçün çox əhəmiyyətli məsələdir. Hegemon qüvvələr yalnız Amerika Birləşmiş Ştatları, yaxud Amerikanın və ya hansısa Avropa ölkəsinin prezidenti və hökuməti deyil. Hegemon qüvvələr bunlara şamil olan daha möhtəşəm bir şəbəkədir; sionizm şəbəkəsi, qlobal oliqarxiya şəbəkəsidir, dünyanın nəhəng valyuta mərkəzləridir. Dünya siyasətini planlaşdıran bunlardır; hökumətləri bunlar gətirirlər, bunlar aparırlar. Daxilində Amerika Birləşmiş Ştatları hökumətinin, Avropa hökumətlərinin və regionumuzun sərvətli neft sahiblərinin çoxunun olduğu bu birlik inkişaf etməkdə, ucalmaqda və boy atmaqda olan belə bir güclə düşməndirlər. Buna görə onunla mübarizədə

bacardıqları hər bir işi görürlər. Bu otuz ildə bekar durmayıblar; nə qədər ötsə də, bekar durmayacaqlar. Yalnız siz çalışdıqda, siz gənclər ölkəni elmi, iqtisadi və təhlükəsizlik baxımından məğlubiyyət imkanının sıfra yaxınlaşdığı nöqtəyə çatdırdığınızda kənara çəkiləcəklər və təxribatlar bitəcək. Mənim bu bir neçə ildə universitetlərdə davamlı olaraq elm, tədqiqat, yenilik, Proqramlaşdırma hərəkatı, sənaye və universitetin əlaqəsi və bu kimi məsələlər üzərində etdiyim təkidlər bundan ötrüdür ki, ölkə və xalqınızın uzunmüddətli təhlükəsizlik şərti elmdir.

**Universitetlərin sayıqlığı**

Burada sizə deyirəm ki, ehtiyatlı olun, universitet bu kiçik və dəyərsiz siyasi hadisələrin təsiri altına düşməsin, elmi işi zəifləməsin, bizim laboratoriyalarımıza, siniflərimizə, tədqiqat mərkəzlərimizə ziyan toxunmasın. Diqqətinizi toplayın. Yəni sizin qarşınızdakı mühüm məsələlərdən biri universitetlərin elmi hərəkətini qorumaqdır. Düşmənlər çox istəyirdilər ki, bizim universitetlərimiz ən azı bir müddət tətil olsun, iğtişaşa və müxtəlif ziyanlara uğrasın. Bu həm siyasi, həm də uzunmüddətli iş baxımından onlar üçün ideal bir məsələdir. Çünki sizin elminiz uzunmüddətli iş baxımından onların zərərinədir. Buna görə elmdən uzaqlaşmağınızı istəyirlər.

**Yumşaq müharibənin zabitləri**

Dedik ki, siz gənclər yumşaq müharibədə gənc zabitlərsiniz. Məndən soruşmayın ki, indiki zirar məscidini uçurmaqda biz tələbələrin rolu nədir. Özünüz axtarıb tapın; həmçinin yeni nifaqla mübarizə üsulunu və ya ədalətin tərifini. Mən gəlib burada oturub fəlsəfi bir mövzu açım ki, ədalətin bir neçə şaxəsi var, filan. Məzəli olan budur ki, o deyir bir cümlədə bəyan edin. Məşhurdur ki, Şeyx Ənsarinin dövründə bir nəfər oğlunu Nəcəfə gətirmişdi. Gördü tələbələr dərs oxuyub molla olurlar, müəllimləri də Şeyx Ənsari kimi böyük bir şəxsdir. O da həvəslənib Şeyx Ənsarinin yanına gəldi, dedi ki, ey şeyximiz, mən bu yeniyetməni gətirmişəm, xahiş edirəm sabah qayıdana qədər onu müctəhid edin.

**Yumşaq muharibənin şərtlərindən biri: ümid**

Mənim əzizlərim! Bu yumşaq maharibə cəbhəsində sizin düzgün fəaliyyətinizin əsas şərtlərindən biri nikbin və ümidli baxışdır. Baxışınız nikbin olsun. Baxın, mən sizin bəziləriniz üçün babanız yerindəyəm, ancaq gələcəyə baxışım yaxşıdır. Bu, xəyalpərəstlik deyil, məlumatlara əsaslanır. Siz gəncsiniz və gənclik nikbinliyin mərkəzidir; ehtiyatlı olun ki, gələcəyə baxışınız bədbin olmasın, ümidli olsun. Əgər məyusedici, bədbin olsa, "nə faydası var?!" baxışı olsa, ardınca fəaliyyətsizlik, passivlik və təcrid olunmaq gələcək, daha heç bir hərəkət mövcud olmayacaq və düşmənin istədiyi alınacaq.

**İfrat və təfritdən çəkinmək**

Başqa bir şərt budur ki, hadisələrdə ifratçılıq olmasın. Gəncin xisləti aktiv və sərtdir. Sizin həyatınızın bu dövrünü biz də keçirmişik, özü də inqilabdan qabaq, mübarizələrin əvvəllərində. Sərtliyin nə olduğunu bilirəm. Bizə də çox nəsihət edirdilər ki, sərtlik etməyin. Biz deyirdik ki, bunun nə qədər lazım olduğunu anlamırlar. Sizin təsəvvürünüzün nə olduğunu bilirəm, amma indi mənə qulaq asın. Ehtiyatlı olun, ifratçılıq insana uğur gətirmir. Düşüncə ilə qərar çıxarın. Əlbəttə, bugünkü gənc bizim dövrümüzün gəncindən düşüncəlidir, bunu da deyim. Bu gün sizin təcrübəniz, məlumatınız və ayıqlığınız bizim dövrümüzün – yəni əlli il öncənin gənclərindən olduqca çoxdur. Ozamankı gənc bugünkü gənclə müqayisəolunası deyil. Buna əsasən, sizin ağılla, düşüncə ilə fikirləşmənizi, ifratçılıq etmədən, hadisələrdə ifrata və təfritə yol vermədən rəftar etmənizi gözləmək böyük gözlənti deyil. Bunu da bilin ki, seçkilərdən sonra baş verənlər qeyd etdiyim kimi, bizim gözləntimizin çox da ziddinə deyildi. Bu işi görən şəxslər isə bəli, gözləntimizin əksinə idi. Ümidvarıq Allah-Taala bir fürsət yaratsın və bir zaman sizinlə hansısa bir universitetdə və ya başqa yerdə yenə söhbət edək, indi imkan olmadı.

Allahın salamı və rəhməti olsun sizə!

# Humanitar elmlər, inkişafın şərtləri və universitetin vəzifələri[24]

Bismillahir-Rəhmanir-Rəhim.

Əziz qardaş və bacılar! Əvvəla, çox xoş gəlib bu simvolik məclisi öz iştirakınızla rövnəqləndirmiş, ölkə universitetlərinin alimlərinin bu hüseyniyyəyə gəlişi ilə bizə şərəf vermisiniz.

**Elmin və alimin hörməti**

Bu məclis öncəki illərdə də dediyim kimi, əslində, simvolik və eyni zamanda işgüzar bir məclisdir. Ona görə simvolikdir ki, İslam Respublikası quruluşunun elmə əhəmiyyət verməsini və elm daşıyıclarına hörmət etməsinin göstərir. Biz istəyirik ki, bu məclis İslam Respublikası quruluşunun alim və müəllimlərə hörmət nümunəsi olsun. Həqiqət də budur. Biz elm qarşısında təvazökarlıq edirik. Bu gövhəri özü ilə daşıyan elm sahibinə də təbii ki, hörmət göstərilməli və qarşısında təvazökarlıq edilməlidir. Həm də işgüzar məclisdir ona görə ki, elm və universitet toplumunun daxilində olan bəzi şəxslər bu məhdud fürsətin imkan verdiyi həddə onlar üçün ən çox əhəmiyyətli məsələləri bəyan edirlər. Xoşbəxtlikdən, bu hər il həyata keçir. Biz də dostların burada dediklərini həqiqi sözlər, ekspert və mütəxəssis rəyləri kimi qəbul edirik. Onların bəzisi ilə bizim dəftərxanamızda məşğul olmalıdırlar və imkan həddində məşğul olacaqlar. Bəzilərini də gərək aidiyyətli mərkəzlərə, məsələn, Mədəni İnqilab Ali Şurasına, yaxud aidiyyətli nazirliklərə göndərək. Onları da göndərib tövsiyələrimizi verəcəyik.

Dostların və cənabların fikirləri möhtərəmdir. Əlbəttə, ötən illərdə olduğu kimi, bu il də ölkənin cari məsələləri - istər siyasi, istər ictimai məsələləri barədə bəzi sözlər deyildi. Təəssüf ki, vaxt az idi. Şübhəsiz, dostların cari məsələlər haqqında dedikləri bu toplumun zehnində olanların hamısı deyil; necə ki, deyilməsi lazım olanların da hamısı deyil. Dostlar öz imkanları qədərincə bəzi məqamlara toxundular. Mən də öz vaxtım qədərincə iki-üç məsələyə toxunacağam.

**Ümumi elmi xəritə**

Bir söz elm və universitet barədədir. Burada Mədəni İnqilab Ali Şurasından və katiblikdən olan dostlar, cənab Doktor Müxbir və digər dostlar, prezidentin elm müavinliyindən olan dostlar, cənab Doktor Vaizzadə, həmçinin nazirliklərdən və parlamentdən dostlar və qardaşlar iştirak edirlər. Mən onların hamısından xahiş edirəm ki, bu bir neçə qardaş və bacının universitet, tədqiqat və bu kimi məsələlər barədə tövsiyələrini qeyd edib onlarla maraqlansınlar və barələrində düşünsünlər. Demək istəmirik ki, bu gün deyilən məsələlər barədə indiyə qədər işlər görülməyib, yaxud bunlar birinci dəfədir ortaya qoyulur. Xeyr, məlumdur. Dostlardan bir

neçəsinin burada dediyi ümumi elmi xəritə neçə ildir irəli sürülüb, elm müavinliyində araşdırılıb, Mədəni İnqilab Ali Şurasına gəlib. Düzdür, hələ məsul şəxslərin ixtiyarında qəbul olunmuş bir şey yoxdur. Ümumi mədəni layihə barədə danışıldı. Bunlar deyilmiş və irəli sürülmüş məsələlərdir. Lakin bir müəllimin, alimin, mütəxəssisin bu məsələləri günün ehtiyacı kimi yad etməsi onu göstərir ki, gördüyümüz iş hələ tətbiq və praktika mərhələsində deyil. Yəni bizim işimiz hələ bitməyib. Məmur dostlar buna diqqət yetirsinlər. Qərar verdik, danışdıq, dedik, lakin görülməli iş görülməmişdir. Bizim müəllimlərimiz gəlib ölkənin ümumi elmi xəritəsinə dair sual verirlərsə, yaxud ümumi bir elmi xəritənin əllərində olmamasını, onun mövcud olmamasını göstərən bəzi sözlər deyirlərsə, bəllidir ki, bizim indiyədək bu sahədə gördüyümüz bütün işlər yarımçıq olmuşdur. Üç ildir bu məsələ ortaya qoyulub, amma hələ aidiyyətli qurumların əlində bir şey yoxdur, alimlər ölkənin ümumi elmi xəritəsini bilmirlər. Bəllidir ki, biz işi sürətləndirməli, intensivləşdirməli və bu məsələ ilə daha ciddi məşğul olmalıyıq.

**Təlim və tərbiyə sahəsində balans və tarazlıq**

Əgər bu cənablar burada ölkənin ümumi elmi xəritəsinin olmamasına işarə vurmasaydılar da, universitetlərdə ümumi elmi proqramlara bir baxış onun olmadığını göstərərdi. Mənim məruzələrdən əldə etdiyimə, məlumatlı, mütəxəssis, universitet mənsubu və vəzifəli şəxslərin mənə verdikləri xəbərə əsasən, müxtəlif elmi fənlər haqda proqramlarda aparılan bölgü ədalətli, düzgün və ölkənin ehtiyaclarına uyğun deyil. Bizim bəzi yerlərdə nəzərəçarpacaq inkişaflarımız var, bəzi yerlərdə isə ümumiyyətlə, hərəkət müşahidə olunmur. Belə olmaz. Bu, ümumi elmi xəritənin olmamasından irəli gəlir. Düzdür, biz hər bir fəndə inkişaf etsək, faydalıdır, uzun illər, tağutların hakimiyyəti dövründəki onillər boyunca bəşərin elm karvanından geri qalan ölkəmiz üçün qənimətdir. Buna şübhə yoxdur. Lakin ölkənin sözün həqiqi mənasında elmi rütbə qazanmasını, elmin ölkədə oturuşmasını istəyiriksə, elmin müxtəlif fənlərinin istər təhsilində, istərsə də tədqiqatında düzgün, həqiqi və ədalətli balans yaratmalıyıq. Buna bizim ehtiyacımız var.

**Elm - inkişaf və ədalətin əsas şərti**

Bu il birinci ili başlayan növbəti onillik inkişaf və ədalət onilliyi elan olunmuşdur. Şübhəsiz, onun bir əsas şərti elmdir, ölkədə elmin inkişafı və dərinləşməsidir, necə ki, bunun inkişaf onilliyi kimi elan olunmasının özü ölkədə elmi baxımdan görünən inkişaflara arxalanaraq olmuşdur. Yəni bu ümid yaranmışdır ki, biz on il ərzində elmdə nəzərəçarpacaq inkişaf və sürətli hərəkət edib geriliklərimizin bir hissəsini düzəldə bilərik. Buna əsasən, elm məsələsi mühüm məsələdir. Elm və tədqiqat sahəsində əsas hissə də tədqiqata, araşdırmaya aiddir.

**Tədqiqatın ehtiyaclara sarı istiqamətləndirilməsi**

Bəzi dostların burada dediyi bir məsələ mənim təkid göstərdiyim məsələlərdəndir. O da budur ki, əvvəla, tədqiqata çox diqqət yetirilsin, ikincisi isə

tədqiqat ölkənin ehtiyaclarına yönəldilsin. Yəni həqiqətən, ehtiyacımız olan mövzularda tədqiqat aparaq. Mən dəfələrlə həm Mədəni İnqilab Ali Şurasında çalışan dostlara, həm də bəlkə burada demişəm ki, bizim elmi inkişafımızın meyarı ISI jurnallarında məqalələrin dərci olmamalıdır. Biz bilmirik ki, təklif olunan, həvəsləndirilən və müəllifi təqdir edilən məqalə eynilə bizim ölkəmizin ehtiyacı olan məqalə olsun. Bizim özümüz müəyyən etməliyik ki, nə barədə məqalə yazaq, hansı mövzuda tədqiqat aparaq. Sözsüz ki, beynəlxalq təşkilatlarda işıqlandırılması lazımdır, zəruridir və işıqlandırılacaq da. Məqsəd budur ki, biz tədqiqatımızı öz ehtiyacımıza uyğunlaşdıraq.

**Qərbin humanitar elmlərinin əsasları**

Bizə verilən məlumata əsasən, ölkəmizin təxminən üç milyon yarımlıq böyük tələbə toplumunun təxminən iki milyonu humanitar fənlərdə təhsil alırlar. Bu bir cəhətdən narahatlıq doğurur. Bizim humanitar elmlərdə yerli işlərimiz və İslam tədqiqatlarımız nə qədərdir? Humanitar elmlərdə kitablarımız nə qədərdir? Yaxud İslam dünyagörüşünə etiqadlı olub, sosiologiya, psixologiya, politologiya və ya digər humanitar fənni tədris edəcək sanballı müəllimimiz nə qədərdir ki, bu fənlərə bu qədər tələbə qəbul edirik? Bu, nigaranlıq doğurur. Humanitar elmlərin bir çox mövzuları materializmə, insanı heyvan sayan, Allah-Taala qarşısında məsuliyyətsiz bilən, insana və dünyaya qeyri-mənəvi baxışa əsaslanan fəlsəfələrə söykənir. Bu elmləri tərcümə edib qərblilərin dediyini və yazdığını olduğu kimi gətirib gənclərimizə öyrətməyimiz, əslində, onlara ilahi və dini əsaslara və öz dəyərlərimizə qarşı şəkkaklıq, şübhə və inamsızlıq aşılamağımız çox da yaxşı hal deyil. Həm dövlət orqanlarında, məsələn, Təhsil nazirliyində, həm Mədəni İnqilab Ali Şurasında, həm də digər qərar mərkəzlərində və universitetlərin özündə buna diqqət yetirmək lazımdır. Hər halda, bu, çox əhəmiyyətli məsələdir. Bu, universitetə aid məsələlər barədə.

**Müəllimin və universitetin tələbə qarşısında məsuliyyət hissi**

Universitetlər, elm və elmin inkişafı barədə deyilən sözlərin xülasəsi budur ki, inkişaf və ədalət onilliyində bizim üçün çox mühüm olan ik-üç şərtdən biri elmdir. Bu sahədə hamının üzərinə məsuliyyət düşür; universitetlər də məsuliyyət daşıyırlar, müəllimlər də. Müəllimlərin dərs və tələbələrlə məşvərət saatlarında universitetlərdə olmaları çox mühümdür.

Hörmətli aparıcı söhbətin əvvəlində dedi ki, hökumət universitet mənsublarına dəstəyi özünün daimi siyasəti etməlidir. Mən tamamilə razıyam. Yəni universitet mənsublarını himayə etmək daimi siyasət olmalıdır. Lakin diqqət olunsun ki, universitet mənsubları bu dəstləklərin - istər mənəvi, istər maddi dəstəklərin sayəsində özlərini tələbə nəsli, ölkədə elmin gələcəyi və islahata ciddi ehtiyacı olan təhsil sisteminin islahı qarşısında həqiqətən, məsuliyyətli bilsinlər, universitetlərdə fəallıqlarını artırsınlar, özlərini tələbələrin mənəvi və elmi istifadəsinə versinlər.

**İnqilab və düşmənin təxribatları**

İkinci məqam ictimai və siyasi məsələlərə aiddir. Mən bu barədə çox danışmaq istəmirəm. Gördünüz ki, ölkə çox ciddi bir siyasi sınaqla üz-üzə qaldı və bəzi dostların işarə vurduğu kimi, quruluş və ölkə hadisələri həzm edə bildi. Mən öncə də dedim ki, belə hadisələrin qarşıya çıxması bizim üçün əsla gözləntidən kənar deyil. Yəni daha dəqiq ifadə etmək üçün məhz belə deməliyik: əsla gözləntidən kənar deyil. Bu qəbildən olan hadisələrin baş verməsi çox böyük ehtimalla gözlənilir. Bunun müxtəlif səbəbləri var; quruluş üçün tanıdığımız missiya, İslam üçün tanıdığımız missiya, İslam Respublikası üçün düşündüyümüz məna, İslam Respublikasının bu otuz ildə özü barədə verdiyi tərif, xalqımızın və gənclərimizin sınaqdan çıxmış sayıqlığı, azadlığın mövcud olması və sair məsələlər bu hadisələri çox da gözlənilməz etmir. İslamın hökmünə əsasən, ölkədə azadlıq olmalıdır. Bizim azadlıq barədə fikrimiz taktiki məsələ deyil, həqiqətdir. Əlbəttə, burada İslam Respublikasının tərif etdiyi azadlıqdan söhbət gedir, qərblilərin tərif etdiyi azadlıqdan yox. O azadlıq bizim fikrimizcə, azğınlıqdır. Orada lazım olan yerdə azadlıq yoxdur, məhdudiyyətin lazım olduğu yerdə isə mütləq azadlıq var. Biz bunu əsla qəbul etmirik. Qərbdən də əsla çəkinmirik. Biz azadlığı İslam mənasında qəbul edirik və sözsüz ki, onun daxilində söz azadlığı, rəftar azadlığı, fikir azadlığı var.

**Yumşaq müharibədə vuruşan zabit və komandirlər**

Mühüm olan budur ki, şərəfli, mömin, İslam Respublikasının uca məqsədlərinə inamlı bir insan belə hadisələrdə hansı işin lazım olduğunu bilsin. Mühüm olan budur. Mənim siz universitet mənsubları ilə bu məsələ haqda danışmağımı vacib edən də budur. Mən təbii ki, qısa danışacağam, bu barədə geniş danışmaq fikrim yoxdur. Bir neçə gün öncə tələbə gənclər buraya toplaşanda və hüseyniyyə indiki kimi gənclərlə dolub-daşanda dedim ki, biz düşmən tərəfindən yumşaq müharibəyə məruz qalmışıq. Əlbəttə, gənclərin özləri də bunu təkrar-təkrar deyirdilər. Məndən öncə onlar bunu dəfələrlə dedilər və hamısı bilirdilər. Mənim əlavə etdiyim bu idi ki, dedim: Bu yumşaq müharibədə siz tələbə gənclər bu cəbhənin gənc zabitlərisiniz. Demədim ki, əsgərləri; əsgər gözləyir ki, ona “irəli” desinlər, o da irəliyə getsin, “geri çəkil” desinlər, o da geri çəkilsin. Yəni əsgər heç zaman özü qərar vermir, iradə göstərmir, komandirin dediyini icra edir. Həm də demədik ki, böyük qərargahların əməliyyatçı zabitlərisiniz. Çünki onlar irimiqyaslı planlar hazırlayırlar. Gənc zabit isə cəbhədədir; həm əmri icra edir, həm səhnəni yaxşı görür, öz cismi və canı ilə döyüşür. Odur ki, bunlar gənc zabitlərdir. Tələbənin yeri budur. Həqiqətən, gənc zabitin düşüncəsi, əməli var, səhnədədir, vəziyyəti görür və çərçivə daxilində çalışır. Bəs bu tərifə əsasən, universitet müəlliminin yeri haradır? Əgər ictimai, siyasi məsələlərdə, ölkə hadisələrində, açıq gözə və yetərli ayıqlığa ehtiyacı olan məsələlərdə bizim tələbə gəncimiz gənc zabitdirsə, onun müəllimləri olan sizin rütbəniz daha yüksəkdir. Siz irimiqyaslı planları duymalı olan komandirsiniz; düşməni düzgün təyin edin, onun məqsədlərini kəşf edin, bəzən düşmənin xəbəri olmadan

onun qərargahlarına baş çəkin, bunun əsasında irimiqyaslı planlar hazırlayın və bu planlarla hərəkət edin. Müxtəlif rütbələrdə yüksək komandirlər bu rolları ifa edirlər.

**Müəllimin tələbə qarşısında vəzifəsi**

Bu rolu ifa etməyi bacaran müəllim İslam Respublikası quruluşunun indisi və gələcəyi üçün layiqli müəllimdir. Möhtərəm müəllimlərdən gözlənilən budur. Gənclərə diqqət yetirin. Məqsədim bu deyil ki, oturub siyasətçiləri onlara tanıtdırasınız. Xeyr, mən bununla əsla müvafiq deyiləm. Kimlərinsə adını çəkmək problemin həllinə kömək etmir. Onlarda təhlil qabiliyyəti yaradın, onlara iş bacarığı verin və işə həvəs aşılayın. Necə? Ümid verməklə, ümid bağışlamaqla. Sinfi, dərs otağını, universiteti gələcəyə ümid məkanı edin. Bir ölkədə bir nəslin başına gəlməsi mümkün olan ən pis bəla ümidsizlikdir. Yəni desinlər ki, cənab, faydasızdır. "Faydasızdır" düşüncəsi və gələcəyə ümidsizlik bütün fəaliyyətlər – ictimai-siyasi işlər, hətta elm və tədqiqat fəaliyyətləri üçün həlakedici zəhərdir. Təcrübi elmlərdə və müxtəlif fənlərdə böyük kəşfləri etmiş şəxslər nəticəyə ümidsiz olsaydılar, şübhəsiz, buna nail olmazdılar. Ümid insanı irəliyə aparan möhtəşəm qüvvədir. Bizim gəncimizi ölkəsinə, inqilabına, gələcəyinə, hökumətinə, universitetinə, elmi və peşə gələcəyinə ümidsiz etmək istəyirlər. Bu, çox zərərlidir. Bu, bizim düşmənlərimizin və quruluşun müxaliflərinin proqramlarında var. Mənim fikrimcə, əsaslı işlərdən biri budur: tələbələri həvəskar, ümidli və inkişafa inanan yetişdirin.

**Tələbəyə ifadə imkanı yaratmaq**

Müxtəlif ictimai, siyasi və elmi sahələrdə görülməsi lazım olan işlərdən biri də fikir bildirməsi üçün tələbəyə imkan yaratmaqdır. Fikir bildirməkdən qorxmaq lazım deyil. Universitetlərdə bizim təklif etdiyimiz azad düşüncə kürsüləri həyata keçməli və təşkil olunmalıdır. Əgər siyasi, ictimai, hətta düşüncə və din kimi müxtəlif sahələrdə mühüm ixtisaslı mövzular sağlam mühitlərdə və uyğun mövzuda güclü şəxslər tərəfindən incələnsə, daha ümumi və ictimai yerlərdə müzakirə olunmaz, bəlli ziyanlar da baş verməz. Adi camaatla üz-üzə gələndə hamı özünü qoruya bilmir. Adi camaatla üzləşmək insanları yayınmalara, tənəzzülə və çoxlu səhvlərə düçar edir. Təəssüf ki, biz bunlara şahid olmuşuq. Siz çoxlarını görürsünüz ki, adi camaat qaşrısında bəlkə də ürəklərində çox da inanmadıqları bir sözü deyirlər, bəzilərinin ifadəsincə desək, məclisə düşürlər. Bu, çox pis haldır. Əgər ixtisaslı, elmi və problemli məsələlər xüsusi çevrələrdə, azad düşüncə mühitlərində bəhs olunsa, şübhəsiz, az hallarda ziyanlı olar. Bu da bu məsələ barədə.

**Universitet və mənəvi mühit**

Bəzi dostlar mənəviyyat barədə danışdılar. Mən universitetin mənəvi mühit olması ilə tam razıyam. Bəzi dostların haqlı olaraq bəyan etdiyi bu təhlükəsizlik və təhlükəsizlik hissi mənəviyyatla əldə olunar. Bacardığımız qədər Allahla, Allahı yad etməklə, qeyb aləminə diqqətlə, dinin əsaslarına, hökmlərinə, şəriətə boyun əyməklə və ilahi hökmlərə təslim olmaqla gənclərin mənəvi tutumunu artırmalıyıq.

Bizim gəncimiz nə qədər çox ibadətçi, nə qədər çox dindar olsa, Allahı nə qədər çox yad etsə, Allaha nə qədər çox ehtiyac duysa və Allaha sarı nə qədər çox ehtiyac əli uzatsa, əməli, rəftarı, düşüncəsi daha zərərsiz olar və cəmiyyət ondan daha çox faydalanar.

Ümidvarıq Allah-Taala sizə, bizə, bütün mömin kişi və qadınlara bu uğuru nəsib etsin ki, öhdəmizə düşən vəzifəyə əsasən yolu tanıyaq, hərəkət edək və ideal nəticələr əldə edək!

Allahın salamı və rəhməti olsun sizə!

# İncisənət, inqilab şeiri və yumşaq müharibə[25]

Bismillahir-Rəhmanir-Rəhim.

Bütün əziz qardaş və bacılara – möhtərəm şairlərə xoşgəldin deyirik. Sizin aranızda yaşlı insanlar və müəllimlər var. Allaha şükür olsun ki, gənclər və yeni qönçələr də var. Hər birinizin bir gözəlliyi və hər gülün bir ətri var. Bizim təəssüfümüz yalnız buna görədir ki, bu güllərin hamısından istifadə edə bilmirik. Bölgünü dostlar aparıblar və bəzi şəxslərdən xahiş ediblər ki, gəlib oxusunlar. Biz də gözləyirik ki, istifadə edək və dinləyək. İnşallah, hamınız müvəffəq olasınız. Cənab Qəzvə, buyurun.

**Şairlərin çıxışından sonrakı nitq**

**İnqilab şeirinin inkişafı**

Yenidən xoşgəldin deyib əziz qardaş və bacılara, xüsusən də öz şeirləri ilə bizi bəhrələndirən bu dostlara təşəkkür edirik. Mən ötən ildə olduğu kimi, bu il də diqqət yetirdim ki, inqilab şeirinin və bu nəslin şeirinin səviyyəsini ölçüm. Zənnimcə, ötən il dedim, bu il də təkid edirəm ki, mən səviyyənin yüksəlişini aydın şəkildə müşahidə edirəm. Yəni inqilab şairlərinin şeiri həqiqətən, bu gün on il, on beş il öncəyə nisbətən təqdirəlayiq şəkildə inkişaf etmişdir. Mən həm dünən inqilab gəncləri sayılan, bu gün isə Allahın lütfü ilə orta yaşa çatmış və eləcə bu yolda irəliləyən şəxsləri, həm də bu işə yeni daxil olmuş gəncləri - mən bunların şeirini yeni eşidirəm; bəlkə də neçə ildir başlayıblar, lakin mətbuatda və kitablarda mənimə əlimə çatacaq həddə olmayıb - həqiqətən, yüksək qiymətləndirirəm. Bu gecə oxunan şeirlərin əksəriyyəti yaxşı şeirlər idi; sözün həqiqi mənasında yaxşı idi; yəni sözü, mənası, ahəngi və nəğməsi yaxşı idi, yaxşı sözlər seçilmişdi. Bu şeirlərdə - xüsusən də gənclərin şeirlərində insan təxəyyül genişliyini müşahidə edir. Bunlar çox mühümdür. Bunların hamısı bizim ölkəmizdə şeirin inkişafını göstərir.

Bir məsələ budur ki, inqilab dövrünün - yəni son otuz ilin şeiri yaxşı imtahan verir. Bizim yaxşı şairlərimizin heç bir tənəzzülü və durğunluğu yoxdur. İnsan bunu hiss edir. Əvvəllər və inqilabdan öncəki dövrlərdə bəzən elə məşhur şairlər gördük ki, ömürlərinin bir dövründə zirvəyə ucaldılar, lakin sonra endilər, yaxud dayandılar və ya süqut etdilər. Sonrakı şeirlərinin heç bir gözəlliyi olmadı. Mən baxıb görürəm ki, indiyədək bizim şairlərimiz arasında beləsi olmamışdır. İndi fərz edin, bu məclisdə cənab Fərid, cənab Əmiri və cənab Mir Şəkkak - əvvəldən yaxşı şeir deyən bu dostlar, xüsusən cənab Fərid və mənim yaxşı yadımda qalmayan bu şəxslər yaxşı şeirin meyarlarına malik olan daha yaxşı şeirə doğru hərəkəti davam etdiriblər. Yəni dayanmayıblar və təbii ki, tənəzzül də etməyiblər. Bu, mühüm məsələdir.

**İnqilab şeirinin cücərtiləri**

Bundan əlavə yeni cücərtilərimiz də var. Bu gənclər həqiqətən, məni heyrətləndirir. Bəzi rayonlardan buraya gəlib şeir oxuyan gənc şairləri mən həmin rayonun öz gənclik dövrümdəki şairləri ilə müqayisə edib görürəm ki, onlardan yaxşıdırlar. Onlar məşhur və adlı-sanlı şairlər idilər, lakin bunlar daha yaxşı şeir deyirlər. İndi ad çəkmək istəmirəm, ancaq bizim bu məclisimizdə də bir şəhərdən şeir oxundu. Mən o şəhərin qabaqkı şairlərini tanıyırdım, orada ədəbi birliyə getmişdim və məşhur şeir simalarını tanıyırdım. Bu gecə burada şeir oxuyan bu cənabın şeiri mənim tanıdığım o şairlərin hamısının şeirindən yaxşıdır. Buna əsasən, bu, inqilab şeiri üçün bir sınaqdır. İnqilab şeiri irəliyə doğru gedən və zirvəyə malik bir hərəkət olmuşdur.

**İnqilab şeiri inqilab məfhumlarının xidmətində**

Burada başqa bir məqam budur ki, inqilab şeiri inqilab məfhumlarının xidmətində durmalıdır. Sizin aranızda dini şeir deyən şəxslər var. Dini məzmunlu və imamlara aid şeirlərə indi dini şeir demək adət olub. Həqiqətən, yaxşı şeirlər deyilir. Bəziləri də müqəddəs müdafiə dövrü, yaxud şəhidlər və ya müharibə əlilləri barədə şeirlər deyirlər. Bunlar çox yaxşıdır. Lakin mən ötən il də dedim ki, inqilabın məqsəd və amalları yalnız bunlar deyil. İnqilab bizim başımız üzərinə parlaq amal ulduzlarının bir toplusunu tutmuş və bizi bu işıqlı nöqtələrə sarı hərəkətə, uçuşa və sıçrayışa dəvət etmişdir. Biz də sınayıb gördük ki, uça bilirik. Əlbəttə, müqəddəs müdafiə dövründə bariz nümunələri göründü və gördük ki, bu xalq bu amallara sarı qanad çaldıqda yaxşı hərəkət edə bilir. Amma bu amalların çoxu hələ bizim başımız üzərindədir. Biz hərəkət edib ədalətə, əxlaqa, həqiqi müstəqilliyə - hamısından dərin və çətin olan mədəni müstəqilliyə, özümüzün İslam-İran kimliyinə doğru getməliyik.

Seçkilər ərəfəsində, seçkilərdən sonra və öncə baş verən hadisələr tipindən olan imtahanlarda gördük ki, bu sahələrdə zəifliyimiz və problemlərimiz var. Bu hadisələr zəif cəhətlərimizi bilməkdən ötrü bizim üçün böyük nemətdir. Bunlar silahlı qüvvələrin təlimlərinə bənzəyir. Təlim ondan ötrüdür ki, bir hərbi bölmə, hərbi təşkilat zəif cəhətlərini tapsın. Bir hədəfi göstərib ona sarı hərəkət əmri verilir. Sonra peşəkar hərbçilər - bütün təlimlərdə belədir - dayanıb yuxarıdan baxırlar. Görürlər ki, bəli, hansısa nöqtədə zəiflik var. Bəzən ardıcıl bacarıqsızlıqlar müşahidə olunur. Bu, bizim üçün bir təlim oldu. Düzdür, bizim istəyimizlə baş vermədi; biz buna məcburən getdik, lakin yaxşı oldu, zəif cəhətlərimizi anladıq. Buna əsasən, bu amallar bizim başımız üzərindədir və onlara sarı hərəkət etməliyik. O zaman bu zəif cəhətlər aradan qalxacaq. Bu da bir məsələ.

Yaxşı, burada şairin rolu nədir? Mədəniyyət və incəsənət xadiminin bu səhnədə vəzifəsi nədir? Mənim fikrimcə, vəzifə çox ağırdır, çox böyükdür. Ən mühüm vəzifə də təbliğat aparmaq və maarifləndirmədir: “O kəslər ki, Allahın risalətini təbliğ edər, Ondan qorxar və Allahdan başqa heç kəsdən qorxmazlar”[26]. Bu, bir meyardır. Dərk etdiyiniz həqiqəti izah edin. Heç kim gözləmir ki, anladığınızın

əksinə danışasınız. Xeyr, anladığınızı deyin. Əlbəttə, anladığınızın düzgün olmasına çalışmalısınız. Çünki fitnə zamanı vəziyyəti dəyərləndirmək, hadisəni dərindən öyrənmək, hücum edəni və müdafiə olunanı, zalımı və məzlumu, düşməni və dostu tanımaq çətin olur. Şairin də digərləri kimi aldanıb avamlıq etməsi bir mədəniyyət xadiminə yaraşmaz. Deməli, həqiqəti anlamaq, sonra isə təbliğ etmək lazımdır.

Mədəniyyət dünyasında siyasi üsullarla, siyasətçilərin üsulları ilə hərəkət etmək olmaz. Bu, mədəniyyətə yaraşmaz. Mədəniyyət dünyasında düyünü açmaq, həqiqəti aşkara çıxarmaq, zehinləri aydınlatmaq lazımdır. Bu izah - yəni peyğəmbərlərin gördüyü iş lazımlı işdir. Sözdə fəsahət və bəlağətin lazım olduğunu demişlərsə, bəlağətin mənası budur. Uyğun kitablarda bəlağəti vəziyyətin tələbinə uyğunluq kimi izah edirlər. Lakin bu, bəlağətin xüsusi mənasıdır. Bəlağətin ilkin və açıq mənası bu deyil. Bəlağət - çatdırmaqdır. Məsələn, deyirlər ki, Hafiz bu şeiri fəsahətli və bəlağətli demişdir. Bəlağətli nə deməkdir? Yəni vəziyyətin tələbinə uyğun demişdir? Biz nə bilirik ki, bu şeirin deyildiyi vaxt vəziyyətin tələbinə uyğun olub, ya olmayıb. Biz indi baxırıq; burada vəziyyətin tələbindən söhbət getmir. Bu o deməkdir ki, başadüşüləndir, səlisdir. Səlis deyin, aydın deyin, lakin anladığınızı deyin. Əsla gözlənilmir və bu gözlənti düzgün də deyil ki, kimsə anladığının əksinə danışsın. Amma çalışın anladığınız düzgün olsun.

**Böyük inqilab hərəkəti və yumşaq müharibə**

Mən sizə demək istəyirəm ki, İslam inqilabının bu əzəmətli hərəkəti bitmiş hərəkət deyil. Onun qoşununun bir tərəfi guya ədəbiyyat, mədəniyyət və sair sahələrin adamı sayılan mən və sizlərik: "Göylərdə və Yerdə olan qoşunlar Allaha məxsusdur".[27] Onun qoşunu yer-göy tanımır: "Allah yenilməz qüvvət sahibi (Əziz), hikmət sahibidir"[28]. Allah Əzizdir - məğlubedilməz qalibdir; yəni heç nəyə ehtiyacı olmayan. Mən və siz indi işin bir küncündən tutmuşuq. İslam inqilabı ilə başlayan bu əzəmətli hərəkət əsla bitməyib, davam edir. İndi çıxışlarda, televiziyada, mediada, məhkəmədə "yumşaq müharibə" sözü hamının dilinə düşüb. Bu, doğru sözdür, həqiqətdir. Yəni indi müharibə gedir. Əlbəttə, bu sözü mən bu gün demirəm. Müharibədən sonra - 88-ci ildən həmişə dəfələrlə demişəm. Səbəb budur ki, mən səhnəni görürəm. Kimsə görmürsə, mən nə edim?! Mən səhnəni, təchizatı, düşərgəni, nifrət və qəzəblə açılan ağızları, inqilabın, imamın, bütün bu amalların və bu hərəkətə könül verən bütün şəxslərin əleyhinə qeyzlə sıxılmış dişləri görürəm. İnsan bunları görür, nə etsin?! Bu bitməyib və bitmədiyinə görə hamının üzərinə vəzifə düşür. Mədəniyyət, ədəbiyyat və incəsənət adamlarının vəzifəsi də bəllidir: maarifləndirmək, açıqlamaq; deyin, danışın. Mən həmişə bunun üzərində dayanıram: formanı yaxşı seçməlisiniz, incəsənəti tam xalis şəkildə ortaya qoymalısınız, zəif olmamalı və öz təsirini buraxmalıdır.

**Təbliğat və maarifləndirmədə incəsənətin rolu**

Görürsünüz ki, digərləri bəzən incəsənət işləri ilə batili təbliğ edirlər. Maraqlıdır ki, biz də həmin sözləri qəbul edirik. İndi televiziyada yayımlanan və

hamının izlədiyi Koreya serialı tarix düzəltmək cəhdi və batil əfsanədir. Əgər insan Şahnaməni axtarsa, 10-15 belə dastan tapar. Lakin o, incəsənət işlətmişdir. Bir şəxs incəsənət işlətdikdə mükafatı budur ki, həmin tarixə və mədəniyyətə heç bir marağı olmayan siz də oturub maraqla dinləyir və istəsəniz də, istəməsəniz də, o mədəniyyətdən təsirlənirsiniz. Bu, yaxşı sənətin xüsusiyyətidir.

Yaxşı sənət lazımdır. Sizin incəsənət sahəsindəki işiniz şeir işidir. Qədim şair və ustadların əsərlərini bacardıqca daha yaxşı və daha çox oxuyun, amma onlarda dayanmayın. Onların yaxşı cəhətlərindən də əsla imtina etməyin və indiyə qədər əldə etdiklərinizlə qane olmayın. Əvvəldə etdiyimiz təriflərin hamısı düzdür, lakin bu o demək deyil ki, bizim şeir oxuyan və bizi həqiqətən, feyziyab edən yaxşı və əziz gənclərimizin şeirləri nöqsansızdır. İndi elə müzakirə məclisi deyil ki, adam oturub tənqid etsin və şeirin dəyərini müəyyənləşdirsin. Əgər belə olsa, bəzi iradlar bildirilər. Siz özünüz bu eyibləri tapmalısınız. Əgər bu iş üçün xüsusi məclisləriniz varsa, bu, çox yaxşıdır, həmin məclislərdə şeiri tənqid edin. Qədimdə Məşhəddə bizim belə birliklərimiz vardı. Tehranda da eşitmişdim ki, az-çox var, lakin Məşhəddəki kimi güclü deyildi. Düzdür, mən Tehrandakı məclislərdə iştirak etməmişdim, lakin Məşhədin məclisləri çox yaxşı idi, şeiri diqqətlə incələyirdilər. Əgər belə məclisiniz yoxdursa, özünüz baxın, diqqət yetirin, fikirləşin, öz şeirinizə tənqid gözü ilə baxın və təkmilləşdirin. Mənim fikrimcə, bu, mümkündür. Ustadların şeiri lə ünsiyyət insanın öz şeirinin bəzi eyiblərini daha yaxşı anlamasına səbəb olur. Ümidvarıq Allah sizə uğur nəsib etsin! İndi bilmirəm ki, bir də nə vaxt və neçə ildən sonra belə faydalı bir gecədə, bu cəmdə və şairlərlə bir yerdə oturmaq bizə nəsib olacaq. Sonuncu dəfə olması da mümkündür, növbəti məclislərin keçirilməsi də. Allah müvəffəq etsin! Ümidvarıq xeyirli və məsləhətli olan baş tutsun! Allah hamınızı müvəffəq etsin və sizə kömək olsun!

Allahın salamı və rəhməti olsun sizə!

## Müqəddəs müdafiə, tədbir və araşdırma[29]

Bismillahir-Rəhmanir-Rəhim.

Mənim üçün çox şirin, gözəl və mənalı bir məclisdir. Şübhəsiz ki, müqəddəs müdafiə barədə ədəbiyyat və ya incəsənət işi görən şəxslərin hamısı buraya toplaşmayıb. Lakin siz əziz qardaş və bacıların bu toplantısında insan göz oxşayan rəngarənglik müşahidə edir; həm sənətlərin, fənlərin və müxtəlif sahələrin çoxluğu baxımından, həm də müxtəlif ictimai, siyasi, incəsənət, müdiriyyət və digər baxışların rəngarəngliyi cəhətindən. Danışmaq istəyənlərin hamısı danışa bilmədilər və bu, vaxtın azlığından irəli gəldi. Biz saat beşdən buradayıq, amma təəssüf ki, ürəklərdə olan bütün sözləri dinləmək və danışmaq üçün 2-3 saat kifayət etmir. Ancaq mənim üçün bu da qənimət idi. Əlbəttə, dostların bildirdiyi bu fikirlər müxtəlif cəhətlərdən faydalı fikirlərdir. Mən onları qeyd etdim inşallah, bu mövzular təfsilatı ilə çıxarılar. Güman etmək düzgün deyil ki, dediyimiz, bəyan, tənqid və təklif etdiyimiz təsir bağışlamır, heç bir yerdə onlara diqqət və əməl olunmur. Belə deyil. İndiyə qədər müqəddəs müdafiənin həm ədəbiyyatı, həm də incəsənəti sahəsində inkişafımız olmuşdur. Mən də görürəm. Bizim geri qaldığımızı, gerilədiyimizi, töküntümüzün cücərənlərdən çox olduğunu söyləmək düzgün deyil. Mən bunları qəbul etmirəm. Biz inkişaf etmişik, kamilləşmişik. Əldə edilənlərin bizim gözlədiyimizdən az olması mümkündür. Bu, yaxşıdır ki, bizim gözlədiyimiz baş verənlərdən çox olsun, onlarla qane olmayaq. Bu, çox yaxşı haldır. Lakin bu illər ərzində görülən bütün bu işlərdə yerimizdə addımladığımızı və irəliyə getmədiyimizi düşünmək düzgün deyil. Xeyr, düzgün irəliləmişik, inkişaf etmişik, iş görülmüşdür. Müxtəlif sahələrdə belədir.

**Müqəddəs müdafiə xəzinəsi**

Bu qısa vaxtda nəzərdə tutduqlarımın hamısını deməyə imkan yoxdur. Qeydlərim arasından bunu demək istəyirəm ki, müqəddəs müdafiə barədə sənət işi ən uca sənət işlərindən biridir. Bu sahədə işləyən və bu yolda çalışan şəxslər onu inkişaf etdirsinlər və bu sahəni uca tutsunlar. Bizim səkkiz il müqəddəs müdafiəmiz sırf bir dönəm deyil, xalqımızın uzun müddət istifadə edə, işlədə və kapital götürə biləcəyi böyük bir xəzinədir. Bu səkkiz ilin böyük hadisəsi uca xüsusiyyətlərdən, bəyənilmiş, seçilmiş və ən yaxşı mədəniyyətlərdən, xalqımızın tarix boyu irs apardığı, yaxud istedadını qoruduğu - İslam İnqilabı ilə bu istedadlar aşkara çıxdı - uca etiqad və bilgilərdən ibarət bir topludur, bütün bunların xəzinəsidir. Müqəddəs müdafiəni rəvayət edən, xüsusən də sənət əsərində canlandıran sizlər əslində, bir gözəllik və əzəmət nümunəsi qarşısında aynasınız və onu əks etdirirsiniz. O səkkizillik dövrdə baş verən uca və bəyənilmiş insani xislətlərin aşkarlanması, cəsarət, fədakarlıq, ixlas, sədaqət, paklıq... Müqəddəs müdafiə dövründə görülmüş dəyərli işlər böyük

qiymətə başa gəldi; nə qədər əziz can fəda olundu, nə qədər maddi və zaman sərvəti xərcləndi. Siz bu gün onları öz sənət işlərinizdə yenidən yaradırsınız. O hadisənin bir nəsildə və bir cəmiyyətdə buraxa bildiyi təsirləri siz yazınızla, filminizlə, sənət işinizlə öz tərəf-müqabilinizdə yaradırsınız. Bu, çox böyük və çox mühüm işdir. Siz o möhtəşəm incəlik və gözəlliklə dolu tablo üçün güzgü olursunuz. Müqəddəs cihadın rəvayəti olan bu mədəni və incəsənət işiniz cihaddır. Çünki o uca məfhumları unutdurmağa çalışırlar. Sizin işiniz də müqəddəs müdafiənin rəvayəti və böyük mücahidlikdir.

**Müqəddəs müdafiənin məzmunları**

Müqəddəs müdafiənin məzmunlarını təkrar məzmunlar hesab etmək olmaz. Bu səkkizillik fəaliyyətdə hələ işlənməyən və düşünülməyən çoxlu məfhum və məzmunlar vardır. Məndə uzun bir siyahı var, bir dəfə burada kino işində çalışan dostlarla söhbət edərkən nümunələrini dedim. Onlar barədə düşünmək və axtarış aparmaq sənətkarı yeni və səlis məzmunlara çatdırır. Hər halda, müqəddəs müdafiəyə ümumi baxışda insanın deyə biləcəyi budur ki, bu səkkiz il bir cəmiyyətin fəxr edə və öz gənclərindən gözləyə bildiyi ən üstün xüsusiyyətlər məcmusudur. Müqəddəs müdafiə qəhrəmanlıq nümunəsidir, mənəviyyat və dindarlıq nümunəsidir, amalçılıq nümunəsidir, fədakarlıq nümunəsidir, müqavimət və dirəniş nümunəsidir, tədbir və hikmət nümunəsidir.

**Müharibə və gənclərin çiçəklənməsi**

Müharibənin idarəsi və komandanlığı çox ağır və mürəkkəb işdir. Bu işi bir çox sahələrdə bizim gənclərimiz gördülər. Bu tədbir və hikmət çox heyrətamiz bir şeydir, istedadların çiçəkləndiyi yerdir. Nə qədər azyaşlı gənclər cəbhəyə gedib orada böyük işlər nümayiş etdirdilər; bəziləri şəhid oldular, bəziləri inqilabın ehtiyatlarından oldular və sonralar dövlət onlardan istifadə etdi. Bu 27-28 il ərzində Mühafizəçilər korpusu ölkənin hər bir yerinə kadr ixrac edən mərkəzlərdən biri olmuşdur. Müharibə gənc toplumdan işgüzar və istedadlı bir təbəqə formalaşdırıb təhvil verə bildi, onlarda istedadları üzə çıxardı. Müharibə bu dəyərlərin tərənnümüdür. Heç bir xalq özünü bunlara ehtiyacsız saya bilməz. Müharibənin rəvayətçisi də, əslində, belə dəyərləri rəvayət edir; öz dinləyicilərinə belə bəyənilmiş xislət və zirvələri göstərir. İndi bu sahədə çoxlu işlər görülmüşdür.

Mən tövsiyə edirəm ki, incəsənət məmurları, müxtəlif ədəbiyyat sahələrinin məsul şəxsləri dostların burada bu sahələrdə irəli sürdükləri fikirlərə diqqət yetirsinlər. Əlbəttə, bəzi işlər görülüb və fikir bildirən bu dostların xəbərsiz olması mümkündür. Yaxşı işlər də görülməkdədir.

**Müqəddəs müdafiə incəsənəti və çoxsaylı izləyicilər**

Cəmiyyətimizdə müqəddəs müdafiə incəsənətinin müştərisiz olduğunu güman etmək böyük və aydın səhvlərdəndir. Şübhəsiz, inqilabdan sonra ən çox müştərisi olan sənət əsəri müqəddəs müdafiəyə aid sənət əsərləridir; istər film və kino

sahəsində, istər kitab, xatirə və hekayə sahəsində. Tirajları bənzərsiz olan bu bir neçə kitab müqəddəs müdafiə dövrünə aid kitablardır. Bizim ölkəmizdə belə bir şey olmayıb ki, bir kitab iki il ərzində yüz dəfə çap olunsun. Mənə məlumat verdilər ki, müqəddəs müdafiə barədə yazılmış "Sarayın yumşaq torpaqları" və "Da" kitabları iki ildən az müddətdə yetmiş dəfədən artıq çap olunmuşdur. Bizim bu qədər tirajlı kitabımız olmamışdır. Film sahəsində də belədir. Ən çox satılan, ən çox izlənən və ən çox müştərisi olan filmlər müqəddəs müdafiəyə aid filmlərdir: "Şüşəli agentlik" və "Leyli mənimlədir" filmlərindən tutmuş cənab Dehnəməkinin son "İxrac olunmuşlar" filminə qədər. Müqəddəs müdafiə barədə olan bu filmlər ən çox baxılan və satılan filmlərdir. Düzdür, bəzi işlər müştəri tapmır. Bunun eybi məzmunda deyil, formasında, keyfiyyətində, sənətkarlıq nümunəsinin azlığındadır və təbii ki, müştəri qazanmır. Buna əsasən, bu sahədə bacardıqca işləmək, bacardıqca maliyyə, müdiriyyət və zaman sərmayələri ayırmaq lazımdır. Bizim tövsiyəmiz budur. Sənətkar dostlar da həvəslə və ümidlə bu işləri görsünlər. Bu iş üçün hazırlıqlı və məsuliyyətli insanlar lazımdır; yəni həqiqətən, məsuliyyət hissi keçirən, tənbəllik və yuxu halında olmayan şəxslər. Belə insanlar bu sahədə yaxşı rol oynaya bilərlər.

**Müqəddəs müdafiə incəsənəti, ədəbiyyatı və tədqiqatı**

Bizim işimizin nöqsanlarından biri də budur ki, əsərlərimiz beynəlxalq miqyasda az əks olunur. Əlbəttə, bunun da dəlilləri var. Beynəlxalq festivallar həqiqətən, müqəddəs müdafiəni, yaxud inqilabı, yaxud İslam Respublikası quruluşunun dəyərlərini yaxşı və düzgün rəvayət edən əsərləri əsla yaxına buraxmır və sevmirlər. Yalnız məcbur olandan nəyisə öz işlərinə daxil edirlər. Onların siyasəti bunun əksinədir. Amma hər halda, müştəri yalnız bu festivallar deyil və müqəddəs müdafiənin kitabları üçün dinləyicilər, istəyənlər və oxucular, filmləri üçün də tamaşaçılar tapmaq olar. Sadəcə, düzgün və yaxşı tərcümə olunmalıdır. Ümidvarıq ki, müqəddəs müdafiənin bu sahəsində mümkün həddə çalışa bilməniz üçün Allah-Taala sizə uğur bəxş etsin. Həm məmurlar çalışsınlar, həm sənət adamları çalışsınlar, həm tədqiqat sahələrində, - bu, çox mühümdür və xoşbəxtlikdən, yaxşı tədqiqatlar da var və bəzi mərkəzlərdə çalışırlar - həm arxiv sahəsində, sənədlərin saxlanması, araşdırılması və yazılması işində çalışanlar. Bunlar çox mühümdür. Bunların əldən çıxmasına imkan vermək olmaz. Bunlar tədqiqatçıların ixtiyarına verilməli və müqəddəs müdafiə ədəbiyyatı tədqiqatdan istifadə etməlidir. Müqəddəs müdafiə incəsənəti də ədəbiyyat və tədqiqatdan maksimum yararlanmalıdır. Allah hamınızı müvəffəq etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## İqtidar, iman və gənclər[30]

Bismillahir-Rəhmanir-Rəhim.

Tələbəlik dövrünü bitirib məzun olan və bu gündən etibarən rəsmən İslam Respublikasının şərəfli ordusuna qatılan əziz gənc zabitləri, həmçinin poqon alıb İran İslam Respublikası ordusunun hərbi universitetlərində təhsilə başlayan əziz gəncləri təbrik edirəm.

**Silahlı qüvvələr və təhlükəsizliyin qorunması**

Silahlı qüvvələr və bu şəkildə vəzifələrini yerinə yetirən, öz ölkə və xalqlarına xidmət göstərən şəxslər üçün tanıdığım əhəmiyyət əvvəla, ona görədir ki, silahlı qüvvələr ölkənin təhlükəsizliyini qoruyan ən mühüm amildir. Silahlı qüvvələr, Möminlər əmirinin sözünə əsasən, xalqın qalası, hasarı, möhkəm divarıdırlar və təhlükəsizliyi təmin edirlər. Təhlükəsizliyin dəyəri başqa heç bir şeylə müqayisəolunası deyil. Əgər təhlükəsizlik olsa, cəmiyyətdə elm, inkişaf, ədalət, başucalığı, dünya və axirət mümkün olar; təhlükəsizlik olmasa, bəşəri nailiyyətlər əlçatmaz olar. Bu, insanın silahlı qüvvələrə qarşı öz qəlbində və rəftarında göstərdiyi hörmət və diqqət üçün birinci dəlildir.

**Silahlı qüvvələrin qədir-qiyməti**

İkinci dəlil budur ki, silahlı qüvvələr bu vəzifələrini yerinə yetirmək üçün başqa heç bir şeylə müqayisə olunmayan bir bədəli ödəməyə hazır olmuşlar; silahlı qüvvələr öz canlarını bu meydana gətirmişlər. Ölkənin təhlükəsizliyini müdafiə edən hərbçi təhlükəsizliyi qorumaq üçün öz canını meydana gətirmişdir. Bu, böyük bir şeydir. Bizim əziz şəhidlərimizin heç zaman xalqımızın yadından çıxmamasının səbəbi budur ki, onlar bu sərvəti fəda etmişlər. Dünya adamları nəinki canlarından, heç dəyərsiz istəklərindən də keçmirlər. Haqq adamları, qəhrəmanlar, mənəvi dəyərlərin müdafiəçiləri isə öz canlarını verməyə hazırdırlar.

**Başucalığına layiq xalq**

Mənim əzizlərim! Siz bu ölkənin möhkəm sütunlarından sayılırsınız. Hər bir xalqın öz iqtidarı üçün çalışmağa haqqı var və bu onun borcudur. Əgər xalqlar qüdrət əldə etməsələr, dünya dartışmalarında və güc istəklərində tapdanarlar. Zəifliyə adət edən, zəifliyi özünə böyük eyib saymayan bir xalq başucalığına layiq deyil. Hakimlər, dünyanın çəkməliləri, müstəbid və diktator olan beynəlxalq süngüçülər belə bir xalqa rəhm etməzlər. Xalqlar özlərini qüdrətli etməyə borcludurlar.

**Həqiqi iqtidar**

Əlbəttə, bir xalqın iqtidarı yalnız silahlı qüvvələrdə deyil. Xalqın iqtidarı çoxcəhətli bir məsələdir. Silahlı qüvvələr fəaliyyətin ön xətti və xalqların iqtidar əlamətidirlər. Lakin bir xalq elm, əxlaq, iman, əzmkarlıq və iradə baxımından da inkişaf etməlidirlər ki, öz iqtidarını qoruya bilsin. Biz iqtidarın mənəvi amilləri üzərində dayanırıq. Mənəvi iqtidarın ən əsas amili imandır; Allaha iman, Allaha təvəkkül, Allaha nikbinlik. Qəlbi ağır işlərə hazırlayan, çətin yolları keçmək üçün addımları möhkəmlədən, problemləri kiçik göstərən, insana böyük məqsədlər bəxş edən budur: Allaha iman. İman olmasa, insan yalnız maddi bir şey olar. Allaha imanı olmayan toplumlarda ürəklər Allaha, mənəviyyata və fəzilətə eşqlə döyünmür və həqiqi iqtidar da əldə olunmur.

İqtidar yalnız mütərəqqi silahlara, pula, siyasət və təbliğat gücünə malik olmaq da deyil. Əgər pul, mütərəqqi silah və dağıdıcı texnikalar bir ölkə üçün həqiqi iqtidar gətirə bilsəydi, sionizm rejimi 33 günlük müharibədə Livanın mömin gəncləri qarşısında və 22 günlük müharibədə Qəzzənin fədakar insanları qarşısında elə rüsvay olmazdı. Əgər həqiqi iqtidar üçün maddi güc amilləri kifayət etsəydi, ABŞ dövləti Əfqanıstanın məhrum və müdafiəsiz xalqı ilə müharibədə və İraqın işğalında uğursuzluğa düçar olmazdı. Bunlar bizim gözlərimiz önündədir. Bunlar bizim eşitdiyimiz, gördüyümüz və bildiyimiz həqiqətlərin çox mühüm və dəyərli sınaqlarıdır.

**Əzmkarlığa və iradəyə lazım olan iman və işıqlı qəlblər**

Xalqların qəlbi imanla və aydın məqsədlərlə işıqlandıqda lazımi əzmkarlıq və iradə əldə edir, insanlara təcavüz etmir, soyğunçuluqla məşğul olmur. İqtidar insanın qonşusuna, məzlum və müdafiəsiz xalqa hücum etməsi, dünyanın o tərəfindən qalxıb hərbi, iqtisadi və siyasi məqsədlərindən ötrü və bir xalqı əzmək məqsədilə öz ordusunu minlərlə kilometr bu tərəfə daşıması deyil. Bunlar iqtidar deyil. Belə təməllərə söykənən, onlarla böyüyən və özünün ağır çəkisini siyasət və iqtisadiyyat dünyasında digərlərinin üzərinə salan maddi güclər bu yamanlarının cəzasını çəkəcək və süqut edəcəklər. Məzlum olsalar da, mömin xalqlar çalışdıqda, əzmkarlıqla, polad iradə ilə, pak niyyətlə və düzgün məqsədlərlə bir yola qədəm qoyduqda dünyanın gələcəyini ələ alacaqlar; elə bir gələcək ki, onda təcavüz, qarət, dəhşət, silah yarışması yoxdur və ədalətə əsaslanır. Mənim əzizlərim! Siz belə bir dünyaya sarı hərəkətin öncüllərisiniz. Silahlı qüvvələrdə çalışan sizlər bu ölkənin müxtəlif sahələrində çalışan əziz gənclərimizlə birgə bu hərəkətin öncüllərisiniz. İran İslam Respublikası bugünkü və sabahkı dünyaya bu yeni və aydın sözü daşıyır, sülh və səadət mesajını verir.

Bu gün İran İslam Respublikasında silahlı qüvvələrin misilsiz imtiyazları vardır. Bu imtiyazları günbəgün artırın, tədqiqata, elmə və təhsilə ciddi yanaşın, Allah-Taalanın bəxş etdiyi müxtəlif istedadların aşkarlanması üçün gənclik dövrünü qənimət sayın, bu ölkəyə və bu xalqa belə uca və aydın məqsədlərlə xidmət imkanının qədrini bilin. Müdafiənin ön sırasında olub belə bir ölkəyə, belə bir xalqa,

belə bir quruluşa xidmət göstərmək böyük fəxrdir. Bu fəxr bu gün bizim önümüzdə, İslam inqilabında baş qaldırmış ardıcıl nəsillərin önündədir. Bunu dəyərləndirin.

**Elmi iqtidar və zirvələrə doğru inkişaf**

Bu gün müsəlman İranın iqtidarını hətta düşmənlər də inkar edə bilmirlər, etiraf edirlər. Əlbəttə, düşmən İrandan qorxutmaq layihəsini icra etmək niyyəti ilə bu ölkənin milli qüdrətinə dair fəryad qoparır. Onun bu işinin bir hissəsi düzgün, bir hissəsi isə yanlış və yalandır. İslam Respublikası quruluşunun qüdrətini göstərən və söyləyən hissə doğrudur. Biz İslam Respublikasının otuzillik dövründə sıfırdan başladıq və çox inkişaf etmiş yerlərə çatdıq. Lakin bununla qane olmuruq. Nail olduğumuz isə öncə qərarlaşdığımız nöqtə ilə müqayisəolunası deyil. Mən ilk gündən silahlı qüvvələrdə olmuşam, ordunu, Müdafiə nazirliyini, Korpusu, polisi bütün imkanları ilə yaxından görmüşəm. Bu gün siz əziz gənclər elə zirvədəsiniz ki, o zaman bunu hətta təsəvvür də etmək olmazdı, heç kəs inanmazdı. Elmi iqtidar, silah gücü, özünəinam, birlik, müxtəlif sahələrdə inkişaf. Düşmənin sözünün bu hissəsi doğrudur.

**İranın iqtidarının qonşular üçün fürsət olması**

Lakin bu sözün yalan hissəsi onun İrandan qorxutmaq layihəsi üçün irəli sürdüyü sözdür. İslam Respublikasının bu möhtəşəm milli iqtidarı heç kəs üçün təhdid deyil. Bu, qonşular üçün təhdid deyil, fürsətdir. Bəli, dünya hegemonları üçün təhdiddir; dünyanın istismarçıları və xalqların işinə müdaxilə edənlər üçün təhdiddir; bir zaman bu xalqın zəngin təbii və insani mənbələrindən ən çox sui-istifadəni edib onun heysiyyətinə təpik atan və hələ də o qayıtmaz günlərin arzusunda olanlar üçün təhdiddir, lakin xalqlar üçün təhdid deyil. Bizim hərbi manevrlərimiz, raketlərimiz təhdid deyil. Biz hərbi təyyarə, hərbi gəmi istehsal edirik, sizin kimi qəhrəman gəncləri nümayiş etdiririk. Bunların heç biri təhdid deyil. Bu, özünə inananda, öz Allahına təvəkkül edəndə və qəlbi imanla dolanda bir xalqın inkişaf edə bildiyini göstərir və digər xalqları həvəsləndirir. Digər xalqlar bilsinlər və görsünlər ki, ucalıq istəyirlərsə, o, ABŞ-ın yanında, supergüclərə bağlılıqda, dünyanın silah istehsalçılarına pul verməkdə və onlardan silah dilənməkdə deyil, daxildən çağlamaqda, milli özünəinamda, Allaha təvəkküldə və bu kimi sahələrdə inkişafdadır.

**Gələcəyə hazırlıq**

Mənim əziz gənclərim! Mərd övladlar! Bu təhsil çağının, bu gəncliyin, İran xalqının bu başucalığının və ad-sanının, bu quruluşun siyasi əzəmətinin qədrini bilin və özünüzü daha yaxşı sabahlara, daha böyük zəfərlərə hazırlayın. Sabah sizinkidir və gələcək sizə məxsusdur.

Özü bir ailə olan silahlı qüvvələr barədə mənim təkidli tövsiyəm Allahın lütfü ilə bu gün mövcud olan mehribanlıq, həmrəylik və birlikdir. Ordu, Korpus, Bəsic, polis - hamınız bu ailənin övladları və bir-birinizin qardaşlarısınız. Bu gün digər universitetlərdən olan siz gənclər və bizim hamımız bu universitetdə Hərbi Dəniz

Qüvvələrinin qonaqlarıyıq. Xüsusən xatırladıram ki, bu gün Hərbi Dəniz Qüvvələri dünyanın bir çox nöqtələrində və bizim ölkəmizdə strateji bir qüvvədir; ona strateji qüvvə gözü ilə baxılmalıdır. İran İslam Respublikası ordusunun Hərbi Dəniz Qüvvələrinin ixtiyarında olan Cənub-Şərq sahilləri çox mühüm bölgədir və çox yaxşı inkişaf potensialına malikdir. Oralara diqqət yetirin və əhəmiyyətli yanaşın. Bu gün Allahın lütfü ilə inkişaf etmiş gəmiçiliyi gücləndirin, sualtı fəaliyyətlərə əhəmiyyətli yanaşın. Hər yerdə, xüsusən də cənub sularında suüstü gəmilərin müdafiə təchizatını diqqətdə saxlayın. Hərbi Dəniz Qüvvələrinin bu gün Allahın lütfü ilə yaxşı imkanları və yaxşı komandanlığı var. Bu gün sizin səyiniz çoxlu səmərələr verə, sizə, Hərbi Dəniz Qüvvələrinə, İran İslam Respublikasının bütün ordusuna və İslam Respublikasının silahlı qüvvələrinə böyük nailiyyətlər gətirə bilər. Bunu Allahdan istəyirik, Ona könül veririk və əminik ki, Onun iradə etdiyinə nail olacağıq.

Allahın salamı və rəhməti olsun sizə!

## İslam, qadınlar və Quran[31]

Bismillahir-Rəhmanir-Rəhim.

Möhtərəm xanımlar və əziz bacılar! Çox xoş gəlmisiniz. Alim və Qurana vurğun olan bu izdihamı görmək mənim üçün həqiqətən, bir bayram sayılır. Mən bunu Əhli-beyt səxavətlisi olan həzrət Fatimə Məsumənin (ə) bir lütfü bilirəm. Allaha şükür edirik ki, ölkə qadınlarının bu böyük toplumunun dərin, məntiqli və elmi məqsədlərlə Quran ardınca getdiyi, Quran tədqiqatı ilə məşğul olduğu və ölkənin Quran fəzasını belə rövnəqləndirdiyi bir gün gəldi. Şübhəsiz ki, bu, Allah tərəfindən ölkəmizə böyük nemətdir.

Möhtərəm qadınların burada irəli sürdüyü bütün təkliflər diqqətəlayiqdir. Biz bunları götürüb araşdıracaq, baxacağıq və əgər bu işlərlə məşğul olan məmurlar varsa, onlara təhvil veriləcək. Ümidvarıq ki, bu təkliflərin məntiqli və məqbul hissəsi icra olunsun.

### Qadınlar və elmi araşdırma

Mən iki məsələ haqqında danışacağam: bir məsələ ölkəmizdə və İslam Respublikasında çox dəyərli və möhtəşəm olan bu qadın hərəkatının özü, ikinci məsələ də Qurana dair işlərdir.

Əvvəla, qadınların tədqiqat və elm məsələlərinə qoşulmasının özü diqqətəlayiq haldır. Mən adətən, ölkədə nəşr olunan elmi jurnallara baxır və onları vərəqləyirəm. Yeni məsələləri ehtiva edən jurnallarımızda müxtəlif fənlərdə məqaləsi dərc olunan qadın yazıçı və tədqiqatçıların sayı çoxdur. Hövzə elmlərində, fiqhdə, fəlsəfədə, humanitar elmlərdə, təbii elmlərdə bizim ölkəmizin qadınlarının iştirakı böyükdür. Bizim tələbə qızlarımız universitetləri doldurublar. Elmi mühitlərdə qadınlar heyrətamiz şəkildə iştirak edirlər. Bu nədir? Bu necə hadisədir? Bizim ölkəmizdə nə zaman bu qədər tədqiqatçı, araşdırmaçı, alim, savadlı və təbliğatçı qadın olmuşdur?! Bizim keçmişimizdə heç zaman belə bir şey olmamışdır. Bəli, tək-tük alim və görkəmli qadın olmuşdur, lakin bütün cəmiyyətdə nəzərəçarpacaq həddə olmamışdır. Bu, İslam Respublikası dövrünə məxsusdur. Bu, ölkədə İslam hakimiyyəti sayəsində baş vermişdir; qadınlar elmi səhnədə özlərini belə göstərməkdədirlər və bu üstünlükləri əldə etmişlər. Bu, İslam Respublikası quruluşunun fəxrlərindəndir. Mən tələbə və gənclərlə görüşlərdə dəfələrlə demişəm ki, biz qərblilərin qadına dair iddiaları qarşısında müdafiə olunmuruq, hücuma keçirik və Qərb özünü müdafiə etməlidir, İslam yox. Uyğun fikir buna görədir.

### İslamın qadınlara baxışı

İslam tağut quruluşlarından fərqli olaraq, qadına şəxsiyyət tanıyır. İslamda mömin üçün nümunə təyin etdikdə qadını göstərirlər: “Allah iman gətirənlərə fironun zövcəsini misal çəkdi”[32]. Bu, birincisi, Məryəm bint İmran[33] da ikinci adamdır. İman gətirənlər üçün iki qadın nümunə göstərilir. Kafirlər üçün də iki qadın göstərilir: “Allah kafirlərə Nuhun zövcəsi ilə Lutun zövcəsini misal çəkdi. Onlar Bizim qullarımızdan olan iki saleh bəndənin kəbini altında idilər”[34]. Yəni qadını yalnız qadınlar üçün yox, hətta bütün cəmiyyət üçün ibrət və ayna kimi göstərir. Bir kişi seçə bilərdi, amma bu, qadınlara qarşı mövcud olan azğın və səhv baxışla mübarizədir. Bu baxış həmişə təhqiramiz olmamışdır, lakin həmişə səhv olmuşdur.

**Qərbin və tağut quruluşlarının qadına baxışı**

Tağut quruluşunda qadına həmişə səhv baxılmışdır. Bu gün Qərbdə belədir. Qərb quruluşlarında bəzi qadınların çoxlu kişilər kimi eyni dəyərli, möhtərəm və pak şəxsiyyətə malik olmaları mümkündür, lakin Qərb mədəniyyətində qadına qarşı ümumi baxış səhvdir, alət kimi, təhqiramiz baxışdır. Qərbin fikrincə, sizin çadra və hicabdan istifadə etməli olmamanızın səbəbi bu deyil ki, azad olasınız. Siz deyirsiniz ki, mən hicabla da azadam, mənim azadlığım var. Onun məqsədi başqa bir şeydir. Onlar kişinin gözünün nəvazişi və kişinin qanunsuz bəhrələnməsi üçün qadının cəmiyyətdə xüsusi tərzdə görünməsini istəyirlər. Bu, qadına qarşı ən böyük təhqirdir; bir neçə komplimentlə üzərini örtsələr və ona başqa adlar qoysalar da.

**Qadına hörmətin mənası**

Qadına hörmət budur ki, Allah-Taalanın hər bir insanın daxilində yaratdığı, həmçinin yalnız qadınlara məxsus olan dəyərli və böyük qüvvə və istedadların müxtəlif səviyyələrdə - ailə, cəmiyyət, dünya miqyasında, elm, bilgi, tədqiqat, tərbiyə və quruculuq üçün aşkara çıxmasından ötrü ona imkan yaradılsın. Qadına hörmət budur. Mən görürəm ki, bu, Allahın lütfü və mərhəməti ilə bizim cəmiyyətimizdə özünü tamamilə göstərir. Bu əsas işə aiddir və bu gün Allaha şükür olsun ki, ölkəmizin qadınlarında var. Çox dəyərlidir ki, qadınlar bütün elmi sahələrdə, xüsusən də çox qiymətli olan Quran işində iştirak edirlər; özü də fəal və təqdirəlayiq şəkildə. Mən güman etmirəm ki, İslam dünyasının hansısa bir nöqtəsində bu qədər qadın bu qədər həvəs və maraqla Quran fəaliyyəti göstərsin. Əlbəttə, dəqiq məlumatım yoxdur və araşdırmamışam. Lakin ümumi məlumatlardan anlaşılır ki, belə bir şey yoxdur. Bu yalnız sizin hünərinizdir. Sırf elmi məsələlərdən tutmuş təbliğat, tərbiyə və incəsənət işlərinə qədər müxtəlif Quran mövzularında Quranı araşdıran bu qədər qadın var. Fikrimcə, bunlar çox dəyərlidir. Əlbəttə, əgər təklif olunan beynəlxalq müsabiqə məsələsi həyata keçsə, qadınlarımızın Quran sahəsindəki işinin dəyəri bəlli olar.

**Cəmiyyətimiz və Quran**

Etiraf etməliyik ki, cəmiyyətimiz uzun illər Qurandan uzaq düşmüşdür. Biz İslam Respublikasında bu məsafəni azaltmaqdayıq; gerilikləri düzəldirik, lakin bu

gerilik olduqca çoxdur. Tağut hakimiyyətləri dövründə Quran cəmiyyətdə rəsmi şəkildə olmamışdır. Müəyyən yerlərdə kimlərsə Quranla tanış olmuşlar, dindarlar evlərdə Quran oxuyurdular, lakin bu yalnız qiraət idi; Quranda təfəkkür etmək, xüsusən də cəmiyyət miqyasında və ümumi yerlərdə olduqca az olmuşdur. Nəticədə, bizim ziyalı və təhsilli təbəqələrimiz Qurandan tamamilə uzaq qalmışlar. O zamanın ali təhsilliləri arasında Quranla ünsiyyəti, tanışlığı olan, çox geniş və dərin yox, hətta məhdud tanışlığı olan şəxslər gözə dəymirdi; əvvəllər hövzə tələbəsi olmuş və o dövrdə bəzi ayələri əzbərləmiş şəxslər isə heç. Lakin digər İslam ölkələrində, xüsusən də ərəb ölkələrində bəzi şəraitlərə görə vəziyyət belə olmayıb və indi də belə deyil. Onların ziyalıları, müxtəlif dövlət vəzifələrində çalışan ali təhsilli şəxsləri sözlərində misal və dəlil kimi Quran ayələrindən istifadə edirlər. Bu bizim qədim ziyalılarımızda olmamışdır, lakin gənc nəslimizdə var. Bu, Qurandan uzaq düşməyə görə idi. Biz uzaq düşmüşdük. O ölkələrdə təlim və tərbiyənin keyfiyyətinin necəliyi başqa bir mövzudur, lakin xüsusən ərəb ölkələrində bu iş adət idi; indi də belədir. Biz inqilabın əvvəlindən bu məsələ ilə üzləşirdik. Ərəb ölkələrinin əməldə Quran əsaslarından uzaq olduqlarına görə həmişə haqlı olaraq etiraz etdiyimiz siyasətçilərinin və dövlət rəsmilərinin zehnində və dilində Quran vardı. Həmişə təəssüf edirdik ki, biz nə üçün belə deyilik. Əgər indi bənzətmək istəsəm, deməliyəm ki, iranlı ədəbiyyatçıların və ədəbiyyatsevərlərin çıxış əsnasında Sədinin Gülüstanından və Hafizin şeirlərindən bəzi sitatlar gətirdikləri kimi onlar da Qurandan belə istifadə edirdilər. Lakin bizim ölkəmizdə belə bir şey yox idi. Biz inqilabdan öncəki təhsil sistemindən irəli gələrək Qurandan uzaq düşmüşdük.

**Cəmiyyətimizin gələcəyi və Quran**

Biz indi bunu düzəltmək istəyirik və insafla desək, inqilabın əvvəlindən bu məqsədlə çoxlu işlər görülmüşdür, nəticəsini də müşahidə etməkdəyik. Lakin bu, işin başlanğıcıdır. Quran məfhumları yalnız məlumat deyil, həyat təlimləridir. Bəzən insanın Quran məlumatı yaxşı olur, amma onun həyatında Quranın heç bir əlaməti görünmür. Bəzi xanımlar da burada buna toxundular. Biz çalışmalıyıq ki, Quran bizim həyatımızda təcəssüm olunsun. Necə ki, əziz Peyğəmbərin hörmətli zövcələrindən birindən Peyğəmbərin əxlaqı barədə soruşduqda belə cavab verdi: “Onun əxlaqı Quran idi”[35]. Yəni Quran təcəssüm olunmuşdu. Bu bizim cəmiyyətimizdə həyata keçməlidir.

**İslam inqilabı və Quran**

Burada çox aydın bir həqiqət var və o qədər aydındır ki, çox zaman gizli qalır. Bu həqiqət İslam Respublikasının qurulmasıdır. Bu, Quranın təcəssüm olunmasıdır. İslam Respublikası quruluşu və dini quruluş Qurana əməl etməyin ən böyük nümunələrindəndir. Bunu inqilab bizim üçün təmin etdi; bunu yaddan çıxarmayaq. Bəli, bu böyük çərçivə daxilində doldurulması lazım olan çoxlu krossvordlar, görülməsi lazım olan çoxlu işlər var. Lakin əsas iş bu quruluşun yaranması idi. Dinə əsaslanan bir dövlətin qurulması, onun məmurlarının kimliyinin, məqsədlərinin,

xüsusiyyətlərinin, əməllərinin, xalqla əlaqələrinin və xalq üçün gördükləri işlərin din və İslam əmrləri əsasında olması Qurana əməl etməyin ən böyük formasıdır. Bu, əziz Peyğəmbərin Mədinəyə gəlişində və hicrətində gördüyü işdir. Bir cəmiyyət, bir quruluş və bütün ictimai fəaliyyətlərin üzərinə kölgə salan bir güc mərkəzi olmayınca işlərin zəmanəti olmur. İnqilabdan öncə azsaylı xeyirxah və nəsihətçilər vardı; ürəkləri yanırdı, daim xalqa nəsihət edirdilər, ya kütləvi informasiya vasitələrində, ya da məhdud dairələrdə moizə edirdilər. Moizə təsirsiz deyil, qəlbə təsir göstərir, lakin praktik reallaşma qabiliyyəti yoxdur. Nə üçün? Çünki quruluş səhv quruluşdur, cəmiyyətin istiqaməti ədalətin, insafın, mürüvvətin və əxlaqın ziddinədir. Belə bir istiqamətdə siz bir adama ədalətli olması, rəhm etməsi və insafla davranması barədə nə qədər təkid etsəniz də, keçməz. İstiqamət mühüm amildir. İstiqamət düzgün və din istiqamətli bir dövlətin qurulması ilə düzəlir. İnqilab bu işi gördü. Mən demək istəyirəm ki, bizim Quran araşdırmaçılarımız, həvəskar və fəal gənclərimiz bu həqiqəti yaddan çıxarmasınlar. Bu, çox aydın bir həqiqətdir, lakin çox zaman unudulur. Bu, çox mühüm məsələdir.

**Quran quruculuğu**

Bu çərçivədə Quran quruculuğuna başlamaq və əsaslı işlər görmək lazımdır ki, məzmunlar sözün həqiqi mənasında Qurana əsaslansın. Bizim fərdi rəftarımız, idarəçiliyimiz, təşkilati işlərimiz, universitetlərə, tədqiqat mərkəzlərinə, hövzələrə və digər yerlərə aid təlim və tərbiyə qurumlarındakı rəftarımız, ailədə davranışımız, siyasi, beynəlxalq mövqelərimiz hamılıqla İslam əsasında olsun. Bu nə zaman baş verər? O zaman ki, biz Quran məfhumları ilə düzgün tanış olaq. Bu, qadın və kişilərin belə möhtəşəm Quran araşdırması ilə həyata keçər. Tədqiqatlar bu istiqamətdə olmalıdır.

**Quran tədqiqatları və əsl həqiqət**

Quran tədqiqatlarında mühüm bir məsələ budur ki, Quran sahəsində çalışmaq istəyən şəxs qəlbini əsl Quran həqiqəti ilə üzləşməyə hazırlamalıdır; yəni qəlb pak olmalıdır. Qəlb pak, Quran həqiqətini qəbul etməyə hazır olmasa, qeyri-islami və qeyri-ilahi əsaslara könül versə, Quranla üzləşəndə ondan bəhrə götürməz. Quran buyurur ki, o, çoxlarını azdırır və çoxlarını hidayət edir[36]. Quranla azmaq nə üçündür? Quranla hidayət bəlli məsələdir, lakin azmaq nə üçündür? Bu ona görədir ki: “Qəlblərində xəstəlik olanlara gəldikdə isə, onların murdarlığı üstünə bir murdarlıq da gətirər”[37]. Qəlblərində xəstəlik olan şəxslər Quran oxuduqda qəlblərinin çirkinliyi artar. Quran ayəsi, Quran surəsi onların çirkinliyini artırar. Bu çirkinlik nədir? Bu xəstəlik hansı xəstəlikdir? Əxlaqi xəstəliklərdir. Həsədə, bədxahlığa, tamahkarlığa, dünyagirliyə düçar olanda, ehtiraslar, vəzifəpərəstlik, haqqı tapdamaq, haqqı görməzdən gəlmək və haqqı gizlətmək bizim ruhumuza və qəlbimizə üstün gələndə Qurandan istifadə etmir, onun bizə verməli olduğunun əksini alırıq. Allaha pənah aparmaq lazımdır. Görürsünüz ki, bəzi adamlar Quran ayəsini İslamı, İslam Respublikasını vurmaq, İslam Respublikasının bizə bəxş etdiyi dəyərləri məhv etmək

üçün oxuyurlar. Quranla pak şəkildə üz-üzə gəlmək lazımdır ki, nuru və xatırlatması qəlbimizdə yer açsın və ondan istifadə edə bilək.

**Quran tədqiqatları**

Quran tədqiqatlarında əsaslı elmi işlərə diqqət yetirmək çox vacibdir. Belə deyil ki, kim ərəb dilini bilsə, Quranın bütün məsələlərini anlayıb dərk edə və bir Quran tədqiqatçısı ola bilər. Xeyr, əvvəla, Quranın özü ilə ünsiyyət qurmaq lazımdır. Yəni Quran tədqiqatçısı bütün Quranla ünsiyyətdə olmalıdır. Quranın dəfələrlə oxunması, Quranda şəxsi təfəkkürlər bizim Quranda xüsusi bir mövzunu axtardığımız zaman nəticə əldə etməyimizə kömək edir. Deməli, Quranla ünsiyyətin özü lazımdır.

Sonra da Qurandan istifadənin necəliyi məsələsi gəlir. Bizim din alimlərimizin, fəqihlərimizin ayə və hədislərdən istifadə metodu təcrübədən çıxmış, bişmiş və tam sınanmış bir elmi metoddur. Bunları öyrənmək lazımdır. Demək istəmirəm ki, kim Quran mövzusunda tədqiqat aparmaq istəyirsə, gedib illərlə hövzə dərsi oxumalıdır; məqsədim bu deyil. Lakin Quran tədqiqatı üçün insan bəzi giriş elmlərinə yiyələnməli, Quran dərkinin əsaslarını bilməli, o cümlədən, dillə, dilin dəqiq məqamları və fiqh metodikasının bəzi əsasları ilə tanış olmalıdır. Bunları bilmək və həmçinin Quran ayələri barədə deyilən hədislərdən də istifadə etmək lazımdır. Bunların hamısı Quran tədqiqatlarında təsirlidir.

**Bizim humanitar elmlərimiz və Quranın əsasları**

Son olaraq bir məqama da toxunmaq istəyirəm. O da budur ki, mən dəfələrlə humanitar elmlərdən ötrü universitet mənsublarından gileylənmişəm. Bizim humanitar elmlərimiz Quran və İslamla ziddiyyət təşkil edən əsaslar üzərində qurulmuşdur. Qərbin humanitar elmləri başqa dünyagörüşə, yaranış barədə başqa bir dərkə və çox zaman materialist baxışa əsaslanır. Bu baxış yanlışdır, bu əsas səhvdir. Biz humanitar elmləri tərcümə edib heç bir İslam tədqiqatına icazə vermədən universitetlərimizə gətirir və müxtəlif səviyyələrdə tədris edirik. Halbuki humanitar elmlərin kökünü və əsasını Quranda axtarmaq lazımdır. Quran tədqiqatlarının mühüm sahələrindən biri budur. Müxtəlif sahələrdə Quranın incə məqamlarına diqqət yetirmək lazımdır. Bu, çox əsaslı və mühüm işdir. Əgər baş tutsa, o zaman humanitar elmlərin mütəfəkkir, araşdırmaçı və mütəxəssisləri bu təməl və əsas üzərində böyük elmi işlər görə bilərlər. Sözsüz ki, o zaman digərlərinin, qərblilərin və humanitar elmlərdə inkişaf etmiş şəxslərin inkişaflarından da istifadə edə bilərlər, lakin əsas Quran olmalıdır.

Ümidvarıq Allah-Taala sizlərə uğur bəxş etsin! Mən ölkənin müxtəlif sahələrində Quran işi ilə məşğul olan bütün möhtərəm xanımlara və əziz qadınlara səmimi təşəkkürümü bildirirəm. Sizin Quran sahəsində fəallığınız ölkənin qadın cəmiyyətinə ilham verəcək və inşallah, ölkəmizin qadınlarını - yəni ölkə əhalisinin yarısını Qurana yönəldəcək. Əgər qadınlar Quranla ünsiyyət qursalar, cəmiyyətin bir çox problemləri həll olunar. Çünki növbəti nəslin insanları qadının əli ilə böyüyür. Quranla tanış olan, Quran məfhumları ilə ünsiyyətdə olan qadın övlad tərbiyəsində

böyük təsirlərə malik olur. Ümidvarıq ki, sizin bu böyük hərəkətiniz sayəsində bizim cəmiyyətimizin sabahı Qurana bugünkündən dəfələrlə yaxın olsun!

Allahın salamı və rəhməti olsun sizə!

## Gənclər, elm və azad kürsülər[38]

Bismillahir-Rəhmanir-Rəhim.

Bizim siz əzizlərlə bugünkü məclisimiz həmişə olduğu kimi, yenə də mənim üçün çox şirin və ümidverici bir məclis idi. Həqiqətən, ölkənin əsas ümid nöqtəsi ali təhsilli və elmli gənclər, xüsusən də öhdəlik və məsuliyyət hissinə malik elmli gənclərdir. Siz əziz qardaş və bacılarla, əziz övladlarımla görüş bu ümidi təkcə mənim yox, bütün məmurların və hətta ölkə miqyasında hamının qəlbində gücləndirir.

**Gələcək üfüqləri təsvir etməyin zəruriliyi**

Əziz gənclərin biri dedi: "Fəaliyyətlər gələcək ehtiyaclar əsasında olmalıdır. Bu gələcəyi, bu ehtiyacları təsvir edin". Yaxud eyni sahədə başqa bir əziz gənc dedi ki, hərəkət istiqamətimizi özümüz müəyyənləşdirək, digərlərinin - qərblilərin təsvir etdiyi hərəkət istiqamətini və onların krossvordlarını dolduran olmayaq; görək nəyə ehtiyacımız var və onu təmin edək. Bu sözlər çox böyük, çox mühüm sözlərdir. Bunlar elə sözlərdir ki, hər bir ayıq, mütəfəkkir, qayğıkeş və öhdəlikli insan ölkənin elmi hərəkətinə ümumi şəkildə baxdıqda bunları dərk edir. Lakin dərk təklikdə kifayət etmir, mühüm məsələ onun əsasında proqram hazırlamaqdır.

Mən bu fikirləri sizdən eşidəndə daha çox ümidlənir və əmin oluram ki, bu cəmiyyət, bu quruluş, bu toplum bu nəzərəçarpan maddi, mənəvi, elmi və əxlaqi hərəkətlə şübhəsiz, öz məqsədlərinə çatacaq və İslam Respublikası quruluşu qorunacaq. Məhz buna görə də qorunmuşdur.

**İran quruluşu və dünyanın kəşfiyyat-təbliğat qüvvələri**

Burada son hadisələrə toxundular. Bu sahədə söz çoxdur. Elə bilməyin ki, radio və televiziyanın dediyi sözlər bütün sözlərdir. Siz gənclər Allaha şükür ki, ayıq, istedadlısınız, tədricən çoxlu həqiqətlər sizə aydınlaşacaq. Mən görürəm ki, son siyasi hadisələrdə və bu otuz ilin bütün hadisələrində İslam Respublikası tədricən toxunulmaz, zirehli bir dövlətə çevrilmişdir. Zarafat deyil, siz dünyanın müxtəlif kəşfiyyat və təbliğat şəbəkələrinin gücünə əhəmiyyətsiz yanaşmayın. Siz Hollivuda əhəmiyyətsiz baxmayın. Xanımların birinin dediyi kimi, Qərbdə incəsənətin təsir gücünə və Qərb dünyasında təbliğat hərflərinin çox dəqiq düzülüşünə əhəmiyyətsiz yanaşmayın. Bütün bu böyük qüvvələr, üstəgəl tükənməz sərvət, böyük siyasi və təbliğat maşınları İslam Respublikasının canına düşdülər. Siz bu gün dünyada bu şəkildə hücumların hədəfinə çevrilmiş başqa bir ölkə tapa bilməzsiniz. İslam Respublikası isə müqavimət göstərməkdədir. Bu, zarafatdır?! Bu yeddiqaynaqlı, möhkəm və toxunulmaz varlıq müqavimət göstərməkdədir. Bu, kiçik iş deyil. Bizim

bu əziz gənclərimiz bunu bilsinlər. Elə bilməyin ki, mən bu sözləri eşidəndə narahat oluram. Xeyr, mən bu sözlərin deyilməməsindən narahat oluram.

**Təxribatı anlamaqda uzaqgörənlik**

Mən tələbə və universitet məclislərində hərdən görürəm ki, bəziləri nəyəsə görə - ya hörmət məqsədilə, ya hər hansı səbəbdən mənim xoşuma gəlməyəcəyini düşünüb bəzi sözləri demirlər. Mən onların deyilməməsindən narahat oluram, deyilməsindən əsla narahat olmuram. Kaş fürsət olaydı, deyiləydi, o zaman insan kitabın bağlanmış vərəqlərini açaydı və çoxlu həqiqətlər aydın olaydı. Gələcəkdə şübhəsiz ki, bu işlər görüləcək. Bu ölkəyə qarşı təxribat xəyal deyil, bir həqiqətdir; hər tərəfdə təxribat aparılır, ölkə daxilindəki əsas təxribatçı şəxsin özünün isə ümumiyyətlə, bilməməsi də mümkündür.

Bunu dərk etmək də zəka istəyir. Bəzilərində bu zəka yoxdur. Biz insanları sınadıq; kimin sazına rəqs etdiklərini anlamırlar. Lakin bu, reallığı dəyişdirmir; onlar istər bilsinlər, istər bilməsinlər, istər anlasınlar, istər anlamasınlar, hər halda, bu təxribatlar var.

**Çatışmazlıqları aradan qaldırmağın yolu**

Biz çatışmazlıqları inkar etmirik. Mən çatışmazlıqları tənqidçilərin çoxundan yaxşı bilirəm. Lakin onların aradan qaldırılmasının yolu güman edilən yollar deyil ki, çıxıb elan verək. Xeyr, çoxlu məsələlər elanla, sözlə düzəlmir, işlə düzəlir. Söz və təbliğat ajiotajı problemlərin həllinə heç bir kömək etmir; necə ki, gördünüz. Seçki təbliğatı seçkilərin başlanmasından bir ay, yaxud iyirmi gün öncədən başlayır, lakin novruz bayramından öncədən seçki təbliğatı başlandı. Bəzi dostların tənqid etdiyi televiziya da təəssüf ki, işıqlandırdı. Mən razı deyildim. Siz bunu da güman etməyin ki, Teleradio Verilişləri Şirkətinin rəisini mən təyin etidiyimdən onun bütün proqramlarını bir-bir gətirirlər və mən baxıb imzalayıram. Xeyr, mən radio və televiziyanın çoxlu proqramlarından razı deyiləm. O cümlədən, seçkilərdən üç ay öncədən, - seçkilər 22 xordadda (12 iyunda) idi - isfənd (fevral-mart) ayından, hətta ondan da tez başlayan bəzi təbliğat səfərləri, danışılan sözlər, keçirilən tədbir və mübahisələr televiziyadan yayımlandı. Təəssüf ki, televiziya azadfikirli olduğunu göstərmək üçün onları yayımladı. Bunlar xəyal, ölkə daxilində ajiotaj yaratmaqdır.

**Azad diskussiyaların zəruriliyi**

Düşüncə ajiotajı düzgün mübahisələrdən fərqli bir şeydir. Mən dedim ki, universitetlərdə azad diskussiyalar təşkil edin. Siz gənclər nə üçün təşkil etmədiniz? Tehran, Şərif, Əmir Kəbir universitetlərində azad siyasi, etiqadi debatlar keçirin. Bir neçə tələbə orada sözlərini danışsınlar, bir-birinin sözünü tənqid etsinlər, bir-biri ilə mübahisə etsinlər. Həqiqət orada özünü göstərəcək. Həqiqət birinin bir tənqidi tullaması ilə aşkarlanmır, düzgün anlaşılmır. Deyişmələrlə gərgin fikir mühiti yaratmaq ölkənin inkişafına heç bir kömək etmir. Siz bu sahədə bu qoca atanızın təcrübəsinə inanın. Ölkənin inkişafına kömək edən amil düşüncələrin həqiqi

azadlığıdır; yəni azad şəkildə düşünmək, azad şəkildə sözünü demək, hay-küydən qorxmamaq, onun-bunun həvəsləndirməsinə də baxmamaq. Bir zaman siz elə bir söz danışırsınız ki, dünyanın bütünlüklə çirkinlik və xəbislikdən ibarət siyasi müşahidəçilərinin hamısının birdən-birə sizə əl çaldığını görürsünüz. Bununla həvəslənməyin, düzgün, məntiqli mübahisə edin, bir sözü dinləyib bir sözü deyin, sonra oturub fikirləşin. Bu, Quranın göstərişidir: "Sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyan bəndələrimə müjdə ver!"[39] Sözü eşidib ən yaxşısını seçmək lazımdır. Ajiotaj yaratmağın nəticəsi isə gördüyünüz kimi olur. Seçkilərdən öncəki və sonrakı ajiotajın nəticəsi budur; xüsusən də əcnəbi əli müdaxilə etdikdə. Siz hansı dəlil və izahla düşünürsünüz ki, dünyanın təbliğat maşınları İslam Respublikası quruluşunun zərərinə olduğunu düşündükləri hadisələri anbaan nəşr edir və yayırlar?! Bu iş hansı hesabla baş verir?! Bunu düşünmək lazım deyil?! Bunun üzərində araşdırma aparmaq lazım deyil?! Diqqət yetirməsi vacib məsələlər bunlardır.

**Düşüncələrin dərinliyi və ölkələrin mədəniyyətində inkişaf**

Hər halda, ölkə irəliləməkdədir. Buna şübhəniz olmasın. Keçmiş proqramların da şübhəsiz, nöqsanları olmuşdur. Lakin bütün müsbət və mənfi cəhətlərin yekun nəticəsi bu gün sizin müşahidə etdiyinizdir. Bizim gənclərimiz elmi, siyasi görüş, dini təfəkkürlərin düşüncələrə nüfuzu baxımından irəliləmişlər. Bu gün bizim gənclərimizin burada mənəviyyat, din, qərblilərin proqnoz və proqramlarına könül verməmək və müstəqillik barədə dedikləri sözlər bir az öncə ziyalıların dəyərli sözlərindən idi. Onlar düşünürdülər ki, bu sözləri deməli, yaxud anlamalıdırlar. Amma bu gün bizim cəmiyyətimizdə geniş yayılmış mədəniyyət olmuşdur. Bu, inkişaf deyil?! Biz inkişaf etməkdəyik. Təbii ki, düşmənimiz və maneələr çoxdur. Əgər maneə olmasaydı, biz belə peşəkar olmazdıq, İslam cəmiyyəti və İslam Respublikası belə bişməzdi. Maneə vardır. Düz yerdə yol getmək əzələləri gücləndirmir, dağa çıxmaq, maneələrdən qalxmaq lazımdır. Bizim cəmiyyətimiz bu işi görmüş, bu yolu getmişdir, yenə də gedəcək. Siz bilin ki, bugünkü gənc nəslin önünü kəsmək mümkün deyil.

**Ölkənin inkişaf və iqtidarının sirri**

Mən burada sizə tövsiyə edirəm: Bir ölkənin qüdrətli inkişaf sirri, yəni iqtidarı üçün əsas amil elmdir. İslam Respublikası əleyhinə olan bugünkü təxribatların bir çoxunun hədəfi elm, elm adamı, tələbələr və elm ocaqlarıdır. Bunu diqqətdə saxlayın, bu oxun düşmənin seçdiyi hədəfə dəyməsinə qoymayın, elmi işin dayanmasına imkan verməyin. Danışılan bütün bu sözlərdən ən mühümü elm və tədqiqat məsələsidir. Qərb dünyasının sərvəti, qüdrəti, bu gün etdiyi hegemonluğu elmə görədir. Pul öz-özlüyündə iqtidar gətirmir, iqtidar amili bilikdir. Əgər bu gün ABŞ özünün elmi inkişafına malik olmasaydı, dünyada belə hegemonluq edə və bütün işlərə qarışa bilməzdi. Sərvət də elmdən yaranır. Elmə əhəmiyyətli yanaşın. Mənim illərdir elm, tədqiqat, inkişaf, yenilik və elmin indiki sərhədlərini aşmaq

üzərində təkidim bundan ötrüdür. Müxtəlif elmlər olmadan ölkənin iqtidarı mümkün olan deyil. Elm qüdrət amilidir.

**Elm – qüdrət və mühafizə**

Dedilər ki, İranın nüvə mərkəzlərini bombalayın. Dünyanın yüksək rütbəli məmurlarından biri - indi adını çəkmək istəmirəm, hamı bilir, bəlkə də bilirsiniz, hər yerdə yayımlanıb; mən bəzilərinin adını çəkməyi sevmirəm - dedi ki, elmi bombalamaq olmaz. Doğru deyir, haqlıdır. Dedikləri bütün səhv sözlərə rəğmən, bu sözləri düzgündür. Tutaq ki, Nətənzi bombaladınız, İsfahan zavodunu bombaladınız, elmi necə bombalayacaqsınız?! Baxın, elm mühafizə yaradır, qüdrət yaradır. Ehtiyatlı olun ki, sizin universitetinizdə, sinfinizdə, tədqiqat mərkəzinizdə, araşdırma işinizdə əngəl yaratmasınlar. Kimin əngəl yaratdığını görsəniz, ona bədbin olun. Sizin iqtidarınızı, gələcəyinizi hədəf seçmişlər.

**Elm və incəsənət müstəqilliyi**

İndi mənim xüsusən siz gənclərə çoxlu sözüm var. Sənət adamı olan bu xanımın dediyi məsələ çox mühüm məsələdir. Bəzi şəxslər gedib Qərb bazarlarının məsələn, rəsm əsərinə ehtiyacını öyrənir, sonra buraya gəlib maliyyə yardımı alır və bizim rəssamımızı o ehtiyacı təmin etməyə sövq edirlər. Film sahəsində də eynilə belədir. Onların istəyi istiqamətində olan filmləri festivallara namizəd edirlər. Bizim elmi işimizdə, ISI-də çap olunan məqalədə, sizin tədqiqat mərkəzində işlədiyiniz tədqiqat mövzusunda da eynilə belədir. Bu gün təəssüf ki, geniş yayılmış Avropa sözü ilə desək, sponsorlar müxtəlif sahələrə maliyyə köməkləri, maddi yardım və ianələr ayırır və o istiqamətdə iş gördürürlər. Buna diqqət yetirin. Ölkənin elmi müstəqilliyinə lazım olanlardan biri budur: elmi hərəkət, incəsənət hərəkəti və təbii ki, siyasi hərəkət müstəqilliyi. Bəzi siyasi hərəkətlər də belədir.

**Yüksək istedad nemətinin şükrü**

Sizdə olan yüksək istedad neməti böyük bir nemətdir. Sağlamlıq və həyat nemətləri kimi onun üçün də şükür etmək lazımdır. Nemətlər Allahdandır, bu nemətlərin şükrünü etməlisiniz. Bu tövsiyəni yadda saxlayın. Biz çoxlu nemətləri tanımırıq, əlimizdən çıxanda tanıyırıq. Gənclik nemətdir; insan qocaldıqda onun necə böyük nemət olduğunu daha yaxşı anlayır. Yüksək istedad böyük nemətdir. Bu nemətin şükrünü etmək lazımdır. Şükrün isə üç hissəsi var: biri neməti tanımaq, nemətdən xəbərsiz olmamaqdır, ikincisi onun Allahdan gəldiyini və ilahi hədiyyə olduğunu bilmək, üçüncüsü isə düzgün yolda işlətməkdir. Yaxşı istedad nemətini düzgün istiqamətdə işlətmək lazımdır. Bu, insanda öz cəmiyyətinə, ölkəsinin gələcəyinə qarşı öhdəlik, məsuliyyət ruhu oyadan amildir. Bu nemətin şükrü belədir. İnsan özünü cəmiyyətdən ayrı bir ada hesab etməməlidir ki, bir imkana və bir mənəvi sərvətə nail olduğunu düşünsün, bunu maddi və şəxsi sərvətə çevirsin. Belə deyil. Bunu ölkənin gələcəyinə sərf etməlidir.

**Məmurlara tövsiyə**

Məmurlara da bir tövsiyə verim. Bu da ilk növbədə şükürdür; elmi istedadlar nemətinin şükrü. Burada da şükrün sözügedən üç hissəsi var. Əvvəl elmi nümunələri tanıyaq, sonra bilək ki, bu nümunələr ilahi nemətlərdir, bunu bizə və dövlətimizə Allah verib və sonra bu dəyərli, möhtərəm və əziz istedadlardan düzgün yollarda istifadə edək.

**Həqiqətləri bəyan etməkdə sənətkarlıq**

İndi isə bu əziz gəncimizin dediyi bir neçə cümlə barədə danışmaq istəyirəm. Qeyd etdiyimiz kimi, söz çoxdur. Bir qurumun, yaxud bir şəxsin insafsızlığını tənqid edərkən özümüz də insafsızlığa yol verməməliyik. Buna diqqət yetirək. Radio və televiziya ölkənin real vəziyyətini tam nümayiş etdirmir, yarımçıq göstərir. Radio və televiziya çoxlu dəyərli və böyük inkişafları göstərmir. Dəlili də budur ki, müxtəlif hadisələrlə əlaqədə olan sizlər ölkənin çoxlu həqiqətlərindən, inkişaflarından xəbərdar deyilsiniz. Bu bizim radio və televiziyamızın nöqsanıdır. Əgər ölkə reallıqlarını düzgün əks etdirə bilsəydi, bu gün gənc nəslin ölkəsinə, dininə və İslam Respublikası quruluşuna ümidi və vurğunluğu indikindən dəfələrlə artıq olardı. Bu bizim radio və televiziyaya bildirdiyimiz iraddır. Əgər ölkənin vəziyyətini düzgün əks etdirə bilsəydi, tamaşaçıların həvəsi və sevinci bu gün olandan dəfələrlə artıq olardı. Sevincə və razılığa səbəb olan çoxlu işlər görülməkdədir. Yalnız elmi sahələrdə yox, ictimai və siyasi sahələrdə də belədir, başucalığına səbəbdir. Bunu çoxları - yəni əksəriyyət bilmir. Mənim çox vaxt dövlət məmurlarına etirazım budur ki, siz nə üçün bəyan edə bilmirsiniz. Bəyan etmək də bir məharətdir. Xüsusən sənətkarcasına bəyan etmək böyük hünərdir. Bunu bacarmırlar.

**Sözdə və əməldə insaf**

Bizim adətən, bəzilərinə etirazlarımızdan biri budur ki, əcnəbinin sözünü qəbul edir, doğmanın dediyinə isə tərəddüdlə yanaşırlar. Nə üçün? Bu, sağlam yanaşma deyil. Bunu islah etmək lazımdır. Siz yaxşı gənclər inşallah, gəlib müxtəlif vəzifələri tutun və ölkənin təbliğat işini idarə edin. Bizim mətbuatımız da belədir. Mən hər gün adətən, təxminən 16-17 qəzetə baxıram. Bütün səhifələrinə baxmıram, lakin manşetlərə və mühüm baş məqalələrə baxıram. Bizim qəzetlərimizin çoxu təəssüf ki, hadisələri işıqlandırmaqda zəifdirlər, məsələləri əhəmiyyət baxımından dərəcələrə bölməkdə insafsızlıq edirlər. Bu son məsələləri birinci-ikinci dərəcələrə bölmək lazımdır. Birinci dərəcəli və onun kənarında ikinci dərəcəli məsələlər var. Bu o demək deyil ki, ikinci dərəcəli məsələlərin əhəmiyyəti azdır. Xeyr, az deyil, amma birinci dərəcəli məsələnin əhəmiyyəti daha artıqdır. Son hadisələrdə birinci dərəcəli məsələ seçkilərin özü idi. Seçkiləri sual altına salmaq ən böyük cinayətdir. Siz nə üçün bu cinayətə göz yumursunuz?! Bu qədər zəhmət çəkilir, xalq gəlib belə möhtəşəm formada iştirak edir, dünyanın bu qədər iddia etdiyi demokratiyada rekordu yeniləyir. Sonra seçkilərin ertəsi günü bir qrup adam dəlilsiz-filansız deyir ki, seçkilər saxtadır. Bu, kiçik işdir?! Bu, kiçik cinayətdir?! Bu məsələlərdə bir qədər insaflı olmaq

lazımdır. Düşmən də bundan maksimum istifadə etdi. Ölkə daxilində də əvvəldən İslam Respublikası quruluşu ilə müvafiq olmayan bir qrup var; bu günün-dünənin məsələsi deyil, otuz ildir müvafiq deyillər. Onlar bu fürsətdən istifadə etdilər. Gördülər ki, quruluşun özünə bağlı və quruluşun özündən olan qüvvələr belə meydan sulayırlar. Onlar da fürsəti fövtə vermədilər, ortaya çıxdılar və gördünüz. Mən birinci gün bunu bu hadisələrin rejissorları olan həzrətlərə xəbər verdim. Mən ilk saatlarda onlara xüsusi xəbər yolladım. Mən cümə namazında bir söz deyirəmsə, bu, birinci dəfəsi deyil; xüsusi tərzdə deyilir, xüsusi mesaj göndərilir, lazımi nəsihət edilir, çarəsiz qaldıqda isə aşkarda söylənir. Mən xəbər göndərib dedim ki, bunu siz başlayırsınız, lakin sona qədər nəzarətdə saxlaya bilməyəcəksiniz, digərləri sui-istifadə edəcəklər. İndi gördünüz ki, gəldilər və sui-istifadə etdilər. “İsrailə ölüm”, “Amerikaya ölüm” şüarları üzərindən xətt çəkdilər. Bunun mənası nədir? Siyasətə qoşulan şəxs mahir bir şahmatçı kimi hər bir gediş etdikdə ondan sonrakı üç-dörd gedişi öncədən görməlidir. Bir gediş edərkən rəqibin hansı gediş edəcəyini düşünməlisən. Əgər ikinci gedişdə aciz qalacaqsansa, bu gün bu gedişi etmə. Əgər etsən, naşısan; yaxşı ifadəsi budur: bu işdə, bu oyunda, bu gedişdə naşısan, nabələdsən. Bunlar nə etdiklərini anlamırlar. Bir gediş edirlər və diqqət yetirmirlər ki, sonrakı gedişlərdə necə aciz qalacaq, mat olacaqlar. Bunları hesablamalı idilər. Əsas məsələ bu idi: seçkilərin sual altına salınması, heç bir pis niyyəti olmadan seçkilərə qoşulan və əqidəsinə uyğun olaraq çox yaxşı rəftar edən xalqın bir hissəsini dövlətlə, ölkənin ümumi hərəkəti ilə üz-üzə qoymaq. Bunlar kiçik işlər deyil. Əgər siz insaflısınızsa, ikinci dərəcəli hərəkət və hadisələri də görün, əhəmiyyətini nəzərə alın, lakin bunun daha mühüm olmasını diqqətdən qaçırmayın.

Sizinlə belə məclislərdə elm, mənəviyyat və nəsihətdən başqa bir mövzuda danışmağa və siyasi məsələlərə toxunmağa heyfim gəlir. Amma indi bir qədər məcbur oldum. Həm də dedilər ki, rəhbəri tənqid etmirlər. Siz gedin deyin tənqid etsinlər. Biz demədik ki, kimsə bizi tənqid etməsin. Bizim etirazımız yoxdur. Mən tənqidi yaxşı qarşılayıram. Təbii ki, tənqid də edirlər. İndi daha bunun izahının yeri deyil. Tənqid var və az da deyil, çoxdur. Mən də alır və tənqidləri anlayıram.

Ümidvarıq Allah-Taala bizim hamımızı Onun razılığı olan, razılığını təmin edən istiqamətə yönəltsin və hamınızın gələcəyini keçmişinizdən yaxşı etsin! Sizi ölkənizin başucalığına səbəbkar etsin! Siz gəncsiniz və o günü görəcəksiniz. İnşallah, bizi də yaxşı adla yad edəcəksiniz və ölkəniz qüdrətin zirvəsinə çatacaq.

Allahın salamı və rəhməti olsun sizə!

## İnqilabın mübarizəsi və gənclərin vəzifəsi[40]

Bismillahir-Rəhmanir-Rəhim.

Siz əziz gənclərin, tələbələrin, şagirdlərin və hörmətli şəhid ailələrinin hamısına xoşgəldin deyirəm.

**13 Aban - qlobal hegemonizmə qarşı mübarizə günü**

13 Aban (4 noyabr) gününə bizim xalqımız, məmurlarımız ad qoydular: Qlobal Hegemonizmə qarşı Milli Mübarizə Günü. Mübarizə mühüm və mürəkkəb işdir. Hər bir məsələyə qarşı bir növ mübarizə aparmaq olar; sərhədlərdən ölkəyə hücum edən düşmənə qarşı bir növ mübarizə aparılmalıdır, düşmən kəşfiyyatına qarşı bir növ, bir cəmiyyətin, bir ölkənin əsasını təhdid edən, bir xalqa qarşı qatı düşmənçilik edən düşmənə qarşı da bir növ.

**Düzgün və qətiyyətli mübarizənin şərtləri**

Düzgün, məntiqli və eyni zamanda qətiyyətli mübarizənin bir neçə şərti var: Biri imandan qaynaqlanan maraqdır. Bir xalqı və gəncləri əmrlə ağır bir müqavimətə vadar etmək olmaz; ürəkdən, özü də imandan qaynaqlanan maraq olmalıdır. Bu bizim gənclərimizdə bu gün yetərincə mövcuddur. Mən məlumat əsasında, gənc nəslimizlə tanışlığa görə deyirəm: Bu gün bizim gənclərimizin uyğun maraqları ABŞ-ın muzduru olan Pəhləvi rejiminin 79-cu ildə bu küçələrdə gənclərimizə hücum etdiyi və qanlarını tökdüyü zamandan az deyil, daha artıqdır.

**Gəncin ayıq zehni və inqilabın məqsədləri**

Bu gün bizim gənclərimizin maraqları bir qrup gəncin inqilab əleyhinə təxribatların mərkəzi olan ABŞ səfirliyini tutduğu zamandan çox olmasa da, az deyil. Səbəb də aydındır. Çünki bu xalqın tarixinə otuzillik təcrübə əlavə olunmuşdur. Gəncin ayıq zehni və açıq gözü o günləri görməsə də, bu təcrübələri götürür. Bir xalqın təcrübələri nəsil-nəsil zənginləşir, dərinləşir və daha effektiv olur. Deməli, maraq baxımından bugünkü gənclərimizin çatışmazlığı yoxdur. Müxtəlif dəlillərə görə rahat həyatı və sülhü tərcih edən, yaxud düşmənin havasına oynamağı eyib bilməyən bir qrup yorğun və peşman inqilabçıdan başqa ölkə gəncliyində və əksəriyyətini gənclərin təşkil etdiyi xalqda bu dərin maraq var. Əgər bu gün ölkəmizdə səksəninci ildə baş verən məcburi müharibə kimi bir hadisə baş versə, gənclərin cəbhəyə getməsi, düşmənlə üz-üzə gəlmək üçün könüllülüyü 80 və 81-ci ildən dəfələrlə çox olacaq.

**Ayıqlıq**

Başqa bir vacib amil ayıqlıqdır. Mən gənclərlə, tələbələrlə və xalqın müxtəlif təbəqələri ilə görüşdə müntəzəm olaraq ayıqlıq üzərində təkid göstəririrəm. Bu ona görədir ki, dünyanın bugünkü çox mühüm vəziyyətində və bizim əziz ölkəmizin dünyadakı üstün və müstəsna mövqeyində hər bir ümumi hərəkətin ümumi bir ayıqlığa ehtiyacı var. Əlbəttə, bunu da deyim: bu gün gənclərimizin ayıqlığı da inqilabın əvvəlindəki və inqilab ərəfəsindəki gənclərdən şübhəsiz, artıqdır. Siz bu gün çox şey bilirsiniz. Bu gün çox şey sizin üçün aydın məsələlərdəndir, lakin o zaman gənclərə izah etməli və danışmalı idik. Bu gün bizim gənclərimiz bunları bilirlər, ayıqlıq səviyyəsi yüksəkdir. Eyni zamanda mən ayıqlıq üzərində israrlıyam.

**Hegemonizm nədir?**

Ayıqlığın birinci işi mübarizə aparmağın lazım olduğu hegemonizmin mənasını bilməkdir. Hegemonizm dünyada güc mərkəzidir. Onlar özlərinə baxıb pul, silah və təbliğat imkanlarına malik olduqlarını görür və bu səbəbdən digər ölkələrin işlərinə amiranə müdaxiləni öz haqları bilirlər. Hegemonizmin mənası budur. İnqilabdan öncə ABŞ hegemoncasına bu böyük ölkəyə, zəngin tarixə malik olan bu böyük xalqa pəncə atmışdı, ölkəmizin mühüm və əsaslı işlərinə müdaxilə edirdi. Səbəb də bu idi ki, ölkənin başçıları fəsada uğramışdılar, xalq arasında yerləri yox idi, dayaq axtarır və ABŞ-a söykənirdilər. ABŞ da heç kəsə havayı bir şey vermir; onları dəstəkləməyi ölkələrinin işlərinə tam müdaxiləyə qarşılıq etmişdi. Sizin üçün bəlkə də təəccüblü olar, amma bilin ki, Şah Məhəmmədrza bir Baş naziri işdən çıxarıb başqasını təyin etmək üçün ABŞ-a gedib iki-üç həftə orada qalmağa və onların razılığını qazanmağa məcbur olurdu. Bizim ölkəmizin vəziyyəti bu həddə çatmışdı. Pəhləvi hakimiyyətinin son illərində bundan da pis olmuşdu, daha ABŞ-a getmək söhbəti yox idi. ABŞ və İngiltərənin səfirləri burada şahın sarayına gedir və ona deyirdilər ki, neft işində belə edin, beynəlxalq münasibətlərdə belə edin, xalqla belə rəftar edin, mübarizlərlə belə rəftar edin; əmr edirdilər, şah da qəbul edirdi. Bir dövlət başçısı əcnəbilər qarşısında bu qədər zəif, zəbun və müti olduqda digərlərinin vəziyyəti bəllidir. Bizdə belə idi.

**Hegemonizm və hərbi bazalar**

ABŞ tam bir hegemondur. Bu yalnız bizim sözümüz deyil, bütün dünyanın və İslam dünyasının sözüdür. Amerikalılar bütün dünyaya qarşı hegemon ruha malikdirlər. İkinci dünya müharibəsində Yaponiyanı məğlub etdikdən sonra orada hərbi baza yaratdılar. Bu baza hələ də durur. Yaponlar bütün bu elmi inkişaflarla yanaşı hələ Amerikanın bazasını ölkələrindən çıxara bilməyiblər. Orada hərbi bazası var, xalqa zülm edirlər, əziyyət verirlər, qəzetlərə də çıxır, xəbər agentliklərində də deyirlər; zorlama və digər əməllər törədirlər, amma hələ də oradadırlar. Cənubi Koreyada da Amerikanın hərbi bazaları var. İraqda Amerikanın planı budur ki, baza qursun və 50-100 il orada qalsın; Əfqanıstanda da həmçinin. Əfqanıstan elə bir yerdir ki, orada hərbi bazaları olsa, Cənub-Qərbi Asiya ölkələrinə, Rusiyaya, Çinə, Hindistana, Pakistana və İrana nəzarət edə bilərlər. Onlar orada daimi qalmaq üçün bütün səylərini göstərirlər. Hegemonizmin mənası budur.

**İran inqilabı və hegemonizmin təxribatları**

İran xalqı ABŞ-ın muzdur rejimini devirib ölkədən qovdu. Amerikalılar inqilabdan dərhal sonra özlərinə gəlib görə bilərdilər ki, bu xalq belə güclüdür, Şərqin və Qərbin dəstəklədiyi bir rejimi yerindən qopara, 2500 illik tarixə malik bir şahlığı devirib tullaya bilir. Onlar İran xalqından üzr istəyə, xalqımıza vurduqları ziyanları imkan həddində aradan qaldıra bilərdilər. Əgər bu işi görsəydilər, İranla problemləri həll olunardı. Baxmayaraq ki, İslam Respublikası hələ də İslam dünyasına edilən zülmlərə görə etirazçı qalardı, lakin onlarla İslam Respublikası və İran xalqı arasında olan bu güclü ədavət bu formada olmazdı. Amma onlar bu işi görmədilər. Onlar nə üzr istədilər, nə şah üsul-idarəsinin süqutundan ibrət aldılar, hətta ilk aylardan düşmənliyə başladılar, səfirlikləri İslam Respublikasını çökdürmək və məğlub etmək üçün təxribat mərkəzi, casus yuvası, onu-bunu təhrik etmək üçün şübhəli əlaqələr mərkəzi oldu. Amerikalılar bu böyük səhvi, sonra da İslam Respublikasına, bizim əziz xalqımıza və ölkəmizə qarşı bacardıqlarını etdilər. Onun bir nümunəsi Təbəsə hücumdur; bir nümunəsi Fars körfəzində üç yüzə yaxın insanın ölümünə səbəb olan sərnişin təyyarəmizi vurmalarıdır; sərnişin təyyarəsini vurub suya saldılar. Bir nümunəsi bizim neft platformalarımıza hücumdur; Reyqanın dövründə Fars körfəzindəki neft platformalarımıza hücum etdilər. Bir nümunəsi xəbis Səddama hərtərəfli yardımlardır; müharibədə onu qalib etmək və İslam Respublikasına zərbə vurmaq istəyirdilər. Əgər ABŞ-ın cinayətlərinə dair bu növ işlərin listini yazsaq, bir kitab olar. Bir dəfə ABŞ-ın Müdafiə nazirlərindən biri onların ürək sözünü dedi; dedi ki, biz İran xalqının kökünü kəsməliyik. Diqqət yetirirsiniz?! İran hökumətinin, İslam Respublikasının yox, İran xalqının. O düzgün anlamışdı ki, İslam Respublikası xalqdır, İslam Respublikasının məmurları bütün İran xalqıdır. Amerikalıların üsulu belədir. Onlar əllərindən gələn hər bir işi gördülər.

**İmam ABŞ-ın qarşısında**

Tarixin həqiqətən, müstəsna şəxsiyyəti olan Böyük İmamımız bunların hamısının qarşısında dedi: “Nə qədər təxribat hazırlasanız, öz zərərinizə olacaq. İslam Respublikası geri çəkilməyəcək və Amerika heç bir qələt edə bilməyəcək”. İslam Respublikası heç bir dövlətdən utanıb-çəkinmir, əli ölkənin böyük maddi və insani qaynaqlarından kəsilən və bacardığı qədər təxribat aparan isə ABŞ dövləti idi. ABŞ dövləti İslam Respublikası quruluşu və İran xalqı əleyhinə otuz il təxribat aparmış, zərbə vurmuş, müxtəlif tədbirlər düşünmüş və bacardığı hər bir işi görmüşdür. Elə bir iş yoxdur ki, siz amerikalıların bacardığını, lakin etmədiyini düşünəsiniz. Onlar mümkün olan hər bir işi görmüşlər. İndi görürsünüz ki, bu qarşıdurmanın nəticəsi İran xalqının daha artıq çiçəklənməsi, İslam Respublikasının daha artıq inkişafı, bu ölkənin və quruluşun günbəgün güclənməsi olmuşdur, ziyan çəkən isə onlardır. Bu müddətdə hərdən zahirən barışıqçı olan bəzi sözlər də dedilər, amma nə zaman İslam Respublikası məmurlarının üzünə təbəssüm etdilərsə, diqqət edəndə arxalarında bir xəncər gizlətdiklərini, təhdiddən əl çəkmədiklərini və niyyətlərinin

dəyişmədiyini gördük. Taktiki gülüş, təbəssüm və gülərüzlülük isə yalnız uşaqları aldadır. Bu qədər təcrübəli olan böyük bir xalq və belə bir xalqın seçilmiş məmurları aldansalar, gərək çox sadəlövh olsunlar; ya gərək sadəlövh olsunlar, ya da nəfslərinin əsiri olub rahat, xoş və sağlam həyat arzulasınlar, düşmənlə razılaşmaq istəsinlər. Əks təqdirdə, yəni dövlət məmurları sayıq, diqqətli, təcrübəli və püxtələşmiş olsalar, bütün varlıqları ilə xalqın mənafeyinə könül versələr, təbəssümə aldanmazlar. Amerikanın bu yeni prezidenti gözəl sözlər dedi, bizə də bir-birinin ardınca şifahi və yazılı xəbərlər yolladı ki, gəlin səhifəni çevirək, gəlin yeni vəziyyət düzəldək, gəlin dünya problemlərinin həllində bir-birimizlə əməkdaşlıq edək - hətta bu həddə. Biz də dedik ki, öncədən mühakimə yürütmürük, biz əmələ baxacağıq. Dedilər ki, dəyişiklik yaratmaq istəyirik. Dedik ki, çox gözəl, dəyişikliyi görək. Fərvərdin ayının birində (21 martda) Məşhəddəki çıxışımda dedim ki, əgər dəmir pəncə üzərindən məxmər əlcək geyib əlinizi uzatsanız, biz əlimizi uzatmayacağıq. Mən orada bu xəbərdarlığı etdim. İndi səkkiz ay ötür. Bu səkkiz ayda bizim gördüyümüz bunların dildə bildirdiklərinin əksi olmuşdur. Məsələnin zahiri budur ki, gəlin müzakirə aparaq, lakin müzakirənin kənarında təhdid var: əgər müzakirə filan ideal nəticəyə çatmasa, belə olsun, elə olsun. Bu, müzakirədir?! Bu, canavar və siçan münasibətidir. İmam dedi ki, canavar və siçan münasibətini istəmirik. Gəlin bizimlə bir stol arxasında oturub hansısa mövzu, məsələn, nüvə məsələsi barədə müzakirə aparın, lakin şərti bu olsun ki, bu müzakirə müəyyən nəticəyə çatsın, məsələn, ölkə nüvə fəaliyyətindən əl çəksin; əgər bu nəticəyə çatmasa, belə olsun, elə olsun?! Bu, təhdiddir.

### İslam Respublikası və dünyanın supergücləri

Mən təəccüb edirəm ki, nə üçün keçmişdən ibrət almırlar, nə üçün xalqımızı tanımaq istəmirlər. Məgər bilmirlər ki, bu xalq dünyada iki böyük gücün olduğu və yalnız İslam Respublikası ilə düşmənlikdən başqa təxminən bütün məsələlərdə bir-birinə müxalif olduqları zaman onların qarşısında duruş gətirmiş və hər ikisini diz çökdürmüş xalqdır?! Siz nə üçün ibrət almırsınız?! Siz indi ozamankı kimi qüdrətli deyilsiniz, İslam Respublikası isə ozamankından dəfələrlə qüdrətlidir, amma yenə bu dillə danışırsınız. Hegemonizm budur: bir xalqla təkəbbürlü mövqedən danışmaq, təhdidlə işlərini görmək; “əgər elə etməsəniz, belə olacaq”. Bizim xalqımız da deyir ki, biz müqavimət göstərəcəyik. İslam Respublikasının istədiyi onun məntiqli hüququndan artıq deyil. İslam Respublikası öz müstəqilliyini, azadlığını, özünün milli maraqlarını, ölkədə elm və texnologiyanın inkişafını istəyir. Bunlar bu xalqın hüquqlarıdır. Kim bu hüquqa əl uzatsa, İran xalqı bütün vücudu ilə qarşısında dayanacaq və onu diz çökürdəcək.

### ABŞ-ın tamahkarlığı və İranın mövqeyi

ABŞ hegemonluqdan, xalqların işlərinə yersiz müdaxilələrdən əl çəkəcəyi və digər dövlətlər kimi bir dövlət olacağı gün bizim üçün digər dövlətlər kimi bir dövlət olacaq. Amma nə qədər ki hələ də İrana qayıtmaq, keçən günləri qaytarmaq, tarixi dəyişdirmək və zamanı geri qaytarmaq tamahındadırlar, bizim ölkəyə hakim olmaq

istəyirlər, bizim xalqımızı heç bir vasitə ilə geri çəkilməyə vadar edə bilməyəcəklər; bunu bilsinlər. Seçkilərdən sonra baş verən hadisələrlə könüllərini xoş etməsinlər. İslam Respublikası bu məsələlərdən güclü, dərin və köklüdür. İslam Respublikası olduqca daha ağır hadisələrlə üzləşmiş və hamısına üstün gəlmişdir. Ya sadəlövh, ya pis və çirkin niyyəti olan, ya da o qədər də pis niyyəti olmayan, lakin sadəlövhlük edən və məsələləri səhv anlayan üç-dörd nəfər İslam Respublikasına qarşı çıxmışdır. Bunlar bizim ölkəmizdə ABŞ üçün qırmızı xalça sərə bilməzlər. Bunu bilsinlər ki, İran xalqı möhkəm dayanmışdır.

**Gənclərin ölkə qarşısında vəzifəsi**

Əziz gənclər! Bu ölkə, bu tarix sizinkidir. Bizim işimiz bitdi. Bizim nəslimiz və bizə bənzər toplum bildiyi və Allahın nəsib etdiyi işləri gördü. Bu gün ölkə sizə təhvil verilir, sizinkidir; həm bu gün sizə məxsusdur, həm sabah. Möhkəm iradənizlə ölkəni möhkəm qorumalısınız. Bu ölkə sizin dini inancınızdan qaynaqlanan möhkəm iradə və əzmkarlığınızla günbəgün daha qüdrətli ola bilər. Ölkənizi elə həddə çatdırmalısınız ki, heç kim onu hədələməyə cürət etməsin. Bu, sizin iradə və əzmkarlığınız sayəsində baş verəcək.

**Gənclər, elmi vəzifə və dini maraq**

Gənclər elmlə məşğul olmalıdırlar. Mən dəfələrlə demişəm, yenə də təkrar edirəm ki, bir xalqın həqiqi iqtidarı elmdən asılıdır. Digər iqtidar amillərini ölkəyə bəxş edən elmdir. Elmi unutmayın; istər şagirdiniz, istər tələbəniz və hansı dərəcədə olursunuzsa-olun. Elm və tədqiqat məsələsi dini marağın kənarında mühüm məsələdir. Din çox dəyərlidir. Din yalnız axirəti abadlaşdırmaq üçün deyil. Din sizin dünyanızı da abadlaşdırır. Din sizə həvəs, fəallıq, təravət və yenilik bəxş edir. Din sizə bu rihiyyəni bəxş edir ki, bütün bu maddi güclər gözünüzdə kiçik, dəyərsiz olsunlar, onların təhdid və əməlləri sizə təsir etməsin. Bilin ki, qələbə sizinlədir, ilahi yardım sizinlədir. Təhdid edən supergüclərin, hegemon və təhdid mərkəzlərinin qüdrətli və imanlı bir xalq qarşısında geri çəkilməkdən başqa yolları yoxdur. Allah-Taalaya etimad edin, Ona nikbin olun. Allah təkidlə buyurur: "Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!"[41] Şəksiz və şübhəsiz, Allah-Taala Onun dininə və məqsədlərinə kömək edənlərə kömək edəcək. Bu, doğru sözdur, düzgün vəddir. Buna güvənin və qüdrətlə, yetərli əzmkarlıqla, mənəvi paklıqla, həm elmi və həm əxlaqi baxımdan özünüzü islah etməklə irəliləyin. İnşallah, sizin zəhmətləriniz sayəsində ölkəniz şöhrət və qüdrət zirvəsinə ucalacaq.

Ümidvarıq Allah-Taala sizin hamınızı salamat etsin, sizə yardım etsin, o şirin və işıqlı günləri inşallah, hamınız görəsiniz!

Allahın salamı və rəhməti olsun sizə!

# İnqilab, milli iqtidar və universitetlərdə mədəni fəaliyyətlər[42]

Bismillahir-Rəhmanir-Rəhim.

Cənab Doktor Rəhbərin təklif etdiyi fəxri doktorluq barədə bir cümlə deyək. Bəli, bu universitetin bizə bu sevgini bildirməsi bir fəxrdir, lakin mən doktorluq adamı deyiləm. Bizim hövzə tələbəsi olmağımız yetər. Əgər hövzə əhdinə sadiq qalmağı bacarsaq, - biz yeniyetməlik və gənclik çağında Allah-Taala ilə bu əhdi bağlamışıq - mən bunu tərcih edərəm. Siz lütf göstərdiniz və bu bizim üçün fəxrdir, lakin mən sizin təklifinizi qəbul etmirəm. İnşallah, müvəffəq olasınız.

**Xalqlar qarşısında missiyamız**

Bir neçə məsələ haqqında danışaq. Əlbəttə, bunlar sizin bildiyiniz, özünüzün fikir sahibi olduğunuz və mənim də illərdir üzərində dayandığım məsələlərdir. Lakin geridə olduğumuza görə daha artıq işləməliyik. Gərək geridə olduğumuzu etiraf edək. Bizim ölkəmiz, inqilabımız, İslam Respublikası quruluşumuz bugünkü dünyada sıradan bir xalq və dövlət deyil. Əlbəttə, mən bir dəfə bir yerdə dedim ki, bizim torpağımız dünya ölkələrinin, əhalimizin sayı da dünya əhalisinin təxminən yüzdə biri qədərdir. Lakin müxtəlif məsələlərdə bizim işimiz yüzdə birə qane olmaq deyil. Bizim missiyamız var. Müsəlman İranın bunlardan böyük missiyası var. Təbii ki, haranısa zəbt etmək fikrimiz yoxdur; heç zaman və əsla. Müsəlman olan şəxsin əsla təsəvvürünə gəlməz ki, haranısa tutsun. Lakin məsələ bəşəriyyət qarşısında missiya məsələsidir. Bəşəriyyət bu gün ağır durumdadır. Bizim öz ailəmiz, şəhərimiz, vətənimiz qarşısında məsuliyyətlərimiz olduğu kimi, bəşəriyyət qarşısında da məsuliyyətlərimiz var. Əgər biz dünyada xalqın batil və təzyiq dolu bir siyasi sistemdə yaşadığını görsək, onları bu sistemdən qurtuluşa bir addım yaxınlaşdıra bilsək, amma yaxınlaşdırmasaq, günah etmiş olarıq. Əgər biz dünya əhalisinin mühüm bir hissəsinin aclıq çəkdiyini, fəlakətli yoxsulluğa düçar olduğunu görüb bir iş görə bilsək, amma görməsək, günah etmiş olarıq. Bəşəriyyət və dünya məsələlərinə bu baxışla baxmaq lazımdır. Əgər belədirsə, ölkə qüdrətli olmalıdır; gərək xalq və hökumət, quruluş və ölkə güclü, qüdrətli olsun. Əgər qüdrətli olmasaq, dünya qüdrətliləri bizə təsir göstərəcəklər, nəinki bütün bəşəriyyətə, heç öz qonşularımıza, yaxud məsləkdaşlarımıza da təsir imkanımız qalmayacaq. Deməli, güclənmək lazımdır. Bu güc şübhəsiz, hərbi texnikalarda deyil, hətta texnoloji inkişafda və istehsal gücündə də deyil.

**Milli güc yaratmağın şərtləri**

Milli güc yaratmaq üçün mənim fikrimcə, birinci dərəcəli əhəmiyyətə malik olan iki amil var: biri elm, biri iman. Elm güc amilidir; həm bu gün, həm də tarix boyu.

Gələcəkdə də belə olacaq. Elmin özü qüdrət amilidir, sərvət, hərbi və siyasi güc yaradandır. Bir hədisdə buyurulur: “Elm qüdrətdir; kim ona malik olsa, üstün gələcək və kim malik olmasa, ona üstün gələcəklər”.[43] Yəni məsələnin iki tərəfi var. Əgər elmli olsanız, üstün sözü deyə bilərsiniz, elminiz olmasa, orta hədd yoxdur, üstün əl sizin üzərinizə qoyulacaq; müqəddəratınıza, taleyinizə müdaxilə edəcəklər. İslamın bilgi xəzinəsi bu sözlərlə doludur. Bir amil də imandır. İman başqa bir geniş mövzudur.

**İnqilab və ölkənin inkişafları**

Buna əsasən, elm üzərində təkid lazımdır. Qeyd etdikləri bu inkişaflar İslam inqilabından irəli gələn azadlıq və azadfikirlilik sayəsində yaranan çox mühüm inkişaflardır. Biz tağut dövründə, diktatura rejimində yaşasaydıq, şübhəsiz, bu, baş verməzdi. O zaman diktatura da vardı, asılılıq da. Bir zaman diktatura olur, amma inkişaf da olur; məsələn, zirvədə Napoleon kimi birisi durur. O, dövrünün diktatorudur, lakin Elmlər Akademiyasi təsis edir. Fransada Napoleonun 14-15 illik hakimiyyəti dövründə yaranan böyük elmi inkişaflar bəlkə də ondan sonrakı 70-80 ildə yaranmadı. Fransalılar hələ də bu inkişafla fəxr edirlər. Napoleon hər halda, ağıllı, işgüzar, dərrakəli adam idi və yanında düşüncəli insanlar vardı. Bir zaman isə diktatura olur, amma asılılıqla və köləliklə birgə. Bu bizim uzun illər düçar olduğumuz vəziyyət idi; Pəhləvilər dövründə bir cür, Qacarlar dövründə başqa cür. Qacarlar dövründə də biz başqa cür asılı idik. İndiki inkişaf İslam inqilabının səmərəsidir. Əgər biz bu inkişafın davam etməsini istəyiriksə, çox çalışmalıyıq. Universitet bu sahədə əsas rola malikdir.

**Tehran universiteti**

Xüsusən Tehran universiteti barədə bunu deməyim pis olmaz. Mən universitet mənsubu deyiləm, lakin universitet və tələbə ilə qədimdən əlaqəm olmuşdur. Mən bəzən hansısa bir işə görə Tehran universitetinə gedəndə doğma bir mühitə daxil olduğumu hiss edirdim. Baxmayaraq ki, mühit ozamankı görkəm baxımından bizim geyimimizlə, əmmaməmizlə əsla uyğun gəlmirdi, lakin insan özünü doğma bir mühitdə hiss edirdi. Bizim kimi digər dostlar da belə hiss edirdilər. Bəlkə də bu səbəb oldu ki, imamı qarşılamağa məsuliyyətli şəxslər onun gəlişinin təxirə düşməsindən sonra piket üçün Tehran universitetini seçdilər. Bu, sırf bir təsadüf deyildi, universitetlə, xüsusən də bu universitetlə mənəvi bir əlaqəni göstərirdi.

Mən unutmuram, o zaman mərhum Behişti ilə ikimiz universitetin şərq qapısından daxil olduq, indi də Allahın lütfü ilə sağ olan əziz dostlardan və möhtərəm alimlərdən biri öncə oraya getdi, razılaşdı və universitetin şərq qapısını açdılar; çünki əsas qapı olan cənub qapısını bizə açmırdılar. Biz oradan universitetə daxil olduq, onun məscidinə getdik. Mən məscidin arxasındakı otağa daxil oldum. Orada kiçik bir otaq var idi; bilmirəm indi də var, yoxsa yox. Orada yerləşdik və ilk gündən piket bülleteninin nəşrinə başladıq. Onun bir neçə sayı ilk gündən orada nəşr olundu. Bu ünsiyyət və əlaqələrin zehniyyətlərdə, keçmişlərdə kökü var. Yəni həm bizim

universitetə qarşı nikbin və müsbət baxışımız vardı, həm də universitet bizə doğma idi. Sonra da güman ki, eyni dəlilə görə Tehran universiteti cümə namazının yeri seçildi. Tehranda ayrı cür də etmək olardı, amma Tehran universitetinin çəməni cümə namazının qılındığı yer oldu. İndi də cümə günlərində səmimi xalqın sığınacaq və müraciət yeri Tehran universitetidir. Bu, çox mühüm məsələdir.

İnqilabın birinci və ikinci illərində mən həftədə bir dəfə Tehran universitetinə gedib tələbələrlə görüşür, söhbət edirdim. Universitetin məscidindəki müntəzəm fəaliyyətim, zənnimcə, bir ildən çox sürdü. Tehran universitetinə gedib məsciddə tələbələrlə söhbətləşir, suallara cavab verirdik. Allaha şükür olsun ki, Tehran universiteti elmi baxımdan mərkəz və öncül olduğu kimi, din, mənəviyyat və inanc baxımından da diqqətəlayiq bir mərkəzdir. Bunun qədrini bilmək lazımdır.

**Ehtiyac və inkişaflar**

İxtiradan söhbət düşdü. İndi bir qədər ixtira olunmuş və yeni işlər görülmüşdür. İnkişafları mən bəlkə də daha yaxşı bilirəm. Çünki müxtəlif yerlərdən bizə çoxlu məlumatlar çatır. Amma mən həqiqətən, razı deyiləm və elmin bu qədər inkişafı qaneedici deyil. Bu sözü yalnız belə məclislərdə demək olar. "Bu qədər inkişafla razı deyilik" sözünün mənası o deyil ki, biz bacarırdıq, amma etmədik. Xeyr, heç kəs təqsirkar olmaya da bilər; ola bilsin, bundan artığı imkansız imiş. Lakin hər halda, qaneedici deyil. Bizim hələ çatmalı olduğumuz yerlə məsafəmiz çoxdur. Mən artıq şey gözləmirəm. Mən demirəm ki, mütləq on ilə, yaxud iyirmi ilə dünya elminin ilk sıralarına çataq. Lakin bizim məqsədimiz bu olmalıdır, ölkə isə elmi əsarətdən tam şəkildə əlli il ərzində də çıxa bilər. Elm istehsalının mənası budur. Elmin istehsalı digər istehsallar kimi deyil. Onun üçün çoxlu hazırlıq görülməlidir. Lakin hər halda, elmi genişləndirib inkişaf etdirməli, onun dərinliyinə çatmalı və yeni elmlər əldə etməliyik. Bəşər üçün mümkün elmlər yalnız bu gün əldə edilənlər deyil. Şübhəsiz, elə elmlər var ki, bəşər sonralar onları kəşf edəcək; necə ki, çoxlu elmlər yüz il öncəyə qədər yox idi. Yüz il öncəyə qədər burada danışılan humanitar elmlərin çoxundan əsər-əlamət yox idi. Nə elm vardı, nə o sahələrdə elmi tədqiqat vardı; sonradan yarandı. İnsanın inkişaf qabiliyyəti, eləcə də dünyanın tanınma qabiliyyəti olduqca çoxdur. Biz elə yerə çatmalıyıq ki, bu sahələrdə mümkün qədər irəliləyək, anlayaq və əlbəttə ki, elmi insan səadətinə vasitə edək. Dinin – yəni İslamın elmə baxışı ilə maddi dünyanın elmə baxışının fərqi bundadır. Biz elmi bəşərin səadəti, inkişafı, çiçəklənməsi, ədalətin və digər qədim arzuların bərqərar olunması üçün istəyirik.

**İslam və ədalət**

Dəfələrlə demişik ki, ədalət bəşərin qədimdən arzusu olmuşdur. Ən qədim dövrlərdən insanlar ədalətsizlikdən əziyyət çəkmişlər. Bu gün dünyada ədalətsizlik var: modern ədalətsizlik, silahlı ədalətsizlik, etirazın mümkün olmadığı ədalətsizlik! Bu gün dünyada elə ədalətsizliklər var ki, heç kim bunlara etiraz edə bilmir. Etiraz edən kimi elmi vasitələrlə, elmi imkanlarla, bu gün günbəgün inkişafda olan

informasiya texnologiyaları ilə hər bir etiraz səsini boğurlar. Siz görün bu gün İslam Respublikasına qarşı nə etməkdədirlər! Məgər İslam Respublikası nə deyir?! Məgər nə istəyir?! İslam Respublikası əleyhinə bu qədər təbliğat, maneə və təxribat nə üçündür? İslam Respublikası nə ölkə zəbt etmək fikrindədir, nə xalqlara zərər yetirmək. O, insanın mənəvi səadətinə iddialıdır, bəşəriyyətə sözü var. Bunu bilirlər. Məhz buna görə bu qədər təzyiq göstərir və çətinlik yaradırlar. Bu gün belə bir ədalətsizlik mövcuddur. Elm bu ədalətsizliklə vuruşmalıdır. Bu gün elm bu ədalətsizliyin xidmətində durur. Bu gün elm ən zalım insan və cəmiyyətlərin xidmətində durur. Buna son qoymaq lazımdır. İslamın elmə baxışı şərafətli, təmiz, hər bir nəfsi istəkdən uzaq mənəvi baxışdır. Biz elmi bunun üçün istəyirik və bunun üçün çalışmalıyıq.

**Mədəniyyət və universitet**

Məncə, mühüm olan bir məqam budur ki, universitet daxilində mədəniyyət məsələsinə çox diqqət yetirmək, çox əhəmiyyətli yanaşmaq lazımdır. Düzdür, universitetin əsas missiyası elmdir; buna şübhə yoxdur. Lakin qeyd etdiyimiz baxış tələbədə əvvəldən yaranmalıdır və bu, mümkündür.

İndi cənabların biri buyurdu ki, bütün xalqda həmrəylik yaranmalıdır. Bəli, bu ideal bir şeydir, amma asan deyil. Onun üçün hazırlıq işləri lazımdır. Bizim qeyd etdiyimiz iş – yəni əvvəldən tələbənin mədəni tərbiyəsi isə mümkün bir işdir. Universitetlərin əsaslı idarəçilikləri bu məqsədi proqramla təmin edə bilərlər. Bu məqsəd dərs vəsaitində, müəllim seçimində, tələbə üçün hazırlanan müxtəlif proqramlarda təmin oluna bilər. Lakin bu, çox zərif işdir.

**Elm öyrənmək mədəniyyəti**

Mədəniyyət məsələsinə tədbirlə yanaşmaq lazımdır. Elm öyrənməyin özü bir mədəniyyətdir. Əgər biz universitetdə bir mədəni məsələyə diqqət yetirsək, o zaman həm bizim tələbəmiz elmə həvəslənər, yalnız diplomun yox, elm və tədqiqat ardınca gedər, həm də müəllimimiz sinifdə necə gəldi dərsini demək halından çıxar. Universitetlərin özündən bizə məlumat verirlər ki, bəzi müəllimlər dərsləri başlarından edirlər. Halbuki müəllimdə elmə eşq və həvəs, tələbə yetişdirməyə maraq olmalıdır.

**Müəllimin tələbə ilə əlaqəsi**

Müəllim ata və qardaş kim rəftar etməli, öz tələbəsini buraxmamalıdır. Bu vəziyyət xoşbəxtlikdən, indi bizim elm hövzələrimizdə var. Bizim elm hövzələrimizin ənənələrindən biri budur; müəllim şagirdin soruşması, tədqiqat aparması və kömək istəməsinə tam hazırdır. Bəzi müəllimlər dərs yerindən çıxanda tələbələr onlarla birgə evlərinə qədər gedirlər, orada da oturub soruşurlar, mübahisə edirlər, bir saat, yaxud saatlarla vaxtı buna sərf edirlər. Bu, yaxşı haldır. Bunun bir mədəniyyət kimi formalaşdırılmasına ehtiyac var. Bu, bir mədəni işdir və əmrlə baş tutmur.

**Müəllimin uğurları**

Siz bilirsiniz ki, mən ildə bir neçə dəfə universitet mənsubları və möhtərəm müəllimlərlə görüşürəm. Müəllimin öz otağında gözləməsini və tələbənin dərsdən sonra ona müraciət etməsini, ondan soruşmasını dəfələrlə demişəm. Bəzən universitet mənsublarının özləri bunu demiş və təkrar etmişlər. Hökumət də dörd-beş il öncə bu barədə bəzi qərarlar qəbul etdi. Siz də, mən də bilirik ki, o qərarlara düzgün əməl olunmur. İşin qüsuru həmin mədəni problemdədir. Yaxud bəzi cənablar çıxışlarında işarə vurdular ki, tədqiqatçılarımızda tədqiqat həvəsi var. Bu, çox mühüm haldır. Bəşərin ən böyük ixtiraları tədqiqatçının araşdırması, diqqəti və fədakarlığı ilə əldə olunan ixtiralardır, sifarişlə və pulla olunanlar yox. Bəzən o tədqiqatçı çox çətin şəraitə düşmüş, uzun illər vaxt sərf etmiş və nəhayət, nəticə əldə etmişdir. Əlbəttə, nəticə əldə edəndən sonra məşhurlaşmış, pul da qazanmışdır. Lakin əsas amil tədqiqata, araşdırmaya həvəs, maraq və meyl olmuşdur. Bu, lazımlı mədəniyyətdir. Bu mədəniyyəti formalaşdırmaq lazımdır.

**Universitetin milli xislətlərə dair vəzifələri**

Bilirsiniz ki, xalqların milli xislətləri var. Bəzi xalqların ümumi xisləti, bəzi xalqların tarixə, coğrafiyaya və iqlimə aid və müxtəlif amillərlə bağlı xislətləri var. Biz xalqımızda tədqiqat və araşdırmaya həvəs, meyl, yorulmazlıq və fəallıq yaratmalıyıq. Bu ruhiyyə azdır, yoxdur. Burada deyilən kollektiv iş də belədir. Kollektiv iş bizim milli xislətlərimizdən deyil. Siz bizim idmanlarımızı avropalıların idmanları ilə müqayisə etsəniz, görərsiniz ki, belədir. Bizim milli idmanımız fərdi idman növü olan güləşdir. Hətta qədim kollektiv idmanımızda da hər kəs özü üçün məşq edir. Bilirsiniz ki, zorxana dairəsinə gedəndə kollektiv iş görülmür; bir yerdə bəzi hərəkətlər edirlər və hər kəs öz idmanını edir. Futbol, yaxud voleybol kimi deyil ki, birinin işi o birinin işini təkmil etsin. Bu, bizim milli nöqsanımızdır. Bunu düzəltmək lazımdır. Bu da universitetin işidir. Bu baxımdan, universitet elmdən əlavə mədəniyyət məsələsini də bilməlidir.

**Gənclərin potensialları**

Biz tələbəni dözümlü, qane, işə, tədqiqata meylli, kollektiv işə həvəskar, bağışlayan, ağlını hissiyyata qalib edən, insaflı, zamanını tanıyan və işçi vicdanına sahib də yetişdirə bilərik, onda bu xüsusiyyətlərin əksini də yarada bilərik. Universitetin ixtiyarına keçən bu 18-19 yaşlı gənc həqiqətən, bu tərbiyəyə qabiliyyətlidir. Xüsusən bakalavr pilləsində bu məsələ üzərində həqiqətən, düşünmək və buna proqram hazırlamaq olar. Siz bu əxlaqi xüsusiyyətlərə malik bir nəsil yarada bilərsiniz. Bunun üçün də proqram hazırlamaq lazımdır. Bu da elanla, əmrlə və bu kimi məsələlərlə düzəlmir.

**Dini iş**

Mədəni işin mühüm bir hissəsi də dini işdir; dinlə, ibadətlə ünsiyyət yaratmaq, ibadətin ləzzətini daddırmaq. Pəhləvi dövrünün pisliklərindən biri budur ki, o

zamandan aparıcı təbəqələri dini məsələlərdən - Qurandan, Səhifeyi-Səccadiyyədən, Nəhcül-bəlağədən uzaqlaşdırdılar. Eyni vəziyyət inqilabdan sonra da təxminən davam etdi. İnqilabdan otuz il - yəni bir nəsil ötmüşdür və çoxlu işlər görmək olardı. Biz isə eyni prosesi davam etdirmişik.

**Quran və dualarla ünsiyyətin dini inanca təsiri**

Əziz dostlar! Mən sizə deyirəm: Quranla ünsiyyət, Quranda təfəkkür, həmçinin Səhifeyi-Səccadiyyə və bir çox dualar kimi etibarlı dualar üzərində düşünmək dini inancın dərinləşməsində böyük rola malikdir. Dini inancı dərinləşdirmək çox mühüm məsələdir. Bir zaman bir şəxsin hissiyyat üzündən camaat namazında, etikafda, İmam Hüseyn (ə) əzadarlığında, hansısa dini tədbirdə iştirak etməsi, lakin bu inancın onun ruhuna hopmaması mümkündür. Odur ki, bir döngədə, bir çuxurda bir də görürsünüz ki, yerindən çıxır. Bu ondan ötrüdür. Biz bunun oxşarlarını çox görmüşük. İnqilabın əvvəllərində inqilabçılar arasında elələri vardı ki, saqqalı və əmmaməsi olan bizlərdən daha dindar, daha ehtiyatlı, daha sədaqətli və dinə qarşı daha təəssüblü nəzərə çarpırdılar. Sonra birdən qeyd etdiyim kimi bir çuxur qarşıya çıxdı, bir də gördük ki, şini yerindən çıxdı; bəlli oldu ki, rəzəsi möhkəm olmayıb. Buna əsasən, dini inancın dərinliyi çox əhəmiyyətli məsələdir. İslam bilgiləri ilə ünsiyyət çox mühüm məsələdir. Bu da təbliğat işində vacib amildir. Bunlarla kimsə məşğul olmalıdır. Məşğul olanlar da sizsiniz, başqa heç kəs deyil. Yəni tədqiqat qruplarının siz müdirləri, rəisləri bu işi yerinə yetirməlisiniz. Bunun üçün oturub fikirləşməlisiniz. Bunlar çox mühüm məsələlərdir.

**Universitetdə siyasi iş**

Başqa bir məsələ də universitetlərdə siyasi iş məsələsidir. Bilirsiniz ki, mən qədimdən universitetdə siyasi ruhun dirçəlməsinin tərəfdarı olmuşam. Bu, gəncə həvəs verir. Bizə həvəskar gənc lazımdır. Siyasətdən uzaq olan, tamamilə kənarda qalan bir universitet həvəssiz və bundan əlavə, təhlükəli düşüncə və rəftar mikroblarının inkişafı üçün münbit yer olar. Bu baxımdan, universitetdə siyasətin olması yaxşı və vacib məsələdir. Lakin universitetin siyasi olmasının, yaxud universitetdə siyasətin olmasının mənası səhv anlaşılmamalıdır. Mənası bu deyil ki, universitet siyasi cərəyanların, siyasi qurum və ünsürlərin siyasi məqsədləri üçün mərkəz olsun. Belə olmamalıdır. Buna mane olmaq lazımdır. Yəni bu artıq elə bir şeydir ki, idarəçilik və sizin güc işlətməyiniz lazımdır. Belə olmasına qoymayın. Əgər belə olsa, tələbə əlinizdən çıxar və bir sui-istifadəçi gəlib öz işini görər. Buna çoxlu misallar göstərmək olar, ancaq daha bundan artıq açıqlamaq istəmirəm. Məsələn, gəlib insanın gənc uşağını evdən oğurluq işinə qoşsunlar, o da oturub eləcə tamaşa etsin?! Belə olmaz. Bunun üçün də xüsusən Tehran universitetində proqram olmalıdır.

**Bizim sayıqlığımız və düşmənin sayıqlığı**

Bəzi adamlar “düşmən” sözü üzərində həssasdırlar ki, siz nə üçün deyirsiniz “düşmən”?! Nə üçün bunu çox təkrarlayırsınız?! Biz bu qədər təkrarlayarkən bəziləri unudur və düşmənin onlarla nə iş gördüyünü anlamırlar. Bu qədər deyirik də olmur, deməsəydik, nə olardı?! Siz görün Quranın əvvəlindən axırına qədər Allah-Taala nə qədər şeytanın, şeytansifətlərin, İblisin, Fironun, Nəmrudun, Qarunun və İslam dövründəki Peyğəmbər düşmənlərinin adlarını çəkmişdir, bunlar Quranda nə qədər təkrar olunmuşdur! İblisin və şeytanın əhvalatı Quranda dəfələrlə təkrar olunmuşdur. Allah-Taala bunu bir dəfə deyə bilərdi və məlumat üçün yetərdi. Bu ondan ötrüdür ki, heç zaman düşmənin hiyləsini unutmaq olmaz. Əmirəlmöminin buyurmuşdur ki, əgər siz səngərdə yatmısınızsa, bu, qarşınızda olan düşmənin də yatması anlamına gəlmir.[44] Xeyr, ola bilsin, sizi yuxu aparıb, o isə oyaqdır, evinizi yıxar; yaddan çıxarmamalısınız, amma görürsünüz ki, yaddan çıxır.

Allah sizlərə uğur versin, yardım etsin! Həm siz öhdənizə düşən işləri görə biləsiniz, həm biz! Allahın yardımı ilə hər bir iş mümkündür; möhkəm iradə və əzmkarlıqla hər şey mümükündür. Xoşbəxtlikdən, bu illərdə bunların hamısını müxtəlif sahələrdə təcrübə etmisiniz; həm siyasi, həm elmi, həm də digər sahələrdə bunları imtahan etdik. Harada möhkəm iradə işlətdiksə, Allaha etimad etdiksə, Allah-Taala yolları bizim üzümüzə açdı. Ümidvarıq inşallah, bu şəfəq ongünlüyü sizə və İran xalqına mübarək olsun, Allah imamın və şəhidlərin pak ruhlarını övliyarları ilə birgə və dövrün imamının müqəddəs qəlbini bizdən razı etsin!

Allahın salamı və rəhməti olsun sizə!

---

[1] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışı: 2 may 2008.
[2] "İsra"/39.
[3] Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışı: 4 may 2008.
[4] Fars vilayətinin yüzlərlə elm xadimi və ziyalıları ilə görüşdə çıxışı: 7 may 2008.
[5] Universitetlərin gənc elmi nümunələri ilə görüşdə çıxışı: 27 avqust 2008.
[6] Mübarək ramazan ayının 15-də şairlərlə görüşdə çıxışı: 17 sentyabr 2008.
[7] Elmi nümunələr və universitet müəllimləri ilə görüşdə çıxışı: 25 sentyabr 2008.
[8] Elmi nümunələr və universitet tələbələri ilə görüşdə çıxışı: 29 sentyabr 2008.
[9] İmam Əli (ə) adına Hərbi universitetdə çıxışı: 20 oktyabr 2008.
[10] 13 Aban hadisəsinin ildönümü ərəfəsində şagirdlərlə və müxtəlif tələbə birlikləri ilə görüşdə çıxışı: 30 oktyabr 2008.
[11] Ümumrespublika Namaz Konfransının on yeddinci iclasının iştirakçıları ilə görüşdə çıxışı: 20 noyabr 2008.
[12] Həcc/41.
[13] Sənai Qəznəvi.
[14] Ənkəbut/45.
[15] "İləl əş-şərai", c. 2, səh: 356.
[16] Nisa/142.
[17] Nisa/162.
[18] Elm və sənaye universtetinin müəllim-tələbə kollektivi ilə görüşdə çıxışı: 15 dekabr 2008.
[19] İmam Hüseyn (ə) universitetinin məzuniyyət mərasimində çıxışı: 15 aprel 2009.
[20] Səff/8.
[21] Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdə çıxışı: 17 may 2009.
[22] Əraf/32.

[23] Tələbələr və elmi nümunələrlə görüşdə çıxışı: 26 avqust 2009.
[24] Universitet müəllimləri ilə görüşdə çıxışı: 30 avqust 2009.
[25] Şairlərlə görüşdə çıxışı: 5 sentyabr 2009.
[26] Əhzab/39.
[27] Fəth/7.
[28] Yenə orada.
[29] Müqəddəs müdafiəyə dair incəsənət fəalları ilə görüşdə çıxışı: 15 sentyabr 2009.
[30] Noşəhr şəhərinin Dənizçilik institutunda çıxışı: 6 oktyabr 2009.
[31] Qadınlardan ibarət Quran tədqiqatçıları ilə görüşdə çıxışı: 20 oktyabr 2009.
[32] Təhrim/11.
[33] Təhrim/12.
[34] Təhrim/10.
[35] "Fəzail əl-xəmsə", c. 1, səh: 117.
[36] Bəqərə/26.
[37] Tövbə/125.
[38] Ölkənin elmi nümunələri ilə görüşdə çıxışı: 28 oktyabr 2009.
[39] Zümər/17-18.
[40] 13 Aban ərəfəsində şagirdlərlə görüşdə çıxışı: 3 noyabr 2009.
[41] Həcc/40.
[42] Təhsil naziri və Tehran universitetinin müəllimləri ilə görüşdə çıxışı: 2 fevral 2009.
[43] "Şərh Nəhcül-bəlağə", c. 20, səh: 319.
[44] Nəhcül-bəlağə, məktub: 62.